RAFAİL ƏHMƏDLİ

## AZƏRBAYCAN MİLLİ-DEMOKRATİK DÖVLƏTÇİLİK MƏFKURƏSİ

# TÜRKÇÜLÜK MÜASİRLİK İSLAMÇILIQ

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Bakı - «Elm» - 2007

Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur
*(protokol №3, 07.03.2007)*

**Elmi redaktoru:** **Qəmər Mürşüdlü,** *fəlsəfə elmləri namizədi, dosent*

**Rəyçilər:** **Əbülhəsən Abbasov,** *fəlsəfə elmləri doktoru, prof.*
**Doç.Dr.Fethi Gedikli,** *Türkiyə Cümhuriyyəti Bakı BöyükElçiliyi Mədəniyyət və Tanıtım müşaviri*
**Müstəqil Ağayev,** *Fəlsəfə elmləri namizədi.*

**Rafail Ayvaz oğlu Əhmədli.**
Azərbaycan milli-demokratik dövlətçilik məfkurəsi:
türkçülük, müasirlik, islamçılıq.
«Elm» nəşriyyatı, Bakı, 2007, - 280 səh.

**İSBN № 5-8066-1764-5**

Monoqrafiyada Türkiyə və Azərbaycanda meydana gəlib inkişaf etmiş təfəkkür cərəyanları arasında türkçülük, müasirlik, islamçılıq ideoloji sisteminin mahiyyəti ətrafında mübarizənin siyasi-fəlsəfi məqamları tədqiq edilmişdir. Bu ideyanın yaradıcıları, daşıyıcıları və həyata keçirənləri haqqında müfəssəl məlumat verilir. O dövrdə Türkiyə və Azərbaycandakı fikir cərəyanları, onların tərəfdarları arasındakı ideoloji, siyasi ixtilaflar fəlsəfi yöndən şərh edilir. Tədqiqatda sübut edilməyə çalışılmışdır ki, bu üç sütunlu sistem arasında heç bir ziddiyyət yoxdur, əksinə onların hər üçü sistem təşkil edib bir-birini tamamlayır.

Kitab fəlsəfə, politologiya, tarix problemlərinin tədqiqi ilə məşğul olan mütəxəssislər və həmin məsələlərlə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

$\frac{0301030000}{655(07)-2007}$ **Qrifli nəşr**

© «Elm» nəşriyyatı, Bakı, 2007
© R.A.Əhmədli

**Bu kitabı mənalı ömürlərini türk millətinin yüksəlişinə, türkçülüyə həsr etmiş maarifçi türkçülərdən - M.F.Axundovun, H.Zərdabinin, İ.Qaspıralının, Əhməd Vəfik Paşanın, Süleyman Paşanın, İbrahim Şinasinin və siyasi türkçülüyün ilk yaradıcıları olan Tunalı Hilmi bəyin, Ənvər Paşanın, Tələt Paşanın, Akçuraoğlu Yusif bəyin, Hüseynzadə Əli bəyin, Ağaoğlu Əhməd bəyin, Rəsulzadə Məmməd Əminin, Ziya Göyalpın və eləcə də türk milli kimliyimlə qürur duymağımı kiçik yaşlarımdan mənə aşılayan babam Qasım Dosməmməd oğlunun əziz xatirələrinə ithaf edirəm.**

# *ÖN SÖZ*

Tədqiqata ilk dəfə küll halında cəlb edilən «Türkləşmək, İslamlaşmaq və Müasirləşmək» ideoloji sisteminin tarixi və mahiyyətinə həsr edilən bu monoqrafiya «Ön söz», üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Tarixi gerçəklikləri nəzərə alaraq biz «Müasirləşmək» prinsipini birinci, «İslamlaşmaq» prinsipini ikinci, «Türkləşmək» prinsipini isə üçüncü fəslə daxil etmişik. Çünki istər Osmanlı İmperatorluğu və istərsə də çar Rusiyasında olan müsəlmanlar arasında «Müasirləşmək», Əli bəy Hüseynzadənin dediyi kimi «Avropalaşmaq» ideyası hələ XVIII əsrin sonlarından «Nizami-Cədid» hərəkatı ilə XIX əsrin qırxıncı illərindən «Tənzimat»la, Azərbaycanda isə 60-70-ci illərdən davam etdirilmişsə, «İslamlaşmaq» ideyası Şeyx Cəmaləddin Əfqaninin öndərliyi ilə XIX əsrin 70-80-ci illərindən, «Türkləşmək» ideyası isə ən sonda, XX əsrin əvvəllərindən başlayaraq siyasi türkçülər tərəfindən gündəmə gətirilmişdir.

Birinci fəsildə «Müasirləşmək» anlayışının tarixi və mahiyyəti, bu ideyanın yaradıcıları, daşıyıcıları və həyata keçirənləri - Türkiyədə Sultan III Səlim, Sultan Mahmud, Sultan Əbdül Məcid, Əli Suavi Əfəndi, Mustafa Rəşid paşa, Midhət paşa, Əhməd Cövdət paşa, Ağah Əfəndi, İbrahim Şinasi, Namiq Kamal, Rüşdi paşa, Hüseyn Avni, Ənvər paşa, Tələt paşa, Camal paşa və ümumiyyətlə, bütün tənzimatçılar, ittihad və tərəqqiçilər, sərvəti-finunçular, materialistlər, pozitivistlər, naturalistlər, liberalistlər, nasionalistlər, Rusiya çarı I Pyotr, Azərbaycanda Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, İsmayıl bəy Qutqaşınlı, Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Əlimərdan bəy Topçubaşov, Sultan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Məmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə və bütün mollanəsrəddinçilər və onlarla Azərbaycan maarifçi ziyalılarının fəaliyyəti haqqında danışılmış və sonda belə bir ümumi nəticəyə gəlinmişdir ki, bu mütəfəkkirlər xalqı yeni mədəniyyətə, yeni maarifə, yeni elm və texnikaya yiyələnməyə səsləmiş və sonda «müasirləşmək» ideyasını dövlət ideologiyası səviyyəsinə qaldırmışlar.

Bu fəsildə həmçinin o dövrdəki Türkiyə və Azərbaycandakı fikir cərəyanları, onların tərəfdarları, onlar arasındakı ideoloji, siyasi ixtilaflar, fəlsəfi, siyasi-ideoloji yöndən şərh edilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları bu gün də başımız üstündə dalğalanan Azərbaycan dövlət bayrağındakı qırmızı rəngi məhz müasirlik rəmzi kimi qəbul etmişlər.

İkinci fəsil «İslamlaşmaq» ideyasının tarixi və mahiyyətinə həsr edilmişdir. Bu fəsildə dinin mahiyyəti, onun insanlıq tarixindəki rolu araşdırılmış, Osmanlı imperatorluğunda və çar Rusiyasında olan türk düşünürlərinin, maarifçilərinin, siyasi xadimlərinin İslam dinində reformalar aparılması istiqamətindəki fəaliyyətindən, onun fəlsəfi yöndən incələnməsi və müasirləşdirilməsi istiqamətindəki fəaliyyətindən bəhs edilmiş, ayrı-ayrı mütəfəkkirlərin, xüsusilə İslam dininin liberallaşması, müasirləşməsi və cəmiyyətə tətbiqi məsələsində xüsusi xidmətləri olmuş, bu ideologiyanın ən böyük nəzəriyyəçisi, böyük Azərbaycan mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin, doktor M.T.Zöhtabinin dediyi kimi, Şeyx Cəmaləddin Əsədabadinin (bəzən də Həmədani kimi göstərilmişdir -

R.Ə.), «Dildə, fikirdə, işdə birlik» ideyasının müəllifi, məşhur türkçü İsmayıl bəy Qaspıralının, Əhməd bəy Ağaoğlunun, Yusif Akçuranın, Əli bəy Hüseynzadənin, Ziya Göyalpın, Məmməd Əmin Rəsulzadənin bu yöndəki xidmətləri geniş şərh edilmişdir.

Bu fəsildə həmçinin «İslamlaşmaq»la «Muasirləşmə»nin heç bir ziddiyyət təşkil etmədiyindən, əksinə, bu iki mühüm məfkurənin bütün İslam aləmində bir-birini tamamladığından danışılmış, onun sonrakı liberal-demokratik cərəyanı təmsil edənlər və ittihad və tərəqqiçilər tərəfindən də qəbul edildiyi göstərilmiş və belə bir nəticəyə gəlinmişdir ki, Şeyx Cəmaləddin Əfqani tərəfindən irəli sürülən və Türk dünyasının ictimai-siyasi xadimləri tərəfindən ideoloji-fəlsəfi səviyyəyə qaldırılan «İslamlaşmaq» ideyası ilk dəfə olaraq rəsmi-ideoloji doktrina, dövlət siyasəti səviyyəsində əməl, iş proqramı kimi elan və qəbul olundu.

Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları Azərbaycan dövlət bayrağındakı yaşıl rəngi məhz İslamlaşmaq rəmzi kimi qəbul etmişlər.

Üçüncü fəsil «Türkçülüyün tarixi və mahiyyəti» adlanır. Bu fəsildə Azərbaycan Milli Demokratik Dövlətçilik məfkurəsinin əsas təməl prinsiplərindən olan «Türkçülük» ideyasının hansı tarixi zərurətdən doğduğu, kimlər tərəfindən gündəmə gətirildiyi, onun mahiyyətinin nədən ibarət olduğu, hansı dövrdə ideologiya səviyyəsinə yüksəldiyi və nədən siyasi xarakter aldığından bəhs edilmişdir. Həmin fəsildə bu ideologiyanın yaranmasında xüsusi xidmətləri olmuş dünya türkoloqlarının, tarixçilərinin, türk maarifçilərinin, yazıçı və şairlərinin, ayrı-ayrı siyasi xadimlərinin xidmətlərindən danışılmış, gələcək ideoloji-siyasi türkçülüyə zəmin yaradan



maarifçi türkçülər* olan Mirzə Fətəli Axundovun, Həsən bəy Zərdabinin və bütün «Əkinçi» əməkdaşlarının, İsmayıl bəy Qaspıralının, Əhməd Vəfiq paşanın, Süleyman paşanın, İbrahim Şinasinin, Ziya paşanın, Mustafa Cəlaləddin paşanın, Buxaralı Şeyx Süleyman Əfəndinin, Əhməd Midhət əfəndinin, Namiq Kamalın, Əhməd Cövdət paşanın, Şeyx Cəmaləddin Əfqaninin, Şəhabəddin Mərcaninin, Şəmsəddin Saminin, Nəcib Asimin, Vələd Çələbinin, Seyid Əzim Şirvaninin, Nəcəf bəy Vəzirovun, Əbdülhaq Hamidin, Əbdürrəhim bəy Haqverdiyevin, Əmrulla əfəndinin, Bursalı Tahir bəyin, Rauf Fuad bəyin, Müftüoğlu Əhməd Hikmət bəyin, Məhəmməd Hadinin, Hüseyn Cavidin, Abbas Səhhətin, Abdulla Şaiqin, Cəlil Məmmədquluzadə və bütün mollanəsrəddinçilərin, Mirzə Ələkbər Sabirin, Məmməd Əmin Yurdaqulun, Əhməd Cavadın, Üzeyir bəy Hacıbəyovun və s. xidmətləri qeyd edilmiş, siyasi türkçülüyün ilk yaradıcıları olan Tunalı Hilmi bəyin, Ənvər paşa və Tələt paşanın, Akçuraoğlu Yusif bəyin, Hüseynzadə Əli bəyin, Ağaoğlu Əhməd bəyin, Rəsulzadə Məmməd Əminin, xüsusilə, Ziya Göyalpın bu yöndəki xidmətləri geniş şərh edilmişdir.

Bu fəsildə irəli sürülən fikir və mülahizələr ümumiləşdirilərək belə bir nəticəyə gəlinmişdir ki, millətlər yalnız milli ideologiyaları, təfəkkür və xarakterləri ilə mədəniyyətə, texnologiyaya, elmə və sonda dövlətə yiyələnə bilər. Türk xalqlarının milli ideologiyasının əsası «Türkçülük»dür. «Türkçülük» türk millətinin milli mənafeyini özündə əks etdirən dünyagörüşdür. «Türkçülük» irqçilik deyil. «Türkçülük» türk millətini, türk vətənini, türk dövlətini sevmək, türk millətinin birlik və bərabərliyini qorumaq, türk

* Maarifçi və siyasi türkçülüyün mahiyyəti, yaradıcıları haqqında III fəsildə geniş izahat verilmişdir.

millətini yüksəltmək deməkdir. «Türkçülük» Türk millətinin şərəfli tarixinə, yaratdığı cahanşümul mədəniyyətə sahib çıxmaq, türk mədəniyyətini, türk dilini, türk əxlaqını qorumaq, yaşatmaq, onu inkişaf etdirmək deməkdir.

Bu ideologiya türklərə XX əsrdən başlayaraq yaşamaq haqqı qazandıran milli dövlətlər bəxş etdi.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları bu gün də Azərbaycan Respublikasının başı üzərində dalğalanan Azərbaycan Dövlət bayrağındakı mavi rəngi məhz «Türkçülük» rəmzi kimi qəbul etmişlər.

«Nəticə»də hər üç fəsildən çıxarılan ümumi nəticələr xülasə edilmişdir.

*Müəllif*



# I FƏSİL

## *MÜASİRLİK: TARİXİ, MAHİYYƏTİ*

Milliyyətçilik - mənsub olduğu toplumun fərdlərinin şüurlarında milli birlik və bərabərlik dəyərlərinin hakim olmasına, milləti başqa xalqlardan fərqləndirən dil, adət-ənənə və s. kimi milli dəyərlərin qorunmasına inanmaqdır.

Müasirlik isə bu gün keçərli olan dəyərlərin mənimsənilməsi, bugünkü mədəni yaşayış tərzinə uyğunlaşma, müasir elm və texnologiyaya yiyələnmə və bütün bunlara yaradıcı şəkildə qatılmaqdır.

Bu iki anlayış arasında bəzilərinin sandığı kimi ziddiyyət və çarpışma yox, əslində bir-birini tamamlama vardır. Milliyyətçilik millətin kökü, müasirlik isə onun qol-qanadıdır. Kökü olmayan bir şeyin qol-qanadı da olmaz, olsa da o qanadlana bilmədiyi üçün tez quruyub məhv olar. Bu anlamda millətçilik kökdən – keçmişdən qüvvət alır, müasirlik isə indidən və hər ikisi vəhdətdə gələcəyə doğru birgə addımlayır. Varlığını qoruyub saxlamaq istəyən hər bir millətin keçmişini qoruyub gələcəyə getməsi üçün bunların hər ikisinin olması zəruridir. Çünki müasirləşməyən millət zamandan geri qalar, azad, müstəqil yaşamaq və rifaha çatmaq imkanını itirər. Millətçiliyi olmayan bir millət də özünə inamı itirər, gücdən düşər. Bugünkü mədəni millətlərin hamısı özlərinə xas xüsusiyyətləri qoruyaraq müasirləşmişlər.

Böyük Türk Xaqanlığının çöküşü ilə qədim Türklər Çin mədəniyyətinin təsiri ilə müəyyən müddət Çinin əsarətinə düşdülər. Daha sonra Orta Asiya türkləri Çin mədə-

niyyətinin təsirindən qurtulub farsların təsirinə düşdülər. Hətta Səlcuq imperatorluğunun rəsmi dili fars dili oldu. Yalnız Səlcuq imperatorluğunun xarabalıqları üzərində qurulan Osmanlı Türk dövlətinin ilk çağlarında Anadolu türk milli mədəniyyəti fars mədəniyyəti ilə çarpışmağa və sonra qələbə çalmağa müvəffəq oldu və Osmanlı dövlətinin rəsmi dövlət dili türk dili oldu. Bu iş «Tənzimat» dövrünə qədər davam etdi. Lakin «Tənzimat»dan sonra Osmanlı mədəniyyəti Avropa mədəniyyətinin təsiri altına düşdü. Bu dövrdə yeni bir Osmanlı ədəbiyyatı, musiqisi, memarlığı, hüquq və hətta əxlaq anlayışı yarandı. Qədim və orta əsr türk zövqünü indi Avropa və xüsusilə fransız zövqü əvəz etdi. Doğrudur, Avropa mədəniyyətinin bir çox məsələlərdə faydalı təsiri oldu. Bu, özünü daha çox fəlsəfədə, ədəbiyyatda və yeni düşüncə tərzində göstərdi.

Əslində hər bir millətin əxlaqı, fəlsəfi və bədii zövqü özünə məxsusdur. Bunlar əsla xaricdən alına bilməz. Duyğular, həyəcanlar və bədii zövqlər milli mədəniyyətin tərkib hissəsi olduğu üçün onlar tamamilə millidir və xaricdən alına bilməz. Lakin milli şeir, roman, hekayə, musiqi və s. bu kimi şeylər Avropa tərzində yaradıla bilər və yaradıldı da.

Hüquq, iqtisadiyyat və texnologiya sahəsində Avropadan çox şey öyrənildi və indi də öyrənilməkdədir. Lakin ruh tamamilə xalqa, onun həyat tərzinə uyğun və milli olmalıdır. Hər hansı bir milli mədəniyyət öz xalqını təmsil edə bilməzsə, o mədəniyyət pozular və sonda yox olub gedər. Özü yox olmaqla da təmsil etdiyi xalqı da tarixə mal edər. Tədqiqatçılar belə bir düzgün qərara gəlmişlər ki: «Milli mədəniyyətin (Z.Göyalp buna hars da deyir – R.Ə.) ümumi mədəniyyəti təmsil edə bilməsi nə



qədər gözəldirsə, ümumi mədəniyyətin milli mədəniyyəti (harsı – R.Ə.) təmsil etməsi bir o qədər pisdir» (26, 60-61).

Çox təəssüflər olsun ki, biz türklər bu gerçəklikləri Avropadan çox sonra anladıq və anladığımız da yenə Avropa resepti ilə oldu. Belə ki, dovrünün ən müəzzəm imperatorluğu olan Osmanlı imperatorluğu 1299-cu ildən başlayaraq XVI əsrin sonunadək zaman-zaman yüksəlib zirvəyə qalxmasına baxmayaraq, yüz il müddətində öz enişini hiss etməmiş, yalnız 1699-cu ildə «Karlofca müqaviləsi» ilə ilk dəfə torpaq itirdiyini anlayınca çağdaşlaşmanın gerçəkliyini az da olsa dərk etməyə başlamışdır. Avropa qarşısında geri qaldığının fərqinə varan çox az sayda dövlət ziyalısı imperiyanın qurtuluşunu düşmənin dövrünə görə müasir silahlarını almaqda və hərb üsullarını orduda tətbiq etməkdə gördülər. 1718-ci ildə başlanan hərbi islahat da yetərli olmadığından müharibələrdə məğlubiyyət davam etmiş və «1774-cü ildə «Kiçik Qaynarca» sülh müqaviləsi ilə Osmanlı Türk ərazisi olan Krım rusların əlinə keçmişdir» (20, 29). Beləliklə də, öz geriliyini hiss edən Osmanlı dövləti Qərb üsul-idarəçiliyini mənimsəməyə qərar vermiş və 1792-ci ildən «Nizami-Cədid» hərəkatına başlamış, Misirdə də məğlubiyyətə uğrayınca, 1839-cu ildə «Tənzimat»la Qərb fikirlərinin ölkəyə daxil olmasına şərait yaratmışdır.

«XIII əsrdə Avropaya daxil olan Səlcuq xəstəxana modeli və İslam tibbi XVI əsrə qədər Qərbdə hakim mövqedə olmuş, İslam alimlərinin, xüsusilə İbn Sinanın əsərləri Avropa universitetlərində tədrisin əsasını təşkil etmişdi» (56, 266).

XVII əsrdən başlayaraq, Avropa inkişaf etməyə, Şərq, o cümlədən də Osmanlı imperatorluğu tənəzzülə

uğramağa başladı. Əsrlər boyu xristian Avropaya aşağı gözlə baxmağa alışmış bir cəmiyyət indi artıq övladlarını avropalılara təslim etmək kimi psixoloji baxımdan çox ağır bir vəziyyətə düşmüşdü.

Sultan III Səlimlə başlayan yeniləşmə hərəkatını Sultan Mahmud daha da inkişaf etdirərək, dağılmaq təhlükəsinə məruz qalan Osmanlı imperatorluğunu müəyyən müddətə olsa da qorumağa nail oldu. Onun ümidləri boşa çıxmadı. Sultan II Mahmud Osmanlı imperatorluğunda yenilik yolunu açmışdı. Onun yetişdirməyə başladığı yeni nəsil türk ziyalıları məmləkəti siyasi, hərbi, elmi və ədəbi sahələrdə yeni bir istiqamətə yönəltməyə çalışdılar. Bütün bunların nəticəsidir ki, Sultan Mahmud yeni Türkiyə tarixində yüksək bir mövqe qazanmışdır. O, girişdiyi yeniliklərlə məmləkəti qurtarmağa çalışarkən əcdadlarından miras aldığı milli və dini məfkurələrə də bağlı qalmış və beləliklə də, «elm və iman, ağıl və vicdan arasında ahəngli bir yol bulmuşdu» (56, 271).

Sultan II Mahmudun ən böyük xidməti onun dini dövlətdən ayrı tutması, mərkəziyyətçi dövlət nizamını təkrar qurması, «səltənətinin millət üçün bir qorxu deyil, bir dayaq olduğunu» (56, 272) sübut etməsidir. Lakin bu dövrdə Cövdət Paşanın da söylədiyi kimi: «İş başında iqtidar sahibi dövlət adamları yox idi. Ona görə də səthi təqlidçilik (Avropanı təqlid - R.Ə.) yolu ilə gedildi. Tələsik bir işlər görmək istəyi ilə binanın təməllərini (dövlətin təməlləri nəzərdə tutulur - R.Ə.) möhkəmlətmək əvəzinə onun süslənməsi (bəzək-düzək vurulması-R.Ə.) ilə uğraşıldı» (2, 273).



Sultan Mahmudun həyata keçirdiyi inqilabi dəyişikliklər inkişafa mane olan başlıca əngəlləri aradan qaldırdı, yolu açdı və türkləri Avropa mədəniyyətinə doğru yönəltdi. Bu hərəkatın müsbət və mənfi cəhətləri olsa da, türk tarixində yeni bir dönüş nöqtəsi oldu. Lakin bu açılan yol üzərində yürüməyə başlayan tənzimatçılar, məşrutiyyətçilər və daha sonra cümhuriyyətçilər bir tərəfdən ölkənin daxilindəki maddi və mənəvi şərtləri dərindən qavramadığı, digər tərəfdən də bu həyati məsələlərdə geniş və elmi proqrama əsaslanan bir fəlsəfi dünyagörüşdən məhrum olduqları üçün türk millətini səthi təqlidlərə doğru sürükləmiş, bir milləti bütünlüklə dəyişdirməyin lüzumsuzluğunu və ən başlıcası qeyri-mümkünlüyünü anlamayaraq, süni çətinliklər yaratmış, mənəvi böhranlara səbəb olmuş, avropalılar qarşısında milləti aşağılamaq duyğuları təlqin edərək millətlə dövlət arasında bir uçurum yaratmışdılar. Bu avropaçı inqilabçılar mədəniyyət məsələlərini, islamla xristian mədəniyyətləri arasındakı aşılmaz sədləri görə bilmədiklərindən Avropa elm və texnikasını mənimsəmək və mənimsətmək əvəzinə, Avropa düşüncə tərzlərini özlərinə xas bir şəkildə məmləkətdə həyata keçirməyə cəhd göstərirdilər. Bütün bunlar da ictimai qanunlara zidd olduğundan onları müvəffəqiyyətsizliyə uğradır və onların milli bünövrəni sarsıtmaq yoluna düşməsinə səbəb olurdu. Bu fikrin etiraz olunmayan bir dəlili də budur ki, bir çox inqilabların elm və əqli düşüncəyə dayanan bir təfəkkürə zidd olması və xüsusilə uzun müddətli mübarizələrinə baxmayaraq, hələ də yeniliklərin inkişafı və nəticələri haqqında ciddi bir elmi əsərin meydana gəlməməsidir. Halbuki cahanşümul bir mədəniyyət yaradan və öz məhvərindən ayrılaraq, üzünü

Qərbə tutmuş bir millətin və məmləkətin iki yüz illik mədəniyyət davası hələ də özünün tam bəhrəsini verməməkdədir. Çünki bu yeniləşmənin bünövrəsi sağlam qoyulmamış, elmi araşdırmalar da başlıca amillər üzərində deyil, süni təbliğatlar və təqlidlər üzərində qurulmuşdur.

Tədqiqatçılar Türkiyənin iki yüz illik mədəniyyət yeniləşməsində qarşılaşdığı çətinlikləri maddi və mənəvi olaraq iki əsasda toplamağa çalışmışlar. Birincisi budur ki, türklər XVIII əsrdən etibarən avropalıların elm, texnika və iqtisadi cəhətdən inkişaf etdiklərini görmüş və qəbul etmişlər. Lakin onlar əsrlər boyu yaşadıqları yüksək bir mədəniyyəti və qazandıqları böyük və əzəmətli qələbələri düşünür, elm və texnikanı çıxmaq şərti ilə islam mədəniyyətinin və milli yaşam tərzlərinin xristian mədəniyyəti və yaşam tərzindən daha üstün olduğuna inanırdılar. Bu səbəbdən də müvəqqəti məğlubiyyətlər bu qənaətlərini dəyişdirməyə və üstünlük duyğularını qırmağa qadir deyildi. Əslində bu duyğular yüksək bəşəri mədəniyyət yaradan hər bir xalqda belə olmuşdur və bu gün də belədir. Belə ki, qədim yunanlara, klassik islama və bugünkü Avropaya mənsub olan mütəfəkkirlər öz mədəniyyətlərini bəşər zəkasının əldə edə biləcəyi son mümkün mərhələ saymış və öz mədəniyyətlərinin sonunu da bir «Qiyamət» əlaməti sanmışlarsa, osmanlılar da onlar kimi mədəniyyət və dövlət sistemlərinin xaricində başqa bir həyat təsəvvür etməmişdilər. Ona görə də bəzi məhdud Avropa mədəniyyəti və texnika yeniliyini mənimsəməyi kafi bilmişlər. Bu hal orta əsrlərdə xristian Avropası üçün də xarakterik olmuşdur. Belə ki, doğuşundan bəri elm və mədəniyyətlə çulğalaşa bilməyən, hətta maddiyyatı və həyatı belə inkar edən xristianlıq orta əsr Qərbini cəhalət



və təəssübkeşlik içinə soxarkən, avropalılar maddi və mənəvi qüdrəti ilə parlayan və hərbi zəfərləri ilə də onları əzən İslam və Osmanlı mədəniyyətinə yaxınlaşmaqdan qorxmuş və öz cəmiyyət anlayışları içində qaranlıq bir həyata məhkum şəkildə yaşamışdılar.

Lakin bu təəssüb və cəhalətin doğurduğu «Səlib yürüşləri» bir neçə əsr ərzində milyonlarla insanın iztirab və ölümünə səbəb olsa da, minlərlə kütlə halında Şərqə gələn, islam mədəniyyəti və o mədəniyyətin qurucuları və yaradıcıları ilə bir neçə əsr təmasda olan avropalılar bu sayədə Şərqin elm, mədəniyyət və texnikasını öyrənərək, tədricən Aralıq dənizi və okeanların ticarətinə hakim olmuş, əldə olunan sərvətlərin köməyi ilə öz dövrlərinin mədəniyyətini yarada bilmişdilər.

Avropadan fərqli olaraq, türklər gəlincəyə qədər yüksək bir mədəniyyət yaradan və müsəlman dünyasına müqavimət göstərə bilən bizanslılar, qonşu kimi İslam mədəniyyətinə heyranlıq duyduqları halda, bu mədəniyyətin (İslam mədəniyyətinin – R.Ə) əxz edilməsində avropalıların etdiklərini etmədilər. İslam dünyasına müqavimət göstərə biləcək qüvvə və güclərinin olması buna mane olduğu kimi, türk dövründə də aşağılıq duyğularına tutulmaları və türklərə qarşı çıxmaq üçün fürsət tapa bilməmələri də bizanslıların tamamilə çökməsini sürətləndirmişdi. Bizanslılar əvvəlcə yabançı sülalələri necə mənimsəmişdilərsə, qüdrətli və ədalətli Sultan Mehmet Fatehi də eləcə öz imperatorları saymaqda fayda görmüş və bu zehniyyətlə də təsəlli tapmışdılar. Osmanlı sultanları isə Türk Xaqanı Sultan I Səlimlə başlayan «İslam Xəlifəsi» titulları ilə yanaşı «Rum Sultanı» adını daşımaqla da sadəcə coğrafi

və siyasi bir məfhum olduğunu düşünmüş, öz cahan hakimiyyətləri məfkurəsini doğrultmağa səy göstərmiş və bu məqsədlə də Romanı və bütün Avropanı da öz hakimiyyətləri altına almağa çalışmışlar. Xristianlığı qurtarmaq və bizanslılara kömək etmək üçün türklərə qarşı çıxan səlibçilər bizanslıları xain və hiyləgər, türkləri isə qəhrəman və insanlıq duyğularına sahib bir xalq kimi tanımış, öz ölkələrinə qayıtmışlar. Bunlarla bərabər, nə türklərin bu insani dəyərləri və nə də İslam mədəniyyətinin üstünlüyü avropalılarda bir aşağılıq duyğuları yaratmamış, əvəzində türklərin avropalılarla bərabər olması qənaətini doğurmuşdur. Hətta Osmanlıların Avropanı dənizlərdə və Vyanaya qədər quru sahələrdə mühasirədə saxladıqları dönəmlərdə belə, bizanslıların türklər qarşısında uğradıqları ruhi sarsıntı avropalılarda baş verməmişdir.

Bəzi Avropa xalqları və mütəfəkkirləri türklərin mədəniyyət, əxlaq və təfəkkür üstünlüklərinə heyranlıqlarını etiraf etsələr də, Osmanlı imperatorluğu getdikcə çökməyə, Avropa isə yüksəlməyə başlamışdı. Bu səbəbdən də türklərə qarşı olan bu heyranlıq duyğusu belə, avropalılarda bir aşağılıq duyğusu yarada bilməmişdi. Buna baxmayaraq, Avropanın ən əzəmətli və Osmanlı imperatorluğunun ən çöküş dövrlərində belə din dəyişdirmə hadisəsinin türklərdə deyil, avropalılar və deməli, xristianlar arasında baş verməsi türklərin sayəsində İslam dininin bir mənəvi üstünlüyünə dəlalət edən amillərdəndir.

Tarix inkişaf etmiş xalqların rəqib mədəniyyətlər qarşısında öz təfəkkür tərzlərini asanlıqla dəyişdirmədiklərini, əsrlərlə bir-biri ilə mübarizə şəraitində yaşayan,



üstünlük və zəiflik duyğularına malik olan xalqların və cəmiyyətlərin yalnız bir-birləri ilə sıx iqtisadi, ticarət və mədəni əlaqələr sayəsində bu cür psixoloji əngəllərdən qurtularaq, mədəniyyət nümunələri yarada bildiklərini göstərə bilmişdir. Məsələn, tarix göstərir ki, qədim yunanlar yüksək bir mədəniyyətə və müştərək bir yunançılıq şüuruna malik olduqları halda, Roma istilası qarşısında belə şəhər dövləti əsasına bağlı psixologiyalarının təsirindən qurtula bilməmiş və qapılarını döyən bir təhlükənin belə siyasi bir birlik yaratmasına imkan verməmişlər. Roma imperatorluğunun əzəmət və qürur duyğularına varis olan Bizans İmperatorluğu türklərə məğlub olduğu və bütün Anadolunu səlcuqlulara tərk etdiyi halda, qürurun qəribə bir təcəllisi olaraq uzun müddət bu əraziləri özlərinə aid bilmiş və bu ərazilərin yeni sahibi və sakini olan Türkləri izahı mümkün olmayan bir düşüncə ilə özlərinə tabe hesab etmişdir. Üstündən müəyyən bir müddət keçdikdən sonra, daha doğrusu, Qılınc Arslanın 1176-cı ildəki müəzzəm zəfəri ilə bizanslılar yalnız bu qürur və düşüncəni tərk etməmiş, həm də Türklərin maddi və mənəvi üstünlüklərinə elə inanmışlar ki, bu tərsinə psixoloji vəziyyət içində bir daha özlərini tapa bilməmiş, mədəniyyət, əxlaq və məfkurələrini tənzimləyə bilməmiş və bu ruh düşkünlüyü ilə də öz ölümlərini sürətləndirmişdilər.

Doğrudan da, tarix mədəniyyətlərin yaranma və inkişafında iqtisadi, ticarət və mədəni əlaqələrin mühüm rol oynadığını təsdiqləmişdir. Türklər Aralıq dənizinə hakim olduqları və okeanlar uğrunda mübarizə apardıqları zamanlarda belə, avropalılar «Səlib yürüşləri» əsnasında əllərinə keçirdikləri dənizçilik texnologiyası ilə yanaşı, dəniz ticarəti məsələlərini də qoruyub saxlamışdılar. Və bu-



Azərbaycan Respublikası Prezidentinin
İşlər idarəsi
PREZİDENT KİTABXANASI
5673

nunla da sonrakı Okeanlar mübarizəsində qalib gələrək dəniz yolları və yeni qitələrə hakim olmuş, beləliklə də, türklər vasitəsilə İslam mədəniyyətindən aldıqları elm və texnika sayəsində öz mədəniyyətlərini inkişaf etdirmişdilər. Osmanlı fikir və dövlət adamları bu «Ticarət inqilabı»nın onların əleyhinə yaradacağı siyasi və iqtisadi təhlükələri zamanında duymuş və bu yöndə bir sıra tədbirlər həyata keçirmişdilərsə də, bir tərəfdə, daha doğrusu, Avropada, getdikcə inkişaf etməkdə olan davamlı mədəniyyət yüksəlişi, bir tərəfdə, yəni Osmanlı imperatorluğunda davamlı geriləmə və nəhayət, türkləri taqətdən salaraq çökdürən dünya səviyyəli müharibələr tarixin məhvərini türklərin əleyhinə geri döndərmişdi. Səlcuqlar kimi Osmanlılar da yüksək bir iqtisadi və ticari siyasətə sahib olaraq, xarici ticarətin əhəmiyyətini anlamış, bu yöndə təşviqedici tədbirlərə əl atmış, avropalılara lazımi ticarət fərmanlarını qəbul etdirmiş və ya onlarla istədiyi formada ticarət müqavilələri bağlamışdılar. Avropalılar geriləmə dövrlərində bu müqavilələri öz xeyirlərinə dəyişmək istərkən, bunlar bir kapitulyasiya mahiyyəti almış və o dövrlərdə bir xəta sayılmışdı.

Bütün bunlara baxmayaraq, türklər Avropaya öz üstünlüklərini göstərərkən, avropalılar da getdikcə inkişaf edir və öz mədəniyyətlərini yüksək bir səviyyəyə qaldırmağa çalışırdılar. Avropalılar elm, fikir və texnikada bir sıra yeniliklər əldə edərək, nəhayət, sonda «Sənaye inqilabı»na nail oldular. Türklər isə maddi və mənəvi üstünlükləri, şanlı zəfərlərinə baxmayaraq, bu yeni mədəniyyətin bəzi texniki ixtiralarını asanlıqla əldə edərkən geriləmə dövrlərində duyulan psixoloji vəziyyətlər belə mövzu bəhsi olmamışdı. Ona görə də türklər Qərb dünyasını vaxtında



yaxından təqib edə bilməmiş, yeni fikir hərəkatları və kəşflərdən uzaqda qalmışdı ki, bütün bunlar da Avropa ilə əlaqələrin lazımi səviyyədə olmaması ilə bağlı idi.

Avropada «Sənaye inqilabı» olunca türk malları Avropa ilə rəqabət apara bilmədiyindən «Tənzimat» dövründən bağlanan sərbəst ticarət müqavilələri də kapitulyasonları daha da genişləndirərək, Türkiyəni açıq bazara çevirməklə, onu yarı müstəmləkə halına salmışdı. Beləliklə, türk milli sənayesi və iqtisadiyyatı getdikcə çökərək mədəni geriləməni sürətləndirmiş və milli bünövrəni sarsıtmışdı. Avropalılar Türkiyədə və mühüm İslam mərkəzlərində ticarət koloniyaları yaratdıqları halda, Avropada türk tacir və iş adamlarının olmaması iqtisadi və mədəni əlaqələrin inkişafına imkan vermədiyi kimi, müasir mədəniyyətin əsəri olan elm, sənaye və texniki kəşflərin izlənilməsi və təbii bir şəkildə Türkiyəyə nəql edilməsi yolları qapalı qalmışdı.

Türkiyədə müasir Avropa mədəniyyətinə yiyələnməyi əngəlləyən ən mühüm amillərdən biri də kapitalist istehsal münasibətlərinə dayanan kapitalın (sərmayənin-R.Ə.) təşəkkül tapmasına mane olan bir sıra səbəblərin mövcudluğu olmuşdur. Beləliklə də, Türkiyə kapitalist ölkəsinə uzun müddət çevrilə bilməmiş, həmçinin müasir sənayedən də əvvəl bir sərmayə mənbəyi olan torpaq aristokratiyasının Türkiyədə mövcud olmaması da xüsusi təşəbbüs sahibi olan sərmayədarların (kapitalistlərin- R.Ə.) və sənaye sahibkarlarının meydana çıxmasını əngəlləmişdir. Bütün bunlar da Avropa ilə Türkiyə arasında getdikcə qalınlaşan dəmir bir pərdə yaratmış, Türkiyə ilə Avropa arasında normal münasibətlərin yaranmasına imkan ver-

məmiş, ümumi bir çökməyə paralel olaraq, mövcud sənaye və ticarətlə məşğul olanlar yeni şərtlərə uya bilməyərək tədricən ortadan qalxmışdılar. Hətta ölkədə mövcud bəzi böyük yəhudi sərmayədarları da öz sərmayələrini də götürərək Avropadakı böyük iş mərkəzlərinə köçmüşdülər. Ona görə də Sultan III Səlim, Sultan Mahmud və digər sultanların milli sənaye və milli ticarəti qorumaq məqsədi ilə bəzi tədbirlərə əl atmaları, türk donanmasını yenidən canlandırmaq məqsədi ilə bir sıra ticarət şirkətləri yaradaraq dənizçiliyin inkişafına çalışmaları da əsaslı bir nəticə verməmiş, dövlətin dəstəkləmək istədiyi bu təşəbbüslər daimi müharibələr və maliyyə sıxıntıları üzündən müvəffəqiyyətsizliyə uğramış, açılan gömrük qapıları da milli təşəbbüslərə imkan verməmişdi. Beləliklə də, avropalılaşmaq və Avropa mədəniyyətinin təqlidi Yaponiya və Rusiyadan fərqli olaraq, Türkiyədə acı nəticələrə səbəb olmuşdur. Dünya nizam davasına və cahan hakimiyyəti məfkurəsinə inanan Osmanlı türkləri tərsinə bir gedişlə aşağılıq duyğularına və mənəvi böhranlara düçar edildilər.

İslam və Türk mədəniyyəti ilə təmaslardan sonra dəniz ticarətini türklərin əlindən alan avropalılar «Sənaye inqilabı» da edərək nəhayət, XIX əsrdə yeni bir sinfi – proletariatı tarix səhnəsinə çıxardılar. Avropada formalaşan kapitalist istehsal münasibətləri Avropanı daha sürətli inkişafa sövq etdirdi, əlində külli miqdarda maliyyə imkanları olan burjuaziya sinfi yaratdı. Mövcud hakimiyyətlərə qarşı dura biləcək siniflərin tarix səhnəsinə çıxışı Avropada inqilabları – istər elmi, istər fəlsəfi və istərsə də siyasi inqilabları aşağıdan formalaşdırdığı halda, Osmanlı imperatorluğunda bu kapitalist istehsal münasibətləri tam formalaşa bilmədiyindən burjuaziya və proletar sinfi də



meydana gələ bilməmiş və nəticədə geriləməkdə olan imperiyanı qorumaq məqsədi ilə inqilablar, Avropa mədəniyyətinin süni nəqli ilə Sultanlar və bir sıra dövlət adamları tərəfindən yuxarıdan edilməyə təşəbbüs göstərilmişdir. Mareşal Moltkenin söylədiyi kimi «Türkiyədə inqilaba quyruqdan başlanılmışdı» (47, 327).

Doğrudan da, Türkiyədə yenilik və inqilablar, yuxarıda da qeyd edildiyi kimi, iqtisadi və mədəni əlaqələrin təbii nəticəsi kimi deyil, yuxarıdan başlamışdı. Bu inqilabların yuxarıdan aşağıya istiqamətlənməsi uzun müddət dəyişməz qalmış türk cəmiyyətinin daxilindən deyil, sultanların istəyindən yarandığından xalqla səltənət arasında bir uçurum yaratmışdır. Atalar demişkən: «Qaş düzəldən yerdə vurub gözü də çıxarmışdır». Bütün tarix boyu xalqla səltənət arasında olan bağlılıq telləri qırılmış, xalq hətta öz sultanlarını «Gavur Sultan» deyə adlandırmaqdan belə çəkinməmişdir.

Türklərin Avropaya qarşı duyduqları üstünlük duyğuları onların bütünlüklə Avropa elm və texnologiyasına yiyələnməsinə mane olmuş, hətta vəzifələrinə görə heç vaxt intizamsızlıq göstərməyən türk zabitlərinin və əsgərlərinin bəziləri Avropadan gətirdilən və türk ordusunu yeniləşdirməyə çalışan əcnəbi zabitlərə hərbi məcburiyyət olmasına baxmayaraq salam belə verməmişdilər. Əksinə, məğlubiyyətlər artdıqca xristian dünyasına qarşı nifrətləri də güclənmişdi. Nifrət hətta o səviyyəyə yüksəlmişdi ki, avropalı alim və mütəxəssislərin türk müəssisələrinə cəlb edilərək, yeni nəsillərin yetişdirilməsinə kifayət qədər imkan verməmişdi. Əgər Rusiyada olduğu kimi Türkiyədə də yeni tipli Avropa

tədris müəssisələri qurulsa idi, tədricən Avropa elmi də gənc nəslə öyrədilərdi. Lakin Sultan Səlim, Sultan Mahmud və «Tənzimat» dövrlərində olduğu kimi hər iki Məşrutiyyət və hətta Cümhuriyyət dövrlərində belə bir elmi proqram mövcud olmamışdır. Əgər Sultan Mahmudun açdığı yol üzərində qurulan «Tənzimat» və ondan sonrakı inqilabların səthi təqlidlər əvəzinə, Avropa elmi-fəlsəfi düşüncəsinə və milli ehtiyaclara görə yeniliklərə yönəlsəydi, Avropaya heyran olaraq yetişən yeni nəsillər bu təqlid modasına qurban getməz, ölkənin şərtlərini və ehtiyaclarını anlamadan dərhal rejim dəyişikliyi mübarizəsinə qapılaraq qiyamçı olmaz və hətta İmperatorluğun müsəlman olmayan təbəələri ilə birləşərək böhranları artırmaz, imperatorluğun çöküşünü sürətləndirməzdilər. Bu gün bu sadalananları vaxtında duyan, hüquq, fəlsəfə, sosiologiya və mədəniyyətlər tarixini gözəl bilən «Tənzimat» dövrünün başlıca elm adamı sayılan Cövdət paşa türklərin yabançı qəliblərə uyğunlaşdırılan hüququn təzyiqi altında əziləcəyini və böyük təhlükələrə düçar olacaqlarını göstərərək, İslam və Xristian mədəniyyətləri arasında bir uzlaşma yolunu tutaraq İmperatorluğun milli ehtiyaclarına cavab verməyə çalışmışdır.

İstər «Tənzimat» və istərsə də hər iki «Məşrutiyyət»dən yararlananlar yalnız imperatorluğun xristian təbəələri olmuşdur. Çünki imperatorluğun dövlət adamları və ziyalıları Avropanın elmi və texnologiyası yerinə səthi təqlidə üstünlük vermiş, Avropanın hüquq sistemini kor-koranə imperatorluqda tətbiq etmişlər. Türklər rus istilaları qarşısında daddıqları acı məğlubiyyətlərin səbəbini düşünərək, Rusiya çarı I Pyotr kimi Avropanı təqlid yolunu tutmuş və belə düşünmüşlər ki, bu təqlidlə onlar da çar



Rusiyası kimi tezliklə inkişaf edəcək və əvvəlki nüfuzlarını özlərinə qaytaracaqlar. Lakin tarix göstərdi ki, «Tənzimat» və hər iki «Məşrutiyyət» elanları xristian Avropanın hüquqi və ictimai qanunlarını Osmanlı imperatorluğuna kor-koranə tətbiq etməklə imperatorluğu çökdürmüş, türklərdə Avropa qarşısında bir aşağılıq duyğusu yaratmışdı.

Yuxarıdan başlanan bu «Avropalılaşma» xalqın alt qatlarına nüfuz edə bilməmişsə də, dövlətin ordu sistemi, hüququ və hətta ədəbiyyatı da Avropaya uyğunlaşdırılmağa çalışılmışdır.

Sultan III Səlim (hakimiyyət dövrü 1789-1807) yüksək təhsil görmüş, şahzadə olduğu dövrlərdə sərbəst bir həyat keçirmiş, Avropa dövlətlərinin siyasətlərini, idarəçilik və hərbi sistemlərini öyrənmiş, imperatorluğun daxili məsələləri ilə yaxından tanış olmuş, dövrünün müasir dünyagörüşlü şəxsiyyətləri ilə əlaqələri olmuş və bununla da islahat və yenilik tərəfdarı olmuşdur. Bütün bunların nəticəsidir ki, o, hakimiyyət taxtına oturan kimi islahat tərəfdarlarını ətrafına toplayaraq ticarət, sosial, siyasi və hərbi məsələlərə dair geniş bir plan hazırlayaraq işə başlamışdır. Tarixdə «Nizami-Cədid» adlanan bu islahat planına əsaslanaraq, Sultan III Səlim imperatorluqda ilk dəfə olaraq Avropa tərzində təhsil, təchizat və geyimə əsaslanan bir ordu yaratdı. Avropadan gətirilən ustalarla yeni topxana və barıtxanalar qurdu, tərsanələri yenidən quraraq yeni gəmilər düzəltdirdi, savadlı dənizçi və kapitanlar yetişdirilməsinə çalışdı, ordu və donanmanın inkişaf etdirilməsinə kömək edə biləcək əsərləri türkcəyə tərcümə etdirərək çap etdirdi, London, Paris və Vyanaya ilk

dəfə olaraq daimi səfirlər göndərdi və onların ingilis, fransız və alman dillərini mükəmməl öyrənməsini əmr etdi, ordu və donanmanın xərclərini ödəyə biləcək «İradi-Cədid» adı ilə yeni bir xəzinə yaratdı. Təəssüflər olsun ki, ölkədaxili islahat əleyhdarları və onları xaricdən təhrik edən qüvvələrin birliyi nəticəsində bu islahatlar Sultan III Səlimin taxtdan endirilməsi ilə həyata keçəmədi və «Nizami Cədid» ləğv edildi.

Daha sonra yenilik tərəfdarlarının uzun müd-dətli mücadiləsindən sonra, nəhayət, Sultan II Mahmudun «Yeniçəri Ocağı»nı tamamilə ortadan qaldırması ilə (1826) Osmanlı imperatorluğunda ciddi və davamlı «Avropalılaşma» hərəkatı başlandı.

Sultan II Mahmudun Avropalı hökmdarlar kimi yaşamağa başlaması, hökumətdə dəyişikliklər edərək «Kabinə üsulu», «Nəzarət», hərbi işləri məşvərət yolu ilə həll edib qərarlar qəbul etmək, «Hərbi Şura» və məmurların birgə rəyi ilə hökumət və xalq arasındakı məsələlərin həlli üçün «Məclisi-valayi-ehkami-ədliyyə» adlı qurumlar təsis etmək, məmurları xarici və daxili olmaq üzrə iki qrupa ayırıb rütbə və qruplara görə maaş verilməsi, poçt yolları və poçt işinin qurulması, Avropa tərzində təhsil və təlim sistemini qurmaq məqsədi ilə «Rüşdiyyə»lər yaradılması, dövlət məmurlarını yetişdirmək üçün xarici əsərlərin türkcəyə çevrilməsi və s. kimi məsələlər imperatorluqda «Avropalılaşma» hərəkatını artıq qaçılmaz etmişdi. Fəqət belə bir dövrdə Avropada irqə dayanan «millətçilik» ideyası ortaya çıxdı və bu ideya Osmanlı imperatorluğunu da bürüyərək siyasi baxımdan Osmanlı imperatorluğu üçün böyük fəlakətlər yaratdı. Bütün



İmperatorluğu sarsıdan daxili üsyanlar baş qaldırdı və sonda Avropa dövlətləri də öz çıxarları üçün bu üsyanları daha da körükləyərək, imperiyanın daxili işlərinə müdaxilə etdi, bu və digər dərəcədə Osmanlı imperatorluğunu zəiflədərək onun ərazilərini xeyli daraltdı. İmperiyanın bütünlüklə çökməsinin qarşısını almaq və XVIII əsrdən başlanan islahat hərəkatını tamamlamaq məqsədi ilə Sultan Əbdül Məcid (1839-1861) Mustafa Rəşid paşaya hazırlatdırıb elan etdiyi «Gülxaneyi-xətti-humayun»u ilə yeni bir dövrün başlandığını bildirdi. Tarixə «Tənzimat dövrü» (1839-1875) adı ilə düşən və yeni bir dövr açan bu «Xəttihumayun»la Sultan imperiya daxilində yaşayan bütün müsəlman və xristian təbəələrinin irz, namus, can və mal güvənliyini qoruyacağına, vergilərin və hərbi işlərin düzənli bir üsulla bağlanacağına vəd verdi və «Xətti-humayun»a və ona dayanaraq çıxarılacaq yeni qanunlara sayğı göstərəcəyinə söz verdi. Beləliklə, Sultan qanunları tanımaqla, Qərb ölkələrindəkinə bənzər bir şərti qəbul etməklə, faktiki olaraq «Konstitusiyalı monarxiya» sisteminə keçidin əsasını qoymuş oldu.

«Tənzimat» dövründə Osmanlı imperatorluğunda hüquq, hərb, maarif və təhsil, həmçinin idarəçilik sahələrində bir çox yeniliklər həyata keçirildi. Avropa texnologiyası ilə yanaşı Avropa düşüncə sisteminin üstünlüyü də qəbul edildi, xarici siyasətdə imperiyanın varlığını qorumaq ümidi ilə Fransa, İngiltərə və bir çox xarici dövlətlərlə dostluq münasibətləri yaradılmağa çalışıldı.

«Tənzimat» dövründə aparılan yeniliklər köhnə rejimdən faydalanan mühafizəkarların və müxtəlif səbəblərdən dolayı xristian azlıqların tənqid və şikayətlərinə yol

açdı. İngiltərə və Fransa çar Rusiyasının imperiyanı genişləndirmək siyasətinə qarşı Osmanlı İmperatorluğunun qüvvətlənməsi və ən azı mövcudiyyətini mühafizə edib saxlamasına görə «Tənzimat»ı simpatiya ilə, Avstriya və Rusiya isə etirazla qarşıladılar. Hətta Rusiya «Tənzimat»ı Osmanlı imperatorluğunun daxili işlərinə qarışmaq üçün bir vasitə kimi istifadəyə çalışdı. Lakin 30 mart 1856-cı il «Paris Sülh müqaviləsi» ilə Rusiya Osmanlı dövləti əleyhinə əməllərini bir müddət dayandırmağa məcbur edildisə və Osmanlı dövlətinin dövlətlərarası haqlardan yararlana bilməsi qəbul edildisə də, Osmanlı dövlətinin zərərinə olaraq Qara dənizin tərəfsizliyi, yəni bütün dövlətlərə açıq olması, Rusiyanın, həmçinin Fransa, İngiltərə və Avstriyanın gələcəkdə xristian xalqları müdafiəsi bəhanəsi ilə Osmanlı dövlətinə müdaxiləsi kimi məsələlər Osmanlı dövlətinin daxili işlərinə qarışmaq səlahiyyəti verdi.

Bu dövrdə yaradılan və bütünlüklə Fransa «Cəza qanunu» əsasında tərtib edilən «Cəza qanunu», «Ərazi qanunu» və xüsusilə, «Tənzimat» dövrünün ən dəyərli əsərlərindən sayılan məşhur tarixçi və hüquqşünas Əhməd Cövdət paşanın rəhbərliyi ilə İslam hüququndan faydalanaraq hazırlanan «Mədəni hüquq məcəlləsi» ən böyük islahatlardan sayıla bilər. Həmçinin Fransız litseylərinə bənzər «Qalatasaray Sultanisi» kimi tədris müəssisəsinin açılması, İngilis Elmi Cəmiyyətinə bənzər «Osmanlı Elmi Cəmiyyəti»nin yaradılması, Agah Əfəndi tərəfindən «Tərcümani-Əhval», İbrahim Şinasi tərəfindən «Təsfiri-Əfkar» qəzetinin çap edilməsi, xüsusilə Namiq Kamalın siyasi və mədəniyyətə dair məqalələri «Avropalılaşmaq» fikrinin daha da qüvvətlənməsində və «Osmanlılıq» şüurunun



aşılanmasında önəmli rol oynadı. Bütün bunlar Osmanlı imperatorluğu daxilində yeni bir Avropa düşüncəli gizli bir müxalifət formalaşdırdı. «Yeni Osmanlılar» adlandırılan bu cəmiyyət üzvləri Fransız filosoflarından olan Monteskyönün (1689-1755) «Azadlıq - qanunun imkan verdiyi hər şeyi etmək hüququdur» və Jan-Jak Russonun (1712-1778) «Təbii haqlar» nəzəriyyəsini mənimsəyərək, onları şəriət qanunları ilə uyğunlaşdırmağa və ölkə daxilində tətbiq etməyə çalışırdılar. Onlar hətta «Avropada keçərli olan xalq hakimiyyəti ideyasını İslamın «biət»i ilə eyniləşdirməyə çalışırdılar (76, 499).

«Yeni Osmanlılar»ın irəli sürdükləri siyasi nəzəriyyələr Şərq və Qərb düşüncələrinin əsası sayılmasa da, onların «Hürriyyət» və «Vətənsevərlik» anlayışlarının Türkiyədəki təsirləri inkar olunmazdır. Onların bu görüşlərini Osmanlı ziyalılarının çox hissəsi həyəcanla qarşılayırdı. «Yeni Osmanlılar»ın «Konstitusiyalı monarxiya» fikirlərini mənimsəyən Midhət paşa, yaxın dostları Rüşdi paşa və Hüseyin Avni paşa ilə birlikdə hazırladıqları çevriliş nəticəsində sultanı taxtdan salaraq onun yerinə «Məşrutiyyət» tərəfdarı II Əbdülhəmidi taxta oturtdular və Midhət paşanın hazırladığı «Osmanlı-Qanunu-Əsasisi» 23 dekabr 1876-cı ildə xüsusi mərasimlə Sultan II Əbdülhəmid tərəfindən «dövlətin əmniyyəti baxımından təhlükəli olan şəxsləri Sultanın sürgünə göndərə biləcəyinə» dair bir maddənin artırılması ilə elan olundu» (76, 500).

Lakin 1877-ci ildə çar Rusiyasının Osmanlı İmperatorluğuna müharibə elan etməsi və çar ordularının Balkanlarda sürətlə irəliləməsi, Osmanlı Parlamentində Məclis üzvləri tərəfindən hökumətin ciddi tənqidi

Sultanda onun hökmdarlıq haqlarına müdaxilə kimi qiymətləndirildi və Sultan Parlamenti buraxdı. Sultan «Osmanlı Məclisi Məbusan»ını dağıtmaqda haqlı idi. Çünki Məclisdə müsəlman olmayan ünsürlərin fəaliyyət və davranışlarının dövləti yıxma mahiyyətində olduğu açıqca bəlli idi (3, 82). Və Sultan şübhələndiyi adamları, o cümlədən Midhət paşanı və Yeni Osmanlıların sayılan şəxslərini vətən xaini elan edərək, ölkədən çıxardı. Mədəniyyət üsul-idarəsi yenidən quruldu. «Sultan II Əbdülhəmidin istibdadı 1908-ci ilə qədər, otuz bir il davam etdi» (76, 501). I Məşrutiyyət gerçəkləşə bilmədi.

Sultan II Əbdülhəmid Yeni Osmanlıların məmləkətə gətirdikləri «hürriyyət» fikrinin müsəlmanlardan daha çox müsəlman olmayanların xeyrinə olduğunu (bu doğurdan da belə idi - R.Ə.) və «Osmanlı» milləti yaratmanın da bir xəyal olduğunu dərk etdiyindən bunların əvəzinə Avropa dövlətlərinin və Rusiyanın hər cür hücumlarının qarşısını almağın ən sağlam yolunun imperatorluğun müsəlman xalqlarını İslam dini bayrağı altında bütünləşdirməkdə gördü. Bu məqsədlə Sultan Anadoluda və ərəb ölkələrində quru və dəniz yolları çəkilməsinə, limanların inşasına, suvarma kanallarının yaradılmasına, bataqlıqların qurudulmasına və s. məsələlərə dair Nafia (Ümumi işlər) naziri Həsən Fəhmi paşanın hazırladığı və Sədarətə təqdim etdiyi layihəni təsdiq etdi. Lakin maliyyə çatışmazlığı üzündən yalnız dəmir yollarının inşası qismən gerçəkləşdirildi və imperatorluğun bir çox vilayətlərində xalqın köməyi və yardımı ilə quru yolları inşa edildi, həmçinin məmləkətin ən ucqar guşələri belə teleqraf xətləri ilə İstanbula bağlandı. Sultan II Əbdülhəmid dövründə ən müsbət hadisə tədris və daha doğrusu, maarif sahəsində ol-



muşdur. Maarif naziri Safvət paşanın hələ 1869-cu ildə hazırladığı «Ümumi Maarif Nizamnaməsi»ni on il sonra Sədrəzəm (Baş nazir) Kiçik Səid Paşa həyata keçirdi. O, «İmperatorluğun hər tərəfində rüşdiyyə və orta məktəblər (İdadiyyə okulları-R.Ə.) açdırdı. Kiçik Səid paşanın 1879-1884-cü illərə qədərki nazirliyi dövründə təsis etdiyi yüksək təhsil müəssisələri arasında Hüquq, İncəsənət, Ticarət və Mühəndis məktəbləri qeydə dəyər. Sultanın taxta çıxmasının iyirmi beşinci ildönümü münasibəti ilə 1900-cü ildə İstanbulda «Darülfünuni-Şahanə» tədrisə başladı» (76, 502). «1888-ci ildə İstanbul Avropa dəmir yolu şəbəkəsinə bağlandı. Bağdad dəmir yolu xidmətə açıldı... Hicaz dəmir yolu Mədinəyə qədər uzadıldı» (46, 251).

Bütün bu islahatlara baxmayaraq Osmanlı ziyalı təbəqələri arasında Sultan II Əbdülhəmidin istibdadına qarşı güclü bir müxalifət yarandı. Hərbi Tibb Məktəbinin dörd tələbəsi 1889-cu ilin may ayında «İttihadi-Osmani» adlı gizli bir təşkilat qurdular. Onların fikirləri digər ali məktəblərdə də yayılaraq «İttihadi Osmani» təşkilatının üzvlərinin sayını çoxaldaraq hakimiyyətə qarşı bir müxalifət formalaşdırdı. «Gənc Türklər» deyə adlandırılan bu müxalifət qüvvəsi Yeni Osmanlıların hürriyyət, məşrutiyyət və osmanlılıq fikirlərini qəbul edərək Sultan II Əbdülhəmid tərəfindən qadağan edilən 1876-cı il Midhət paşa Konstitusiyasının yenidən qəbul edilməsinə səy göstərdi. Sultan II Əbdülhəmidin siyasi polisi dövlət məktəblərindəki gizli təşkilatları 1897-ci ildə üzə çıxardı və təşkilat üzvlərindən 78 nəfəri məhkəmə qərarı ilə Şimali Afrikaya – Tablüsqərbə sürgün edildi. Beləliklə də, müxalifət ölkə içərisində sındırıldı. Ölkə xaricinə qaçanlar Avropanın müxtəlif mərkəzlərində, xüsusilə Parisdə öz

fəaliyyətlərini davam etdirməyə başladılar. Bunlar Əhməd Rza tərəfindən 1895-ci ildən nəşr edilən «Məşvərət» qəzeti ətrafında toplaşaraq Sultana qarşı öz müxalifət fəaliyyətlərini Parisdə davam etdirdilər. «Əhməd Rza fransız filosofu Oqüst Kontun pozitivist fikirlərini mənimsədiyindən, yaratdığı cəmiyyətə də pozitivistlərin «Ordre et Proqres» düsturunun ilhamı ilə «İttihad və Tərəqqi» adını vermişdi» (76, 502).

II Əbdülhəmidin yaxın qohumu, şahzadə Səbahəddinin 1900-cü ilin əvvəllərində qaçaq olaraq Parisə gəlişi Gənc Türklər hərəkatını daha da gücləndirdi. Fransız sosioloqu Pleyin (Le Play-R.Ə) təsiri altında qalan şahzadə Səbahəddin mərkəziyyətçi tərəfdarı idi. Onun təşəbbüsü ilə 1902-ci ilin fevral ayında Parisdə keçirilən Konqresdə bir çox cəmiyyətin təmsilçilərinin iştirakı ilə Sultanın hakimiyyətdən salınması üçün Osmanlı ordusunun müdaxiləsi qərarlaşdırıldı. Bu məqsədlə imperatorluğun müxtəlif bölgələrində zabitlər arasında gizli təşkilatlanmaya başlanılmış, Üçüncü Ordu zabitlərinin çoxu 1906-cı ildə Səlanikdə yaradılan «Osmanlı Hürriyyət Cəmiyyəti»nə daxil olmuşdular. Lakin bu gizli təşkilat Şahzadə Səbahəddinlə deyil, mərkəziyyətçilərin əleyhinə olan Əhməd Rzanın təşəbbüsü ilə yaradılan «İttihad və Tərəqqi Cəmiyyəti»ilə əlaqəyə girmişdi. O dövrdə minbaşı rütbəsində olan Ənvər (məşhur vitsegeneralisimus Ənvər Paşa-R.Ə.) və Ədirnə Poçt və Teleqraf baş məmuru Tələtin (məşhur Tələt Paşa-R.Ə) də üzv olduğu «Səlanik Cəmiyyəti» 1908-ci ilin iyul ayının əvvəllərində Makedoniyada qiyam qaldırdı. «Səlanik Cəmiyyəti» daha sonra 21 iyul 1908-ci ildə Sultan II Əbdülhəmidə bir teleqram göndərərək, 1876-cı il Konstitusiyasının yenidən tətbiq edilməsini tələb etdi. Dayaqları zəifləmiş Sultan II Əbdülhəmid 24 iyulda otuz bir il əvvəl qadağan etdiyi Məşrutiyyəti təkrar elan etməyə məcbur oldu. İmperatorluğun istibdad rejiminin sona çatmasını xalq sevinclə qarşıladı. Lakin hürriyyət küləyi məmləkətdə uzun zaman davam etmədi və bir il keçməmiş 13 aprel 1909-cu ildə zabitlərinə qarşı qiyam qaldıran əsgərlər «Məclisi Məbusan»ı (Parlamenti-R.Ə.) dağıdaraq şəhərə hakim olmuşdular. Bu irtica hərəkatı Səlanikdən yola çıxan hərbi birliklərin 23 apreldə İstanbula daxil olması ilə yatırıldı və hadisə ilə heç bir əlaqəsi olmayan Sultan II Əbdülhəmid də taxtdan salındı. Bu vaxta qədər hakimiyyət işlərinə qarışmayan «İttihad və Tərəqqi Cəmiyyəti»nin üzv və tərəfdarları dövlət vəzifələrinə gətirildi. 1912-ci il oktyabr ayında başlayan «Balkan Müharibəsi»ndə Osmanlı ordusunun məğlubiyyətinin nəticəsində Ənvər bəyin (Ənvər paşa nəzərdə tutulur-R.Ə.) başçılığı ilə kiçik bir zabit heyətinin 23 yanvar 1913-cü ildə Babialini (Osmanlı hökuməti-R.Ə.) ələ keçirib Sədriəzəmi (Baş vəziri-R.Ə.) istefaya göndərməsi ilə «İttihad vəTərəqqi Cəmiyyəti» dövlətin müqəddəratını tamamilə öz əlinə aldı və imperatorluğu 1918-ci ilin sonuna qədər idarə etdi.

On il sürən ittihad və tərəqqi dövründə Türkiyə sürətlə yeniləşməyə başladı. Bu dövrdə bir çox yeniliklərlə yanaşı çağdaş düşüncəli din adamları yetişdirmək məqsədi ilə mədrəsə proqramına pozitiv elmlərin tədrisi də daxil edildi.

İttihadçılar ilk vaxtlar «Osmanlıçılıq» ideologiyasına inansalar da, xristian təbəəsi ilə yanaşı imperatorluğun tərkibinə daxil olan alban və ərəb kimi müsəlmanların da

öz milli müqəddəratlarını gerçəkləşdirmək məqsədi ilə türklərə qarşı çıxdıqlarını görüncə, «osmanlıçılıqdan» vaz keçdilər. Bu illərdə imperatorluğun fikir həyatı müxtəlif cərəyanlarla çalxanmaqda idi. İslamçılar və avropaçılar Osmanlı toplumunun ictimai və iqtisadi məsələlərinə çarə yolları axtarır, nəşr etdirdikləri mətbu orqanları və kitablarla öz düşüncələrini yaymağa çalışırdılar. Belə bir dövrdə ittihad və tərəqqiçilər məmləkətin qurtuluş yolunu Türkçülərin, xüsusilə Ziya Göyalpın «türkçülüyü»ndə gördülər. Ziya Göyalp əsası 1860-cı illərdən Əhməd Vəfiq paşa, Əli Suavi əfəndi, Mustafa Cəlaləddin paşa tərəfindən qoyulan türkçülüyü fransız sosioloqu Dürkheymin nəzəriyyələri əsasında inkişaf etdirmiş və Əli bəy Hüseynzadə tərəfindən «Türkləşmək, İslamlaşmaq və Avropalılaşmaq» düsturunu daha da təkmilləşdirərək «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» formasına salmışdı. Bu düstur 1912-ci ildə yaradılan «Türk Ocağı» dərnəyinin orqanı olan «Türk Yurdu» jurnalında məqalələr şəklində işlənib sonradan Ziya Göyalp tərəfindən «Türkçülüyün əsasları» adı altında proqram şəklinə salındı. İttihad və tərəqqiçilər başladıqları islahat hərəkatlarında Ziya Göyalpın fikirlərindən yararlandılar.

Nəhayət, Fateh Sultan dövründən (1451-1481) başlayan yeniləşmə, daha doğrusu, Avropalaşma hərəkatı bütün sahələrdə olduğu kimi maarifçilik sahəsində də böyük uğurlar əldə etdi. 1839-u ildən başlayaraq Türkiyədə Avropa dilli məktəblər açıldı, ilk təhsil pulsuz olaraq məcburi elan edildi, hərbi və tibbi məktəblərdə ali təhsilli mütəxəssislər yetişdirmək üçün orta məktəb səviyyəli rüşdiyyələr açıldı, idarəçilikdə olduğu kimi sosial həyatda da yeniləşmə geniş vüsət aldı. «Tənzimat» fərmanı ilə başlayan



imperatorluğun bütün müsəlman, xristian və musəvi təəbəsinin irz, namus, can və var-dövlət güvənliyinin qorunması, vergi sisteminin ədalətə dayanması, bütün dövlət məmurlarına rüşvətin aradan qaldırılması üçün dövlət maaşı verilməsi, məhkəmə qərarları olmadan heç kimə cəza verilməməsi, edam cəzasına məhkum edilənlərin əmlakının müsadirə olunması, heç kimə heç bir şəkildə zülm edilməməsi, bütün insanların qanun qarşısında bərabər cavabdeh olması və s. kimi məsələlərlə yanaşı təhsil sahəsində ciddi addımlar atıldı, ilk və orta məktəblər ülləmaların əlindən alınaraq, Avropada olduğu kimi dövlət nəzarətinə keçirildi.

Bunlarla yanaşı imperatorluğun bir çox yerlərində gənclərin fransızca başda olmaqla bir çox Qərb dillərini öyrənmələri və eyni zamanda Avropa anlamında yeni dünyagörüşə yiyələnmələri üçün mərkəzlər yaradıldı. Universitetdə tədris olunacaq fənlər üçün dərsliklər hazırlamaq məqsədilə «Əncüməni-daneş» yaradıldı. Fransa Akademiyasını örnək kimi qəbul edən «Əncüməni-daneş» bir Türk akademiyası kimi tədqiqatlara başladı. «Sədrəzəm» (Baş nazir - R.Ə.) Mustafa Rəşid paşanın da üzv olduğu «Əncüməni-daneş»in başçısı Mehmet Şərif əfəndi seçildi. «Əncüməni-daneş»in üzvləri içərisində Əli paşa, Fuad paşa, Xeyrullah əfəndi, Şeyxülislam Arif Hikmət bəy, Sami paşa, Sübhi paşa, Behcət Molla, Xoca İshaq əfəndi, Əhməd Cövdət paşa, Əhməd Vəfiq paşa, Yesarizadə İzzət əfəndi kimi dövrün tanınmış alimləri ilə yanaşı, fəxri üzvlər olan Avstriyalı tarixçi Hammer, «İngiliscə-türkcə sözlüy»ün müəllifi Redhouse da var idi. «Əncüməni-daneş» həm Universitet üçün kitablar hazırlamaq, həm də xalqın Qərb mədəniyyyətini mənimsəməsi yolunda

fəaliyyət göstərirdi. «Əncüməni-daneş»in üzvləri olan Əhməd Cövdət paşa və Fuad paşa ilk olaraq türkcə qrammatika kitabı olan «Qəvaidi-Osmaniyyə»ni nəşr etdilər. Daha sonra Əhməd Cövdət paşa on iki cildlik məşhur «Tarixi Cövdət» («Osmanlı imperatorluğu tarixi») əsərini yazdı (77, 385). Çox təəssüflər olsun ki, bu ilk ciddi akademiyanın («Əncüməni-daneş»in – R.Ə.) ömrü uzun olmadı. Mustafa Rəşid paşanın sədrəzəmlikdən ayrılması, yerinə Əli paşanın gətirilməsi ilə dövlətin «Əncüməni-daneş»ə göstərdiyi qayğı xeyli azaldı və onillik qısa bir dövrdən sonra o ləğv edildi, yerinə «Cəmiyyəti-elmiyyəyi-Osmaniyyə» adlı yeni bir təşkilat yaradıldı ki, bu elmi cəmiyyət də yalnız «Məcmueyi-fünun»u nəşr etməklə öz işini bitmiş hesab etdi.

Bu dövr yeniliklərindən biri də 1859-cu ildə ilk dəfə «Qız rüşdiyyəsi» adı altında açılan qız orta məktəblərinin bu məktəblərə müəllim hazırlamaq üçün 1870-ci ildə açılan Qız müəllim məktəbi «Darülmüəllimat»ın 1877-ci ildən «Məktəbi-Mülkiyyə» adlı siyasi elmlər fakültəsinin, 1868-ci ildə Fransız dilini öyrətmək məqsədi ilə yaradılan «Məktəbi-Sultani» adlı Qalatasaray litseyinin fəaliyyətə başlamaları idi. Bütün bu yeniliklər Avropaya açılan bir tədris müəssisələri olmaqla yanaşı, həm də Avropa təfəkkürlü bir çox müəllim, sənətkar, ədib və yazıçı, dövlət xadimi yetişdirdi. 1862-ci ildən başlayaraq bir çox türk gənci Avropanın ayrı-ayrı elm və mədəniyyət mərkəzlərinə göndərildi. 1891-ci ildə «Darülmüəllimini-aliyə» adlı ilk ali müəllimlər məktəbi açıldı.

Yeniliyin ölkədə yayılması və inkişafında ən mühüm hadisələrdən biri də yeni Avropa tipli qəzet və jurnalların nəşri oldu. Türkiyədə nəşr olunan ilk türkcə qəzet Sultan



II Mahmudun əmri ilə 11 noyabr 1831-ci ildə çapdan çıxan «Takvim-i Vakayi»dir. Dövlətin siyasi və idarə fəaliyyətini, qərar və əmrlərini nəşr edən bu ilk rəsmi qəzeti Uilyam Çörçill adlı bir ingilisin 1840-cı ildən çıxarmağa başladığı «Cəride-i-Həvadis», 1864-cü ildən etibarən isə «Ruznameyi-Cərideyi-Həvadis» adını daşıyan qəzet davam etdirərək günlük hadisələrdən xəbər verən ilk qəzet ünvanını qazandı (77, 386).

Bu qəzet o dövrün tanınmış ədibləri olan Əli bəy, Hafiz Müşfiq, Münif Paşa və başqalarını ətrafında toplayaraq «Vətən» mövzusunu gündəmə gətirməklə, sadə türkcə yazmaqla və Qərb fikirlərini yaymaqla çox böyük rol oynadı. Ölkədə türk ziyalıları tərəfindən nəşr edilən ilk qəzet isə 22 oktyabr 1860-cı ildə çap olunan «Tərcümani-Əhval»dır. Türk ədəbiyyatında yeniliyin ilk böyük yazıçısı İbrahim Şinasinin bu qəzetdə fəaliyyət göstərməsi onu («Tərcümani-Əhval»ı-R.Ə.) yeni türk ədəbiyyatının ilk yayım orqanı səviyyəsinə qaldırdı. İbrahim Şinasi qəzetə yazdığı müqəddimədə yeniliyin xalqa çatdırılmasını nəzərə alaraq qanun, vəzifə, haqq, hüquq, maarif, mədəniyyət, nizam-intizam, ədalət, həqiqət və s. bu kimi anlayışların izahını verməklə türk fikir həyatı üçün avropalılaşma yolunda ciddi addımlar atmış oldu. Qəzetdə siyasi məsələlər başda olmaqla tədrisdən poçta, əkinçilikdən iqtisadiyyata, rəsmi və xüsusi elanlardan bazar qiymətlərinə, fəlsəfi məqalələrdən ədəbi yazılara qədər müxtəlif mövzulara, hətta tapmacalara belə yer verilmişdir. Altı ay «Tərcümani-Əhval»da çalışan Şinasi daha sonra bu qəzetdən ayrılaraq tək başına «Təsviri-əfkar» qəzetini çıxararaq, ilk sayından başlayaraq türk ədəbiyyatı və mədəniyyətinin Avropa tərzində inkişafına böyük tə-

kan vermişdir. Qəzetdə çalışan yeniliyin ən böyük tərəfdarı, XIX əsr Türk ədəbiyyatının ən böyük siması, şair, yazıçı, dramaturq, tənqidçi, tarixçi və qəzet yazarı Namiq Kamal, Kamal bəy, Rəcaizadə Əkrəm bəy kimi ədəbi şəxsiyyətlər Türkiyədə müasirləşmə yolunda çox böyük xidmətlər göstərdilər.

Daha sonra «İbrət», «Müxbir», «Hədiqət», «Tərcümani-həqiqət», «Ülum», ilk öncə Londonda, daha sonra isə Cenevrədə nəşr edilən «Hürriyət» kimi qəzetlər, «Məcmueyi-Fünun», «Mirat», «Cərideyi-əsgəriyyə», «Tiyatro», «Qəhqəhə» adlı jurnallar Türkiyədə qərbləşmə, avropalaşma və ən başlıcası müasirləşmə sahəsində, siyasi və sosial məsələlərdə əvəzsiz işlər gördülər.

Türkiyənin müasirləşməsində ölkə daxilində fəaliyyət göstərən Avropa tipli «Fransız Tiyatrosu», «Naum Tiyatrosu», «Saray Tiyatrosu», «Tiyatroyi-Osmani» və «Türkcə Tiyatro»ların da böyük rolu oldu. Bu teatrlarda Avropalı dramaturqlarla yanaşı Əli Heydər bəyin, İbrahim Şinasinin, Namiq Kamalın, Rəcaizadə Mahmud Əkrəmin, Əbdülhaq Hamidin, Əhməd Midhət əfəndinin dram, faciə, komediya və operettaları da səhnəyə qoyulur, qərbləşmə yolunda türk tamaşaçısının teatr sənətinə marağını artırırdı.

Mətbuat və teatrdan sonra müasirləşmə yolunda atılan ən böyük addımlardan biri də avropalı yazıçıların hekayə və romanlarının tərcüməsi və Türk yazıçılarından Əhməd Midhət Əfəndinin, Şəmsəddin Sami bəyin, Namiq Kamalın, Sami Paşazadə Səzayi bəyin, Rəcaizadə Mahmud Əkrəmin, Nabizadə Nazim və başqalarının qələmə aldıqları hekayə və romanların nəşri idi. Bu əsərlərin də Türkiyədə müasirləşmə ilə yanaşı xalqın savadlanması,



əxlaqi cəhətdən daha da yüksəlməsi sahəsindəki xidmətləri danılmazdır.

Bu dövrün ən mühüm əlamətlərindən biri də yeni tipli ədəbi tənqidin meydana gəlməsidir. O dövr Qərb tipli ədəbi tənqidin ən böyük nümayəndələri İbrahim Şinasi, Ziya paşa və Namiq Kamal olmuşlar.

Bu dövrün ən diqqətəlayiq ədəbi məsələlərindən biri də ədəbiyyat tarixinin və ayrı-ayrı türk mütəfəkkirlərinə aid monoqrafiyaların yazılmasıdır. Bu sahədə ən diqqət çəkən əsərlər Əkrəm bəyin 1888-ci ildə nəşr etdiyi «Kudemadan birkaç şair əsəri», Müəllim Nacinin «Osmanlı şairləri», «Əsami», «Müasir şairlərimiz» adlı əsərləri, İsmayıl Haqqı bəyin 1890-cı ildə nəşr etdiyi «Əhməd Midhət Əfəndi», «Əkrəm bəy», «Şəmsəddin Sami» və «Cövdət paşa» monoqrafiyaları, Əbu Ziya Tofiq bəyin «Numuneyi-ədəbiyyati-Osmaniyyə» adlı antologiya mahiyyətli əsərlərdir. Bu əsərlər də yeni tipli ədəbi tənqid və ədəbiyyat tarixi kimi nümunələri «Tənzimat» dövrünün uğurlarından sayılmalıdır.

Türk ədəbi və ictimai həyatının ən mühüm dövrlərindən birini də tarixdə məşhur «Sərvəti-fünun» dövrü təşkil edir. Bu dövr əsasən 1896-1901-ci illəri əhatə edir. Türk ədəbiyyatı tarixində ən böyük və ən radikal addım «Sərvəti-fünun»çular tərəfindən atılmış, türk ədəbiyyatının tamamilə yeniləşməsi onların adına yazılmışdır. Onun «Sərvəti-fünun»çular adlanmasının səbəbi Tofiq Fikrət, cənab Şəhabəddin, Süleyman Paşazadə, Mehmet Sami, Hüseyin Suat Yalçın, Hüseyin Sirət Özsevər, Faiq Əli Ozansoy, Süleyman Nazif, İsmayıl Səfa, Əli Əkrəm Bolayır, Əhməd Rəşid, Cəlal Sahir Ərozan, Xalid Ziya Uşaqlıgil, Mehmet Rauf, Hüseyin Cahit Yalçın, Əhməd

Hikmət Müftüoğlu, Əhməd Şuayb kimi şair, yazıçı və tənqidçilərin «Sərvəti-fünun» adlı jurnalın ətrafında toplaşmaları idi. «Sərvəti-fünun» türk ədəbiyyatı tarixində avropalılaşmaq mənasında bir məktəb xüsusiyyəti kəsb etmişdir. Bu jurnalda həmçinin Şəmsəddin Sami və Rza Tofiq Bölükbaşı kimi məşhur şəxsiyyətlərin də məqalələri çap olunmuş, lakin onlar bu topluluğa daxil olmamış, hətta bu qrupun bir çox səhvlərini tənqid etmiş, ancaq onların ədəbiyyat və sənət haqqındakı üstünlüklərini qəbul və təqdir etmişlər.

Bu ədəbi cərəyanın da türk ictimai həyatına «Tənzimat»çılar kimi müsbət və mənfi təsirləri olmuşdur. Belə ki, «Sərvəti-fünun»çular «sənət sənət üçündür» dünyagörüşünə tam bağlı olduqlarından onlar bütün nəzəriyyələrini bu anlayış üzərində qurmuş, əsərlərini bu anlayışa uyğun qələmə almış, Qərbi, xüsusilə Fransanı yaxından təqib etmiş, roman və hekayələrini fransız realistləri və naturalistləri səpkisində, şeirlərini fransız parnasyenləri və simvolistləri tərzində, tənqidi yazılarını da fransız tarixi-tənqidi metodunda qələmə almış, «irq, mühit və zaman» formulunu əsas götürmüşlər.

«Sərvəti-fünun»çular ədəbi dəyər və müasirlik baxımından həm özlərindən əvvəlki tənzimatçılardan, həm də öz dövrlərindəkilərdən üstün bir ədəbiyyat yaratmışdılar. Onlar ədəbiyyata yeni roman, yeni şeir, yeni ədəbi tənqid gətirdilər. Bu məqsədlə onlar yeni ədəbi janrların həm nəzəriyyəsini yaratdılar, həm də onu praktikada tətbiq edərək, yeni şeir, hekayə və roman estetikasını türk ədəbiyyatına gətirdilər. Onlar həmçinin ilk dəfə olaraq türk ədəbiyyatında sağlam və bütöv bir kompozisiyalı əsərlər



yazdılar və özlərindən sonrakı yazıçılara qüvvətli təsir göstərdilər.

«Sərvəti-fünun»çular əslində bir zümrə, daha doğrusu, bir «salon ədəbiyyatı» yaratmışdılar. Onlar «evin içi ilə maraqlanmış, bir ev içi romanı yaratmışlar» (77, 437).

Onlar ədəbiyyatı ali və adi deyə ikiyə ayırır, xalq ədəbiyyatını ədəbiyyat kimi qəbul etmir, özlərinin «ali ədəbiyyat tərəfdarı» olduqlarını israrla bildirirdilər. Bu dünyagörüş onların sənətə və ədəbiyyata sayğı duymalarına və ədəbi səviyyə baxımından yüksək əsərlər meydana gətirmələrinə səbəb oldu. Belə əsərləri ilə onlar özlərindən sonrakı sənətkarlara bir örnək oldular. Adi ədəbiyyatı, yəni yüksək zümrəyə dayanmayan, geniş xalq kütlələrinə xitab edən ədəbiyyatı bəyənməsələr də, onları tənqiddə həddi aşmamış, tənqidlərində ölçüləri gözləmiş, bir sözlə, sənətə hörmət prinsipini həssaslıqla qorumağa çalışmışdılar. «Sərvəti-fünun»çuların ən böyük qüsurlarından biri onların qərbləşmə, müasirləşmə anlayışlarına yalnız fransızların gözü ilə baxmaları olmuşdur. Onların əksəriyyəti Avropa dillərindən yalnız fransızcanı bilmiş, fransız ədəbiyyatının məşhur əsərlərini orijinaldan oxumuş, tərcümə etmiş və bu təsirdə də əsərlər yaratmışdılar.

«Sərvəti-fünun»çular həmçinin Türk ədəbiyyatında yeni dil və üslub yaratdılar. Bu dil və üslubun həm müsbət, həm də mənfi tərəfləri və təsiləri olmuşdur. Bununla bağlı onlar ərəb və fars lüğətlərindən yeni söz və ifadələr alaraq bədii əsərlərində işlətməyə, «ölü söz və ifadələri» diriltməyə çalışdılar və beləliklə də, dildə anlaşılmaz bir ifadə yaratdılar. Onların uğradıqları ən böyük tənqid də bu sahədə oldu. Onlar «süni bir dil yaratmaqda suçlandılar» (77, 438). Dil və üslub sahəsində onlar dildəki bütün

sözlərdən istifadə etməyi gərəkli saymış, dildə sadələşməni gələcəyin ixtiyarına buraxmağı tövsiyə etmiş, dildə zənginliyi ciddi müdafiə etmişlər. Bu sahədə onların ən böyük qüsurları türk dili haqqındakı biliklərinin azlığı və ya yanlışlığı, tərcümə etdikləri əsərlərin təsirində qalmaları olmuşdur.Fransız ədəbiyyatından etdikləri tərcümələr onların sintaksisini dəyişdirmiş, onlar yığcam, anlaşıqlı türk dili cümlələri əvəzinə anlaşıqsız, uzun cümlələr işlətmişlər. Bütün bunlara baxmayaraq, onlar məzmunda olduğu kimi şəkildə də böyük dəyişikliklər yaratdılar. Şeirə sərbəst vəznlə yanaşı, sərbəst ifadə tərzi də gətirdilər. Sərbəst vəzndə sonetlər yaratdılar. Türk ədəbiyyatına geniş bir təfəkkür dünyasını, yeni bir sənət anlayışını, yeni bir ədəbi dalğanı gətirmələri onların türk ədəbiyatındakı yerini müəyyənləşdirdi. Bütün qüsurlarına baxmayaraq «Sərvəti-fünun»çuların Türk ədəbiyyatı, sənət və təfəkkür həyatındakı əhəmiyyətli rolu, ədəbi və tarixi xidmətləri inkar edilməzdir. Onlar Türk təfəkkür tarixində mühüm dəyişikliklər yaratmışlar. Sənətə ciddiyyət, ədəbiyyata həqiqi tənqid gətirmiş, qadına, onun hüquq və azadlıqlarına xüsusi baxışla yanaşmış sərvəti-fünunçuların bütün dünyagörüşlərini tədqiq edən türk tənqidçiləri və ədəbiyyatşünasları* bir məsələdə həmrəydirlər ki, sərvətifününçuların ən böyük qüsuru onların xalq ədəbiyyatı nümunələrini ədəbi əsər saymamaları», «təbiəti yaşamaqla deyil, seyr etdikləri mənzərələri təsvir etməyə çalışmaları,

* İsmayıl Hikmət Ertaylan, Türk ədəbiyyatı tarixi,I c., Bakı, 1925-1926; İsmayıl Habib Sevük, Edebi yeniliğimiz, İstanbul, 1930; Mustafa Nihad Özön. Son asr Türk edebiyatı tarihi, İstanbul, 1941; Nihad Sami Banarlı. Resimli Türk Edebiyatı tarihi, İstanbul, 1971; Ahmet Kabaklı. Türk edebiyatı, IIIc., İstanbul, 1974 və s.



fəlsəfi dərinliklərdən uzaq olmaları» və ən başlıcası, «əsərlərində reallıqdan uzaq, xəyal-həqiqət təzadı, bədbinliklərin onların həyat və fəlsəfələrində hakim mövqedə olması»dır. Bu baxımdan onların «əsərlərində dərinlik görünməz. Onların (sərvəti-fünunçuların-R.Ə.) dərinləşdirdikləri, ciddi və geniş şəkildə ələ aldıqları ən mühüm mövzu estetika və sənət məsələsi olmuşdur. Fəqət bu da tarixdən uzaq, təkbaşına bir məsələ olaraq ələ alındığı üçün zəngin bir tarix duyğusu ilə birləşə bilməməsidir (77, 441).

Son olaraq bildirək ki, sərvəti-fünunçuların bir sıra Azərbaycan yazıçı və şairlərinin üzərində də ciddi təsirləri olmuşdur. Onların ədəbiyyata gətirdikləri bədbinlik ruhu özlərindən sonrakı türk yazıçı və şairləri ilə yanaşı bir çox Azərbaycan şair və yazıçılarının da əsərlərində özünü göstərmişdir. Onların ictimai məsələlərə biganə qalmaları türk cəmiyyətinin problemlərini və yeni bir mədəniyyətə - Avropa mədəniyyətinə tam keçidini həll edə bilməmiş, siyasi məsələlərə tam təsir göstərə bilməmişdir.

Doğrudur, XIX əsrin sonlarında türk ədəbiyyatında hakim ədəbi hərəkat «Sərvəti-fünun» jurnalı ətrafında birləşmişdi. Lakin «Sərvəti-fünun»dan kənarda da Əbdülhəqq Hamid kimi bəzi şair, yazıçı və dramaturqlar öz yaradıcılığını davam etdirir, həmçinin Əhməd Midhət əfəndi məktəbinin davamçıları olan Əhməd Rasim və Hüseyn Rəhmi Gürpinar kimi qələm sahibləri və Əli Kamal, Şair Nigar, Mehmet Cəlal, İsmayıl Səfa kimi sənətkarlar da türk ədəbiyyatını zənginləşdirirdilər.

Müasirləşmə hərəkatının üçüncü dövrü II Məşrutiyyətdən sonrakı dövrü əhatə edir. Bu dövrdə istər ictimai-siyasi və istərsə də ədəbi proseslərdə yeni bir dövr

başlayır. İctimai-siyasi proseslər haqqında öncə geniş məlumat verdiyimizdən burada yalnız ədəbi proseslərdən və bu ədəbi proseslərin Türkiyəyə və ümumən Türk dünyasına təsirindən bəhs edəcəyik.

II Məşrutiyyətdən sonrakı dövrdə türk ədəbi həyatında populizm və materializm, pozitivizm və naturalizm, liberalizm və nasionalizm kimi ədəbi cərəyanlar ön planda olmuş və bu cərəyanların nümayəndələri olan materialist Baha Tevfik (1881-1914), populist Əhməd Midhət Əfəndi, Əhməd Rasim, Hüseyn Rəhmi, Mehmet Cəlal, Vəcihi və Abdulla Zühdi, pozitivist Bəşir Fuad, naturalist, liberalist «Fəcri-ati» qruplaşması, nasionalist «Türk dərnəyi», «Gənc qələmlər», «Türk yurdu», «Türk ocağı», «Xalqa doğru», «Türk sözü», «İslam», «Yeni Turan», «Böyük əməl», «Böyük duyğu», «Yeni məcmuə», «Böyük məcmuə» və s. kimi qəzet və jurnalların ətrafında birləşən Nəcib Asim, Bursalı Tahir, Hüseynzadə Əli bəy, Mehmet Əmin Yurdaqul, Müftüoğlu Əhməd Hikmət, Əhməd bəy Ağaoğlu, Yusif Akçuraoğlu, Ziya Göyalp, Köprülüzadə Mehmet Fuad, Xalid Fəxri, Yusif Ziya, Səbihə-Zəkəriyyə Sertel, Mehmet Akif və digərləri milli təfəkkürün inkişafında mühüm rol oynamışlar.

İlk öncə populizm, liberalizm, demokratiya, sosializm kimi cərəyanlar sonralar Türkiyədə materializm və marksizmə yuvarlanmışlar. Bu materialist və marksistlərin əsərlərində fəlsəfi anlayışlardan daha çox siyasi anlayışlara yer verilmişdir. Lakin imperiya daxilində kapitalist istehsal münasibətlərinin zəif inkişaf etməsi və bununla da burjua və fəhlə sinfinin tam formalaşa bilməməsi bu ədəbi-siyasi cərəyanın bir məktəb halına gəlməsinə mane olmuşdur. Bununla yanaşı bu ədəbi məktəbin türk dilinin sadələşməsində xüsusi rolu olmuşdur.



«Fəcri-ati» ətrafında toplananlar isə müxtəlif dünyagörüşlərə malik, əksəriyyəti gənclərdən ibarət və sənətdə bişməmiş şair, yazıçı, dramaturq olduqlarından bu qruplaşma bir ədəbi məktəb şəklinə düşə bilməmiş, tədqiqatçıların da söylədiyi kimi: «Bir komanda olmağa çalışan bu gəncləri qarşılıqlı sevgilər və üçlü-beşli dostluqlar bir araya gətirmişdi» (77, 477).

Bir ədəbi məktəb yarada bilməsələr də bu qrupa daxil olan bir çox şair, yazıçı və dramaturqlar türk ədəbiyyatının yeniləşməsində, müasirləşməsində çox böyük xidmətlər göstərmiş, türk ədəbiyyatında impresiyonist, simvolist sənətkarlar kimi tanınmış, bəşəri romantik eşqi tərənnüm etmiş, milli ədəbiyyatın formalaşmasında mühüm rol oynamışlar.

Türk təfəkkür həyatında XIX əsrin ortalarına qədər millət, xalq, cəmiyyət, ümmət anlayışları bir ictimai-psixoloji, ictimai-iqtisadi və ictimai-siyasi məna qazanmamışdı. 1789-cu ildən başlayaraq ortaya çıxan və XIX əsrdə Avropada bir dünyagörüşü şəklinə düşən anlayışlardan biri olan millət və ondan törəyən milli, millətçilik fikirləri Türkiyədə XIX əsrin sonu XX əsrin əvvəllərində ictimai və ictimai-siyasi məna kəsb etməyə başladı ki, bu yöndə də ilk addımları atan türk yazıçı, şair və dramaturqları olmuşlar. Millətçilik dünyagörüşü milli dilə, milli tarixə, milli ədəbiyyata əsaslanaraq xalqın inkişafında mühüm rol oynamağa və tədricən ideoloji-siyasi məna kəsb etməyə başladı. Bu dövrə qədər türk ziyalılarını daha çox düşündürən xanədanın davam etdirilməsi, dövlətin, daha doğrusu, imperatorluğun güclü qalması və di-

nin (İslam dini - R.Ə.) qorunması idisə, millətçilik hərəkatının başlanması ilə bunların əvəzinə milli birlik, müstəqillik, dil, tarix və digər ictimai-mədəni birliklər şəklində bütünləşmə arzusu baş qaldırdı. Bu dövrdə qəzet və jurnalların təsiri ilə yaranan yeni fikir və ədəbiyyat cərəyanları, Avropanın təsiri ilə yetişən milli filosof və sosioloqlar ölkə daxilində millətçiliyin oyanışını sürətləndirdilər. Fikir və ədəbiyyat sahəsində çalışanlar milli mənlik və milli kimlik şüurunu aşılayan əsərlər yazdılar, dilçilər dil ilə insan topluluqları arasındakı ictimai-psixoloji əlaqələri tədqiq etdilər, tarixçilər millətin milli keçmişini araşdırdılar. Filosof və sosioloqlar millət, cəmiyyət, milli dövlət, liberalizm, materializm, demokratiya və hətta sosializm kimi anlayışlara təriflər verərək, onları sistemli şəkildə işləməyə başladılar.

Avropada 1850-1870-ci illərdə tam formalaşan millətçilik düşüncəsi Osmanlı imperatorluğunda XIX əsrin ikinci yarısından başlayaraq, ilk öncə xristian azlıqlar, sonra müsəlman olan ərəblər, ən sonda isə türklər arasında yaranmağa başladı.

Avropada 1850-ci ildən sonra qəbul edilən «Millətlər Prinsipi» millətlərarası hüququn ana prinsiplərindən sayılmış, millətlərin öz milli kimliklərinə sahib çıxaraq sülh içində bir arada yaşaması anlayışı ortaya atılmış, milli birlik və müstəqillik anlayışları ana ideala çevrilmişdi. Avropada başlayan millətçilik dalğası tarix boyu davam edən dövlətlər mübarizəsini milli çatışmalara sürüklədi, millətlər arasında rəqabət və düşmənçilik yaratdı. Bununla da imperatorluqlar parçalanaraq ayrı-ayrı milli dövlətlərə çevrildilər. Beləliklə də, Balkan müharibələri «Osmanlılığı», Birinci dünya müharibəsi isə «İslam



birliyi» kimi dövlət siyasəti fikirlərini iflasa uğratdı. Bütün bunlar türk ziyalılarını özünə qayıdışa sövq etdi. Bu özünə qayıdış ilk öncə mətbuatda, sonra isə ədəbiyyatda, ən sonda isə ideologiya və siyasətdə özünü göstərdi.

İdeoloji və siyasi «Türkçülük» haqqında III fəsildə geniş bəhs etdiyimizdən biz bu bölümdə yalnız ədəbi «türkçülük»dən bəhs edəcəyik. Yusif Akçuraoğlu, Əli bəy Hüseyinzadə, Əhməd Fərid, Əhməd Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Ziya Göyalp kimi ideoloji və siyasi «türkçülər» belə ilk olaraq öz «türkçülük»lərini ədəbi-bədii əsərlərdə göstərmişlər. Adı çəkilən «türkçülər»in həyat və fəaliyyəti ilə III fəsildə geniş bəhs etmişik. Burada daha çox digər milli ədəbiyyat yaradıcılarının fikir və düşüncələrindən, dil və ədəbiyyat görüşlərindən, əsərlərindən bəhs edəcəyik.

Hər bir ədəbi məhsul bir millətə aid olduqda milli sayılır. Bu anlamda Türkiyədə «Milli ədəbiyyat» anlayışı 1908-1922-ci illərdə yaranan ədəbi axının xüsusi adıdır. Bu ədəbiyyatın yaradıcıları, hər şeydən əvvəl, xalqın anlayacağı bir dildə əsərlər yazmağı, ədəbiyyatın xalqın savadlanması və inkişafına yardım etməsini, milli şüuru gücləndirməsini qarşılarına məqsəd qoymuşdular. Türk ədəbiyyatı tədqiqatçıları bu dövr «Milli ədəbiyyat» təmsilçilərinin şeir qolunu təşkil edənləri beş qrupa bölmüşlər.

Birinci qrupa Mehmed Əmin Yurdaqulu, Hüseynzadə Əli Turanı, Ziya Göyalpı və Ömər Seyfəddini aid etmiş və göstərmişlər ki, onlar «yazdıqları şeirin bədii təfəkkür ünsürlərinə uzaq keçmişi və tarixi coğrafiyanı da qatan və dillərində də bu mövzuya aid ünsürləri

yerləşdirən» sənətkarlardır (77, 491). Bu qrupa daxil olan şairlər həm əruz, həm də daha çox milli vəzn olan heca vəznində şeirlər yazaraq türklərin tarixində olan hadisələri və coğrafiyasına aid ünsürləri bədii təfəkkür süzgəcindən keçirərək qələmə almış, sadə dili, ədası, ahəngi və forması ilə türk xalqının bəyəndiyi və anladığı bir sənət əsəri yaratmışlar. Bu qrupdakı şairlər şairdən daha çox yol açıcı, yol göstərici bir ideoloqlardır. Onlar şeirlərində türk xalqına tarixi torpaqlarına bir məhəbbət hissi aşılamağı qarşılarına məqsəd qoymuşdular və buna da nail oldular.

İkinci qrupa Mehmed Əli Tevfik, Əli Canib, Fuad Köprülü, Aqil Qoyunçu, Cəlal Sahi, Ənis Avni kimi daha çox əruz vəznində yazıb-yaradan şairləri aid edirlər. Bunlar da əruz vəznində yazdıqlarına baxmayaraq, milli ruhda şeirlər yazmış, Türkiyəyə bir məhəbbət aşılamağa çalışmışlar.

Üçüncü qrupa Xalid Fəxrini, Yusif Ziyanı, Ənis Bəhici, Orxan Seyfini, Faruk Nafizi, İbrahim Ələddini, Şükufə Nihalı, Xalidə Nüsrəti, Kəmaləddin Kamini, Necdət Rüşdünü aid edir və göstərirlər ki, bu «şairlərin böyük bir qismi əruz vəzni ilə şeir yazmağa başlamış, «Fəcri-ati» mənsubları və xüsusilə Şəhabəddin Süleymanın təsirində qalmaqla bərabər əsil şöhrətlərini heca vəznini işlətməklə qazanmışlar» (77, 492). Onlar bədii təfəkkürlərində isə fərdi eşqdən ictimai bütünləşməyə, I dünya müharibəsində ordunu ruhlandırmaqdan İstanbul və Anadolunun işğalına, mənsub olduqları türk xalqının yoxsulluğu və çarəsizliyindən qəhrəmanlığına qədər bir çox vəziyyət, anlayış, duyğu və xəyallarını canlandırmışlar. Bu şairlər aşıq şeirindən daha çox bəhrələnmiş, dil və təsvirləri ilə türk şeirinin sadələşməsində əvəzsiz xidmətlər göstərmişlər. Bu şairlərdən Faruk Nafiz xüsusilə milli ədəbiyyatın və heca vəzninin klassiki kimi Türk ədəbiyyatı tarixində özünəməxsus yer tutur.

Dördüncü qrupa Rza Tofiqi, Sanılı Rifatı, Ehsan Raifi və Neyzən Tofiqi aid edirlər. Bu şairlər milli bədii təfəkkürlə dini xarakterli şeirlər yazmış, dil və üsullarında lirik şeirin bənzərsiz nümunələrini yaratmışlar.

Beşinci qrupa Yəhya Kamalı, Mehmet Akifi və Saleh Zəkini aid edirlər və göstərirlər ki, bu sənətkarlar xalqla bütünləşmiş, milli ədəbiyyatın əsaslarını yaratmışlar. Türklərin Səlcuqlardan başlayaraq öz dövrünə qədərki möhtəşəm tarixini şeirlərdirmiş Yəhya Kamal özünəməxsus bir məktəb yaratmış, türk şeirinin təfəkkür dünyasına bir mükəmməllik gətirmişdir. Türk toplumunu məscidlərdə yaxalayaraq mövcud ətalətdən qurtarmağa çalışan, türk şeirinə yeni əxlaq, iman və milli duyğu gətirən Mehmet Akif bədii təfəkkürün imkanlarından lazımınca yararlanaraq milli şeir nümunələri ilə xalqla bütünləşmiş sənətkarlardandır.

Saleh Zəki isə qədim yunan və Anadolu mifologiyasından yararlanaraq türk şeirinə yeni bir estetika gətirmişdir.

Bütün bu beş qrupdakı şairlərin əksəriyyəti Cümhuriyyət dövrü Türkiyəsində də öz yaradıcılıqlarını davam və inkişaf etdirərək şeirlərini kitab halında nəşr etdirməyə müvəffəq oldular.

Milli ədəbiyyatın nəsr qolu daha da inkişaf edərək «Ədəbiyyati-cədidə»dən fərqli olaraq Avropanı təqlid və tərənnümdən qurtulmuş, «alafranqaçılıq» rədd edilmiş, türk toplumu ilə hər yönlü bütünləşən, millətini dərk edən,

tarixinə və vətəninə sahib çıxan, bu yolda yazıları və əməlləri ilə mücadilə edən, dili sadələşdirməyi vasitə deyil, məqsəd sayan, türk danışıq dili və üslubunu ədəbiyyata gətirən böyük bir yazıçılar ordusu meydana gətirmişdi. Bu dövrdə yazıb-yaradan Ömər Seyfəddin, Əbubəkr Hazim, Ənis Avni (başqa adı Aka Gündüz – R.Ə.), Rəfiq Xalid, Müftüoğlu Əhməd Hikmət, Xalidə Ədib Adıvar, Yaqub Qədri Qaraosmanoğlu, Güzidə Səbri (Aygün-R.Ə.), Müfidə Fərid (Tək – R.Ə.), Rəşad Nuri Güntəkin, Xalidə Nüsrət Zorlutuna kimi milli sənətkarlar millətçilik idealına bağlı qalaraq əsərlərində türklük məfkurəsini, I dünya müharibəsinin doğurduğu əxlaqi, iqtisadi, siyasi və hərbi təzadları, Rusiyada və dünyada baş verən hadisələri, Ural-Altay dil və tarix məsələlərini, qədim yurdlarını və Asiya türklərinin taleyini, türk qadın dünyasını romantik və realist bir şəkildə canlandırmağa çalışmışlar. Bu dövrün ən sanballı əsərlərindən olan Ömər Seyfəddinin «Yarınkı Turan Dövləti», «Türk məfkurəsi», Müftüoğlu Əhməd Hikmətin «Çağlayanlar» adlı hekayələr toplusu, «Könül xanım» adlı romanı, Rəfiq Xalidin «Məmləkət hekayələri», Xalidə Ədib Adıvarın «Xarab məbədlər», «Dağa çıxan qurd», «Yeni Turan», «Atəşdən gömlək» romanları, Müfidə Fərid xanımın «Aydəmir» romanı türkçülük düşüncəsi və milli mücadiləni əks etdirən, milli ədəbiyyatın bir nəslə işıq tutan inciləridir.

Bu dövrün milli ədəbiyatının formalaşmasında mühüm yerlərdən birini də dram janrı təşkil edir. Bu dövrdəki dram əsərlərinin bir qismini çap olunub teatrda oynanmayan, bir qismini də çap olunmayıb teatrda oynanan əsərlər təşkil edir. Bu dövrdə qələmə alınan dram əsərlərini tədqiqatçılar üç qrupa bölürlər:



Birinci qrupa tarixi dramları, ikinci qrupa ailə-məişət məsələlərindən, sevgidən bəhs edən pyesləri, üçüncü qrupa isə ədəbi və siyasi türkçülüklə bağlı pyesləri daxil edirlər.

Tarixi dramların bir qismi uzaq keçmiş, bir qismi isə yaxın keçmişi əks etdirən əsərlərdir. Tarixi, ailə-məişət və millətçiliklə bağlı olmasından asılı olmayaraq bu əsərlərdə daha çox anlaşıqlı danışıq dilindən və heca vəzni ilə yazılan nəzmdən istifadə edilmişdir.

Bu dövrün ən mühüm xüsusiyyətlərindən biri də ədəbiyyat nəzəriyyəsinə, tənqid və ədəbiyyat tarixinə aid əsərlərin yeni metodla, milli ədəbiyyat çərçivəsində yazılmasıdır. Bu əsərlər içərisində Şəhabəddin Süleyman ilə Fuad Köprülünün birlikdə yazdıqları ikicildlik «Məlumati-ədəbiyyə» adlı metodiki ədəbiyyat nəzəriyyəsi, Fuad Köprülünün «Türk ədəbiyyatında ilk mütəsəvviflər», iki cildlik «Türk ədəbiyyatı tarixi», «Azəri ədəbiyyatına bir nəzər» adlı əsərləri, İbrahim Nəcmi Dilmənin iki cildlik «Tarixi-ədəbiyyat dərsləri» adlı əsəri, Nüzhət Haşimin «Milli ədəbiyyata doğru» adlı antologiyası ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi baxımından mühüm əhəmiyyət kəsb edirlər. Bütün bu adı çəkilən sənətkarlardan Namiq Kamalın, Əbdülhəq Hamidin, Mehmed Əmin Yurdaqulun, Ziya Göyalpın və Fuad Köprülünün XIX əsrin sonu XX əsrin əvvəllərində yazıb-yaratmış Azərbaycan şair, dramaturq, yazıçı, tənqidçi və ədəbiyyat tarixçiləri və bütövlükdə maarifçilərinə qüvvətli təsirləri olmuşdur. Bütün bu milli mətbuat və milli ədəbiyyat yaradıcıları olmasaydı milli güc bir yerə yığıla bilməz, Azərbaycan və Türkiyə Cümhuriyyətlərinin təməlləri belə rahatlıqla qurula bilməzdi. Çünki millətlərin oyanışı, onların vahid bir ideologiya ətrafında birləşib

siyasi təşkilatlanması yalnız o millətin intellektual şəxsiyyətlərinin, ədib, maarifçi və ictimai xadimlərinin sayəsində mümkündür. Millət öz intellektlərinin çiyinləri üzərində yüksəlir, tarixdə yaşama haqqı qazanır.

Birinci dünya müharibəsi Almaniya və müttəfiqlərinin məğlubiyyəti ilə nəticələndiyindən Almaniyanın müttəfiqi olan Osmanlı imperatorluğu da 30 oktyabr 1918-ci ildə «Mondoros» sülh müqaviləsini imzalayaraq düşmənə təslim oldu. Osmanlı imperatorluğuna daxil olan ölkələr qalib dövlətlər tərəfindən paylaşdırıldı. Düşmən qüvvələri Anadolu yarımadasına daxil oldu, ittihad və tərəqqiçilər xaricə qaçmağa məcbur oldular. Osmanlı imperatorluğuna daxil olan ərəb ölkələri müttəfiq düşmən dövlətlər tərəfindən nüfuz dairəsinə alındıqdan sonra fransızlar Adana və Anadolu dəmiryolu boyunca ən əhəmiyyətli yerləri işğal etdilər. 29 aprel 1919-cu ildə italyanlar Antalya bölgəsinə hərbi qüvvə çıxardılar. İzmiri işğal edən yunanlar az bir zamanda hərbi güclərini xaricilərin hesabına artıraraq Türkiyənin içərisinə doğru irəliləməyə başladılar və türkləri sıxışdıraraq öz yerlərindən çıxarmağa müvəffəq oldular. Yüz minlərlə türkü köçkün vəziyyətinə salaraq ölkənin bir çox ərazilərini işğal etdilər. Hadisələr bu şəkildə cərəyan edərkən məmləkətin gələcəyi haqqındakı fikir ayrılıqlarına son qoymaq məqsədi ilə ölkəni idarə edənlərlə ziyalılar arasında bir yaxınlıq yarandı və onlar birlikdə ölkənin gələcəyi üçün bir çarə düşünməyə başladılar. Onların bir qismi müstəqil olaraq yaşamağın ingilis və Amerika mandatı altında mümkün ola biləcəyini, başqa bir qrupu silahlı milli mücadiləyə başlamağı, digər bir qrup isə məsələni diplomatik yolla həll etməyi düşünürdülər. İlk əvvəllər məsələni diplomatik yolla həll



etməyə çalışanların sayı çoxluq təşkil edirdi. Lakin yunan işğalı geniş vüsət alınca silahlı milli mücadiləyə başlamaq tərəfdarlarının haqlı olduqları ortaya çıxdı. Buna baxmayaraq, iqtidarda olan «Hürriyət və itilaf» partiyası milli mücadiləni də bir İttihad və Tərəqqi hərəkatı kimi qəbul edərək kor-koranə ona da qarşı çıxdılar.

Osmanlı imperatorluğunun və bütövlükdə Türk dünyasının ictimai-siyasi və ideoloji həyatında mühüm rol oynayan «türkləşmək, islamlaşmaq, müasirləşmək» ideologiyasını dövlət siyasəti səviyyəsinə qaldıran və xüsusilə Müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında müstəsna rol oynayan «İttihad və Tərəqqi» təşkilatı və onun liderlərindən sayılan Ənvər paşa, Tələt paşa və Camal paşadan xüsusi bəhs etmək lazım gəlir.

Yuxarıda da qeyd edildiyi kimi, «İttihad və Tərəqqi Cəmiyyəti» 1897-ci ildə Əhməd Rza tərəfindən yaradılmış, daha sonra «Osmanlı Hürriyyət Cəmiyyəti» də ona daxil olunca daha da güclənmişdi. 24 aprel 1909-cu ildə Sultan II Əbdülhəmidin taxtdan salınması və yerinə Sultan V Mehmet Rəşadın gətirilməsi ilə «İttihad və Tərəqqi Cəmiyyəti» faktiki olaraq hakimiyyəti ələ keçirmişdi. Cəmiyyətin Mərkəzi Komitə üzvləri və siyasətə qarışmağa başlayan ordu qüvvələri arasında ölkənin xarici siyasəti haqqında tam fikir birliyi yox idi. Komitənin ən nüfuzlu təmsilçisi Tələt bəylə ordu təmsilçisi Ənvər bəy arasında da xarici siyasət məsələsində tam bir anlaşma yox idi. Belə ki, «Məşrutiyət»in elanından sonra Tələt bəyin Almaniyaya simpatiya göstərməsi Türkiyənin xarici siyasət kursunun müəyyənləşməsində ən böyük əngələ çevrilmişdi. Ənvər bəyin «Türkiyənin ən qüdrətli şəxsiyyəti», «Gələcəyin adamı» adlarını alması, onun birdən-birə üç rütbə

yüksəldilərək «Paşa» (General- R.Ə.) rütbəsi ilə Hərbi Nazirliyə gətirilməsi ölkənin getdikcə Almaniyaya daha da yaxınlaşmasına səbəb oldu. İttihad və tərəqqiçilər, xüsusilə, «Hürriyyət qəhrəmanı», «Trablis qəhrəmanı» və «Ədirnə qəhrəmanı» adı ilə də məşhurlaşan Ənvər paşa Almaniyanın Rusiyaya və Fransaya, İngiltərənin Almaniyaya müharibə elan etməsi ilə I dünya müharibəsinin başlanmasını və böyük dövlətlərin blok halında birləşməsini görüncə Türkiyənin ayaqda dura bilməsinin yalnız güclü bir ordu ilə mümkün olacağı qənaətinə gəldilər. Bu məqsədlə İttihad və Tərəqqi hökuməti və xüsusilə, Ənvər paşa ordunun islahı və gücləndirilməsi məqsədi ilə Liman von Sandersin komandanlığında bir alman hərbi heyətinin Türkiyəyə gətirilməsini qərara aldılar. «Qırx iki zabitdən ibarət bu heyət... İstanbula gətirildi və təcili olaraq ordunun islahatına başlanıldı» (3, 755). Həmçinin orduda reformalar aparılaraq rişxənd obyekti olan zabitlər və işə yaramayan paşalar təqaüdə göndərilərək türk ordusu tamamilə gəncləşdirildi. Səfərbərlik hazırlıqları üçün orduya cəlb ediləcək insanların siyahısı hazırlanmağa başlanıldı. Ərzurum və Trabzona gedən yolların təmirinə başlanıldı. Bütün bunlara baxmayaraq, ittihad və tərəqqiçilər bilirdilər ki, ölkənin iqtisadiyyatı və maliyyəsi bütün bir müharibəni təmin edəcək gücdə deyildi. Ona görə də müharibənin başlanması ilə Türkiyə öz tərəfsizliyini və bütün Türkiyədə «hərbi vəziyyət» elan etdi. Lakin hər ehtimala qarşı ittihad və tərəqqiçilər 2 avqust 1914-cü ildə Almaniya ilə Türkiyə arasında gizli bir «İttifaq» imzalamışdı (23, 227).

Türkiyədəki «İttihad və Tərəqqi» rejimi Rusiyada ilk vaxtlar yaxşı qarşılanmışdı. Lakin eyni zamanda ittihad



və tərəqqiçilərin Türkiyədə qurmaq istədikləri yeni idarəçilik formasının Türkiyəni yeniləşdirməsi və onu gücləndirməsi ehtimalı Rusiyanı əndişələndirirdi. Balkanlardakı hadisələr və Rusiyanın təqib etdiyi «Balkan İttifaqı»nın yaradılması ilə Türkiyə ilə Rusya arasında münasibətlər daha da gərginləşməyə başladı. Bu gərginliyi Sədrəzəm (Baş vəzir- R.Ə.) və Hərbi nazir Mahmud Şövkət Paşanın rus kəşfiyyatının da iştirakı ilə sui-qəsd nəticəsində öldürülməsi, Türkiyə daxilində Rus casus şəbəkəsinin və başda erməni, kürd və yunanlar olmaqla bir çox ruslara xidmət edən agentlərin fəaliyyəti daha da artmışdı. Həmçinin Türkiyə sərhədlərinə yaxın olan bəzi şəhərlərdə, xüsusilə Batumi və Odessada ittihad və tərəqqiçilərə qarşı fəaliyyət göstərən bəzi türk mühacirlərinin Rusiya tərəfindən himayə olunması da bu gərginliyi artıran səbəblərdən idi. Lakin bizcə ən mühüm səbəb Rusiyanın Türkiyəyə qarşı təqib etdiyi siyasətin və məqsədinin əsasını təşkil edən Boğazların (Bosfor və Dardanel boğazlarının) və İstanbulun Rusiyanın nəzarəti altına keçməsinə çalışması idi.

Rusiya ilə Türkiyə arasındakı münasibətlərin düyün nöqtələrindən biri də hələ XIX əsrin ortalarından gündəmə gətirilən «erməni məsələsi» idi. Hələ 1804-cü ildə Yerevan və Eçmiədzin ərazisinin Rusyanın əlinə keçməsi ilə çar Rusiyası erməniləri Türkiyəyə qarşı siyasətində bir alət olaraq istifadəyə başlamışdı. Ermənilərin xristian dininə mənsub olmaları Rusiya üçün çox əlverişli idi. Din ayrılığından faydalanaraq Rusiya ermənilərdən maksimum istifadə etməyə çalışdı və indi də çalışmaqdadır. Dörd bir tərəfdən Türklər və müsəlman acarların əhatəsində olan ermənilər rusların himayəsi sayəsində «nəfəs ala

biləcəklərini» düşündülər. Və mərhələ-mərhələ bu düşüncələrini həyata keçirərək çox çəkmədən Rusiyaya can-başla yarınmağa başladılar. 1829-cu ildə ermənilərin də yaşadığı Qars və ətrafının bir müddət rus işğalı altında qalması nəticəsində ruslarla ermənilər arasında bir yaxınlaşma olmuş və daha sonralar 1854-55-ci illərdə Qarsın yenidən rusların əlinə keçməsi ilə bu yaxınlıq daha da güclənmişdi. Osmanlı imperatorluğunun hər tərəfində, xüsusilə xristian, yunan, serb və bolqarlar arasında başlayan xristian hərəkatları ermənilərə də öz təsirini göstərmişdi. Bütün bu Osmanlı təbəəsi olan xristianlara xristian Avropanın və xüsusilə Rusiyanın himayədarlığı və Osmanlı imperatorluğunu daxildən partlatmaq siyasətləri nəticəsində ermənilər də baş qaldırdı və «erməni dövləti»yaratmaq üçün kilsə xadimləri və siyasilər bir araya gələrək «Daşnak-sütun» təşkilatını yaratdılar və dünyanın müxtəlif yerlərində yaşayan hayları kilsə və «Daşnak-sütun» ətrafında birləşdirməyə başladılar.

Zəifləmiş Osmanlı imperatorluğu Xristian Avropanın və Rusiyanın təzyiqi ilə «Ayastefanos» və daha sonra «Berlin» müqavilələrini imzalayaraq bir çox məsələlərlə yanaşı «erməni məsələsini» də bu «Müqavilələrə» daxil etməyə məcbur oldu. Avropalıların əsassız olaraq «Ermənistan» adlandırdığı siyasi-coğrafi ərazi ilk olaraq Türkiyə ərazisindəki xristian assorilərin də yaşadığı və ermənilərlə birlikdə əhalinin üçdə birini təşkil etdiyi Ərzurum, Van, Bitlis və Diyarbəkiri əhatə edirdi. İngiltərə və Rusiyanın təzyiqi ilə Osmanlı imperatorluğunda ermənilərlə də bağlı bir reformanın həyata keçirilməsi tələb olunsa da, Sultan II Əbdülhəmid bu «reforma»ların arxasında nələr gizləndiyini bildiyi üçün bunları mümkün qədər gecikdirməyə



çalışmış və qismən də olsa bunun qarşısını almışdı. Lakin Osmanlı dövlət idarələrində bir çox ermənilərə vəzifələr verilmiş, hətta Dövlət Şurası və bəzi nazirliklərdə onlar yüksək postlara təyin edilmişdilər. Sonralar bu vəzifəli ermənilər də dövlətə qarşı çıxan ermənilərə qoşulduğundan Sultan II Əbdülhəmid tərəfindən ciddi cəzalandırılmışlar. Bütün bunlara təpki göstərən Avropa və Rusiya Osmanlılara qarşı təzyiqi daha da gücləndirərək öz mövqeləri xatirinə ermənilərdən istifadəyə çalışdılar. Beləliklə də, «Daşnak» təşkilatının Türkiyənin hər yerinə yayılması, erməni kilsələri və məktəblərinin silah cəbbəxanasına çevrilməsi erməniləri Türk döv-lətinin «can düşməni»nə çevirdi ki, bu işdə İngiltərə, Rusiya, Fransa, Almaniya və İtaliya dövlətləri ilə yanaşı Amerika missionerləri də xüsusi fəallıq göstərdilər. Ermənilər isə bu işdə daha çox çar Rusiyasına ümid bəsləyir, onlara yarınmağa çalışırdılar. Rusiyanın ermənilərlə yaxın münasibətlər yaratmasının əsas səbəbi isə Rusiyanın Aralıq dənizinə çıxması arzusundan nəşət etmişdi. «Boğazlar» (Bosfor və Dardanel boğazları nəzərdə tutulur- R.Ə.) vasitəsilə Aralıq dənizinə çıxmaqda həmişə bir çox əngəllərlə qarşılaşan Rusiya Ermənistan üçün cızılan siyasi xəritəni genişləndirərək, İskəndərun körfəzinə qədər uzatmış və gələcəkdə yaradacağı Ermənistan ərazisini də öz imperatorluğuna qataraq birbaşa Aralıq dənizinə çıxış əldə etmək niyyətində idi. Bu məqsədlə Rusiya assori və kürdləri də Osmanlılara qarşı ermənilərlə birgə mübarizəyə hazırlamağa cəhd göstərirdi. Bitlisdəki erməni üsyanında rusların barmağı var idi. Assorilərin dini rəhbəri Mar Şunuma, kürd ağalarından olan Sadiqin də ruslarla sıx əlaqələri var idi. Beləliklə, «Balkan müharibəsi»nin ən böhranlı anlarında ruslar Şərqi Anadoluda bir

çox intriqalar yaratmağa müvəffəq olmuşdular. Rusların bu intriqaları 8 fevral 1914-cü il tarixli «Erməni reforması» adlı müqavilədən sonra da davam etdirildi. I dünya müharibəsinin başlanması və ermənilərin yaşadıqları bir neçə Türk vilayətlərinin rus işğalına məruz qalması sanki «erməni məsələsi»nin tam həll edilməsini sürətləndirdi. Ruslar tərəfindən silahlandırılan və təlimatlandırılan ermənilər «erməni drujinaları» yaradaraq hərbi təlimlər keçmiş və ruslarla birlikdə Şərqi Anadoluda amansız qətllər törədərək minlərlə türkü yurd-yuvasından didərgin salmışdılar.

Böyük dövlətlərdən heç birinin Türkiyə ilə idtifaq bağlamaması və hətta bütün «Antanta» dövlətlərinin Türkiyəyə düşmən münasibət bəsləməsi, Türkiyə və Almaniya arasında yalnız Rusiyaya qarşı ittifaq bağlanması Türkiyəni I Dünya müharibəsinə zorla qatılmağa məcbur etmişdi. İngiltərə və Rusiya Türkiyəni hərbi cəhətdən əhəmiyyətsiz hesab etsələr də, onlar Türkiyənin Almaniyanın tərəfində müharibəyə qatılmasını istəmirdilər. Çünki əgər Türkiyə müharibəyə qoşulsa, onda Rusiya Qafqaz cəbhəsində ordu saxlamağa məcbur olacaq və beləliklə də, Almaniyaya qarşı döyüşlərdə rus ordusu iki cəbhədə vuruşmalı olacaqdı ki, bu da «Antanta» nı təmin etmirdi. Rus siyasi və hərbi xadimləri müharibənin mütləq qələbə ilə nəticələnəcəyinə inandıqlarından, müharibədən sonra müttəfiqləri ilə razılığa gələrək «Türk məsələsi»nin rusların dilədiyi şəkildə həll ediləcəyinə əmin idilər. İngiltərə isə ona görə Türkiyənin Almaniyanın tərəfində müharibəyə qoşulmasını istəmirdi ki, İngiltərənin Aralıq dənizində əsgər və donanma saxlamasına bu anlarda imkanı yox idi və İngiltərə və Türkiyə arasında açıq ixtilafa səbəb ola biləcək problemlər mövcud deyildi. Bütün bunları nəzərə alan Türkiyənin ən aparıcı şəxsiyyəti olan Ənvər paşa bu qanlı müharibədən Türkiyəni xilas etmək məqsədi ilə Rusiya attaşesinə doqquz bənddən ibarət bir «Bəyanat» (4, 230) təqdim etmişdi. Bu «Bəyanat»da Ənvər Paşa Türkiyənin daxili və xarici siyasəti, Rusiya ilə müqavilə bağlanarsa bunun hər iki ölkənin xeyrinə olacağı barədə müfəssəl məlumat vermişdi. Lakin bəlli olduğu kimi, Rusiya xarici işlər nazirliyi Türkiyənin bu sağlam təkliflərini qəbul etməmiş və Türkiyə də çıxış yolunu yalnız Almaniya ilə ittifaqda görmüşdü.

Beləliklə, 1915-ci ildə rus orduları Şərqi Anadoluya gələrək, Türkiyənin bir çox yerlərini zəbt edərək 1916-cı ildə Ərzincana qədər yürümüşdülər. Lakin əlacsız qalan Türkiyənin Almaniyanın tərəfində müharibəyə qoşulması nəticə etibarı ilə Rusiyanın məğlubiyyəti ilə nəticələnmişdi. Çanaqqalada ingilis və fransız donanma və ordusunun tam məğlubiyyətə uğradılması Qərb və Cənub cəbhələrindəki rus ordularını müttəfiqlərinin vəd etdikləri hərbi yardımdan məhrum etmiş və rus orduları Almaniya qarşısında sürətlə məğlub duruma düşmüşdü. Həmçinin Türk donanmasının ixtiyarına verilən «Goeben» və «Breslau» (daha sonra «Yavuz» və «Midilli»-R.Ə.) alman hərbi gəmilərinin Qara dənizə çıxışı Qara dənizdə türk donanmasını daha da gücləndirdi və türk donanması Odessa, Sevastopol və Novorossiyskini top atəşinə tutdu. Bu hadisə Rusiya, İngiltərə və Fransa dövlətləri tərəfindən güclü etirazla qarşılandı və bu ölkələrin hər biri Türkiyədəki səfirlərini geri çağırdılar və Türkiyə ilə diplomatik münasibətlərini kəsdilər. Beləliklə, Türkiyə artıq bütün Antanta dövlətləri ilə rəsmi olaraq müharibə vəziyyətinə gətirildi. Bizi

bu müharibədə ən çox maraqlandıran və birbaşa mövzumuzla əlaqədar olan ittihad və tərəqqi yetkililərinin Qafqaz və ən başlıcası Azərbaycan siyasətidir.

Tarixdən bəllidir ki, Türkiyənin, daha doğrusu, Osmanlı imperatorluğunun Rusiyaya qarşı müdafiə qalası sayılan Qars, öncə 1828-ci ildə, daha sonra 1877-ci ildə rusların əlinə keçmiş və beləliklə də, Qars bir rus hərbi qalası şəklinə salınmış və türklərin Transqafqaziyaya girişi yolunda ən böyük maneəyə çevrilmişdi. I dünya müharibəsinin ilk ilində Ənvər Paşanın şəxsi komandanlığı ilə «Sarıqamış məğlubiyyəti» (2 yanvar 1915-ci il) də Türkiyənin Qafqaza daxil olmasını və buradakı müsəlman türklərin rus əsarətindən xilas olmasını əngəlləmişdi. Ənvər paşanın «Türk ellərini birləşdirmə» adlı hərbi planını həyata keçirmək üçün yaratdığı «Qafqaz İslam Ordusu» yalnız 1918-ci ildə formalaşa bildi.

Rusiyada baş verən 1917-ci il fevral və daha sonra oktyabr inqilabları Türkiyədə sonsuz bir həyəcan yaratdı, qeyb olmağa başlayan ümidlər yenidən canlandı. İstanbul və Anadolu qəzetlərində Rusiyadakı türklərlə, xüsusilə türklərin qapıbir qonşusu olan Qafqaz və Azərbaycanla bağlı yazılar dərc edilməyə başlandı. Bu dövrdə Dağıstan, Krım, İdil-Ural (Qazan) türkləri ilə yanaşı Milli Məclisin sədri M.Ə.Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan heyəti də İstanbula gəldi. Bütün heyətləri səmimiyyətlə qəbul edən Ənvər paşa onlara əlindən gələn yardımı edəcəyinə söz verdi və doğrudan da, verdiyi sözə əməl etdi. Beləliklə də, ittihad və tərəqqi yetkililəri Rusiya müsəlman türklərinin ən böyük hamisi rolunu öz üzərinə götürdü. Rusiya türkləri tərəfindən edilən müraciətlərə müsbət yanaşan Ənvər və Tələt paşalar onlara hərbi yardım göstərməyə də



söz verdilər. Türkiyənin bu yöndə müvəffəqiyyət əldə etməsi üçün hər şeydən əvvəl Bakını və bütövlükdə Azərbaycanı bolşevik-daşnak birləşmələrinin əlindən qurtarmaq lazım idi.

Azərbaycanın 28 may 1918-ci ildə elan olunan müstəqilliyini ilk tanıyan ölkə Türkiyə oldu. 4 iyun 1918-ci ildə Batumda iki dövlət – Türkiyə və Azərbaycan arasında bir «Dostluq müqaviləsi» imzalandı. Bu «Müqavilə»nin IV maddəsinə görə Türkiyə Azərbaycana hərbi yardım göstərməyi öhdəsinə götürmüşdü.

M.Ə.Rəsulzadənin İstanbula gəlməsi münasibəti ilə «Türk Ocağı»nda böyük bir rəsmi qəbul təşkil edilmiş və «Türkçülük» ruhunda atəşin nitqlər söylənmişdi. M.Ə.Rəsulzadənin «Azərbaycan gəncliyinin daima Türkiyə ilə bərabər olacağı» haqqındakı bəyanatı sürəkli alqışlarla qarşılanmışdı. Bu dövrdə İstanbul türk mətbuatında Qafqaz və Azərbaycanla bağlı xeyli məqalələr dərc edildi. Bütün bunlar ümumi türk fikrinin Azərbaycan və Qafqaz, xüsusilə Bakı ilə yaxından maraqlandığını göstərir.

Türk hökumətinin və onu idarə edən ittihad və tərəqqiçilərin başçıları olan Ənvər paşa və Tələt paşanın və bütövlükdə «Turan» ideyasının daşıyıcılarının əsas məqsədi Qafqazda Rusiya ilə Türkiyəni bir-birindən ayıran böyük bir İslam dövləti qurmaq, Rusiyadakı inqilabdan faydalanaraq Krım və Türküstanda Türkiyənin nüfuzunu qaldırmaq idi. İlk əvvəl Gümrünü (Aleksandropol – R.Ə.), daha sonra İqdırı, Culfa dəmiryolu üzərindəki Sərdarabad və Eçmiədzin stansiyalarını, Qarakilsəni general Nazarbekovun komandanlığı-ndakı erməni ordusundan təmizləyən türk ordusu, nəhayət, Culfadan 160 km-lik məsafəni ermənilərdən heç bir müqavimət görmədən keçərək 20

iyun 1918-ci ildə Azərbaycanda təşkil olunmuş könüllülərlə birləşib «Qafqaz İslam Ordusu» adı ilə Azərbaycan hökumətinin yerləşdiyi Gəncə (Yelizavetpol- R.Ə.) şəhərinə daxil oldu. «Qafqaz İslam Ordusu»na Ənvər paşanın ögey qardaşı Nuru paşa marşal (Feriklik- R.Ə.) rütbəsi ilə komandan təyin edildi.

Osmanlı türk ordusunun altı minlik Beşinci Qafqaz diviziyasına az bir zamanda on-on iki minə qədər Azərbaycan könüllüsü qatılaraq «İslam ordusu» adı ilə Müstəqil Azərbaycan Dövlətinin hərbi qüvvəsinə çevrildi. Bu «İslam ordusu»nun yaradılmasında əsas məqsəd Bakını erməni komissarı Stepan Şaumyanının başçılıq etdiyi erməni-bolşevik hökumətindən qurtarmaq və şəhəri əsas sahibləri olan azərbaycanlılara qaytarmaq idi.

Qafqazlardakı hadisələri diqqətlə izləyən Moskva Mərkəzi hökumətinin, almanların və xüsusilə ingilislərin gözü Bakıda idi. Bu məqsədlə Moskva Mərkəzi hökuməti bolşeviklərə, Bakıdakı erməni və ruslara arxalanan Şaumyana Bakının nəyin bahasına olursa-olsun Rusiyanın əlində saxlanması və türklərlə ingilislərin oraya buraxılmaması əmrini vermiş, Sovetlərlə almanlar arasında türklərin və ingilislərin Bakını ələ keçirmələrinə imkan verilməməsi haqqında 27 avqustda bir müqavilə bağlanmış, ingilislər isə Bakı neftinin türklərin və almanların əlinə keçməməsi üçün İraqdakı hərbi qüvvələrinin bir qismini İranın şimalına, daha doğrusu, Güney Azərbaycana və Xəzər dənizi sahilindəki Ənzəli limanına göndərməyi qərara almışdı. Bütün bunları nəzərə alan Bakı Soveti Moskva Mərkəzi hökumətinin, xüsusilə, Stalinin əmrinin əleyhinə olaraq ingilisləri Bakıya dəvət etmiş, Bakıda hökumət dəyişikliyi edərək başda Şaumyan olmaqla bir çox bolşevik



komissarı, o cümlədən də Mikoyanı həbs etmişdilər. Bakı Soveti menşevik, eser və Daşnak-sütun əlinə keçmişdi. İngilislər 4 avqust 1918-ci ildə Bakı limanına daxil olaraq şəhəri ələ keçirdilər.

Hadisələrin gələcək inkişafı və əldə edilən nəticələr haqqında daha sonra ətraflı məlumat veriləcək.

Bəşər tarixi sübut edir ki, hər bir xalqı tərəqqiyə, inkişafa hazırlayan, onu yüksəldən o xalqın içindən çıxan mütəfəkkirləri, başçıları, qəhrəmanları olmuşdur. Hər bir xalqı humanitar inqilablara, tərəqqiyə isə o xalqın maarifçiləri hazırlamışlar. Azadlıq və müstəqillik idealı ilk öncə ədəbi-bədii və fəlsəfi fikirdə formalaşır, daha sonra isə ictimai xarakter alaraq siyasi qurumları və dövləti yaradır. XX əsr müstəqil Azərbaycan Cümhuriyyətinin mənəvi memarları da məhz Bakıxanovlar, Mirzə Şəfilər, Mirzə Fətəlilər, Həsən bəy Zərdabilər, Seyid Əzim Şirvanilər, Əli bəy Hüseynzadələr, Əhməd Ağaoğlular, Məmməd Əmin Rəsulzadələr, Ömər Faiq Nemanzadələr, Cəlil Məmmədquluzadələr, Haqverdiyevlər, Vəzirovlar, Sabirlər, Cavidlər, Hadilər, Üzeyir bəylər, Cabbarlılar və bunlar kimi onlarla fikir adamları olmuşdur. Milli İstiqlal məfkurəsini Azərbaycan türklərinin şüuruna bu xalqın maarifpərvər şəxsiyyətləri yeləşdirmişlər. İctimai-fəlsəfi və bədii fikrin təmsilçiləri olan bu maarifçilər xalqa milli «mən» və «özünüdərk» şüurunu aşılamaqla ana dilinin imkanlarından istifadə edərək ədəbi həyatda demokratik mübarizə üsullarını da xalqa çatdırmaqda istedad və bacarığını əsirgəməmişlər.

Azərbaycan türklərinin elm, sənət, mədəniyyət və ədəbiyyat tarixində öz xüsusi özəlliyi ilə seçilən XIX-XX əsrlər Azərbaycan xalqının həyatında mühüm əhəmiyyət

kəsb edir. Təbii ki, bu mərhələnin ilk ən böyük memarı Mirzə Fətəli Axundovdur. Məhz M.F.Axundovla Azərbaycan ədəbi-fəlsəfi fikri Şərqlə Qərbin ənənələrini birləşdirərək ortaq məxrəcdə inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan bədii-fəlsəfi düşüncəsinin M.F.Axundovun fəlsəfi irsinin inkişafında Şərq və Qərb qanunauyğunluqları bir-biri ilə müqayisə edilir və təbii ki, üstünlük Avropaya verilir. Filologiya elmləri doktoru Yaşar Qarayev özünün «Azərbaycan ədəbiyyatı. XIX-XX yüzillər» adlı monumental əsərində göstərir ki, «Axundzadənin (Mirzə Fətəli Axundovun- R.Ə.) «Təmsilat»ının və fəlsəfi irsinin timsalında ... artıq dünya miqyasında bədii-estetik tərəqqinin Şərq və Qərb qanunauyğunluqları bir-biri ilə kəsişir və qovuşur... Bütöv bədii istiqamət, poetika, obraz-janr, dil-üslub sistemi, hətta yeni əlifba təşəbbüsü səviyyəsində və miqyasında islahatlar artıq bədii və fəlsəfi topologiyaının özünün məzmununda radikal keyfiyyət dəyişimindən xəbər verir. Vaxtilə Şərqləşən Qərbdə Esxilin, Sofoklun, Aristotelin oynadığı eyni ədəbi-tarixi rolu indi «Qərbləşən Şərqdə» M.F.Axundzadə oynayır» (44, 166).

Bəllidir ki, orta əsrlərdə Azərbaycan ərazisində Azərbaycanın quzeyinin çar Rusiyası tərəfindən işğalına qədər - Eldənizlər, Elxanilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar və Qacarlar kimi müstəqil Azərbaycan – türk dövlətləri və ayrı-ayrı xanlıqlar mövcud idi. Bu dövrlərdə yazıb-yaradan Xaqani, Nizami, Nəsimi, Həbibi, Xətai, Füzuli, Vaqif və bu kimi onlarla şairlər müstəqil Azərbaycan dövlətinin sənətkarları idilər. Onları bir-birinə bağlayan vahid din, eyni fəlsəfi simvolikalar, ənənəvi üslub və poetika sistemi və uzun müddət sabit Şərq bədii təfəkkürü idi. Şərq bədii və elmi-fəlsəfi dünyagörüşündən ayrılıb Avropa orbitinə keçid Azərbaycanda məhz Mirzə Fətəli Axundovla başlayır. İslam Şərqi ilə yeni Qərb mədəniyyəti arasında ədəbi-bədii, ictimai-fəlsəfi körpü rolunu oynamaq yenə də Mirzə Fətəli Axundovun adı ilə bağlıdır. M.F.Axundov öz qədim türk genini və «mən»ini itirmədən Qərbdəki çağdaş, modern ədəbi və fəlsəfi proseslə üzvi təmasa girərək yeni tipli realist ədəbiyyatın əsasını qoyur. Onun ictimai, sosial və bədii-fəlsəfi fikrə gətirdiyi yeniliklər sözün həqiqi mənasında ümumşərq əhəmiyyəti daşıyırdı. Onun Azərbaycanda yaratdığı fəlsəfi və nəzəri təlim, dram və nəsr əsərləri bütün Yaxın və Orta Şərq maarifçiləri üçün bir örnək idi. O, Şərqdə və deməli, həm də Azərbaycanda dərin kök salmış xurafatın və ifrat sxolastikanın kökünü qazıyır, ümumşərq dərdlərinin mahiyyətini üzə çıxarır, bu dərdlərdən qurtulmağın yollarını qərbləşməkdə-avropalaşmaqda görürdü.

M.F.Axundova qədərəki Şərqdə, o cümlədən də Azərbaycanda həm təbiət, həm cəmiyyət və həm də Tanrıya münasibətdə ikili təlim dini-fəlsəfi və elmi-fəlsəfi təlimlər hakim idi ki, bunların da əsasını Eşq, Məhəbbət fəlsəfəsi təşkil edirdi. Təbiət, cəmiyyət və Tanrıya yeni münasibət M.F.Axundovla ona qədərki fəlsəfi dünyagörüş arasında bir başqalıq yaratmışdı. Tarixdə məşhur Füzuli-Mirzə Fətəli antitezası da bu Təbiətə, Cəmiyyətə və Tanrıya yeni münasibətlərdən yaranmışdır. Yaşar Qarayevin yazdığı kimi, «Füzulini «ustadi-nazim» hesab etməsi Axundzadənin (Mirzə Fətəli Axundovun - R.Ə.) zövqünün yox, bütövlükdə maarifçi estetikanın və onun fəlsəfi-sosial məntiqinin «səhvi» idi: eyni məntiqlə Volter də Şekspiri bəyənmirdi» (44, 243).

Mirzə Fətəli Axundovun yaradıcılıq fəaliyyəti Quzey Azərbaycanda iki mənəvi mədəniyyətin – Şərq və Qərb, Asiya və Avropa mədəniyyətlərinin bir-biri ilə qovuşmağa başladığı XIX əsrin ortalarına təsadüf edir. I Pyotrla başlayan islahatlar sayəsində getdikcə avropalaşan Rusiya ordu və donanmalarını yeniləşdirməklə bərabər, alman və fransız alim və mütəxəssislərini ölkələrinə gətirərək Akademiya və Universitetlərində onlardan yararlanmış, Avropa düşüncəli rus mütəxəssisləri yetişdirmiş, sənaye və ticarəti inkişaf etdirərək tərəqqi etmiş, Qərb mədəniyyətini əxz etməyə müvəffəq olmuşdu. I Pyotrdan başlayaraq rus çarları bir tərəfdən xristian ortodoksluğun varisi kimi müqəddəsləşdirilmiş kilsəni də siyasi hakimiyyətlərinin sütunlarından birinə çevirir, digər tərəfdən də rus xalqının əsrlər boyu alışdığı tarixi əsarət psixologiyasından da istifadə edərək onu bir cahan hakimiyyəti mübarizəsinə hazırlayırdılar. Bu məqsədlə rus alim və din xadimlərini də səfərbər edərək Balkanlarda ortodoks slavyan xalqlarını müsəlman Osmanlılara qarşı hazırlayır, Qərb və Şərq kilsələrinin tarixi rəqabət və düşmənçilik duyğularını daha da canlandıraraq Avropaya qarşı belə meydan oxumağa başlamışdılar. Artıq XIX əsrdən başlayaraq siyasi bir məfkurə halına gətirilərək «Panslavyanizm» adlanan ideya ilə də Rus cahan hakimiyyəti mübarizəsinə başlamışdılar. Beləliklə, Avropa sərmayəsi Rusiyanın sənayeləşməsini gücləndirdiyi kimi, Avropanın elmi, yeni metodları, sənayesi və texnologiyası ilə də bütün sahələrdə rus gəncləri və elm adamları yetişmişdi. Bu mədəni yüksəliş Rusiyada aristokratiyanı formalaşdırmaqla yanaşı yeni bir mədəniyyət, ədəbiyyat və incəsənət yaratmış və artıq XIX əsrdə Rusiya Avropa mədəniyyətinin bir parçasına çevrilmişdi.



Bu maddi və mənəvi yüksəliş sayəsində güclənən Rusiya, ətrafındakı bütün xalqları özünə birləşdirmiş, öncə İsveçi, daha sonra Şərqi Avropa ölkələrini, Krım, Türküstan xalqlarını, Qafqaza və Osmanlı imperatorluğuna daxil olan bir çox ölkələri istila edərək geniş bir əraziyə malik imperiya yaratdı ki, Quzey Azərbaycan da bu imperiyanın tərkib hissəsinə çevrildi. Tarixdə əsarət təmsilçisi kimi meydana çıxan ruslar, beləliklə, cahan hakimiyyəti eşqinə düşür, Bizans imperatorluğunun varisi kimi xristian ortodoksluğun və slavyan xalqların hamisi mövqeyinə yüksəlir. Bizans imperatorluğunda olduğu kimi dini avtoritetliyi də əllərinə alan rus çarları Avropada bir hürriyyət və demokratiya dövrü başlayarkən belə mütləq bir istibdada dayanan hakimiyyət qurur, «Panslavyanizm»i siyasi və rəsmi dövlət proqramı halına salırdılar. Bunun nəticəsidir ki, türklərin və germanların hakmiyyəti altında yaşayan bolqarlar, serblər, çexlər və bir sıra slavyan xalqları bu «Panslavyanizm» cərəyanına və Rusiyaya bağlandılar. «Panslavist» proqrama görə ruslar bütün ortodoks xristianları və slavyanları türklərə və Azərbaycanlılara və nəhayət, bütün Avropaya qarşı birləşdirmək və beləəiklə də, qurulacaq imperatorluq üçün Çarqradı (İstanbulu- R.Ə.) mərkəz etmək, Adriatik dənizi sahilindən Sakit okeana, Şimal Buzlu okeandan Aralıq dənizi sahillərinə qədər yayılmaq istəyir, siyasət və istilalarını bu qayəyə görə yürüdür və bir «Cahan haki-miyyəti»nə doğru irəliləyirdi.

Getdikcə inkişaf edən slavyan millətçiliyi hətta siyasətdə ortodoksluğu da ikinci plana keçirir, bu «slavyan dənizi» içində qalan bütün xalqları, o cümlədən də rumınları, macarları, yunanları belə slavyanlaşdırmağa çalışır-

dı. Belə ki, ruslar bir neçə əsr ərzində bir çox türk və fin-uqor xalqlarını xristianlaşdırmaq və ruslaşdırmaqda təcrübə qazanmışdı. İndi belə soy adları ilə məşhur olan rus əsilzadələri arasında xeyli türk-tatar əsilli ailələr mövcuddur. Həqiqətən də, bir çox əsr ərzində türk qanı ilə rusların və digər slavyanların qanı elə qarışmışdı ki, milyonlarla türk ruslaşmışdır. «Rusiyada hansı ailənin kökünü araşdırsanız onun içindən mütləq bir türk və tatar qanı çıxar» deyimi də buna dəlalət edir.

Tarixən türk və german xalqlarının əsarəti altında olan ruslar siyasi təşkilat və dövlət qurma qabiliyyətini türk və germanlardan əxz etdikdən və super bir millətə çevrildikdən, avropalaşdıqdan sonra artıq «Cahan hakimiyyəti» davasına girişən bir millət səviyyəsinə yüksəlmiş, əsarət psixologiyası yerinə onlarda bir üstünlük duyğusu meydana çıxmışdır. Çar Rusiyasının dövlət və din xadimləri və mütəfəkkirlərinə görə hətta «Avropa materializmə saplanaraq sürünmüş, slavyanlıq və ortodoksluq isə həyatilik qazanmışdır. Çünki onlara görə katolik məzhəbi cəhalətə və yalana dayanmış, protestantlıq da dini inkar edən bir mahiyyət almış və dünyada tək və həqiqi din olaraq ortodoksluğu himayə və müdafiə etmiş olan türklər (Osmanlı Türkləri- R.Ə.) də tarixi vəzifələrini yerinə yetirmiş, bu gün bu vəzifə ruslara keçmiş və türklərin rolu sona çatmışdır» (4, 341-376).

Beləliklə, I Pyotrla Avropanı təqlid yolunu tütan Rusiya Avropa Qərb mədəniyyətinə daxil olaraq milli və dini məfkurələri ilə birlikdə yüksəlmiş, ortodoks xristian olan Balkan xalqlarını Osmanlı imperatorluğu əleyhinə himayə edərək, nəhayət, böyük bir imperatorluq yaradaraq dünyada söz sahibi olmuşdur. Bütün bunlarla yanaşı



Avropa mədəniyyətinin təməlləri üzərində qurulan Rusiya bu mədəniyyətin bəzi xəstəliklərinə də məruz qalmışdır. Belə ki, I Pyotrun inqilabi dəyişikliklərlə inkişaf edən ortodoks xristian və slavyan millətçiliyi ilə qərbləşmə cərəyanı arasında bir ziddiyyət yaratmış, yeni mədəniyyətə daxil olmanın çətinlikləri Rusiya ziyalılarını iki ayrı-ayrı cəbhələrə ayıraraq ölkə daxilində bir böhran yaratmışdı. Rusiyanını tarixi və ictimai quruluşuna aid təzad və uçurumlar da qərbçi cərəyanı daha da qüvvətləndirmiş, ölkə daxilində materialist, anarxist, kommunist və nihilist fikirlər rus ziyalıları arasında yayılaraq ölkədaxili çarpışmalara səbəb olmuşdur. Qəribədir ki, Qərb mədəniyyəti öz xəstəlikləri ilə birlikdə gələrkən avropalıları materialistlikdə və dinsizlikdə suçlayan ruslar bu xəstəliklərə zaman keçdikcə daha çox tutulmuşlar. Rusiyada yüksək təbəqəyə aid aristokratiyanın yüksəlişi ilə yanaşı, rus xalq kütləri köhnə əsarət zəncirindən qurtula bilməmiş, sənayenin inkişafı ilə yaranan və artan fəhlə sinfi də kəndlilər kimi səfalət içində yaşamışlar. Belə bir vəziyyətdə Rusiya imperiyası daxilində yaşayan müsəlman türk xalqlarının, o cümlədən Quzey azərbaycanlılarının vəziyyəti daha acınacaqlı olmuşdur.

XVIII əsrin sonu XIX əsrin əvvəllərindən başlayaraq mərhələ-mərhələ işğal olunan Azərbaycan ərazisi, nəhayət, 1813-cü ildə «Gülüstan» və 1828-ci ildə «Türkmənçay» müqavilələri ilə ikiyə bölünərək, Araz çayı sərhəd olmaqla bütün Quzey Azərbaycan çar Rusiyasının tərkibinə daxil edildi. Beləliklə, Quzey Azərbaycan çar Rusiyası zadəganlarının və sənaye sahiblərinin xammal bazasına və tacirlərin satış bazarına çevrilmiş, iqtisadiyyatı müstəmləkə iqtisadiyyatı xarakteri almışdı (14, 579).

Çar Rusiyası tərəfindən ilk vaxtlar ayrı-ayrı əyalət və dairələrə bölünən və hər əyalətə başçı təyin etmə səlahiyyəti Qafqazın baş komendantına həvalə edilən Quzey Azərbaycanda komendant üsul-idarəsi tətbiq edilmiş, daha sonra isə bu idarə üsulu özünü doğrultmadığından «1840-cı ildə çar Ön Qafqazda inzibati islahat barəsində fərman verərək komendant idarə üsulunu ləğv etmiş, quberniyalar və onların nəzdində mahallar əvəzinə, qəzalar yaradılmışdı. Ön Qafqaz mərkəz şəhəri Tiflis olan Gürcüstan – İmeretiya quberniyasına və baş şəhəri Şamaxı olan Kaspi vilayətinə bölünmüşdü. Yelizavetpol (Gəncə-R.Ə.), Balakən və Ordubad da daxil olmaqla Naxçıvan qəzalarından başqa Şimali Azərbaycan torpaqlarının hamısı Kaspi vilayəti tərkibinə, sonuncular isə Gürcüstan-İmeretiya quberniyasının tərkibinə daxil edilmişdi. Bütün azərbaycanlı məmurlar işdən kənarlaşdırılaraq rus məmurları ilə əvəz edilmişdilər» (19, 587).

Daha sonra bir neçə dəfə çar fərmanı ilə Qafqazda, o cümlədən də Azərbaycanda inzibati ərazi bölgüsü məhkəmə, aqrar və başqa sahələrdə islahatlar aparılmışdı.

Ümumiyyətlə, XIX əsrin birinci yarısından başlayaraq Azərbaycanın quzeyində maarif, elm, ədəbiyyat, incəsənət və digər sahələrdə yeni bir dövr başlayır. Zəngin tarixi və mədəni irsə malik olan xalqımızın qabaqcıl ziyalıları dünya mədəniyyətinin yeni nailiyyətlərindən bəhrələnərək müasir mədəni ruhda inkişaf edir, Azərbaycanda xalqın savadlanması qayğısına qalaraq yeni tipli təhsil ocaqları açmaq üçün hakim dairələrə müraciətlər edir, çox çətinliklə də olsa, öz arzu və istəklərini həyata keçirməyə nail olurdular. Bu dövrdə Azərbaycan ziyalıları arasında Abbasqulu ağa Bakıxanov (1794-1847), Qasım bəy Zakir



(1784-1857), Mirzə Kazım bəy (1802-1870), İsmayıl bəy Qutqaşınlı (1806-1861), Mirzə Şəfi Vazeh (1792-1852), Mirzə Fətəli Axundov (1812-1878), Xurşudbanu Natəvan (1832-1897), Seyid Əzim Şirvani (1835-1888), Həsən bəy Zərdabi (1837-1907), Nəcəf bəy Vəzirov (1854-1926), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Üzeyir Hacıbəyov (1885-1947), Sultan Məcid Qənizadə (1866-1942), Cəlil Məmmədquluzadə (1866-1932), Mirzə Ələkbər Sabir (1862-1911), Əliqulu Qəmküsar (1880-1919), Əhməd bəy Ağayev (1868-1939), Abbas Səhhət (1874-1818), Əli bəy Hüseynzadə (1864-1940), Məhəmməd Hadi (1879-1920), Abdullah Divanbəyoğlu (1883-1936), Nəriman Nərimanov (1870-1925), Hüseyn Cavid (1882-1943), Cəfər Cabbarlı (1899-1934), Abdulla Şaiq (1881-1959), Axund Yusif Talıbzadə (1877-1923), Yusif Vəzir Çəmənzəminli (1887-1943), Əhməd Cəfəroğlu (1899-1975), Məmməd Əmin Rəsulzadə xüsusi yer tuturlar. Azərbaycan xalqının maariflənməsi, elmi biliklərə yiyələnməsi, şəxsiyyət azadlığının qavranılması, mövhumata, despotizmə qarşı mübarizə aparmasında adı çəkilən və çəkilməyən hər bir Azərbaycan ziyalısının, elm, mədəniyyət və incəsənət xadiminin, maarifçi-demokratın, alim-filosofun, ictimai-siyasi xadimin, şair, yazıçı, dramaturq, müəllim, bəstəkar, memar və b. xüsusi xidmətləri olmuşdur. Adları çəkilən bu Azərbaycan ziyalılarının hər birinin Azərbaycan xalqının maariflənməsində özünəməxsus rolu olduğunu nəzərə alaraq onların hər biri haqqında qısa da olsa xüsusi bəhs etməyə ehtiyac duyulur. Çünki onların hər birinin fəaliyyətinin özünəməxsus cəhətləri vardır.

Öz elmi və bədii əsərləri ilə Azərbaycanda orta əsrlərə yekun vuran Abbasqulu ağa Bakıxanov yeni dövrə ke-

çidin əsasını qoymuş, Asiyadan Avropaya, Şərqdən Qərbə, sxolastik ənənədən müasir elmə keçidi hazırlamış ilk böyük Azərbaycan maarifçisi, ədibi və alimidir. O, klassik şeirin bütün janrlarında - məsnəvi-poema, qəsidə, qəzəl, müxəmməs, müstəzad, mənzumə, təmsil, qitə, rübai və s. - poetik əsərləri ilə, Avropasayağı coğrafiya, tarix, astronomiya, pedaqogika, məntiq, linqvistika sahəsində elmi əsərləri və yeni tipli tərcümə əsəri ilə ədəbi və elmi fikir tarixinə daxil olmuşdur. A.Bakıxanov həmçinin müasir tarixşünaslığın əsasını qoymuşdur. Onun İ.A.Krılovdan tərcümə etdiyi «Eşşək və bülbül» təmsili və qədim dövrdən başlamış XIX əsrin əvvələrinədək (XIX əsrin 13-cü ilinədək - R.Ə.) farsca qələmə aldığı «Əsrarül-mələkut» («Kainatın sirləri»), «Kəşfül-qəraib», pedaqoji traktat olan «Təhzibül-əxlaq», dini-fəlsəfi əsər olan «Kitabi-naseh», yaxud «Nəsihətnamə», məntiqə dair «Eynülmizan» («Tərəzinin gözü») və s. kimi elmi-tədqiqat əsərləri ilə Azərbaycan elmi-fəlsəfi fikrinin inkişafında müstəsna rol oynamışdır. Bakıxanov tədqiqatçılarının da göstərdiyi kimi, «Bakıxanovun dünyagörüşü həm ziddiyyətli, həm də çox əhatəli və müxtəlif tərəflidir. Görüşlərinin bütün mürəkkəbliyi, ziddiyyəti və rəngarəngliyi içərisindən Bakıxanovun bütün ideya simasını, elmi varlığını aşkara çıxarmaq olduqca çətin, lakin bununla belə maraqlı bir işdir. İki mədəniyyətin, iki dövrün qovuşağında - feodal və burjua mədəniyyəti, feodal və kapitalist ictimai münasibətləri dövrlərinin qovuşağında, sərhədində duran və buradan irəli gələrək öz dünyagörüşündə istər feodal və istərsə də burjua ideyaları ünsürlərini əks etdirmiş Bakıxanovun yaradıcılığında, baxışlar aləmində materialist və idealist, dini və elmi, mütərəqqi və mühafizəkar cəhətlər birləşə bilmişdir» (69, 81).



Azərbaycanın materialist dünyagörüşlü mütəfəkkirlərindən fərqli olaraq Bakıxanov dinlə elmi vəhdətdə götürür. O, astronomiyanın tələb və ehtiyaclarını Quranla uyğunlaşdırmağa çalışır və bununla da gələcək Azərbaycan milli ideologiyasının iki qütbünün - islamlaşmaq və müasirləşmək - fəlsəfi vəhdətini yaradırdı.

Bakıxanovun bu dahiyanə fikirlərinin mahiyyətini düzgün qiymətləndirmədən bir sıra materialist-ateistlər öz yaşadıqları dövrün ideoloji-siyasi xəttini əsas götürərək qeyd etmişlər ki, «Bakıxanov İslam ehkamlarından imtina edə bilməmiş, aləm haqqında elmi bilikləri təhrif olunmuş şəkildə təfsir etdiyi Quran ayələrinin mənası ilə barışdırmaq üçün əbəs səy göstərmişdir. Bakıxanov Quran ayələrini elə bir tərzdə izah edir ki, guya bunlar aləmə elmi-materialist baxışı təsdiq edir. Bu isə o deməkdir ki, Bakıxanov Quranı istər-istəməz, özü də bilmədən materializmi təbliğ etməyə məcbur etmişdir» (8, 36).

Bakıxanova görə kainatda hər şey öz təbii qanunları əsasında inkişaf edir. Planetləri öz orbitində saxlayan, onları hərəkətə gətirən qüvvə də məhz Bakıxanovun özünün adlandırdığı kimi «Nəzarətçidir», yəni Tanrıdır. Professor İzzət Rüstəmovun da yazdığı kimi, «Bunun əksini söyləyən bir sıra müəlliflərin mülahizəsi ilə razılaşmaq Bakıxanov dünyagörüşünün ümumi ana xəttini yanlış mövqedən izah etmək demək olardı. Bakıxanovun amalı-arzusu maarif, elmi bilikləri geniş təbliğ edib, yaymaq idi... Elə buradan da onun elmlə dini bir-birinə uyğunlaşdırmaq meyli irəli gəlmişdir» (69, 119).

Azərbaycan poeziyasında sözün müasir anlamında realizmin formalaşması və kamala çatmasında Qasım bəy Zakirin (1784-1857) xüsusi yeri var. Onun satirik şeirləri

Azərbaycan poeziyası tarixində milli ədəbi-tarixi tərəqqidə mühüm rol oynayır. Qasım bəy Zakir Vaqif realizminin hüdudlarını genişləndirərək Azərbaycan tənqidi realizminin inkişafı yolunda Vaqiflə Seyid Əzim Şirvani və Mirzə Ələkbər Sabir arasında bir ədəbi körpü rolu oynamışdır. O, Azərbaycan poeziyasında bərqərar olan və sabitləşən maarifçi-realist təmayülün ilk böyük xadimidir. Doğrudur, Qasım bəy Zakir ictimai quruluşu deyil, ictimai əxlaqı tənqid edirdi. Zakir öz satirik əsərləi ilə mənəvi təkamül və tədrici islahat ideyalarına xidmət edirdi. Onun əsərlərində, xüsusilə satiralarında fanatizmdən, kultlaşan və ehkamlaşan simvolizmdən, klassik Azərbaycan ədəbiyyatına xas olan təsəvvüf və sufizmdən əsər-əlamət belə yoxdur. Bütün bunlara baxmayaraq, onun yaradıcılığında özündən əvvəlki ənənəyə, sələflərinə qarşı da inqilabi inkarçılıq yoxdur. Onun əsərlərində tədrici təkamül, insanın kamala çatması ideyası mühüm yer tutur. Onun satiralarında cəmiyyətlə fərdin taleyi birləşir. Bütün bunları nəzərə alan professor Yaşar Qarayev yuxarıda adını çəkdiyimiz fundamental əsərində Zakirdən bəhs edərkən göstərir ki, «Qasım bəy Zakirin poeziyası maarifçi-realist şeirin tarixində özünəməxsus, təkrarsız fərdi mövqe tutur. XIX əsrdə milli şüurda sosial intibahın oyanması, maarifçi satiranın yaranması, milli dilin büllurlaşması sahəsində M.F.Axundovdan əvvəlki ən böyük xidmət məhz Qasım bəy Zakirə məxsusdur» (44, 209).

XIX əsrdə Avropadan əsən ilk mehi təmsil edənlərdən biri də qırx beş il Qazan və Peterburq universitetlərində dərs demiş, türk dillərinin rusca ilk elmi qrammatikasını yazmış, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Fransa, Almaniya, Danimarka, ABŞ Akademiyalarına və elmi cəmiyyətlərinə üzv seçilmiş, «Türk-tatar dilinin qrammatikası» əsəri ilə «Demidov mükafatı»na layiq görülmüş Dərbəndli Mirzə Kazım bəydir (1802-1870). Mirzə Kazım bəy qədim Şərq mədəniyyəti ilə tam bağlı olduğundan o, bu mədəniyyətin Rusiya və Qərbdə yayılmasında əvəzsiz xidmətlər göstərmişdir. Doğrudur, Mirzə Kazım bəy də A.A.Bakıxanov, İ.Qutqaşınlı, Mirzə Cəfər Topçubaşov və b. kimi geosiyasi strategiyada hakim rus doktrinasına xidmət etmiş və bununla da Rusiyaının Şərq, o cümlədən də Azərbaycan siyasətinə kömək etmişdir. Lakin bütün bunlarla yanaşı Mirzə Kazım bəy də digər məsləkdaşları kimi Rusiya Şərqşünaslığının yaradılm-asında misilsiz xidmətlər göstərmiş, milli mədəniyyətin formalaş-ması missiyasını da öz üzərinə götürmüşdür. Məhz Mirzə Kazımbəy və digər məsləkdaşlarının səyi nəticəsində Rusiya və Avropada Şərq və o cümlədən də Azərbaycan filologiyasına ardıcıl və sistemli maraq göstərilmiş və bununla da Qərb və Rusiya ilə Azərbaycan arasında qarşılıqlı əlaqələr yaranmış, Qərb mədəniyyətini Azərbaycanda yaymaqla yanaşı, Azərbaycan mədəniyyəti haqqında Qərbdə və Rusiyada müəyyən təsəvvürlər yaradılmışdır. Onlar Azərbaycanda müasir tipli milli elmi fikrin təşəkkülü ilə yanaşı Şərqin öz mədəni-tarixi keçmişi, fəlsəfəsi ilə bağlı da Qərbdə və Rusiyada xüsusi maraq yaratmışdılar.

Bu cəhətdən İsmayıl bəy Qutqaşınlının 1835-ci ildə fransızca çapdan çıxan «Rəşid bəy və Səadət xanım» hekayəsi və ana dilində, müasir ədəbi, elmi-nəzəri üslubda qələmə aldığı «Yol qeydləri» və ya «Səfərnamə» adlı elmi-publisist nəsr əsəri daha xarakterikdir. «Rəşid bəy və Səadət xanım» əsərində müəllif vətəni olan Azərbaycanın

zəngin təbiətindən, xalqın adət-ənənəsindən, nəcib, mərd, cəngavər ruhundan, iki gəncin saf eşqindən bəhs edir, avropalı oxucunu Azərbaycanla tanış edir. Əsər Azərbaycanda milli, realist bədii nəsr şüurunun oyanmasında və gələcəkdə Mirzə Fətəli Axundovun «Aldanmış kəvakib» əsərinin yazılmasında ilk təkan rolunu oynamışdır.

«Yol qeydləri» və ya «Səfərnamə» əsəri isə XIX əsrin ortalarında elmi-publisist nəsr üslubunun ilk qiymətli və əvəzsiz abidəsi olmaqla yanaşı, həm də avtobioqrafik məlumat, ictimai, fəlsəfi, publisist şərhlərlə zəngin bir sənət əsəridir. Əsər həmçinin Azərbaycan və Yaxın Şərq ölkələrinin görkəmli mədəniyyət və dövlət xadimləri, təsvir edilən ölkələrin tarixi keçmişi, şəhərləri, təbii-coğrafi şəraiti, mədəniyyət abidələri, xalqların adət-ənənələri, ölkələrin əhalisi, təsərrüfatı haqqında müfəssəl məlumatlarla zəngindir. Bu baxımdan əsər tarixi-mədəni və ictimai fikrimizin də ən qiymətli abidələrindən sayıla bilər.

İlk təhsilini mədrəsədə ərəb və fars dillərində alsa da, şəriəti dərindən öyrənsə də «xurafatın qatı düşməni olan», «qadın azadlığı məsələsinə əsərlərində xüsusi yer verən, müsəlman qadınlarını çadranı atmağa çağıran», «cəsarətlə olmasa da, yoxsul kütlələrin vəziyyətini kökündən dəyişəcək sosial dəyişikliklər barəsində mülahizələr söyləyən» (19, 592) «azadlıq müjdəçisi» görkəmli Azərbaycan mütəfəkkiri Mirzə Şəfi Vazehin (1794-1852) şərqiləri bir sıra dillərə tərcümə olunaraq uzun illər boyu Avropanı da heyrətə gətirmişdir» (48, 316).

Mirzə Şəfi 1820-ci ildə Gəncədə «Divani-hikmət» adlı ədəbi məclis təşkil edərək o dövrün nüfuzlu ziyalılarından sayılan Mirzə Məhəmməd Tağı, Mirzə Mehdi Naci, Şeyx İbrahim Naseh (Qüdsi), Hacı Yusif Qane və başqalarını bu ədəbi məclis ətrafında toplamış, 1830-cu ildə Şah Abbas məscidi yanında özünün xüsusi məktəbini açaraq şagirdlərinə, o cümlədən də Mirzə Fətəli Axundzadəyə digər elmlərlə yanaşı xəttatlıqdan da dərs demişdir. Gəncədən sonra Tiflisdə davam etdirdiyi «Divani-hikmət» ədəbi məclisində A.Bakıxanov, M.F.Axundov, Tiflis gimnaziyasında fransız dilindən dərs deyən Fridrix fon Bodenştedt, İ.İ.Qriboyedov, X.Abovyan, İ.A.Bünyadov, Mirzə Yusif Vidadi və Mirzə Həsən Ordubadi də fəal iştirak etmişdi. F.Bodenştedt Mirzə Şəfidən Azərbaycan türkcəsi və fars dilini öyrənir və onlar arasında qarşılıqlı dostluq münasibətləri yaranır. Mirzə Şəfi F.Bodenştedtə qəsidə, qəzəl, mürəbbeat və məsnəvilərdən ibarət öz şeir məcmuəsini avtoqraf yazaraq hədiyyə edir. F.Bodenştedt bu məcmuəni alman dilinə tərcümə edərək 1851-ci ildə Berlində «Mirzə Şəfinin nəğmələri» adı ilə nəşr etdirir. Kitabın geniş yayıldığını görən F.Bodenştedt Mirzə Şəfinin müəllifliyini danır və özünü bu nəğmələrin müəllifi elan edir» (44, 20).

Mirzə Şəfi bədii yaradıcılıqla yanaşı 1846-50-ci illərdə Gəncədə qəza məktəbində yerli şagirdlərə Azərbaycan türk dilindən dərs deyir, 1850-ci ildə yenidən Tiflis gimnaziyasına ana dili müəllimi təyin edilir. Tiflisdə Mirzə Şəfi farsşünas İ.Qriqoryevlə birgə «Kitabi-türki» müntəxəbatını, «Tatarskaya xrestomatiya. Azerbaydjanskoye nareçie» (Tiflis, 1852) dərsliyini hazırlayırlar. Mükəmməl dərslik olan bu kitab Mirzə Şəfinin vəfatından (16 yanvar 1852-ci il) sonra 1855-ci ildə qismən, 1856-cı ildə isə tam şəkildə həmmüəllifi olan İ.Qriqoryev tərəfindən nəşr edilmişdir.

Bizcə zəngin yaradıcılığa malik şagirdi F.Bodenştedtin yazdığı kimi «adı bütün Avropada iftixarla çəkilən

Gəncəli söz ustadı Mirzə Şəfinin» Azərbaycan maarifçiliyindəki ən böyük xidməti Mirzə Fətəli Axundzadə kimi hər bir millətin iftixarı sayılan bir şəxsiyyəti Azərbaycana və bütövlükdə Şərqə bəxş etməsidir.

Ustadın:

- Mirzə Fətəli, elmləri təhsil etməkdə məqsədin nədir? –sualına, Mirzə Fətəlinin: - Ruhani olmaq istəyirəm- cavabına bu Gəncəli müdrikin:

- Sən də onlar kimi, riyakar və şarlatanmı olmaq istəyirsən?... Mirzə Fətəli, öz həyatını bu qaragüruhun içərisində puç etmə, başqa bir məşğuliyyət qəbul et! - deməsi ilə Azərbaycan və bütövlükdə Yaxın və Orta Şərq əvəzsiz bir dühasını qazandı.

Bu dövrün Azərbaycan maarif və mədəniyyətinə xidmət etmiş şəxsiyyətlərdən biri də xan qızı Xurşudbanu Natəvandır (1832-1897). Atasının vəfatından sonra yeganə varis kimi xanlığa başçılıq edən xan qızı Natəvan yaşadığı dövrdə Qarabağda abadlıq işlərinə və maarifə rəvac vermiş, 1864-cü ildə Şuşada şair Mirzə Rəhim Fənanın rəhbərliyi ilə təşkil edilmiş «Məclisi-üns» adlı ədəbi məclisi öz himayəsinə götürərək Qərb mədəniyyətinin Qarabağ ərazisində yayılmasına təkan vermişdir. Xan qızı Qarabağın ictimai, siyasi və mədəni həyatında mühüm rol oynamış, «xan qızı», «el anası» adını almış, Azərbaycan maarifinin inkişafında mühüm xidmətlər göstərmiş, ictimai xadim olmuşdur. Xan qızının yaradıcılığına yüksək qiymət verən mütəxəsssislər Natəvanı «məhəbbət əxlaqına və fəlsəfəsinə sədaqət» göstərərək, Azərbaycan klassik lirik şeirini «tragik Ana obrazı ilə zənginləşdirən», «üslub, obraz və ifadə sistemində daha çox Füzuli çeşməsindən su içən» (44, 214-215) bir sənətkar kimi



dəyərləndirmiş, onun «Təbiət-irfan, cahan-can» qütbləri arasında nisbətdə daha çox Vaqif mövqeyinə meyl etdiyini» (44, 215) qeyd etmişlər.

Həzin, səmimi lirika, təbiət gözəlliklərinin və insanın könül dünyasının bəzən real, bəzən isə romantik təsirli poetik vasitələrlə təsviri Natəvan yaradıcılığının başlıca keyfiyyətlərindəndir. Atasının ölümündən sonra Qafqaz hakimi M.S.Vorontsovun göstərişi ilə xanlığın malikanə və torpaqlarının müəyyən hissəsinin müsadirə edilərək dövlət hesabına keçirilməsindən sonra Tiflisə gedən Natəvana torpaqların qaytarılmasında ən böyük köməyi Mirzə Fətəli Axundov göstərmişdir.

Azərbaycan xalqının ədəbi və ictimai həyatında Mirzə Fətəli Axundov xüsusi bir mərhələ təşkil edir. Mirzə Fətəli Axundovun zəngin və çoxşaxəli yaradıcılığı Azərbaycan milli teatr sənətinin, realist bədii nəsrin, fəlsəfi və demokratik ideyaların, ümumiyyətlə, Azərbaycan mənəvi mədəniyyətinin bir çox sahələrindəki fəaliyyəti onu Azərbaycanda «yeni dövrün» banisi adlandırmağa tam əsas verir. Onun fəaliyyəti təkcə Azərbaycan və türk dünyası üçün deyil, bütün İslam Şərqi üçün və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb edir. Mirzə Fətəli Axundovun maarifçiliyində elmin, maarifin təbliği ilə yanaşı, şəxsiyyət azadlığının təbliği, mövhumat və xurafata, despotizmə qarşı mübarizə məsələləri qabarıq şəkildə özünü göstərir. Lakin Avropa və Rusiya maarifçiləri kimi Azərbaycan maarifçiləri, o cümlədən də Mirzə Fətəli Axundov da geniş xalq kütlələrini maarifləndirməklə ideal cəmiyyət yaratmaq məqsədi güdürdülər.

Mirzə Fətəli Axundovun yaradıcılıq fəaliyyəti Azərbaycanda iki mənəvi mədəniyyətin – Şərq və Qərb mədə-

niyyətinin bir-biri ilə çulğalaşmağa başladığı bir dövrə təsadüf edir. Araşdırmamız sırf müasirləşmə ilə bağlı olduğundan biz bu bəhsdə daha çox Mirzə Fətəli Axundovun Azərbaycan və ümumən Yaxın və Orta Şərqin ictimai-fəlsəfi fikrinə gətirdiyi yenilikləri izləməyə çalışacağıq.

Mövzu ilə bağlı elə bir M.F.Axundov tədqiqatçısı yoxdur ki, o, bu və ya digər dərəcədə onun Azərbaycan ictimai fikrinə gətirdiyi yeniliklərdən bəhs etməsin. Ümumiyyətlə, Azərbaycan elmi-ədəbiyyatında ən çox tədqiq olunan şəxs M.F.Axundovdur. Çünki M.F.Axundov həm yazıçı-dramaturq, həm maarifçi, həm filosof, həm də ictimai xadimdir. O, müsəlman Şərqində haqlı olaraq modernizmin, liberal ənənələrin və müasir ədəbiyyatın yaradıcısı sayılır.

M.F.Axundov Homer, Heraklit, Sokrat, Aristotel, Kopernik, Nyuton, Volter, Russo, Monteskyö, Didro, Holbax, Benam, Mill, Renan, Dreper, Şekspir, Molyer, Şiller və b. kimi Qərb mədəniyyəti təmsilçilərinin əsərləri ilə yaxından tanış olmuş, onlardan bəzilərinin əsərlərini təhlil etmiş, onların fikir və mülahizələrindən yeri gəldikcə istifadə edərək Qərb düşüncə tərzini Şərqə, o cümlədən də Azərbaycana gətirmişdir. O, 1850-55-ci illərdə yazdığı altı komediyası ilə Yaxın və Orta Şərq, o cümlədən də Azərbaycan realist dramaturgiyasının əsasını qoymuşdur. Bu əsərlərdə M.F.Axundov ənənəvi müsəlman cəmiyyətinin qayda-qanunlarını ifşa etmiş, xurafata qarşı çıxmışdır.

M.F.Axundov 1857-ci ildə yazdığı «Aldanmış kəvakib» əsəri ilə Azərbaycanda ona qədər öz inkişafını tapmamış siyasi roman ənənəsinin əsasını qoymuşdur.

M.F.Axundov 1865-ci ildə özünün başlıca fəlsəfi traktatı olan «Kəmalüddövlə məktubları» adlı məşhur



siyasi-fəlsəfi və publisistik əsəri ilə yaşadığı dövrün Şərq cəmiyyətindəki başlıca problemləri dərin və hərtərəfli təhlil edərək, müsəlman ölkələrinin bütün sahələrini bürümüş böhrandan çıxış yollarını açıb göstərməyə çalışmışdır. Doğrudur, «Axundzadə Rusiya imperiyasına xidmət etsə də, düşüncə və qayğıları ona doğma olan müsəlman Şərqi ilə bağlı idi. Çünki o, Xaqani, Nizami, Fərabi, Sührəvərdi, İbn Sina, Cəlaləddin Rumi, Mahmud Şəbüstəri, Vazeh, Qutqaşınlı, Bakıxanov» kimi Şərqli filosof və sənətkarların övladı idi» (44, 216). Lakin Şərqin «geriliyi, mütərəqqi cərəyanlar üçün qapalılığı, Şərq dövlət, cəmiyyət və ailəsində hökm sürən müstəbid qayda-qanunlar Axundzadədə, onun esselərində aydınca oxunan bir sarsıntı və ümidsizlik doğursa da, onu bir an belə əməli işdən soyutmurdu» (30, 113).

M.F.Axundovun müasirləşmə, Qərbə inteqrasiya, insan hüquq və azadlıqları, qadınların hüquq bərabərliyi, konstitusiyon islahatlar, dini praktik islahatı və əlifba islahatı haqqındakı ideyaları onun müasirləri və özündən sonrakı Azərbaycan maarifçiləri tərəfindən dəstəklənmişdir. Onun islahatlarla bağlı fikir və layihələri zəmanəsini o qədər qabaqlamışdır ki, onlar bu gün də öz əhəmiyyətini saxlamaqdadır.

Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının, ümumiyyətlə, mənəvi mədəniyyətimizin bir çox sahələrində müasirliyin, «avropalaşmanın» banisi Axundovun zəngin və çoxsahəli yaradıcılığı milli çərçivələri aşıb keçmiş, ümumtürk və müsəlman xalqları miqyasında ümumşərq və ümumbəşəri bir tarixi məna və əhəmiyyət kəsb etmişdir.

XIX əsrin ortalarından başlayaraq Azərbaycanda milli ədəbi-bədii fikrin inkişafı və onun gələcəkdə bir milli ideologiyaya, milli məfkurəyə, ideya-fəlsəfi cərəyana çevrilməsində Axundovun yeni bir maarifçilik sisteminin əhəmiyyətli rolu olmuşdur. Onun maarifçiliyi nəinki bədii və estetik əsərlərin meydana gəlməsinə, həm də kütləvi bir hərəkata təkan vermişdir. Azərbaycan milli-ideoloji sisteminin iki qanadı məhz M.F.Axundovun fəlsəfi irsi və bədii yaradıcılığı əsasında formalaşmışdır.

A.A.Bakıxanovun simasında maarifçi mütləqiyyət ideyası ilə meydana atılan Azərbaycan maarifçiliyi az bir müddətdən sonra respublika dövlət quruluşunu qəbul və elan edən Axundov inqilabiliyi və demokratizminə dayanan mürəkkəb və təzadlı bir tarixi yol keçərək nəhayət, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələndi. Ümumiyyətlə, maarifçilik həmişə və hər yerdə milli intibahın, milli özünüdərkin, etnik mentalitetin, ədəbi dilin, milli ədəbiyyatın yaranması və inkişafında xüsusi rol oynamış və oynayır, xalqın tarixi və taleyi ilə bağlı məsələləri qaldırır və onları xalqın iştirakı ilə həll edir. Azərbaycan maarifçiliyində də elmi, maarifi yaymaq, milli və fərdi azadlığı təbliğ etmək, istismara, despotizmə, xurafata qarşı mübarizə aparmaq kimi məsələlər qabarıq şəkildə özünü göstərir. Dünyanın digər maarifçiləri kimi Azərbaycan maarifçiləri də belə hesab edirdilər ki, maddi həyat səviyyəsinin yüksəldilməsinin əsas şərti xalq kütlələrinin elmə, maarifə yiyələnməsidir. Onlar belə hesab edirdilər və doğru hesab edirdilər ki, elmə, maarifə yiyələnməklə ictimai bəlalardan, o cümlədən də mədəni gerilikdən xilas olmaq olar. Onlar belə bir fikir irəli sürürdülər ki, insan zəkası hər şeydə meyar olsa və əgər dövlət



başçıları da müdrik maarifpərvər insanlar olsa, xalq ümumi rifaha qovuşa bilər. İstər Avropa, istər Osmanlı imperatorluğu, istər Rusiya və istərsə də Azərbaycanda maarifçilik geniş xalq kütlələrinin milli passionarlıq enerjisinin köməyi ilə ağla və dəməli, elmə əsaslanan ideal cəmiyyət yaratmağı qarşısına məqsəd qoymuşdu. Fəqət yuxarıda da qeyd edildiyi kimi, bu inqilabi dəyişikliklər Avropada başqa, Osmanlı imperatorluğu və çar Rusiyasında başqa şəkildə olmuş, çar Rusiyasının müstəmləkəsi olan Azərbaycanda isə bütün ağırlıq Azərbaycan maarifçi ziyalılarının üzərinə düşmüşdür.

Ana dilində ibtidai, orta və ali məktəbi, heç bir mətbuatı, heç bir elmi əsəri olmayan, elmi öyrənmək üçün yabançı dilləri öyrənmək məcburiyyətində qalan bir milləti maarifləndirməyin nə qədər çətin, bəzən də mümkünsüz olduğu nəzərə alınarsa, dövləti əlindən çıxmış, müstəmləkə şəraitində yaşayan bir xalqın maarifçi ziyalılarını həqiqi mənada maarifçi fədai, maarifçi şəhid, maarifçi qazi adlandırmaq olar. İstər Axundov və istərsə də onun maarifçilik və realizm ənənələrini davam etdirən Azərbaycan ziyalılarını sözün həqiqi mənasında qəhrəman maarifçilər adlandırmaq olar.

Milli dilin və milli ədəbiyyatın taleyinə təsir baxımından Axundovun fəaliyyətini XIV əsrdəki Nəsimi, XVI əsrdəki Füzuli, XVIII əsrdəki Vaqif dühasının miqyası ilə müqayisə etmək olar. Lakin M.F.Axundov həm də onlardan fərqli olaraq tarixi inkişafın yeni mərhələsinə uyğun böyük bəşəri ideyalarla yanaşı milli bir konkretlik də gətirmiş, tipik Azərbaycan obrazları yaratmışdır. Və bu obrazları səhnəyə – teatra çıxarmaqla xalqın özünün özünə baxmasına və bundan nəticə çıxarmasına nail ol-

muş, xalqı kütlədən millətə çevirməyə çalışmışdır. Məşhur alman dramaturqu, maarifçi və estetiki Fridrix Şillerin yazdığı kimi « Əgər milli teatra qədər yaşasaydıq, onda biz (alman xalqını nəzərdə tutur – R.Ə.) millət olardıq».

M.F.Axundov Azərbaycan ədəbi-siyasi dilinə konstitusiya, sivilizasiya, revolyusiya, politika, patriot, liberal, despot, fanatik, parlament və s. onlarla bu kimi söz və terminlər gətirmiş, onların elmi izah və şərhini vermişdir. Bütün bunlarla Mirzə Fətəli Axundov Azərbaycan ədəbi-siyasi, fəlsəfi fikir hərəkatına yeni və ardıcıl bir istiqamət vermiş, özündən sonra böyük bir Azərbaycan maarifçilər ordusunun yaranmasına təkan vermişdir. M.F.Axundov öz dövrünün teatrı, universiteti, akademiyası, ədəbiyyat və fəlsəfə institutu, bir sözlə, milli ensiklopediyasıdır. Bütün bunların nəticəsidir ki, XIX əsr Azərbaycanından bəhs edən elə bir tarix, ədəbiyyat, dil, siyasət, fəlsəfə, etika, estetika tədqiqatçısı yoxdur ki, o, bu və ya digər dərəcədə Mirzə Fətəli Axundovdan bəhs etməsin. Ona görə də Mirzə Fətəli Axundov bu və ya digər dərəcədə geniş tədqiq olunduğundan* biz mövzuya uyğun olaraq onun Azərbaycan ictimai-siyasi və fəlsəfi həyatına gətirdiyi yenilikləri, müasirliklə bağlı fəaliyyətini qısa şəkildə xülasə etməyə çalışdıq və belə bir ümumi nəticəyə gəldik ki, Mirzə Fətəli Axundov özünün altı komediyası ilə maarifçi-realist estetikanın, «Kəmalüddövlə məktubları» ilə materialist fəlsəfənin dünya nailiyyətlərini dərindən mənimsəmiş və mənimsətməyə çalışmış, idrak və varlıq, bilik, ağıl və xurafat, həqiqət və yalan, o dünya və bu dünya, zaman, məkan, cahan, cəmiyyət, ədalət, hüquq, azadlıq, əxlaq, ölüm

* Bax: Mirzə Fətəli Axundovla bağlı monoqrafiya və elmi məqalələr.



və həyat haqqında öz fəlsəfi fikirlərini əks etdirmiş, müasirləşməni avropalılara bənzəməkdə görmüşdür.

Rus mülki və hərbi diplomatik idarələrində tərcüməçilikdən başqa heç bir hüquqi, siyasi səlahiyyəti və vəzifəsi olmayan, o vaxt Rusiyasının tez-tez dəyişən Qafqaz hakimlərinin demək olar ki, hamısının yanında 26 il tərcüməçilik edən Mirzə Fətəli Axundov bir sıra çox mühüm vətəndaşlıq vəzifələrini həyata keçirməyə müvəffəq olmuşdur. Belə ki, «Kəndli əsasnaməsi»nin hazırlanmasında xalqın saysız-hesabsız ərizə və xahişlərinin böyük bir qisminin müsbət həll olunmasında, Qasım bəy Zakirin həbs və sürgündən azad olunmasında, Mehdiqulu xanın vəfatından sonra onun ailəsinin, xan qızı Natəvanın hüquqlarının müdafiəsində, Gəncənin rus qoşunları tərəfindən işğalından sonra özü və oğulları qəhrəmanlıqla həlak olmuş Cavad xan Ziyadxan oğlunun müsadirə olunmuş irsinin müəyyən qisminin onun sağ qalmış varislərinə çatdırılmasında və s. Mirzə Fətəlinin əvəzsiz xidmətləri olmuşdur. O, həmsçinin rus-türk, İran-Rusiya sərhəd münaqişələrini qaydaya salan Komissiyada, vəliəhd II Aleksandrla şahzadə Nəsrəddin Mirzə arasında siyasi-diplomatik danışıqlarda, çar I Nikolayın şahzadə Məhəmmədin şahlıq taxtına oturması münasibətilə təbrik məktubunu İrana aparan nümayəndə heyətinin fəaliyyətində, Tiflisdə çar II Aleksandrla Nəsrəddin şah arasında görüş zamanı bir tərcüməçi kimi şəxsən iştirak etmiş, təkcə Qafqazda və Yaxın Şərq ölkələrində rus imperiya siyasətinin mahiyyətinə deyil, həm də bütün Yaxın və Orta Şərq ölkələrində Avropa ölkələrinin qlobal geosiyasi maraqlarına yaxından bələd olmuşdur. Bütün bu təcrübələr Axun-

dovun ümumşərq miqyasında böyük mütəfəkkir və *milli* ideoloq kimi yetişməsində mühüm rol oynamışdır.

M.F.Axundov Rusiya İmperator Coğrafiya Cəmiyyəti Tiflis Şöbəsinin həqiqi üzvü, Tiflis Arxeoqrafik Komitəsinin üzvü, Qafqaz Hərbi Dairəsinin Hərbi Topoqrafiya Şöbəsinin üzvü kimi Qafqaz miqyasında elmi-təşkilati fəaliyyətilə məşğul olmuş, «Əkinçi» qəzetinin, Qori Müəllimlər Seminariyasının Azərbaycan Şöbəsinin yaranmasında yaxından iştirak etmişdir.

M.F.Axundov 26 illik mülki, inzibati, diplomatik və hərbi işlər sahəsində uğurlu tərcüməçilik xidmətlərinə görə praporşik, podporuçik, ştab kapitanı, podpolkovnik və nəhayət polkovnik rus hərbi inzibati rütbələri almış, həmçinin «Georgi» medalı, üçüncü dərəcəli «Müqəddəs Anna» ordeni, İran şahı Məhəmməd şah tərəfindən üçüncü dərəcəli «Şiri-Xurşid» ordeni ilə təltif olunmuşdur. **

Son olaraq qeyd edək ki, Mirzə Fətəli Axundov Azərbaycanda və ümumiyyətlə, Şərqdə qələm və mürəkkəblə sözün həqiqi mənasında bir «inqilab» etmiş, «inqilabi *maarifçiliyin*» təşəkkülü və yüksəlişi yoluna işıq tutmuşdur.

M.F.Axundovun ilk böyük oxucusu, XIX əsr Azərbaycan poeziyasında satirik-realist şeirdə maarifçiliyin ən böyük nümayəndəsi Seyid Əzim Şirvani olmuşdur.

XIX əsrin sonlarında Mirzə Fətəli yolunu publisistika, satira, mətbuat, tədris və xüsusilə də maarifçi poeziyada davam etdirən ən universal sima, hərtərəfli maarifçi şəxsiyyət Seyid Əzim Şirvanidir. Azərbaycan ictimai - fəlsəfi aləminə Mirzə Fətəli Axundovu bəxş edən,

** İcmallardakı bioqrafik faktlar və onların qaynaqları haqqında bax: N.Məmmədov. M.F.Axundov. – Bakı, 1982.



ruhaniliyə hazırlaşan Fətəliyə filosofluğun və vətəndaşlığın ünvanını göstərən Mirzə Şəfidirsə, Azərbaycan və ümumən Şərq tarixində mənəvi əxlaqı, ictimai mübarizədə ən böyük inqilab şairi Mirzə Ələkbər Sabiri bəxş edən də Seyid Əzim Şirvanidir. Seyid Əzimin Sabirin taleyindəki bu rolu onun bütünlüklə XIX əsr poeziyasındakı xidmətinin məzmunu üçün də xarakterikdir.

Seyid Əzimin elm və təhsildə sxolastika və ətalət əleyhinə bir maarifçi – demokrat kimi çıxış etməsi bir şair və müəllim kimi onun fəaliyyətinin əsas məzmununu təşkil edir. Bir şair, pedaqoq və mütəfəkkir kimi Seyid Əzim yaradıcılığında humanizm və beynəlmiləlçilik ideyaları daha müasir, yeni və miqyaslıdır. Ümumiyyətlə, Seyid Əzim insanlığı hər şeydən əvvəl elmdə görür:

Demə, bu kafər, ol müsəlmandır,
Hər kimin elmi var, o, insandır.

Seyid Əzim Azərbaycanda təzəcə formalaşan maarifçiliyin beşiyi başında duranlardan, mütərəqqi Avropa mədəniyyətinə, Qərb poeziyasına bədii əsərlər həsr edən və bununla da Avropaya böyük marağın da beşiyi başında duranlardandır. Azərbaycan poeziyasında bəzi şeylər Şirvani ilə başlamış və Şirvani ilə də bitmişdir. Maarifçiliyin Azərbaycanda nikbin tərənnümü və təsdiqi Axundovla başlayırsa, onun dramatik və tragik çalarlar kəsb etməsi, nadanlığın bilavasitə sosial bəla kimi bədii fikrin əsas diqqət hədəfinə çevrilməsi isə Seyid Əzimdən və onun yaşayıb-yaratdığı dövrdən başlayır. **Nadanlar** və **nadanlıq** anlayışı ilk dəfə məhz Şirvani satiralarının aynasında ictimai – sosial hadisə, proses kimi öz əlamət və keyfiyyətləri ilə görünməyə başlayır.

Azərbaycan ədəbiyyatında xalqa xitab ilk dəfə olaraq Seyid Əzim Şirvani tərəfindən edilmiş-dir. Onun «Qafqaz əhlinə xitab», «Qafqaz müsəlmanlarına xitab» əsərləri Azərbaycan ədəbiyyatında bədii-siyasi janrın ilk nümunələri sayıla bilər. Onun satiralarında hakim və məhkum, müctəhid və avam, ağa və rəiyyət, zahid və arif, zalım və məzlum çox vaxt bir yerdə götürülür və hər birinə müəyyən tənqidi münasibət bəslənilir.

Seyid Əzim satirasının və demokratizminin indi də müasir səslənən çalarları var. Bunlardan ən mühümü rüşvətxorluğa və xurafata olan dərin sarkazmdır. Ümumiyyətlə, Seyid Əzim Şirvani rüşvətxorluq xəstəliyini, mövhumat və xurafat sərxoşluğunu şərab sərxoşluğundan, fiziki xəstəlikdən daha qorxulu hesab edir

Əsərlərində sxolastik dini təhsili kökündən rədd edən şair özü müctəhid olmasına baxmayaraq və müctəhid kimi fəaliyyət göstərib öz yaşayışını tam təmin edə biləcəyi halda bundan şüurlu şəkildə imtina etmiş, əksinə dini sxolastikanın tam əleyhinə olaraq Şamaxıda yeni tipli ilk «Üsuli-cədid» məktəblərindən birini açaraq, 1869-cu ildə burada gənc nəslə dünyəvi elmləri, ana dilini və xarici dilləri tədris etmişdir. Ortodoks ruhaniliyə qarşı barışmaz mövqeyinə görə böyük sənətkarı «kafir» elan etmiş, hətta onu pedaqoji fəaliyyətdən uzaqlaşdırmışdılar. Bundan sonra bədii yaradıcılıqla məşğul olan Seyid Əzim Şirvani «Əkinçi» qəzeti ilə yaxından əməkdaşlıq edir, maarifçi prinsiplərinə əsaslanan dərsliklər və ədəbiyyatşünaslığa aid əsərlər yaradır. Ümumiyyətlə, Seyid Əzim Şirvani yaradıcılığında da, əməli fəaliyyətində də Quzey Azərbaycanın Rusiyaya birləşdirilməsindən sonra doğulan və yetişən ilk milli ziyalılarımızdandır. Onu doğma xalqla, milli mənşə və mühitlə bağlayan tellər çox güclü və zəngindir.



XIX əsrin sonlarına doğru Azərbaycan maarifçiliyinin metodoloji mövqeyində mühüm dəyişikliklər baş verir. Axundov ənənələri Azərbaycan maarifçiliyinin sonrakı nəslinin fəaliyyətində davam etdirilməklə yanaşı, növbəti onilliklərdə Azərbaycanın ədəbi-mənəvi, ictimai-siyasi həyatında mühüm hadisələr baş verir. Belə ki, 1873-cü ilin mart ayında Həsən bəy Zərdabi və Nəcəf bəy Vəzirovun rəhbərlik etdiyi ilk teatr truppası yaradılır və Axundovun «Sərgüzəşti–vəziri–xani-Lənkaran» əsəri ilk dəfə tamaşaya qoyulur və bununla da realist milli – professional teatrın pərdəsi qaldırılır.

1875-ci ilin aprelində Həsən bəy Zərdabinin redaktorluğu ilə nəşr olunan «Əkinçi»(1875-1877) qəzeti ilə Azərbaycanda ilk demokratik mətbuatın əsası qoyulur.

1877-ci ildə Sultan Məcid Qənizadə və Mahmudbəyovun təşəbbüsü ilə yeni tipli ilk müsəlman məktəbi yaradılır.

Realist və romantik ədəbiyyatın inkişafında yeni-yeni istiqamət və meyllər yaranır, yeni janr və formalar özünü göstərir.

Bu dövrlərdə Azərbaycan maarifçiliyinin geniş inkişaf tapmasında Seyid Əzim Şirvani ilə yanaşı, görkəmli maarif xadimləri Məhəmməd Tağı Sidqi, xüsusən Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov və Sultan Məcid Qənizadə misilsiz xidmət göstərmişlər.

Bu dövr Azərbaycan ictimai həyatının ən mühüm hadisələrindən biri mətbuatın meydana çıxması oldu. Azərbaycan mətbuatının banisi xalqımızın görkəmli oğlu, alim, maarifçi və ictimai xadim Həsən bəy Zərdabidir.

Həsən bəy Zərdabi görkəmli alim-darvinist, jurnalist və publisist, maarifçi-demokratdır. XIX əsrin ikinci yarısı, XX əsrin ilk illərində Azərbaycan xalqının yüksəlişi və mədəni intibahında baş vermiş ən mühüm hadisələr Həsən bəy Zərdabinin həyat və fəaliyyəti ilə bağlıdır. Həsən bəy Zərdabi və onun nəşr etdiyi «Əkinçi» qəzetinin tədqiqatçıları (69, 201-283) istər Zərdabinin və istərsə də «Əkinçi» qəzeti ətrafında toplaşan Azərbaycan ziyalılarının xalqımızın maariflənməsində, cəhalət və mövhumat buxovlarından azad edilməsində və mədəni inkişaf yoluna düşməsində göstərdikləri xidmətdən bəhs etmiş, Həsən bəy Zərdabinin milli mətbuatımızın və milli teatrımızın əsasını qoymasından, xeyriyyə cəmiyyəti təşkil edərək məktəblər açılması üçün geniş fəaliyyət göstərməsindən ətraflı yazmışlar.

Zərdabinin təbiətşünaslığa aid əsərləri daha çox Darvinə əsaslanmış, müəllimləri olmuş A.P.Boqdanov, S.A.Raçinski və A.U.Davidovun da onun yaradıcılığında güclü təsirləri olmuşdur. Zərdabinin dünyagörüşünün formalaşması və inkişafında həmçinin Rusyadakı inqilabi - demokratik hərəkatın nümayəndələri olan Gertsen, Belinski, Çernışevski, Dobrolyubov və Pisaryev kimi görkəmli şəxsiyyətlərin də mühüm rolu olmuşdur. «Onun materialist dünyagörüşünün formalaşmasında» rus materialist təbiətşünaslığı və onun İlya İliç Meçnikov, Kliment Arkadiyeviç Timuryazev, İvan Mixayloviç Seçenko və b. görkəmli nümayəndələrinin (69, 223) mühüm rolu olmuşdur.

Həsən bəy Zərdabi rus materialist təbiətşünastlığı ilə yanaşı Qərbi Avropa alimlərindən bioloq Robert Koxun, Pasterin, görkəmli fizioloq və zooloqlardan Runun, Borelin, Fridlenderin, Breçkanın, Frulmanın, Lensin və başqalarının da elmi - tədqiqat əsərlərindən geniş istifadə etmiş, Hippokrata və İbn Sinaya yüksək qiymət vermiş, onların fikirlərindən yararlanmışdır.

Əgər Axundov Azərbaycan ictimai-fəlsəfi dünyagörüşünə mühüm yeniliklər gətirmişdisə, Zərdabi də Azərbaycan elmi təfəkkürünə mühüm yeniliklər gətirmiş, «Azərbaycan ziyalılarının ağsaqqalı» titulunu qazanmışdır.

Elmin bir çox sahələri ilə məşğul olan materialist alim və filosof, jurnalist və publisist Həsən bəy Zərdabidən, onun Azərbaycan elminə gətirdiyi yeniliklərdən çox bəhs etmək olar. Lakin bu bizim mövzumuz xaricində olduğundan və bütün bunlarla bağlı geniş tədqiqat əsərləri yazıldığından biz deyilənləri ümumiləşdirib belə bir nəticəyə gəlirik ki, Azərbaycan elmi dünyagörüşünün formalaşması və inkişafında, materialist fəlsəfənin təbiətşünaslıqla əlaqəsində Zərdabinin xidmətləri əvəzsizdir. «Həsən bəy Zərdabinin təbii-elmi biliklərin yazılması sahəsində açdığı yol» özündən sonra «digər Azərbaycan mütəfəkkirləri tərəfindən layiqincə davam etdirilmişdir» (69, 282).

Mirzə Fətəli Axundovdan sonra maarifçi dramaturgiyamızın inkişafında yeni mərhələ Nəcəf bəy Vəzirovun adı ilə bağlıdır. Axundovun dramaturgiyadakı ən yaxın mənəvi varisi olan Nəcəf bəy Vəzirov (1854-1926) artıq Mirzə Fətəlinin «həm maarifçilik proqramına, həm də onun dram poetikasına yeni bədii notlar və sosial-fəlsəfi çalarlar gətirir. O (Vəzirov- R.Ə.), həyatın, məişətin və əxlaqın realist səhnədəki əhatə çərçivəsini daha da genişləndirir, ona yeni janrlar, üslub, dil fərdiliyi artırır» (44, 264).

Nəcəf bəy Vəzirov maarifçi dramın təkcə ideya hüdudlarını deyil, həm də onun əhatə çərçivəsini ge-

nişləndirir, həyatdakı ictimai geriliyin tənqidini və realist-maarifçi didaktikanın hüdudlarını daha da böyüdür. Onun dramaturgiyasında xalqın əsrlər boyu davam edən pis vərdişləri rədd olunur, psixologiyasındakı köhnəlik inkar edilir, təbliğ olunan yeniliyin məzmunu izah olunur. Nadanlığın düşməni olan Vəzirov məhz nadanlığın məzhəkələrini, dramını yaratmışdır ki, öz maarifçiliyinin, öz əxlaqi qayəsinin üstünlüyünü sübut etsin. Bu maarifçiliyin, əxlaqi qayənin daha qabarıq təsdiqi üçün Vəzirov yaşadığı cəmiyyətin ümumi əxlaqi böhranının fonunda qəhrəmanı Fəxrəddinin və onun arzu və istəklərinin faciəsini yaratmış, Azərbaycan ədəbiyyatında «Müsibəti Fəxrəddin» əsəri ilə faciə janrının əsasını qoymuşdur. Faciə bir şəxsin yox, bir cəmiyyətin faciəsidir. Bu faciənin əsası nadanlıqdır, elmsizlik və maarifsizlikdir. Əsəri and ilə başlayıb and ilə bitirən Vəzirov ikinci andın birinci and üzərindəki qələbəsinə inanır, faciənin sonluğunu nikbin pafos, işıqlı gələcəyə inamla tamamlayır.

XIX əsrin sonu XX əsrin əvvəli kimi çox mürəkkəb və dramatik bir epoxanın görkəmli qələm, elm və müəllim sərkərdələrindən olan Vəzirov dramaturgiya, nəsr və publisistika ilə yanaşı, elmi–bioloji əsərləri ilə də Azərbaycan meşəçilik elminin yeni bir mərhələsinin əsasını qoymuş, Azərbaycanın müasirləşməsi yolunda bütün gücünü əsirgəməmişdir.

Azərbaycan demokratik maarifçiliyinin inkişafında özünəməxsus yeri olan ziyalılarımızdan biri də Əbdürrəhim bəy Haqverdiyevdir (1870-1933). Sankt – Peterburq Yollar İnstitutunda ali təhsil alıb Bakıda müəllimliklə məşğul olan, səhnə əsərlərinin hazırlanmasında quruluşçu rejissor, Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk dirijoru olan Haqverdiyev 1904-cü ildə Şuşa şəhər bələdiyyə idarəsinə üzv seçilmiş, «Molla Nəsrəddin» jurnalında müxtəlif janrlarda əsərlər çap etdirmiş, Bakıda Azərbaycan Dövlət Darülfununda müəllimlik etmiş, şəhər teatr həyatında fəal iştirak etmişdir. XIX əsr dramaturgiyamızda maarifçiliyin növbəti mərhələsini Haqverdiyev başa çatdırır. Azərbaycan dramaturgiyasının sonrakı mərhələsində əsasında maarifçi məfkurə dayanan «Dağılan tifaq» kimi möhtəşəm bir sosial faciəyə daha rast gəlinmir.

Ədəbi, elmi, pedaqoji, publisist fəaliyyətlə ardıcıl məşğul olan Haqverdiyev öz dram əsərləri ilə milli maarifçi məfkurənin və realist bədii- estetik modelin klassik nümunələrini yaratmış, 1905-1907-ci il hadisələrinin təsiri ilə tənqidi realizm mərhələsinə qədəm qoymuşdur. Onun «maralları» içərisində artıq ictimai təbəqə və zümrələrin bütün nümayəndələrinə rast gəlmək olar -- II Nikolaydan başlamış, mühərrir, müəllim, vəkil, polis, pristav, prokuror, mirzə, sələmçi, ruhani, mülkədar, bəy, dükançı, tacir və kürdlərə qədər bütün tiplər birlikdə tənqid hədəfinə çevrilir. Haqverdiyev yaratdığı bədii tipinə, obrazına yeni sosial xarakteristika verir, həqiqi tənqidi realizmə açılan cığırı daha da genişləndirir. XIX əsrin sonu, XX əsrin ilk illərində Nəriman Nərimanov, Üzeyir bəy Hacıbəyov, Süleyman Sani Axundov realist dramaturgiyamızı yeni janrlar, forma və üslub keyfiyyəti ilə zənginləşdirirlər.

Əsası Mirzə Fətəli Axundov tərəfindən qoyulan maarifçi təlimin və maarifçi janrların – dramın, povestin, digər satirik və didaktik şeir şəkillərinin kütləviləşməsi, XIX əsrin sonlarında sözün həqiqi anlamında təmayül, istiqamət və ən başlıcası cərəyan vüsəti alması dövrüdür.

Ənənəvi Şərq mədrəsə tədrisi XIX əsrdə də Azərbaycanda davam etmişdi. Bunu nəzərə alan bir çox Azərbaycan maarifçi ziyalıları qarşısında onları yeni dövr məktəbinə çevirmək vəzifəsi dururdu. Bu məqsədlə Azərbaycan milli maarifçilərinin səyi ilə ilk Azərbaycan – rus məktəbləri yaradıldı. Bu yeni tipli məktəblərdə milli dil, xalqın tarixi ilə yanaşı dünyəvi və dini elmlər də tədris olunurdu. «Bu tipli ilk məktəblər keçən yüzilliyin (XIX əsr nəzərdə tutulur- R.Ə) 30-cu illərində Şuşada, Nuxada, Bakıda, Gəncədə, Şamaxıda və Naxçıvanda açılmışdı» (19, 591).

Bu tədris müəssisələrini açmaqda çar hökumətinin xüsusi məqsədi var idi. «Çar hökumətinin əsas məqsədi yerli inzibati idarələrdə müstəmləkə siyasətini yürütməkdə ona kömək edə biləcək tərcüməçilər, mirzələr – bir sözlə etibarlı milli (Bizcə yerli –R.Ə) kadrlar yetişdirmək idi» (19, 591). Bütün bunlara baxmayaraq, milli dildə tədris milli ədəbi inkişafa güclü təsir göstərməyə başlayır. Məhz maarifçilik təlimi və maarifçilik fəaliyyəti ilə o dövr ədəbiyyatımıza qədəm basan ziyalılarımızın əksəriyyəti müəllimliklə yazıçılığı, dramaturqluqla mətbuatçılığı, folklorçuluqla tərcüməçiliyi öz yaradıcılıqlarının, maarifçi fəaliyyətlərinin məzmununda birləşdirirdilər. XIX əsr ədəbi prosesi üçün ən səciyyəvi və spesifik cəhət də məhz məktəb və ədəbiyyatın, pedaqoji fəaliyyətlə mətbuat və bədii fikrin qarşılıqlı inkişafı idi. Bu dövrün ən məşhur çağırışlarından biri də məhz «Avropasayağı məktəbləri saxlamaq üçün Avropa ruhlu ədəbiyyat yaratmaq» (38) olmuşdur. Bu çağırış o dövrün Azərbaycan ədəbi hərəkatı ilə maarif və məktəb arasındakı münasibətlərin məzmununu çılpaqlığı ilə əks etdirir.



Heç şübhəsiz ki, bu dövrün ictimai şüurunun formalaşmasında yeni tipli məktəblərlə yanaşı, Abbasqulu ağa Bakıxanovun rəhbərliyi ilə Qu-bada fəaliyyət göstərən «Gülüstan», Seyid Əzim Şirvaninin rəhbərlik etdiyi «Beytüs-səfa», Mirzə Şəfi Vazehin «Divani-hikmət», Hacı ağa Fəqirin «Əncüməniş-şüəra», Mirzə İsmayıl Qasirin «Fövcül-füsəha», Məhəmməd ağa Cümrünün «Məcməüş-şüəra», xan qızı Natəvanın «Məclisi-üns», Mir Möhsün Nəvvabın «Məclisi-fəramuşan» və s. bu kimi ədəbi məclislərin də xüsusi rolu vardır. Bu ədəbi məclislər klassik ənənəyə bağlılıqla yanaşı, həm də Azərbaycan mühitinə yeni ideya, yeni mövzu, yeni forma gətirirdi. Bu ədəbi məclislərdə «milli ədəbi qüvvələrlə yanaşı əcnəbi şərqşünaslar-alim, mütərcim və şairlər də yaxından iştirak edirdilər. Beləliklə də, Azərbaycan ədəbi-bədii, ictimai-fəlsəfi mühitində Qərb-Şərq bədii, elmi, fəlsəfi sintezi formalaşırdı. Professor Yaşar Qarayevin yazdığı kimi: «XIX əsrin hər iki yarısında və Azərbaycanın hər iki tayında (Quzey və Güney Azərbaycan nəzərdə tutulur-R.Ə) demək olar ki, bütün bölgələrində fəaliyyət göstərən ədəbi məclislər (43) tam halda, bütövlüklə yeni əsrin yeni tipli, vahid, ümummilli poeziyasının yaranmasında faydalı örnək və hazırlıq rolunu oynaya bildi» (44, 21).

Ümumiyyətlə, XIX əsr Azərbaycan ədəbiyyatı iki – romantik və realist istiqamətdə özünü göstərir. Və sonda hər iki cərəyan nümayəndələri daha da irəli gedərək Avropa ilə Azərbaycan arasında bir əlaqə yaratmağa müvəffəq olmuşlar. İstər realist, istərsə də romantik cərəyan nümayəndələrinin yaradıcılığında vətənpərvərlik motivləri, həmçinin müstəmləkəçilərin və hakim siniflərin zülmündən

şikayət üstünlük təşkil edirdi ki, bütün bunlar da gələcək müstəqilliyin əsasını qoyurdu.

XIX əsrdə həmçinin Azərbaycanın xalq musiqisi, təsviri və tətbiqi incəsənəti, memarlığı yeni inkişaf yoluna qədəm qoyur, teatr sənəti sahəsində ilk addımlar atılırdı. Azərbaycanda ilk teatr tamaşaları da bu dövrdə olmuşdur. XIX əsrdə həmçinin aşıq sənəti, xanəndə dəstələrinin muğam ifası da xalq arasında geniş yayılmış, xalq kütlələri arasında böyük rəğbət qazanmışdı.

Bu dövrdə memarlıq sənəti sahəsində də mühüm nailiyyətlər əldə edilmiş, şəhər tikinti işlərində də canlanma yaranmışdı.

Bu dövrdə həmçinin torpaq islahatları aparılmış, sosial münasibətlərdə canlanma başlanmış, iri şəhərlərdə kapitalist istehsal münasibətləri inkişaf etmiş, yeni siniflər yaranmışdı. Bakıda və Azərbaycanın bəzi qəzalarında neft sənayesi ilə yanaşı digər sənaye sahələri də inkişaf etməyə başlayır. Gədəbəydə mis mədənləri dağ-mədən sənayesinin, Şəki, Şuşa, Ordubad və digər yerlərdə barama istehsalı ipək emalı sənayesinin, pambıqçılığın inkişafı pambıqtəmizləmə sənayesinin, balıqçılıq balıq sənayesinin, Bakı və Naxçıvanda duz istehsalı, digər şəhərlərdə yüzlərlə yeyinti, tikinti sənaye sahələrinin və tütün fabriklərinin yaranmasına, üzümçülüyün inkişafı şərabçılıq müəssisələrinin meydana çıxmasına səbəb oldu. Sənayenin inkişafı ilə əlaqədar olaraq Bakıda və bir sıra qəza mərkəzlərində bank kredit təşkilatları yaradıldı, Bakıda Rusiya banklarının şöbələri açıldı. Neft və digər sənaye sahələrinin genişlənməsi «Xəzər dənizində gəmiçiliyin xeyli inkişafına şərait yaratdı. Xəzər dənizində dünyada ilk neft tutumlu gəmilər meydana çıxdı. Gəmi sahibkarlarının arasında hərəsinin 5-6 gəmisi olan xeyli azərbaycanlı kapitalist – Aşurov, Hüseynovlar, Zeynalov və b. var idi. XIX yüzilliyin sonlarında Bakı limanı yük dövriyyəsinə görə çar Rusyasında ikinci yeri tutürdu (19, 608).

Kapitalist istehsal münasibətlərinin yaranması Azərbaycanla Avropa ölkələri arasında əlaqələri daha da genişləndirdi: Avropa texnologiyası ilə yanaşı Qərbin elmi, fəlsəfi dünyagörüşü də Azərbaycanda yayılmağa başladı. Kapitalizmin inkişafı, cəmiyyətin sinfi tərkibində baş vermiş dəyişikliklər, Azərbaycanın ayrı-ayrı əraziləri arasında iqtisadi və mədəni birliyin yaranması və s. kimi amillər vahid dili, mədəniyyəti, ərazisi, iqtisadi və mənəvi gücü olan Azərbaycan xalqının bir millət kimi formalaşmasından xəbər verirdi. 1880-cı ildə çıxan «Kəşkül» qəzeti mətbuatda ilk dəfə «Azərbaycan milləti» ifadəsini işlətmişdi. Millət kimi formalaşmağa başlamaq Azərbaycanlıların həyatında mühüm hadisə idi. Bu, hər şeydən əvvəl azərbaycanlıların milli şüurunun da formalaşmasına səbəb oldu. Milli şüurun formalaşması ilk öncə çar müstəmləkə zülmünə qarşı, ölkənin süverenliyi uğrunda mübarizə üçün çox vacib idi.

Artıq XIX əsrin sonlarında Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni həyatındakı dəyişikliklər, xüsusilə maarif, mətbuat, ədəbiyyat, elm, mədəniyyət, incəsənət və səhiyyə sahələrinin Avropasayağı yeniləşməsi XX əsrdə milli hərəkatın başlanğıcını qoymuş oldu. Beləliklə, Azərbaycan XX əsrə mütərəqqi-demokratik hərəkatla daxil olaraq XX əsrin birinci onilliyində milli-demokratik hərəkata çevrildi ki, bu işdə XIX əsrin Azərbaycan maarifçilərinin əvəzsiz xidmətləri olmuşdur.

Artıq XIX əsrin sonlarında maarifçi realizm təkcə bir nəfərin yox, böyük bir ziyalı ordusunun metoduna çevrilmişdi. İctimai-ədəbi fəaliyyətin müxtəlif sahələrində Axundov irsinin peşəkar davamçıları yetişmiş, bütünlükdə mütərəqqi milli mətbuat «Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə», «Kəşkül»; teatr, yeni tipli məktəblər – üsuli-cədid, pedaqoji heyət, xeyriyyə cəmiyyətləri yaranmış, maarifçi ideoloqlar yetişmişdi. Azərbaycanda maarifçilik hərəkatının bu ikinci dövrü öz kütləviliyi, ideya və forma yeniliyi ilə yanaşı, əvvəlki mərhələdən başqa bir xüsusiyyəti ilə də seçilirdi. Belə ki, Axundov dövrünün maarifçiliyi daha çox nəzəri səciyyə daşıyırdısa, 80-90-cı illərin maarifçiliyi praktik və intensiv xüsusiyyət daşıyırdı. Böyük islahatçı ideoloq, yazıçı və filosofun – Mirzə Fətəli Axundovun ideyaları və nəzəri vəsiyyətləri bir-bir həyata keçməyə başlamışdı. Böyük ideoloqun: «Əgər xalq tərbiyə edilməzsə və bütün camaat savadlı olmazsa, çəkdiyimiz bütün zəhmətlər heçə-puça çıxacaqdır» (7, 353) ideyasını Axundovun ardıcılları vaxtında və doğru dərk edərək islahata lap başdan – köhnə, orta əsr tipli mollaxanalardan, mədrəsələrdən başladılar. Çünki yüksək təhsil görmüş, Avropada gedən yeniliklərin səbəbini dərindən dərk etmiş maarif fədailəri bilirdilər ki, mədrəsə və məktəbi – bu ən kütləvi mənəvi-əxlaqi tərbiyə və ideoloji təsir silahını mühafizəkar ruhanilərin əlindən tamamilə almadan, onları dünyəvi elmin və müasir biliklərin yayıldığı yeni tipli təlim və tədris ocağına çevirmədən həqiqi maarifçi məqsədlərə nail olmaq qeyri-mümkündür. Əslində dünyəvi məktəb probleminin həlli maarifçilyiin «avropalılaşmaq» ideyasının həlli ilə sıx bağlı idi. Odur ki, «Üsuli-cədid» hərəkatının qarşısına qoyduğu ən ümdə vəzifə tədrisin və tərkibin demokratikləşdirilməsini, yəni məktəbdə dünyəvi elmlərin, ana dilinin və rus dilinin tədrisinin proqrama daxil edilməsi və məktəbin bütövlükdə xalqın balalarının üzünə açılmasını təmin etmək idi. Çarizmin və yerli ruhani irticasının qatı müqavimətinə baxmayaraq, Azərbaycan maarifçiləri birlik nümayiş etdirərək buna nail oldular. Ona görə də səhnə işi ilə mətbuatçılıq, müəllimliklə yazıçılıq, folklorçuluqla mütərcimlik, maarifçilik fəaliyyətinin məzmununda birləşərək üzvi bir rabitədə, qarşılıqlı təsir və əlaqə prosesində inkişaf etməyə başladı. Teatr və mətbuatdan sonra məktəb də maarifçiliyin əsas ideya və əməli iş silahına çevrildi. Beləliklə də, milli teatr, milli mətbuat və milli tədris hərəkatı milli inkişafa güclü təsir göstərərək maarifçiliyin «avropalılaşmaq» çağırışını bu və ya digər dərəcədə yerinə yetirmiş oldu.

Azərbaycan maarifçiliyi yeni çağa, XX əsrə «avropalılaşmaq» silahı ilə daxil oldu. Fəqət təkcə bu silahla istiqlala qovuşmaq mümkün deyildi. Ona görə də Azərbaycan maarifçi ziyalıları yeni yollar aramağa başladılar. Bu yeni yollardan birini də «İslamlaşmaq»da gördülər. Beləliklə də, XIX əsrin son rübünün maarifçiləri Axundovun irəli sürdüyü ağılla yanaşı, etiqadı da qəbul edərək fanatizmə və xurafata qarşı mübarizədə əsl, həqiqi dinin özünün ən müqəddəs silahı olan Quranla da silahlanmağı məqsədəuyğun saydılar və çar Rusiyasının tərkibində olan XX əsrin maarifçi ədəbi fikri dini tərbiyəni də tərbiyənin tərkib hissəsi kimi etiraf və qəbul etdi.

XX əsr tarixə dünya iqtisadi böhranı ilə daxil oldu. Bu iqtisadi böhran Azərbaycandan da yan keçmədi. İqtisadi böhran imperiyanın hər yerində, o cümlədən Azərbaycanda tətillərə, etirazlara səbəb oldu. 1905-ci il

Ümumrusiya oktyabr siyasi tətili bütün imperiyanı sarsıtdı. «Getdikcə genişlənən xalq hərəkatından qorxuya düşən çar hökuməti 1905-ci il oktyabrın 17-də manifest verərək söz, mətbuat, yığıncaq və s. azadlığı vəd etməli oldu» (48, 327).

Çarın bu «Manifest»indən yararlanan Azərbaycan ziyalıları demokratik azadlıq və hüquqlar uğrunda mübarizəni daha da genişləndirməyə, gizli təşkilatlar yaratmağa, Azərbaycan ictimai-siyasi həyatında fəal iştirak etməyə başladılar. Bu dövrdə Azərbaycanda «Müsəlman Məşrutə» partiyası, (14; 631) Ə.Topçubaşov, Ə.Ağayev və İ.Ziyadxanovun başçılıq etdikləri «İttifaq-ül-müslimin», «Difai» və ya «Müdafiə» adlı milli partiyalar meydana çıxdı» (48, 327).

Bu dövrdə ədəbi-bədii maarifçiliyə siyasi maarifçilik də qoşuldu. İnqilabi hərəkatların təsiri ilə bir-birinin ardınca yeni-yeni mətbuat orqanları yaranmağa başladı. Bu dövrdə nəşr olunan «Şərqi-Rus», «Həyat», «İrşad», «Tazə həyat», «Qoç-Dəvət», «Təkamül», «Baku» kimi qəzetlər, «Dəbistan», «Füyuzat», «Məktəb», «Dirilik», «Şəlalə» kimi jurnallar müxtəlif yönlü və müxtəlif dünyagörüşlü Azərbaycan ziyalılarını öz ətrafında birləşdirməyə müvəffəq oldular. Bütün bu qəzet və jurnallar dövrün mühüm, rəngarəng ictimai-siyasi, elmi-fəlsəfi, ədəbi-bədii məsələlərini əks etdirən tribunalara çevrildilər.

Çox təəssüflə qeyd edilməlidir ki, XIX əsr maarifçilərinin vahid mövqedən çıxış etmələrini XX əsr maarifçilərinə şamil etmək olmaz. İctimai, siyasi, ideoloji və fəlsəfi dünyagörüşləri və qayələri etibarilə müxtəlif olan bu mətbuat orqanlarında amal və məqsədləri baxımından da bir-birinə əks mövqelərdə duran şair, yazıçı, alim və



jurnalistlər çıxış edirdilər. Avropada, Rusiyada, Türkiyədə, Qafqazda ali təhsil alıb Azərbaycana, onun mərkəzləşmiş şəhəri olan Bakıya toplaşan Azərbaycan ziyalıları təhsil aldıqları ölkələrin ab-havasını Azərbaycana gətirdilər. Aldıqları təhsil, qazandıqları dünyagörüşü onları ayrı-ayrı ideologiyalara xidmət edən siyasi təşkilatlarda qruplaşmağa sövq etdi. Belə ki, neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Bakıya axışan rus, erməni və Güney Azərbaycan fəhlələri ilə yanaşı buraya Rusiyada inqilabi hərəkatda iştirak etmiş rus və gürcü sosial-demokratları da sürgün edilmişdi. Onlar Bakıda 1901-ci ildə rus sosial-demokrat partiyasının Bakı Komitəsini yaratdılar və Güney Azərbaycandan gələn fəhlələri də öz mübarizələrinə cəlb etməyə başladılar.

1904-cü ildə bu partiyanın nəzdində türklərdən ibarət «Hümmət» adlı sosialist partiyası yaradıldı. «Bir müddət rus sosial-demokrat partiyasının nəzdində fəaliyyət göstərən bu paprtiya 1905-ci il inqilabından sonra yarımmüstəqil, 1917-ci il inqilabından sonra isə müstəqil Azərbaycan Kommunist Partiyası adlandı» (20, 71). Sonradan bu partiya dörd yerə parçalanaraq üzvlərinin bir qrupu bolşeviklərə, bir qrupu menşeviklərə, bir qrupu eserlərə, bir qrupu da «Müsavat»a qoşulmuşdu.

Azərbaycan tarixində ikinci siyasi partiya Əh-məd bəy Ağayev (Ağaoğlu – R.Ə.) tərəfindən 1905-ci ildə yaradılan «Difai» partiyasıdır. Bu partiya («Difai» - R.Ə.) yarandığı gündən Azərbaycan xalqı üçün çox böyük işlər görmüşdür... «Türk və müsəlman xalqına ermənilər tərəfindən törədilən hücumlara qarşı» (20, 71) müqavimət göstərərək, «Müdafiə» təşkilatı adını almışdı.

Azərbaycan siyasi tarixində mühüm yer tutan partiyalardan biri də 1906-cı ildə Tatarıstanının Nijni Novqorod şəhərində keçirilən Rusiya müsəlmanlarının qurultayının qərarı ilə yaradılan «Rusiya Müsəlmanları İttifaqı» (əsl adı «İttifaqül-müslimin»dir – R.Ə.) partiyasıdır.
Azərbaycan siyasi tarixində özünəməxsus yeri olan və Azərbaycana ilk Demokratik Cümhuriyyəti bəxş edən dördüncü syiasi partiya 1911-ci ildə yaradılan «Türk ədəmi mərkəziyyət partiyası»dır. («Müsavat»- R.Ə.)
Azərbaycan ziyalılarının böyük bir hissəsi məhz bu adı çəkilən siyasi təşkilatlarda öz siyasi fəaliyyətlərini davam etdirmişlər. Bütün ideoloji və siyasi fərqlərinə baxmayaraq, bu siyasi partiyaları bir amal birləşdirirdi ki, bu da çarizmə , çar istibdadına qarşı mübarizə idi.

Bütün bunlarla yanaşı heç bir siyasi təşkilatda təmsil olunmayan, lakin ideoloji və siyasi mübarizədə yuxarıda adı çəkilən siyasi partiyaların mövqeyindən çıxış edən, onlara dəstək verən başqa bir qrup ziyalılarımız da az deyildi. Bu siyasi təşkilatların hər birinin də özünəməxsus siyasi-ideoloji orqanları var idi ki, bu mətbu orqanları ilə öz fikir, düşüncə, ideologiya, fəlsəfi və dini dünyagörüş və siyasi proqramlarını, platformalarını açıqlayırdılar. Belə ki, Azərbaycanda bolşevik ruhlu yerli mətbuat orqanları olan «Hümmət» (1904), «Dəvət-Qoç» (1906), «Prizıv», «Bakinski raboçi», «Təkamül» (1906), «Yoldaş», «Ryadavoy», «Qudok» kimi qəzetlər nəşr olunur və bu qəzetlərin ətrafında toplanan N.Nərimanov, S,Ağamalıoğlu, A.B.Yusifzadə, T.Şahbazi və b. kimi Azərbaycan bolşevikləri sol radikal ideyaları təbliğ edir, Azərbaycan ədəbiyyatında tam yeni tipli «proletar ədəbiyyatı»nın ilk nümunələrini yaradırdılar. Bunlar müasirliyi daha çox çarizmə qarşı mübarizədə görür, Azərbaycanda da sosialist inqilabının qələbə çalmasına çalışır və Azərbaycanı Sosialist Rusiyasının tərkibində görmək istəyirdilər.



Milli ruhlu ziyalılar isə əsasən «Şərqi-Rus», «Kaspi», «Kafkaz», «İrşad», «Proqres», «Tərəqqi», «Həyat», «Açıq söz» qəzetləri və «Füyuzat» və «Molla Nəsrəddin» jurnalları və s. ətrafında birləşərək özlərinin Qərbçilik mövqelərini və onun Şərq aləminə, o cümlədən də Azərbaycana tətbiqini izah etmiş, Böyük Fransa inqilabının elan etdiyi və dünya liberal-demokratik fikrinin əsas leytmotivinə çevrilmiş «Azadlıq, bərabərlik, ədalət» prinsiplərinin qızğın təbliğatçıları olmuş, Şərq xalqlarının milli azadlıq hərəkatlarını müdafiə etmiş, demokratik ictimai fikrin inkişafında mühüm rol oynamışlar. «Onlar son dərəcə hürriyyətpərvər, azadlıq carçısı, haqq və ədalət uğrunda yorulmaz mübariz, öz nəzəri istək və arzularında həmişə aktual olan «Yolumuz hayanadır?» tarixi sualının cavabını tapmağa çalışan, Qərbin və Rusiyaının anti-İslam meyllərinə qarşı çıxan, bəşəri ideallar carçısı, mütərəqqi ideallarla yoğrulmuş Türk dünyasının mənəvi kumirləri, alim, publisist, hüquqşünas, ilahiyyatçı, materialist, idealist, yazıçı, şair, dramaturq, Qərbçiliklə milliyyətçiliyin maarifçilik metodologiyası əsasında sintezini yaradan, milli dil, milli ləyaqət qoruyucuları» (20, 41, 36-37, 31) (seçmələr bizimdir- R.Ə.) olmuşlar.

Heç şübhəsiz ki, adı çəkilən siyasi partiyalar içərisində Azərbaycan xalqının azadlığı uğrunda mübarizə aparan yeganə davamlı partiya «Müsavat» partiyası idi. İlk əvvəl «ümmətçilik» ideologiyası əsasında qurulan və proqramını bu əsasda tərtib edən «Müsavat» partiyası az vaxt ərzində görünməmiş bir inkişaf yoluna qədəm qoydu» (20, 186).

Bu partiyanın «Ümmət» çəmbərindən qurtulub «millət» dövrünə qədəm qoymasında İstanbuldan Bakıya qayıdan və özü ilə «türkçülük» ideyasını gətirən Məmməd Əmin Rəsulzadənin müstəsna xidmətləri olmuşdur. 1915-ci ildə «Açıq söz» qəzetini çıxarmağa başlayan Rəsulzadə bu qəzet vasitəsilə İstanbuldan gətirdiyi Ziya Göyalpın «türkçülük» fikirlərini yaymağa başladı. Daha sonra Krımda İsmayıl bəy Qaspıralının «Tərcüman» qəzetində çalışan və onun «Türkçülük» məfkurəsinin təsiri altında qalan Nəsib bəy Yusifbəylinin Gəncədə yaratdığı «Türk Adəmi - mərkəziyyət» partiyası da «Müsavat»la birləşdikdən sonra təşkilat daha da güclənmiş, demək olar ki, Azərbaycanda təşəbbüsü tam ələ almışdı. Artıq onun proqramında da dəyişikliklər edilmiş, tam milli bir partiyaya çevrilmişdi. «Müsavat bu sürətlə milli birlik və milli həmrəyliyin ana şərtlərindən biri olan mənəvi həmrəyliyin təməlini qoymuş və milli qurtuluşla onun ardınca gələcək milli hakimiyyət üçün milləti polad kimi monolit, həm mənəvi, həm də maddi bir vücud halına gətirəcək ən doğru yolu göstərmişdir... «Müsavat»ın milli məfkurəni təmsil edən yeganə millət firqəsi (partiyası- R.Ə.) olmasının əsaslarından biri də budur» (49, 241).

Ən ağır şəraitdə «Azərbaycan siyasi həyatını öz arxasınca aparan «Müsavat» partiyası, bitərəf qrup, tanınmış, təcrübəli siyasi xadimlər və başqa partiyalar 1918-ci il mayın 28-də bir yerə toplaşaraq Azərbaycanın istiqlaliyyətini bütün dünyaya elan etdilər» (20, 230).

XX əsrin birinci və ikinci onilliyi bütün dünya tarixi, o cümlədən də Azərbaycan tarixi üçün çox əlamətdardır. Belə ki, bu dövr ərzində Azərbaycanla birbaşa əlaqəsi olan çox mühüm hadisələr baş vermişdir: 1905-ci il Rus



inqilabı, 1905-1911-ci illər Cənubi Azərbaycan Məşrutə inqilabı, 1909-cu il Türkiyə Gənc Türklər inqilabı, 1917-ci il rus fevral-burjua və oktyabr inqilabları, ən başlıcası 1914-1918-ci illlər I dünya müharibəsi və iki böyük imperatorluğun – Osmanlı və çar Rusiyası imperatorluqlarının çökməsi və nəhayət, bizim üçün ən əhəmiyyətli olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması. Bütün bu qlobal hadisələrə Azərbaycan ziyalılarının hər birinin özünəməxsus fikir, mülahizə və mövqeləri olmuşdur. Mövqelərin hansı səpkidə olmasından asılı olmayaraq, Azərbaycan ziyalıları və maarifçilərinin demək olar ki, əksəriyyəti yaşadıqları dövrü düzgün təhlil edərək əsas gücü xalqın maariflənməsinə, müasir təfəkkürə yiyələnməsinə sərf etmiş, xalqı azadlıq uğrunda mübarizəyə hazırlamağa çalışmışlar.

Bu dövrdə fəaliyyət göstərən bütün maarifpərvər ziyalılar iki cəbhəyə qarşı ciddi mübarizə aparmışlar. Bunlardan biri çarizmin köləlik siyasəti, digəri isə dini-mühafizəkar cəbhənin xalqı xurafatın təsiri altında saxlaması idi. Azərbaycan xalqının milli müstəqillik şüurunun formalaşmasında Azərbaycan maarifçilərinin istər realist və istərsə də romantik cərəyanının nümayəndələri eyni dərəcədə fəaliyyət göstərmişlər. Realist cərəyanın nümayəndələri feodalizm qalıqlarının ifşasından daha çox burjua ziddiyətlərinin tənqidinə önəm verərək tənqidi realizmin əsasını qoyur, xalqdan uzaqlaşmağı milli «mən»sizlik, simasızlıq adlandırır, hətta «avropalılaşmaq» çağırışlarına qarşı əks ar-qument gətirirlər. Onlar «firəng dili», «rus dili» probleminin ana dili problemi ilə əvəz olunmasını tələb edir, artıq «nadanlığın balasını» «ziyalılığın, obrazovannılığın,

inteligentliyin bəlasında» görür, «mollaxana dərdi» ilə «kafe-şantan dərdi», «zahid dərdi» ilə «obrazovannı dərdi» arasında heç bir əsaslı fərq görmür, xalq-inteligent ziddiyyətlərini ön plana çəkirlər. Onlar cəmiyyətdə «Avropa kultu»nu taxtdan düşürür, Avropaya hər hansı bir aludəçilik təzahürləri əvəzinə ictimai, siyasi və milli əsarətə qarşı milli və inqilabi demokratiya hissini gücləndirməyə çalışırdılar.

Ümumiyyətlə, XX əsr Azərbaycan maarifçi realizmi feodalizmlə, dini xurafatla yanaşı, həm də burjua əxlaq tərzinin təzadlarına, meşşanlığa qarşı çevrildiyi halda, tənqidi realizm onların hamısını öz ifşa pafosunun ümumi hədəfi kimi birləşdirmişdi. Milli «mən» şüurunun formalaşması və milli mədəniyyətin yaranması milli hərəkatı formalaşdırdı. Quzey Azərbaycanda başlanan milli hərəkat ümumazərbaycan miqyasına yayıldı və əks-sədası İran deyilən məmləkətdə Məşrutə hərəkatından eşidildi, Tehranda Məşrutə elan olundu, Məclis açıldı və «Qanuni-əsasi» (Konstitusiya- R.Ə.) qəbul edildi, Milli azadlıq hərəkatı böyük vüsət aldı. Məhz bu dövrdə Azərbaycanda inqilabi demokratiya ideyaları təşəkkül tapmağa başlayır, XX əsrin əvvəllərində milli – ədəbi, inqilabi-demokratik intibah obyektiv olaraq Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnən milli hərəkatı hazırlamış, həmçinin İran Məşrutə və Türkiyə Gənc Türklər inqilablarında yaxından iştirak etmişdir.

Üzünü sabaha, tərəqqiyə istiqamətləndirmiş vahid nəzəri-estetik, siyasi-ideoloji, fəlsəfi vəhdətdə ifadə edən realist və romantik cərəyan nümayəndələrinin demək olar ki, hamısı, o cümlədən də Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Əlimərdan bəy Topçubaşov, Üzeyir bəy



Hacıbəyov, Nəriman Nərimanov, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Sultan Məcid Qənizadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Məmməd Əmin Rəsulzadə, Hüseyn Cavid, Abbas Səhhət, Yusif Vəzir Çəmənzəminli, Abdulla Şaiq, Divanbəyoğlu, Cəfər Cabbarlı və onlarla Azərbaycan mütərəqqi ziyalısı eyni bir böyük, müqəddəs, milli, beynəlmiləl ədəbiyyatın bədii-poetik ləyaqəti keşiyində dayanmaqla, Azərbaycan ədəbiyyatı və ictimai təfəkküründə milli-bəşəri dəyərlərin, islama, türkçülüyə güvənən ideya-siyasi və fəlsəfi-elmi sərvətinin qarantı rolunda çıxış etmiş, Azərbaycan təfəkkür tarixinin ideya şərəfi, Azərbaycan dövlətçiliyinin məhək daşları olmuşlar. Onlar ümumbəşəri bədii, elmi, siyasi və ideoloji fəlsəfə əsasında bir demokratik cəmiyyət formalaşdırmaq, milli dəyərlərə söykənən, milli ideologiyaya əsaslanan bir dövlət yaratmaq istəyirdilər. Və buna qismən də olsa nail oldular, Şərqdə ilk demokratik Azərbaycan Xalq Cümhuriyyəti yaratdılar və qısa bir müddətə olsa da bu demokratik dövləti böyük filosof Ziya Göyalpın «Yalavac» (Peyğəmbər – R.Ə.) adlandırdığı Əli bəy Hüsenyzadə tərəfindən «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» kimi formulə edilən ideoloji əsasda idarə etməyə başladılar.

# II FƏSİL

## *İSLAMÇILIQ: TARİXİ, MAHİYYƏTİ*

Tarixin axarı içində İslam dini ilə tanış olub, onu öz Göy Tanrı dininə bənzər görən Türk milləti, İslamiyyəti bir din olaraq qəbul etmiş, cahanşümul ilahi bir din olan bu dinin bağlandıqları cahan hakimiyyəti idealına uyğun olduğunu görmüş, İslamı yaşayaraq onu ucaltmış və beləliklə, özləri də ucalaraq, yalnız özlərinə deyil, bütün insanlığa xidmət etmişlər. İslamın təməl prinsipləri və Cihad məfkurəsi türkləri digər müsəlman xalqlarla daha da yaxınlaşdıraraq onların birlik və istiqlalına vəsilə olmuş, İslam dünyasının elmi, ictimai, iqtisadi, siyasi və mədəni baxımdan durmadan yüksəlməsini ən azı beş yüz il təmin etmiş, müəzzəm bir Türk-İslam mədəniyyəti yaradaraq səadətə çatdırmışdır. Türklər yaratdıqları mədəniyyətin nemətləri ilə yaşayıb həyatlarını davam etdirərkən onlara düşmən olan başqa xalqların getdikcə inkişaf edərək türkləri yox etməyə çalışdıqlarının fərqinə belə varmamışlar.

XIX əsr və XX əsrin əvvəllərində artıq türklərin inkişafı nisbətən dayanmış, getdikcə geriləməyə başlamışdır. Düşmənlər isə əksinə, güclənmiş, elmə, texnikaya, birliyə yiyələnmişdilər. Gerilənmənin çöküşə düşməməsi üçün, Türk düşüncə sahibləri «nə etmək lazımdır?» sualına cavab axtarmağa başladılar. Həm qurtulmaq ümidi, həm də Qərb mədəniyyətinin, daha doğrusu, düşmən dövlətlərin başçılarının təhriki ilə Osmanlı İmperatorluğunda «Tənzimat» elan olundu və beləliklə də, yeni islahatlar başladı. «Xəstə adam» kimi dəyərləndirilən «Osmanlı İmperatorluğunu



necə müalicə etməli?» sualı qarşıya çıxdı. Bu suala Osmanlı aydınları içərisində vahid cavab tapılmadığından müxtəlif reseptlər ortaya çıxdı. Bu reseptləri yazanlar «Osmanlıçılar, İslamçılar, Türkçülər, Qərbçilər, İctimai-məsləkçilər» adlandılar. Daha sonra bunlara «Sosialistlər»də əlavə olundu.

Başqa bölmələrdə Türkçülər və Qərbçilər haqqında müfəssəl məlumat verdiyimizdən bu bölmədə «Osmanlı»lardan, «İctimai-məsləkçi»lərdən və «Sosialist» lərdən qısa xülasə verməklə daha çox «İslamçılar» üzərində dayanacağıq.

Osmanlıçılar Osmanlı imperatorluğuna vətəndaşlıq bağları ilə bağlı olan hər kəsin – irqi, dini nə olursa-olsun, ayrılıq güdmədən imperatorluğun yaşaması və inkişafı üçün çalışmalarına inanır və bu yöndə fəaliyyət göstərirdilər. Lakin bəlli olduğu kimi bu ideya özünü doğrultmadı. Belə ki, imperatorluğun xristian təbəələri milli dövlətlərini qurmaq üçün imperatorluğun düşmənlərinin köməyi və yardımı ilə üsyanlar edir, imperatorluqdan bir-bir ayrılmağa nail olurdular. Beləliklə, fəlakətlər bir-birini izləyərək ümumi birliyi pozdu, Osmanlıçılıq ideologiyası iflasa uğradı. Məşhur Türk tətqiqatçısı professor Calal Tarakçının yazdığı kimi: «Tənzimat»la vida etdiyimiz «Cahan hakimiyyəti məfkurəsi» yerinə qoymağa çalışdığımız «Osmanlıçılıq»la mövcud olanı qorumağa çalışdıq, olmadı» (21, 2).

Bəlli olduğu kimi, «Osmanlılıq» termininin mənası «çağdaş anlamda nə irq, nə ulus (millət - R.Ə), nə də tam olaraq ümmət deyildi» (21, 5).

Halbuki «Osmanlıçı»lar bir Osmanlı milləti yaratmaq istəyirdilər ki, bu da artıq itirilmiş bir fürsəti yenidən qaytarmağa bənzəyirdi. Ancaq «Osmanlıçılar» ataların məşhur bir deyimini ağıllarına belə gətirmir və anlamırdılar ki:

«Daldan atılan daş topuğa dəyər». Bunu zamanında anlayan böyük Türk düşünürü Yusuf Akçuraoğlu açıq şəkildə zamanında bəyan etdi ki: «Zənnimcə, artıq Osmanlı milləti meydana gətirməklə uğraşmaq boş bir yorğunluqdur» (21, 7).

«İctimai məsləkçi»liyin (Tarixi adı «Məsləki-İctimai» - R.Ə) tərəfdarı, yaradıcısı və toplumda yapı dəyişikliyi istəyən... Osmanlıçılıq və İslamçılıq ideallarına bağlı olmaqla bərabər imperatorluğun qurtula bilməsi üçün «Science Sosiale» («Məsləki - İctimai» - R.Ə) görüşünü mənimsəyən prens Səbahəddin (Sultan Əbdülhəmidin qardaşı oğlu- R.Ə) (21, 21) şəxsi təşəbbüsü və məhəlli idarəçiliyi müdafiə etməklə «Ədəmi-mərkəziyyət» tərəfdarı olmuş, Osmanlı imperatorluğunu bu yolla qurtarmağa səy göstərmişdir. Lakin bilindiyi kimi o dövr türk ziyalılarından bu fikri dəstəkləyən olmamışdır və yaradıldığı zamanda da tarixə mal olmuşdur.

Osmanlı imperatorluğunda «Tənzimat»dan sonra sol hərəkat tərəfdarlarının əksəriyyəti xristian təbəələr olan erməni, yunan və bolqarlar olmuşlar. Onların da məqsədi imperatorluğu qurtarmağa deyil, dağıtmağa yönəlmişdi. Qeyri-türk daha çox xarici düşmən qüvvələrin təsiri altında olmuş, I dünya müharibəsi dövründə daha da aktiv fəaliyyətə başlayaraq imperatorluğun çökməsində əllərindən gələni əsirgəməmişlər.

XIX əsrdə, xüsusilə XIX əsrin ikinci yarısı və XX əsrin əvvəllərində istər Osmanlı imperatorluğu, istər çar Rusiyası və istərsə də İran deyilən məmləkətdə yaşayan türk düşüncə sahibləri arasında üç ideoloji düşüncə sistemi yaranmışdı. Bu idealoji düşüncə sisteminin tarixi araşdırılarsa, görünən həqiqət budur ki, düşüncə sahiblərimiz ilkin olaraq «Avropalılaşmaq», daha doğrusu, «Müasirləşmək» düşüncəsini irəli sürmüşlər. Osmanlı imperatorluğunda Sultan III Səlim, çar Rusiyası tərkibində olan türklər, o cümlədən də Quzey Azərbaycan türkləri arasında XIX əsrin ikinci yarısından başlayan «Müasirləşmək» cərəyanının əsası isə Güney Azərbaycanda müasir tipli təhsilin – 1875-ci ildə Təbriz Darülfünunun açılması ilə qoyulmuşdu. Bu cərəyana Osmanlı imperatorluğunda Sultan II Əbdülhəmid dövründə «İslamlaşmaq» cərəyanı da qoşuldu. Ən son olaraq isə «Türkləşmək» cərəyanı da bunlara qoşularaq bir ideoloji sistem yaratdı və «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» şəklində düsturlandı.

Ziya Göyalpın «Türkləşmək, İslamlaşmaq, çağdaşlaşmaq və doğru yol» əsərini çapa hazırlayan və əsərə ön söz yazan Yusuf Çotuksökən göstərir ki: «Türkləşmək, İslamlaşmaq, Avropalılaşmaq» düşüncəsi ilk olaraq Əli Suavi (1839-1878) tərəfindən irəli sürülmüş və müdafiə edilmiş, sonra Hüseynzadə Əli bəy (1864-1942) islam – türk xalqlarının inkişafı və müasirləşməsində bu üç təməl ideyanın gerçəkləşməsinin gərəkli olduğunu əsas olaraq göstərmişdir. «Türkləşmək, İslamlaşmaq, Çağdaşlaşmaq» adlı əsərində Ziya Göyalp Hüseynzadə Əli bəyin düşüncəsinə toxunmasa da dəyərini anlayaraq onu (Əli Bəy Hüseynzadəni- R.Ə) «Yalavac» (Peyğəmbər - R.Ə) deyə adlandırmışdır» (80, 11). Əslində tarixi baxımdan yanaşsaq, bu ideoloji sistem belə adlandırılmalıdır: «Avropalılaşmaq, İslamlaşmaq, Türkləşmək». Çünki bu ideoloji sistemə daxil olan «Avropalılaşmaq» yuxarıda da qeyd edildiyi kimi bir düşüncə cərəyanı olaraq «İslamlaşmaq və Türkləşmək»dən öncə ortaya atılmışdır.

XIX əsrdə bütün dünya türk toplumunun qarşısında iki mühüm sual dayanırdı. Bunlardan birincisi Şərq mədəniyyətindən, daha doğrusu, Şərq xurafatından, Şərq ətalətindən çıxıb inkişaf etmək və inkişaf etməkdə olan Qərb mədəniyyətinə keçmək, ikincisi isə Qərb mədəniyyətinin uğurları ilə cəmiyyət müəssisələrini yenidən qurmaq və müasir bir cəmiyyət yaratmaq. Bu iki qlobal məsələ bir-biri ilə sıx surətdə bağlı olduğundan birinin gerçəkləşməsi, o birinin də gerçəkləşməsinə şərait yaradır. İstər Osmanlı, istər Azərbaycan və istərsə də çar Rusiyasının tərkibində olan türk düşüncə sahiblərini düşündürən əsas məsələ bu «Müasirləşmə»nin necə olacağı və onun necə həyata keçiriləcəyi məsələləri idi. İlk öncə avropalı olmayan dövlət və xalqların özləri üçün əldə etmək istədikləri şey Qərbin istər hərb, istərsə də sülh məqsədləri üçün başarmış olduğu əzəmətli maddi irəliləyiş idi. Zaman keçdikcə daha yaxşı anlaşılırdı ki, Avropanın bu inkişafı sadəcə onun inkişaf etdirdiyi maddi vasitələrdən ibarət deyil, maddi vasitələrin qaynağı olan elmi yeniliklərdir. Elmi yeniliklər isə köhnə düşüncə və həyat tərzini kökündən qazıyan bir rasionalizmə əsaslanmalı idi. Bu məqsədlə onlar köhnəliyə, ətalətə qarşı çıxaraq Avropanın əldə etdiyi dinamizmi, elmi yenilikləri məmləkətlərinə gətirməyə çalışırdılar.

«Türkləşmək»dən, «Avropalılaşmaq» və ya «Müasirləşmək»dən digər fəsillərdə geniş bəhs etmişdik. Bu fəsildə əsasən «İslamlaşmaq»dan, onun ideoloji-siyasi və fəlsəfi yönlərindən bəhs edəcək, bu ideoloji sistemi yeniləşdirməyə çalışan türk düşüncə sahiblərinin ideyalarını izləməyə çalışacağıq.



Hər şeydən öncə qeyd etməliyik ki, hər bir fərd, xalq və millət bütün mənəvi feyzlərini dindən alır. Bu anlamda türklər, o cümlədən də Azərbaycan xalqı uzun illər boyu mənsub olduqları dinlərdən mənəvi, əxlaqi zövq almışlar.

Ümumiyyətlə, Azərbaycan xalqı tarixən beş böyük dinin – bütpərəstlik, atəşpərəstlik, musəvilik, xristianlıq və islam dininin daşıyıcısı olmuşdur. Hər bir xalqın təşəkkülündə dil, adət-ənənə ilə yanaşı mühüm amillərdən biri də dindir. Hər bir xalq kimi türklərin də bir dini keçmişi vardır. Dini adət-ənənələr sadəcə bəzi inamları qoruyub saxlamaqla qalmamış, həm də bəlli ictimai qayda-qanunları, şənlikləri, toy və yas mərasimlərini icra edərək, bunları yaşadaraq, ədəbiyyatı, tarixi, incəsənəti, hüququ, fəlsəfəni, hətta iqtisadiyyatı əhatə edərək xalqların mədəniyyətlərinin formalaşması və inkişafında xüsusi rol oynamışdır.

İnsanı insan edən və onu digər yaradılmışların hamısından fərqləndirən mühüm amillərdən biri də dindir. Dinin başlıca qayəsi Tanrıya inam olduğundan, o (din-R.Ə) insan oğlu ilə qoşa yaranmışdır. Ona görə də insanlıq tarixinin ilk başlanğıcından bu günə qədər insanda ən güclü hiss və duyğulardan biri də məhz din hissi, din duyğusudur. Din hissinin mövcudluğunu bütün müxtəlifliyinə baxmayaraq hər zaman və hər yerdə – qədim insanların mağara və məzarlarında, qədim şumerlərin, elamların, babillərin, akkadların, hititlərin, midiyalıların, mannalıların tapınaqlarında, qədim Misirin piramidalarında, yunan olimpində, Roma panteonunda, qədim türklərin balballarında və inanclarında, avesta bakirələrinin əbədi yanan atəşində, Kelt rahiblərinin müqəddəs qoruqlarında, xüsusilə Göy Tanrı, atəşpərəstlik, buddizm, hindu-

izm, konfüsizm, musəvilik, xristianlıq və islamiyyət kimi əsrlər boyu milyardlarla insanın inandığı din sistemlərində - görmək olar.

Din duyğusu insanın içində elə kök salmışdır ki, insan normal olaraq bu və ya digər dərəcədə öz hisslərini mütləq şəkildə büruzə verir. İnsan hər hansı bir dinə inamını itirə bilər, ancaq daha sonra şüurlu və ya şüursuz olaraq yenə də nəyəsə inanmağa məcburdur. Bu inam hər hansı bir şeyə ola bilər. Başqa bir deyimlə, insan inamsız yaşaya bilməz. Bütün tarix boyu hər yerdə və hər zamanda insanlarda bir din hissinin mövcudluğu təbii və normal olmuşdur. Bu fikri zaman-zaman bütün din araşdırıcıları elmi şəkildə təsdiq etmişlər. Onlar hər bir dinin mədəniyyət, mənəviyyat və davranışlardakı mühüm rolunu qeyd etmiş, hətta elmin, texnikanın yüksək səviyyədə inkişaf etdiyi çağdaş dünyamızda belə dinin yenə də insanların mənəvi boşluğunu dolduran birinci vasitə hesab etmişlər. Əgər din və xüsusilə onun mənəvi-əxlaqi dəyərləri olmasa, sivilizasiyada yetmiş illik sovet rejimində olduğu kimi total maddiləşmə baş alıb gedər. Bütünlüklə maddiyata dayanan və XX əsr yer kürəsi insanlarının başı üzərində bir «Demokl Qılıncı»nı xatırladan kommunist rejiminin iqtisadi cazibəsinə, materialist və hətta ateist olmasına baxmayaraq, o da sonda insanlığa din kimi bir «cənnət» - kommunizm vəd etməkdə idi. Onun da (Sovet Kommunist rejiminin – R.Ə) din kimi yaradıcıları (Marks, Engels, Lenin) «üləmaları, şəhidləri, moizəxanları», Kremldə oturan həm siyasi, həm ideoloji, həm də «dini» papası, xəlifəsi vardı.

Deməli, formasiyasından, inkişaf səviyyəsindən asılı olmayaraq heç bir cəmiyyət dinsiz yaşamamış, yaşamır



və yaşamayacaq da. Dinsiz cəmiyyət sosial tərəqqiyə, gerçək reallığa, heç bir əməli-məntiqi yekuna gedib çata bilməz. Əksinə, cəmiyyətdə dini böhran Tanrını yox, daha çox İblisi razı salan birtərəfli vulqar texnoloji «renessansa» gətirib çıxarar. Məhz maddiyyata əsaslanan kollektiv qeyri-şüurluluq bir yerə cəmləşib humanitar nadanlıq, mənəvi, əxlaqi, bəşəri cəhalət yaradar, insanın mənəviyyatla bağlı əxlaqi dəyərləri sarsılar, insan insanlıqdan çıxıb maddiləşər. Unudulmamalıdır ki, insanın meymun mənşəli olduğu Qərbdə, Tanrı mənşəli olduğu isə Şərqdə kəşf edilib.

Bütün bu deyilənlər onu göstərir ki, din insanlıq tarixi ilə həmyaşıddır. Adəmdən tutmuş günümüzə qədər tarixin bütün dövrlərində insanlar bu və ya digər dərəcədə dinə maraq göstərmişlər. Tarixdə din qədər sürəklilik göstərən ikinci bir dünyagörüşü olmamışdır. Bu da dinin insan üçün nə qədər əhəmiyyətli olduğunu göstərən amillərdəndir.

Orta əsrlər dövrü xristianlıq və islamiyyət kimi iki cahanşümul dinin yayılması, dünya hakimiyyəti uğrunda bir-biri ilə mübarizəsi dövrüdür. Xristianlıq yunanların çox tanrıcılıq əqidələrini və əzəmətli Roma imperiyasının materialist və mənəvi cəhətdən çökmüş həyatını yerlə yeksan edərək, bəşəriyyətin müəyyən bir hissəsini təkallahlığa inama və mənəvi nizama salmağa çalışdığı kimi, ondan (xristianlıqdan – R.Ə) altı əsr sonra tarix səhnəsinə qədəm basan islamiyyət daha böyük bir qüdrətlə yalnız bu dinin (islam dininin – R.Ə) inkişafına deyil, onu (Xristian dinini – R.Ə) yerləşdiyi yaxın Şərq, Qafqaz, Aralıq və Qara dəniz ətrafı ölkələrdən də sıxışdırıb çıxar-

mağa, daha sağlam bir dünya nizamı və mə-dəniyyəti qurmağa müvəffəq olmuşdur.

İslam dini, xristianlığın ana xətti sayılan ata Allah, oğul Allah və müqəddəs ruh kimi üçlü inancı ilə bütpərəstlik təsirlərindən qurtula bilməsi həmçinin həyat və mədəniyyəti inkar edərək bəşəriyyətin səadəti üçün zəruri olan maddi və mənəvi əqidəni itirməsi fikrini irəli sürərək, öz «Allahdan başqa ilahi yoxdur», «Ruhla Bədən, maddi və mənəvi vəhdətdədir» tezislərini ona qarşı qoydu. Həmçinin materializmə qarşı üsyan edən xristianlığın elm və mədəniyyətə qarşı çıxmasına da əks mövqedə dayandı, bəşər sivilizasiyasını elm və mədəniyyətlə zənginləşdirərək, bir İslam mədəniyyəti yaratdı. Beləliklə, islamiyyət elm və din, ağıl və iman, bədən və ruh, həyat və axirət arasında tam bir müvazinət yaradaraq, insan təbiətinə uyğun əsaslarla bəşəriyyətə mədəniyyət və səadət yollarını açmış oldu ki, bu işdə türklərin əvəzsiz xidmətləri danılmazdır.

Türk xalqları içərisində islamiyyəti ən tez qəbul edən Azərbaycan türkləri olmuşdur. Azərbaycan xalqının böyük bir qismi VIII əsrin əvvəllərində islam dinini qəbul etmişdir. Lakin «VIII əsrin əvvəllərində islam dini Azərbaycanda geniş yayıldığı, möhkəmləndiyi və hakim din olduğu şəraitdə belə, Albaniyanın bir hissəsində, xüsusilə Qarabağın dağlıq hissəsində xristianlıq dini əvvəlki mövqeyini saxlaya bildi. Daha doğrusu, «Kitab əhli» olduqlarına və başqa mülahizələrə görə ərəblər burada xristianlığa toxunmadılar» (19, 251).

XI əsrdən başlayaraq türklərin islam dünyasına başçılıq etmələri bu ilahi dinin günümüzədək və bundan sonra da yaşayacağına tam təminat vermişdir. Türklərin islamiyyəti qəbulu ilə zaman-zaman türk və islam məfkurələri bir-biri ilə qaynayıb qarışmışdır.



Türklərin zəifləməsi ilə islam dini də öz hakim mövqeyini itirməyə başlamış, islam dininin cahanşümul ideyalarının yerini savadsız, səbatsız din xadimlərinin uydurduğu və dindən öz şəxsi məqsədləri üçün istifadəyə çalışdıqları xurafat tutmuş və beləliklə də, bu xurafat milləti uçuruma yuvarlatmış, Qərb qarşısında məğlub duruma düşürmüşdü.

İslamın cahil filosofları «riyaziyyatçıların elmlərini inkar etməklə İslama kömək göstərilməsini güman etmişlər. Halbuki onların dinə (islam dininə – R.Ə) qarşı cinayətləri böyükdür. Şəriətdə bu elmlərə (riyaziyyat, həndəsə, astaranomiya – R.Ə) qarşı nə mənfi, nə də müsbət münasibət göstərilir. Həmin elmlərdə də dini əmrlərə münasibət yoxdur...riyaziyyatın xüsusiyyəti və bəlası budur» (50, 144-145).

İslam dini filosofları nə riyaziyyatı, nə də bəzi məsələlər istisna olmaqla fizikanı inkar etməmişlər. Onlar sadəcə olaraq bu elmlərin dinlə heç bir əlaqəsi olmamasından «dinin də bu elmləri inkar etmədiyi» fikrini irəli sürmüşlər (50, 139-146).

Şərqin böyük mütəfəkkirləri əslən türk olan Əbu Nəsr Farabi və İbn Sina ilk dəfə olaraq şəriətin əsası sayılan insanın yenidən dirilməsi fikrini və dünyanın müvəqqəti və faniliyini inkar etmiş, əvəzində göstərmişlər ki: «Həqiqətdə cəsədlər dirilmir. Mükafat və cəza alanlar mücərrəd Ruhlardır. Mükafatlar və cəzalar cismani deyil, Ruhidir» (50, 146). Onlara görə dünya əzəli və əbədidir.

Farabi və İbn Sinanı bu və digər fikirlərinə görə bütün müsəlmanlara qarşı çıxdıqlarını tənqid və təkzib edən

Qəzali göstərir ki, guya «bunun arxasında Allahın atributlarının inkarı durur» (50, 147).

Farabi, İbn Sina, İbn Ruşd, Şihabəddin Sührəvərdı və digərlərinin sayəsində Şərq İslam fəlsəfəsi ilahiyyatın nökəri olmaqdan qurtulub onun (illahiyyatın – R.Ə) «qardaşına» çevrilmişdir.

Bütün dinlər kimi islam dini də getdikcə öz paklığından savadsız din xadimlərinin üzündən uzaqlaşmış, pak və müqəddəs dini müddəaların yerini xurafat tutmuşdur. Kilsəyə tabe etdirilən xristian dini kimi, ayrı-ayrı islam dövlətlərinin təriqətlərinə xidmətə yönəldilən islam dini də islam aləmində təriqətlərə yol açdı, din siyasətə qurban verildi. Və sonda dinlərarası çatışmalar, həm də təriqətlərarası siyasi və hərbi çatışmalara səbəb oldu. Nəticədə iki böyük türk imperatorluğu – Osmanlı və Səfəvi imperatorluqları – bir-birini zəiflətdi, tükətdi. Halbuki islam dini katolik xristianlığın əksinə olaraq, sxolastikaya, xurafata qapalı bir dindir. Katoliklikdə fərdlə Tanrı arasına bütün əzəməti ilə Papalıq və kilsə təşkilatı girmişdir. Hətta katoliklikdə Cənnətin açarı belə bu Papa və kilsə təşkilatının əlindədir. İslamiyyətdə isə belə bir mütləq hakim olan ruhani sinfi yoxdur. Tam əksinə, islamiyyətdə fərdlə Allah arasına kimsə girə bilməz.

Katoliklik bütün həqiqətlərin onda gizli olduğunu iddia edir. İslamiyyətdə isə elm yalnız təfsirlə deyil, təcrübə ilə əldə edilir. Deməli, sxolastikanın Avropa anlayışı ilə islamiyyətin heç bir əlaqəsi yoxdur. Bütün bunlara baxmayaraq Türkiyə, Azərbaycan və ümumiyyətlə Şərqdə dindarlıq iddiası daşıyan sxolastik tiplər, hətta hökmdarlar belə olmuşdur. Bunları qəlbində təbii ümmətçilik sevgisi daşıyanlarla qarışdırmamaq üçün siyasi ümmətçilər adlandırmaq olar. Siyasi ümmətçilərə görə müştərək bir dil, müştərək bir mədəniyyət, müştərək bir millət formalaşdırmaq lazımdır. Məhz bunların nəticəsidir ki, XIX əsrdən başlayaraq, «Müsəlman milləti» termini işlənməyə və hətta az qala qəbul olunmağa başlamışdı. Əslində bu qayə islam dininin özünə ziddir. Çünki islam dini cahanşümul dindir və bütün insanlıq üçündür. Ona milli bir don geydirmək onun cahanşümulluğunu məhv etmək deməkdir. Siyasi ümmətçilik tələb edir ki, ayrı-ayrı fərd və millətlər dilini, tarixini, mədəniyyətini və hətta milliyyətini tərk edərək «müsəlman milləti» adlansın. Halbuki islam dininin irəli sürdüyü hədəf bu dində olan ayrı-ayrı xalq və millətlərin bir-biri ilə qardaşlıq idealıdır, islamiyyətin tək bir millət içində həbsi deyil.

Bütün ümmətçilərə görə: «Hər bir mədəniyyətin əsasında dinlər yatmaqdadır (Onlara görə - R.Ə). Tarix də din savaşlarından ibarətdir... Mədəniyyətlərin aparıcı gücü, onun daşıyıcısı ümmətlərdir...Ümməti qəbul edib fikirlərini o yöndə formalaşdıranlar da ümmətçilərdir» (38; 155).

Təbiidir ki, dinlər insanları, toplumları və millətləri belə çox dəyişdirmişdir. Din hər bir insan və xalqın önündə yeni üfüqlər açdığı kimi, onların əşya və hadisələrə baxışlarını dəyişmiş, əşya və hadisələrə münasibətlərini formalaşdırmış, onların digər insan və xalqlarla davranışına müəyyən anlamlar qatmışdır. Əgər belə olmasaydı heç bir dinin müxtəlif coğrafi ərazilərə və o ərazilərdə yaşayan müxtəlif xalqlara heç bir təsiri olmazdı. Lakin bütün bunlar o demək deyil ki, hər hansı bir dini qəbul etməklə əsrlər boyu işlətdiyin dildən, adət-ənənədən imtina edəsən. Əgər hər hansı bir dini qəbul edən millətlər milliy-

yətlərinə dair hər şeylərini – dilini, adət-ənənəsini unudub yalnız qəbul etdikləri dinin dilini, adət-ənənəsini qəbul etsəydilər, indi dünyada yalnız yeddi-səkkiz millət olardı. Göründüyü kimi bu heç də belə olmadı və ola da bilməzdi. Deməli, siyasi ümmətçilik yarandığı andan da dəfn olundu. Çünki hər bir millətin dili, adət-ənənəsi, əxlaqı, fəlsəfi və bədii zövqü yalnız özünə məxsusdur. Bunlar əsla kənardan alına bilməz.

Din tükənməz mənəvi bir xəzinədir. Bütün əbədiyaşar əsərlərin bünövrəsində sonsuzluğa açılan ruhlar yatmaqdadır. Hər bir millət də canlı bir orqanizmə bənzədiyindən o bədəni idarə edən də ruha dayanan mənəvi dəyərlərdir. Mənəvi dəyərlər insan kimi milləti də zənginləşdirir, onun zəkasını dərinləşdirir. Əslində millət mükəmməl maddi və əsrarəngiz mənəvi dəyərlərin məcmusudur. Bu mənəvi dəyərlərin ən başlıcası xalqımızın əsrlər boyu xidmətində durduğu islam dinidir. İslam dini dünya türklərinin milli birliyinin formalaşmasında çox mühüm rol oynamışdır. Türk-islam sintezi yeni bir türk - islam mədəniyyəti, memarlığı, musiqisi, ədəbiyyatı və fəlsəfəsi meydana gətirmiş, türklərin – istər Azərbaycan, istər Anadolu və istərsə də Orta Asiya Türkləri - bu müqəddəs dindən aldıqları güc ilə əldə etdikləri qabiliyyətləri tarixə qızıl hərflərlə yazılmışdır. Milli birliyin formalaşmasında dövlət xadimləri, şairlər, ozanlar, alimlərlə yanaşı, fəzilətli din xadimlərinin, övliyaların da böyük xidmətləri olmuşdur. Bu din ilə türk milləti güc qazanmış, bu güc və iman sayəsində yer kürəsinin üç qitəsinə mədəniyyət, insanpərvərlik və ədalət aparmışdır. Bu anlamda islam dini türk millətinə geniş üfüqlər açmış və onun ayrılmaz bir parçası olmuşdur. Böyük türk mütəfəkkiri Nurəddin



Topçunun dediyi kimi: «İslam yalnız səcdə halında deyil, səcdəyə əyilən başlarımızdadır. Yalnız camidə deyil, əzan səsi ilə dolan qəlblərimizdədir və yalnız Quranda deyil, onunla nurlanan üzlərimizdədir» (26, 103).

XIX əsrin ikinci yarısında böyük inqilabların meydana çıxardığı təzadlar daha da kəskinləşmiş, şiddətli bir mübarizə dövrü başlamışdı. Fransa, daha dəqiq desək Paris bu mövzuların fikir meydanına çevrilmişdi. Artıq yalnız fransızlar deyil, digər Avropa xalqları belə düşüncələrini açıqlamağa başladılar. Kapitalizm və xüsusilə imperializm istismarçılığı ilə yanaşı sosializm, kommunizm və hətta anarxizm kimi fikir cərəyanları yaranmağa başladı. Millətçilik baxımından da Avropa yeni bir mərhələyə qədəm qoydu. Avropa xəritəsində kiçik dövlətlər yaranmaqla bərabər Qobinenin ortaya atmış olduğu «irqlər nəzəriyyəsi»nə əsaslanan böyük milli dövlətlər, daha doğrusu, irqə dayanan böyük dövlətlər yaratmaq fikri genişlənməkdə idi. Məhz belə bir dövrdə almanlar «pangermanizm», ruslar «panslavyanizm» adı ilə ən böyüklük yarışına girdilər. Daha sonra bu fikir daha da geniş vüsət alaraq hətta «panlatinizm» və «panamerikanizm» kimi tamamilə uydurma bir düşüncə formalaşmaqda idi. Halbuki bütün Yaxın Şərqi, Şərqi Avropanın böyük bir qismini və hətta Afrika qitəsinin bir çox ərazilərini birləşdirən Osmanlı imperatorluğunun ideoloqlarının irəli sürdüyü «Osmanlılıq», sadalananlardan daha mütərəqqi idi və heç bir irqə dayanmayan, üç böyük ilahi din – iudaizm, xristianlıq və islam dini daşıyıcılarını özündə birləşdirən bir liberal «millət» formalaşdırmaq və Amerika Birləşmiş Ştatlarındakı «amerikan» milləti kimi bir millət - Osmanlı milləti yaratmaq cəhdi idi. Bu ideyada

da əsas məqsəd imperatorluğu parçalanmaqdan qurtarmaq, mövcud Osmanlı sərhədlərini qorumaq idi.

Bu ideya cərəyanının əsasında məhz Fransanın liberal milliyyət anlayışı dayanırdı. Avropanın təzyiqlərinə uyaraq Osmanlı imperatorluğunda «Tənzimat» və birinci Məşrutiyyət ilk öncə Osmanlı imperatorluğunu ikiyə böldü. Sultan II Mahmud dövründə başlayan, Sultan Əbdülməcid dövründə inkişaf etdirilən, Əli Paşa və Fuad Paşa zamanında ən yüksək mərhələsinə çatan «Osmanlılıq» adlı liberal milliyyət anlayışı Fransanın 1870-71-ci illərdə Prussiyada məğlub olması ilə öz yerini irqə dayanan milliyyət anlayışına tərk etdiyi kimi, Osmanlı impera-torluğunda «Osmanlıçılıq» yunanların, serblərin, moldavanların müstəqillik qazanıb Osmanlı ölkəsindən ayrılmaları, Osmanlı təbəəsi olan rumların müsəlman türklərə qarşı düşmənçilikləri, xristian ərəblərin, bolqarların, hətta ermənilərin belə milli müstəqillik fikri ilə qımıldanmaları, xristian Osmanlı təbəəsinin milli müstəqillik qazanmasına bütün Avropa xristian dövlətlərinin davamlı müdaxiləsi və s. kimi hadisələrin təsiri ilə öz yerini «ümmətçiliyə» dayanan «islamçılığa» tərk etdi. Dövrün «Osmanlı milləti» siyasəti iflasa uğradı. «Tənzimat» ilə «Osmanlı milləti» meydana gətirməyə və bu yolla imperatorluğu qorumağa çalışan Osmanlı düşüncə sahibləri təcrübənin başarılı olmadığını görüb imperiyadaxili müsəlman xalqlarını və ölkələrini bir arada saxlamaq üçün «İslamçılıq» tezisini irəli sürdülər.

«İslam birliyi» ideyası, iki qütbə ayrılmış Osmanlı imperatorluğunun heç olmazsa müəyyən qismini qoruyub saxlamaq məqsədi ilə ortaya atılmış və Sultan II Əbdülhəmid tərəfindən tamamilə dəstəklənmişdi. Yuxarıda sadalanan siyasi, hərbi və diplomatik vəziyyətlər qarşısında Osmanlı fikir adamları dini birliyə daha çox üstünlük vermişlərsə də, dünyada gedən prosesləri daha dərindən dərk edən bir çox türk siyasət xadimləri «islam birliyi» ideyasının yetərli olmadığını qəti olmasa da anlamışdılar.

«İslam birliyi» ideyasının əsasında «İslamçılıq» dayanır. «İslamçılıq» dünyadakı müsəlmanlardan bir «İslam birliyi» meydana gətirilməsi fikri və ya ideologiyasıdır. Bu ideologiya Osmanlı imperatorluğunda «Osmanlılıq» fikrinin zəifləməsi ilə (Sultan – R. Ə) Əbdüləziz dövründə başlamışdır. Avropa siyasətçiləri buna «Panislamizm» də demişlər. (Sultan II - R.Ə) Əbdülhəmid «Panislamizm»i fikir halından əməl durumuna gətirmişdir. Sarayda, ictimai həyatda, təhsildə və xarici siyasətdə «İslamçılığa» yer verilmişdi. Həmçinin müsəlman məmləkətlərində də geniş bir «Panislamçı» propoqandaya girişilmişdi» (15, 7).

İlk öncə sırf nəzəri bir fikir olan «İslam birliyi» ideyası yalnız mətbuat səhifələrində görünürdüsə, Sultan II Əbdülhəmid taxta çıxandan sonra bu siyasəti dövlət səviyyəsində tətbiq etməyə başladı. Çünki Avropa və Rusiya kimi xristian dövlətlərin hər cür basqısı qarşısında imperatorluğun qalan hissəsinin birliyini qorumanın ən sağlam yolu «İmperatorluğun müsəlman təbəəsini din bağları ilə bütünləşdirmək idi» (60; 501). Sultan II Əbdülhəmid «Gənc Osmanlıların qarşısını amansızlıqla almaqla bərabər, müəyyən mənada həm də onların siyasətlərinin tələbəsi idi. Hüquq bərabərliyi və tam sərbəstlik təmin olunsa belə müsəlman olmayan təbəənin Osmanlı siyasət topluluğunda bulunmayacağını anladıqdan sonra Gənc Osmanlılar adı çəkilən təbəəyə (xristianlar nəzərdə

tutulur - R.Ə) və onların qoruyucusu olan xristian Avropaya düşmən münasibət bəsləməyə başlamışdılar. Padşahın (Sultan II Əbdülhəmid nəzərdə tutulur - R.Ə). siyasəti bu dəyişmədən sonrakı Gənc Osmanlıların fikirləri ilə üst-üstə düşürdü» (15, 22).

Artıq Sultan Əbdülhəmid o dövrdən başlayaraq Sultan, padşah əvəzinə daha çox dini titul olan Xəlifə kimi tanınmağa başlandı. Siyasətinin əsasında İslam dini mühüm yer tutmağa başladı. Tədrisin əsasını diniləşdirdi. Sarayı xocalar, imamlar, seyidlər, şeyxlər, şəriflərlə doldurdu. Bəzi mülki idarələrə «çalmalıları» təyin etdi, müsəlman olmayanlara qarşı nifrət aşılamaq üçün xalq arasına vaizlər göndərdi. İmperatorluğun hər tərəfində təkkələr (dərviş iqamətgahları - R.Ə), hücrələr, məscidlər açdırdı və təmir etdirdi. Hacılar hörmətə mindi. Müsəlman əhalisi çox olan ölkələrə, o cümlədən də Afrikanın ortalarına, Çinə səfirlər göndərdi. Bir sözlə, Sultan bu tədbirləri ilə Tənzimat dövründə itməkdə olan İslam dinini təkrar Osmanlı İmperatorluğuna geri qaytardi» ideyası Sultan II Əbdülhəmidin və Osmanlı fikir adamlarının düşüncəsində yalnız imperiyadaxili müsəlmanların birliyini nəzərdə tuturdusa, bu ideologiyanın ən böyük nəzəriyyəçisi olan Şeyx Cəmaləddin Əfqani bütün İslam aləminin yaşaya bilməsi üçün dünya müsəlmanlarının birliyi ideyasını irəli sürdü. Bu ideya «Osmanlılığa» nisbətən daha inandırıcı, daha cahanşümul idi.

Osmanlı türk ziyalılarının əsas siyasi qayəsi hər şeydən əvvəl Osmanlı imperatorluğunun bütövlüyünü və müstəqilliyini qoruyub saxlamaq idisə, Şeyx Cəmaləddin Əfqani bütün İslam ailəsinin yaşaya bilməsi üçün müsəlmanların birliyi ideyasını irəli sürdü. Bu məqsədlə Əfqani



İslam aləminin hər tərəfinə söz, düşüncə və əməlləri ilə çox bərəkətli toxumlar səpdi, dünya müsəlmanlarının milliyyət fikirlərinin formalaşmasında əvəzsiz xidmətlər göstərdi.

Şeyx Cəmaləddin Əfqaninin (1838-1897) milliyyəti və doğulduğu yer haqqında bir-birinə zidd müxtəlif fikirlər vardır. Biz tarixi qaynaqlara dayanaraq onun Azərbaycan türkü olduğunu və Azərbaycanın Həmədan yaxınlığındakı Əsədabad qəsəbəsində anadan olduğunu qəbul edir, M.T.Zöhtabinin fikirlərini əsas götürürük. M.T.Zöhtabi yazır: «Cəmaləddin Əfqani Həmədan yaxınlığında yerləşən və əhalisi Azərbaycan türklərindən ibarət olan Əsədabad qəsəbəsində ziyalı ailəsində doğulmuşdur. Səkkiz yaşında olarkən atası ilə birlikdə Kabilə köçmüşdür» (81, 19). Şeyx Cəmaləddin Əfqaninin Azərbaycan türkü olduğunu bir çox tədqiqatçı, alim və siyasi xadimlər də təsdiq edirlər. Belə ki, hələ Parisdə olarkən 1888-ci ildən Şeyxlə yaxından tanış olan, daha sonra 1894-cü ildə təhsilini başa vuraraq Parisdən vətənə dönərkən yolüstü İstanbulda Şeyxi ziyarət edən «böyük fikir adamı», «cəsur insan», «Türkçülüyün öndərlərindən biri», «Yaxın Şərqdəki tarixi Avropalaşma hərəkatının ən səmimi ideoloqu» (Məmməd Əmin Rəsulzadə Əhməd bəy Ağaoğlunu belə dəyərləndirmişdir - R.Ə) olan Əhməd bəy Ağaoğlu 1911-ci ildə İstanbulda «Türk yurdu» jurnalında dərc etdirdiyi «Türk aləmi» məqaləsində göstərir ki, Şeyxlə olan söhbətləri zamanı o (Şeyx Cəmaləddin Əfqani - R.Ə) özünün əslən Azərbaycan türkü olduğunu söyləmişdir» (45, 7-8). Daha sonra Şeyxin Azərbaycan türkü olduğunu və Azərbaycanda dünyaya gəldiyini Yusuf Akçura (14, 60), Məmməd Əmin Rəsulzadə (60), Mə-

həmməd Tağı Zöhtabi (81), Amerika alimi professor Nikki Keddi (81, 8) və xüsusilə Şeyx Cəmaləddin Əfqaninin həyat və fəaliyyətinə dair xüsusi monoqrafiya həsr etmiş Şamil Qurbanov (75; 3-4) elmi dəlillərlə sübut etmişlər. Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadə Şeyx Cəmaləddin Əfqaninin bir çox məqalələrini Türk dilinə tərcümə edərək, «Türk yurdu» jurnalında çap etdirmiş, «İran Türkləri» adlı silsilə yazılarında bir çox məsələlərlə yanaşı türk əsilli İran mütəfəkkirləri, o cümlədən də Şeyx Cəmaləddin haqqında müfəssəl məlumatlar vermişdir. M.Ə.Rəsulzadə və digər müəlliflərin yazılarında «Şeyxin milliyyətinin türk olduğu, Həmədan yaxınlığındakı türk kəndi Əsədabadda doğulduğu, hazırda (1911-12-ci illərdə – R.Ə) onun qohum-əqrəbasının o kənddə yaşadığı, Əfqaninin ömrünü əsasən səyahətlərdə keçirdiyi, Hindistanda, Misirdə, Parisdə, Londonda, Tehranda, Amerikada, Bakıda, İstanbulda və başqa şəhər və ölkələrdə olduğu, ərəbcə, farsca, türkcə danışdığı və əsərlər yazdığı, İslam aləminin hər tərəfində dərs, öyüd və risalələrlə fikirlərini yaydığı və təlqin etdiyi, Şərqlə bağlı fikirlərini Avropanın böyük dövlətlərində qəbul etdirməyə çalışdığı, bütün Şərq intibahına təsir dairəsinin misilsiz olduğu, Misir Universitetində professor işlədiyi, məşhur Ərabi paşa üsyanlarının qəhrəmanlarından biri olduğu, publisistika və qəzetçiliklə məşğul ol-du-ğu, nüfuzu və tərəfdarları artdıqca düşmənlərinin çoxaldığı, bu düşmənlər içərisində Nəsrəddin Şah, bir müddət hətta Sultan Əbdülhəmid və İngiltərə hökumətinin olduğu göstərilmişdir».*

* Seçmələr bizimdir – R.Ə. Bax: Məhəmməd Əmin Rəsulzadə. İran Türkləri, «Türk yurdu», 1911 №4, 1912, №2, 6, 9, 10, 12, 24; Məhəmməd



Şeyx Cəmaləddin Əfqaninin şagirdləri, davamçıları və tədqiqatçıları onu «Şərqin böyük mütəfəkkiri, əfkari-İslamiyyə üzərində nüfuz etmiş mümtaz bir sima, Şərq və Qərb mədəniyyətinə vaqif zəki bir şəxsiyyət, ümummüsəlman aləminin siyasi xadimi, inqilabçı, Türkçülüyün nəzəriyyəçisi (M.Ə.Rəsulzadə), yeni Şərq tarixində insanları azadlığa çağıran birinci şəxs və bu yolda ilk şəhid (Doktor Şeyx Mustafa Əbdülrəzzaq), son yüzillikdə olan islahatçı hərəkatlar karvanının qəfilə başçısı, İslam ölkələrində oyanış yaradan, müsəlmanların ictimai dərdlərini gerçəkliklə deyən, islah edən və nicat yolunu göstərən

Əmin Rəsulzadə. İran Türkləri, İst.,1993; Məhəmməd Əmin Rəsulzadə. Əsərləri, II cild, 1909 - 1914, toplayanı, ərəb əlifbasından latın əlifbasına çevirəni, ön sözün müəllifi professor Şirməmməd Hüseynov, Bakı, Şirvannəşr, 2001, səh. 108-136; Yusuf Akçura. Türkçülüyün tarihi, səh. 59-62; Şahnəzər Hüseynov. Əhməd bəy Ağaoğlunun dünyagörüşü, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1998, səh.12; Hüseyn Tuncər. «Türk yurdu» üzərinə bir incələmə, Ankara, 1990; Ayətulla Mürtəza Mütəhərri. Son yüzillikdə İslam hərəkatının xülasə təhlili, Bakı, Sərab nəşriyyatı – (ili göstərilməyib – R.Ə); Н.Талиров. Общественнайа мысл в Иране в XIX начале XX в. Москва, 1988; Cəvahirəl Nehru. Ümumdünya tarixinə nəzər, Bakı, 1986; Zöhtabi M.T.. Göstərilən məqaləsi; Əhməd Ağayev. Tərcümeyi-hali-acizim, Respublika Əlyazmaları İnstitutu, arxiv 21, inv. № 403; О. В. Богушевич. Мухаммед Джемал-ад Дин Ал-Афгани как политический дейател, Краткие сообшение Института Народов Азии, Москва, 1961, т. 47; Х.И.Килберг. Восстание Араби-паши в Египте, М-Л, 1937; И.М.Хакимов. Антиимпериализм Джемал-ад Дина ал-Афгани на страничах «АЛ- вуска», Сборник Арабские страны, 1970; Ustad Məhəmməd Mühit Təbatabai. Seyid Cəmaləddin Əsədabadi və Şərqin oyanışı (fars dilində), Tehran 1370 Hicri; Seyid Cəmaləddin və onun dünyagörüşü, (fars dilində), Tehran, h. 1353; Şərqin iftixarı Seyid Cəmaləddin Əsədabadinin xatirəsi (fars dilində), I kitab, 3-cü nəşri, Tehran; Ələddin Yalçınqaya. Cəmaləddin Əfqani, İst, 1991; Şamil Qurbanov. Cəmaləddin Əfqani və Türk dünyası, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1997; Cəmaləddin Əfqani. Seçilmiş əsərləri, Toplayan, tərtib edən və ön sözün müəllifi professor Şamil Qurbanov, Bakı, Azərnəşr, 1998.

(Ayətulla Mürtəza Mütəhərri), XIX əsrdə Misirdən böyük reformist olan, İslamı yeni dünyanın zərurəti ilə uyğunlaşdıraraq yeniləşdirən, tərəqqinin bütün formalarını İslam dini ilə uyğunlaşdırmağın mümkünlüyünü irəli sürən bir dini rəhbər (Cəvahirəl Nehru) kimi təqdim etmişlər. Şeyxi yaxından tanıyan, onunla həmsöhbət olan məşhur alim Ernest Renan yazır ki: «Şeyx Cəmaləddin ilə bundan iki ay əvvəl tanış oldum. İndiyə qədər çox az adam üzərimdə bu qədər qüvvətli təsir buraxmışdır. Düşüncələrində sərbəst, əsl və mərd xarakterli, özü ilə söhbət etdiyim əsnada İbn Sina ilə İbn Rüşddən birinin dirilib qarşıma çıxdığı hissini verirdi» (22, 71).

Böyük türk milliyyətçi şairi Mehmet Əmin Yurdaqul Şeyx haqqında bir yazısında göstərir ki: «Məni Cəmaləddin Əfqani yoğurmuşdur. Əgər ruhların əbədiyyəti və ölməzliyi varsa, deyərdim ki, o ətlərini, kəmiklərini (sümüklərini – R.Ə) Maçka məzarlığının (İstanbulda məşhur qəbristanlığın adıdır – R.Ə) torpaqlarına buraxmışsa, ruhunu da mənə (Mehmet Əmin Yurdaqula – R.Ə) ərməğan etmişdir. Cəmaləddinin ruhu məndə yaşayır» (22, 70).

Məhəmməd Səfdər oğlu kimi dünyaya gələn «İranda Seyid Camal Əsədəbadi, bəzən də Həmədani, Ərəb dünyasında Şeyx Cəmaləddin Əfqani, Avropada Cəmaləddin Hüseyni və s. adlarla tanınan və tarixə Cəmaləddin Əfqani kimi düşən bu Şərq mütəfəkkiri» (45, 12) «bu və ya digər qövmdəndir, deməyə məncə gərək yoxdur. Qərblilərin «Un qrand Europeen» dedikləri kimi, biz də Şeyx Cəmaləddinə «böyük bir Müsəlman» və ya «böyük bir Şərqli» (14, 66) deməklə kifayətlənərək, onun mövzumuzla bağlı əsas fikirlərini xülasə etməyə çalışacağıq.



Azərbaycanın Əsədabad kəndində dünyaya göz açan, kiçik yaşlarından Əfqanıstanda yaşayan, Şərq və Qərb ölkələrinin böyük bir qismini gəzib dolaşan bu köçəri elm və siyasət xadimi «Əfqanıstanda mətbuatın, Misirdə satirik mətbuatın banisi, İranda milli azadlıq hərəkatının ideya rəhbəri, zülmün və istibdadın, Şərqi soyub talayan Avropa müstəmləkəçiliyinin düşməni» (22, 4-5), Qərbdə «Panislamizm» adlandırılan demokratik ideoloji cərəyanın banisi Şeyx Cəmaləddin Əfqani bəşəriyyətin tarixən qazanmış olduğu mütərəqqi fikirləri, elmi-texniki tərəqqini və böyük kəşfləri bəşəriyyətin təkamül prosesində ən vacib amil hesab etmiş, Şərqi uğradığı böyük fəlakətlərdən qurtarmağın yollarını göstərmiş və sonda belə bir qənaətə gəlmişdir ki: «Dünyanın sultanı elmdir... Millətdən kənarda səadət yoxdur. Dilsiz millət ola bilməz. Dil birliyi olmasa, milli vəhdətin həqiqi mahiyyəti və həyat gücü ola bilməz. Dil insanlar arasında əsas əlaqə vasitəsidir. O (Dil – R.Ə) müxtəlif məzhəbə qulluq edən tayfaları, müxtəlif arzularla yaşayan qəbilələri vahid bir millət bayrağı altına səsləyən, onların gücünü-qüvvəsini birləşdirib, bir məqsədə doğru yönəldən, ictimai qüsurları birlikdə dəf etməyə, milli çətinlikləri birlikdə aradan qaldırmağa çağıran, ümumxalq səadətinə nail olmaq, müsibət və bədbəxtliklərdən nicat yolları arayıb tapmaq üçün hamını yekdil, həmrəy olmağa dəvət edən, gözəl yaşayışdan ibarət təzə həyata qovuşduran, vətəndaşlarının əyinlərinə istiqlal paltarı geydirən əsas vasitədir... Dil birliyi bütün bu məziyyətlərə ancaq o zaman sahib ola bilər ki, ayrı-ayrı fərdlərin dilindən təşəkkül tapmış milli dilin qorunması və zənginləşməsi üçün lazım olan hər şey edilsin... Milləti yaşatmaq istə-

yən alimlərin birinci vəzifəsi budur ki, onlar (alimlər - R.Ə) öz ana dilinin inkişafına laqeyd olmasınlar, həmin təbəqələrin sənət və peşə tələbinə uyğun olaraq sözləri müxtəlif mənalarda - onun həqiqi mənasına uyğun bir tərzdə – bəzən iki sözü, ya üç sözü birləşdirərək zərurət məqamında işlətsinlər. Öz dilləri ilə münasibətdə olan xarici dillərdən də lazım olduğu qədər sözlər ala bilərlər. Bir şərtlə ki, alınmış sözlər öz dillərinin libasına geydirilsin və onların xarici söz olduğu bilinməsin...aralarında möhkəm müamilə və mübadilə əlaqələri olan bir millət insan cəmiyyətinin möhkəm əsaslarını təşkil edən bütün *təbəqələrə* malik olmadıqca heç vaxt öz milliliyini, məziyyət və hüquqlarını qoruyub saxlaya bilməz. Hər bir millətin içərisində aşağıdakı *təbəqələr* olmalıdır: faydalı elmləri yayan ziyalılar, cəmiyyət üçün xeyirli fənləri təsis edən yaradıcı fazil və alimlər, insan hüququnu mühafizə edən siyasi xadimlər, fəzilət və ədalətin keşikçiləri olan qanunşünaslar, xalqın əxlaqını saflaşdırmağa çalışan nəsi-hətçilər, lətif və şairanə kəlamlarla yatmış insanları oyadan və xalqın xarakterini qüvvətləndirən ədiblər və şairlər, öz sənətlərini elmi əsaslar üzrə inkişaf etdirən sənayeçilər, iqtisadiyyat qanunları əsasında millətin ticarət yollarını arayıb tapan tacirlər. Əgər bu təbəqələr hər hansı bir millətdə mövcud olmasa, əlbəttə o millətin fərdləri arasında məişət və həyatı əhəmiyyətli əlaqələr get-gedə qırılar və millət məhv olar. Nəticədə, o millətin üzvləri digər millətlə birləşər və yeni milli libasda həyat səhnəsinə qədəm qoyar, buna görə də alimlər millətin mahiyyətini, ariflər onun məziyyətlərini o zaman yaxşı aşkar və zahir edərlər ki, təhsil, təlim, tədris, milli təbəqələrin fənlərdən və sənətlərdən istifadəsi o millətin öz dilində ol-



sun. Onda millət möhkəm, sabit və əbədi ömür sürə bilər, millətin əsas gözə görünən səadət və xoşbəxtlik kimi əlamətləri isə onun bütün üzvlərinin nəsibi olar... elm, maarif, bütün sənət növləri hər millətin öz ana dilində tədris olunarsa və bu şərt həyata keçirilərsə, həmin millətin əsasları daha möhkəm, daha sabit olar, beyinlərə daha tez həkk olunar, daha gec unudular, elmlərin dəqiqliyinə daha artıq vaqif olunar, elmin mahiyyəti və mənfəəti daha yaxşı aydınlaşar. Bununla da sənaye sahəsində fəzilətli adamların, alimlərin, fənn sahiblərinin sayı çoxalar, millətin üzünə səadət qapıları açılar... insanları bir-birinə bağlayan qüvvə iki vacib şeyi tələb edir: bunlar olmasa birlik də ola bilməz. Bunlardan biri məhz həmin dil birliyidir ki, buna milli vəhdət də deyirlər. Digəri din birliyidir. Heç şübhə yoxdur ki, dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir. Çünki dil az müddət ərzində dəyişməyi və ya başqası ilə əvəz olunmağı qəbul etmir. Din isə belə deyil. Tarix göstərir ki, eyni bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən dinini dəyişir, başqası ilə əvəz edir. Buna görə də dil birliyindən yaranan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha güclüdür» (22, 8-14).

Şeyx Cəmaləddin Əfqani bu tezisləri ilə dinin milliyyəti deyil, ümmətçiliyi ifadə etdiyini, milliyyətin din üzərində deyil, dil və mədəniyyət birliyi üzərində qurulduğunu irəli sürərək, Avropadakı milliyyət hərəkatlarından alman məktəbinin tərəfdarı kimi çıxış etmiş, millətin millət olması üçün ilkin şərtin dil olduğunu göstərmiş, ümmətin millətdən başqa bir şey olduğu qənaətinə gəlmişdir. Şeyxin bu fəlsəfi tezisləri daha sonra İsmayıl bəy Qaspıralı tərəfindən «Rusya Müsəlmanları İttifaqı»nın

Qurultayına təklif etdiyi və nəşr etdirdiyi «Tərcüman» qəzetində felən tətbiq etdiyi «dildə birlik» tezisi ilə, Məmməd Əmin Rəsulzadənin 1913-cü ildə «Şəlalə»də dərc etdirdiyi «Asan dil – yeni lisan», «Yeni lisançılar və türkçülər», «Dil ictimai mühüm bir amil» (59), 1914-cü ildə «Dirilik»də nəşr etdirdiyi «Dirilik nədir?», «Milli dirilik» I-V adlı silsilə yazıları (18) və 1915-ci ildə təsis etdiyi və baş redaktoru olduğu «Açıq söz» qəzetində dərc etdiyi yazıları ilə tam üst-üstə düşür.

Şeyx Cəmaləddin Əfqani dildən sonra insanları birləşdirən ikinci amilin din olduğu fikrini irəli sürürdü. İslam və dünya fəlsəfəsini, dinlərini mükəmməl bilən Şeyx Cəmaləddin Əfqani başqa din xadimlərindən fərqli olaraq tərəqqinin, təkamülün əsasını elmdə görür və göstərirdi ki: «Elm haqqında danışmaq çox çətindir, çünki elmin hüdudları sonsuzdur. Onun üstünlük və gözəlliklərini tam əhatə etmək mümkün deyil... Bununla yanaşı elmin fəziləti haqqında heç danışmamaq da olmaz. Mənim fikrimcə, elmin tədqiqi ilə məşğul olanların hamısı yəqin edir ki, dünyanın sultanı həmişə elm olmuşdur, elmdir və elm olaraq qalacaqdır... İndi (söhbət XIX əsrdən gedir – R. Ə) bütün dünyanı öz təsiri altında saxlayan Avropanı, Əfqanıstanı tutan ingilisi, Tunisi işğal edən Fransanı götürün. Bunlar nə ingilisin hünəridir, nə də fransızların. Bunlar yalnız onların elmlərinin gücüdür... dünyanın hər yerində həqiqi hökmdar olan elm ancaq vaxtaşırı öz paytaxtını dəyişmiş, gah Məşriqdən (Şərqdən – R.Ə) Məğribə (Qərbə – R. Ə), gah da Məğribdən Məşriqə getmişdir... bütün var-dövlət, sərvət əsasən Elmin məhsuludur. Dünya elm üzərində bərqərar olur. Elmi bəşəriyyətin əlindən alsan daha dünyada insan qalmaz. Elm bir nəfərin gücünü on nəfərə, yüz nəfərə, min və on min nəfərə bərabər edir... Onu nəzərə almaq lazımdır ki, hər bir elmin öz vəzifəsi var... elmlərin hər birinin mövzusu ümumi elmin bədəni üçün bir üzv kimidir və bunların heç biri ayrı-ayrılıqda yaşaya bilməz. Bu elmlərin hər biri başqa bir elmlə bağlıdır... Tənha qalan elmdə heç bir tərəqqi və inkişaf ola bilməz. Deməli, elə bir elm gərəkdir ki, bütün elmlərin ümumi ruhu kimi olsun və onların hər birini qoruyub saxlasın, onların hər birinin tərəqqi və inkişafına zəmin yaratsın. Bu - fəlsəfə elmidir. Bir millətdə fəlsəfə yoxdursa, əgər o millətin hamısı alim olsa da, o millətdə elmlər intişar tapa bilməz və həmin millət ayrı-ayrı elmlərdən lazımi nəticə çıxarmaqda çətinlik çəkər. Osmanlı dövləti, eləcə də Misir altmış ildir ki, elmlərin təlimi üçün məktəblər açmışdır və hələ də ondan bir xeyir götürməmişdir. Səbəb aydındır, çünki o məktəblərdə fəlsəfə tədris olunmur və fəlsəfə ruhu olmadığından lazımi nəticə də alınmamışdır. Sözsüz, əgər bu altmış ildə həmin məktəblərdə fəlsəfə tədris olunsaydı, onlar (Osmanlı və Misir nəzərdə tutulur – R.Ə) firəng ölkəsinə (Avropa nəzərdə tutulur- R.Ə) ehtiyac duymazdılar və özləri ölkələrinin islahı üçün çalışardılar. Belə olsaydı onlar daha hər il öz övladlarını Avropaya göndərməzdilər və oradan öz ölkələrinə müəllim gətirməzdilər. Deyə bilərəm ki, fəlsəfi ruha malik olan bir millətdə ayrı-ayrı elmlər olmasa da, şübhəsiz, həmin fəlsəfi ruh milləti başqa elmlərə yiyələnməyə vadar edəcək. İslamın ilk dövrlərində müsəlmanlar heç bir elmə malik deyildilər. Ancaq İslam dəyanəti ucundan onlarda əmələ gələn fəlsəfi ruh vasitəsilə dünya və insan haqqında mübahisələrə başladılar. Elə həmin fəlsəfi ruh da Mənsur Dəvanəqi za-

manında ayrı-ayrı elmləri siryani, fars və yunan dillərindən ərəbcəyə çevirməyə və az bir müddət ərzində onları öyrənməyə səbəb oldu. İnsanda insanlığı oyadan, insan şərəfini bəyan edən, insana doğru yolu göstərən də fəlsəfədir. Mənən tənəzzülə uğrayan millətin hər şeydən əvvəl fəlsəfi ruhu zərər çəkir, bundan sonra ayrı-ayrı elmləri və ədəb- ərkan qaydaları tamam yox olub aradan gedir... qəribə burasıdır ki, bizim alimlər elmi iki yerə bölmüşlər: Müsəlman elmləri və Avropa elmləri... onlar başa düşmürlər ki, şərafətli elm heç bir millətin malı deyil, kim ona yiyələnsə onundur. Elmin yiyəsi alimdir, ölçüsü də onun elmliyindən asılıdır. Hər bir millət elm ilə məşhurlaşır. İnsanları elmi ilə qiymətləndirmək, elmi ilə tanımaq lazımdır, elmi insanlarla yox... haqqı, həqiqəti sübut edən elmi bizim alimlər qadağan edirlər, elə bilirlər ki, bununla İslamı qoruyub saxlayırlar. Belə adamlar əslində İslamın düşmənidirlər. Elmə və mədəniyyətə ən yaxın və ən doğma din İslam dinidir. Elm və maarifin inkişafı ilə İslam qanunları arasında heç bir ziddiyyət yoxdur ... Əgər müsəlmanlardan bir adam desə ki, mənim dinim bütün bu elmlərə ziddir, onda o öz dininə qarşı çıxmış olur. İnsanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır... bizim din başçılarımız əvvəlcə gərək özlərinin islah olunmasına çalışsınlar və öz elmlərindən bir xeyir görmüş olsunlar. Məsələyə diqqətlə yanaşdıqda aydın olur ki, müsəlman aləminin tənəzzülü, pozuqluğu əvvəlcə din başçılarında, üləmalarda əmələ gəlmiş, sonra ümmətə sirayət etmişdir» (22, 25-33).

Dilə, elmə, fəlsəfəyə, təlim-tərbiyəyə və təhsilə yüksək qiymət verən Şeyx Cəmaləddin Əfqani hər şeydən əvvəl «panislamizm» cərəyanının banisi və ideoloqu idi. O, islam birliyi ideyasını ortaya atarkən ona elmi, siyasi, ideoloji və fəlsəfi məna vermiş, islam birliyini təriqət və məzhəb birliyi kimi deyil, Avropa müstəmləkəçiliyinə, birinci növbədə ingilislərə və digər düşmən qüvvələrə qarşı bir ideoloji sistem kimi irəli sürmüşdür. Doğrudur, islam birliyi ideyasını ilk dəfə Nadir Şah Əfşar irəli sürmüş və bu yöndə müəyyən addımlar da atmışdı. İranı işğalçılardan azad edən, Hindistana qədər gedib çıxan, İran xəritəsinə yeni ərazilər qatan, müasiri olan Böyük Petroya (I Pyotra – R.Ə) ultimatumlar göndərən, islam birliyi ideyasını Osmanlı sultanlarından müasiri olan Sultan həzrətlərinə bildirən, Avropa ziyalılarının «Şərqin Napoleonu» adlandırdığı Nadir Şah Əfşar (58, 142) haqqında M. Ə. Rəsulzadə yazır: «Nadir Səfəvilərə rəğmən şiəliyi deyil, ittihadi-islam şüarını ortaya atmış və bu məqsədlə Muğanda keçirdiyi qurultayda bir qərar çıxartdıraraq, bütün İslam dünyasına xitab etmiş, Türkiyəyə də müraciətdə bulunmuşdur» (46; 36). Bu fikri təsdiq edən professor Şamil Qurbanov özünün «Cəmaləddin Əfqani və türk dünyası» adlı monoqrafiyasında qeyd edir ki: «Nadir Şah həmin fikrin (islam birliyi fikrinin- R.Ə) işığında İran dövlətinin hüdudlarını çox genişləndirdi, amma əsl birliyə nail ola bilmədi. Onun (Nadir Şahın – R.Ə) ölümündən sonra bu fikir (İslam birliyi fikri- R.Ə) parçalanıb dağıldı... onu (islam birliyi fikrini - R.Ə) yenidən cücərdib ərsəyə gətirmək təşəbbüsünü Cəmaləddin (Şeyx Cəmaləddin Əfqani- R.Ə) etdi və bu məsələni Qərbin qəsbkarlıq siyasəti qarşısında ilk dəfə ortaya atdı və ardıcıl olaraq bütün qüvvəsini onun (islam birliyi ideyasının- R.Ə) həyata keçirilməsinə sərf elədi. Avropa alimlərinin və siyasət adamlarının «Böyük Mü-

səlman» adlandırdıqları Camaləddin Qərbdə də, Şərqdə də məşhur sima oldu» (22, 50).

Şeyx Camaləddin Əfqani ilk növbədə islam döyüşkənliyi ruhunu bərpa etməyə çalışır, dini xurafatı, mövhumatı rədd edir, Şərqin qurtuluşunu dini hərəkatlarda görür, tərəqqinin ən böyük düşməninin mütləqiyyət olduğu fikrini qorxmadan, çəkinmədən bəyan edirdi. Bu münasibətlə Şeyxin yazdığı son məktubunda oxuyuruq: «Əzizim, səndən bir dost kimi xahiş edirəm, mənim bu son məktubumu İranlı həmməsləklərimin nəzərinə çatdır və onlara de: İranın yetişmiş meyvələri adlanan və İranı oyatmaq əzmində olan bu insanlar qoy heç bir həbs və qətllərdən qorxmasınlar. İran cəhalətinə qarşı mübarizədən yorulmasınlar. Şahlığın mənasız və faydasız hərəkətlərindən qorxuya düşməsinlər. Səylərini mümkün qədər artırsınlar. Təbiət onlara kömək, Yaradan da yar olsun.

Yenilik seli artıq Şərqə doğru axmaqdadır. Mütləqiyyət hakimiyyətinin bünövrəsi məhvə məhkumdur. Bacardığınız qədər bu hakimiyyəti bünövrədən dağıtmağa səy edin. Gücünüz çatdığı qədər İranın səadəti uğrunda çalışın. Gücünüzü başqa işlərə sərf etsəniz vaxtınız boşa gedər. Köhnə adətlərə alışmış adamları yolundan çəkindirməyə başlasanız, sizin işinizi ləngidər. Elə edin ki, sizinlə başqa kadrlar arasında mövcud olan maneələri aradan qaldıra biləsiniz. Mövhumatçılara uymayın» (22, 64).

İslam birliyi ideyası əslində Quranın təbiətindən doğur. Lakin Şeyx Camaləddin Əfqani buna siyasi–ideoloji və fəlsəfi yön verərək, Şərq xalqlarının nicatı kimi baxırdı. O dövrdə müsəlman aləminin xəstə vəziyyəti hamını düşündürür və hərə özünə görə bir çıxış yolu tapmağa



çalışırdı. Bu məsələnin həllində tamamilə bir-birindən fərqli üç cərəyan var idi. Bunlardan birincisi mütərəqqi, yaxud yeni müsəlmanlar adlanırdı ki, Əhməd bəy Ağaoğlu onları «ifrat mütərəqqi» müsəlmanlar kimi qələmə verir və göstərirdi ki: «onlar çıxış yolunu qeyd-şərtsiz Avropanı təqliddə, Avropasayağı həyat tərzini olduğu kimi Şərqə köçürməkdə görürdülər» (9). İkincilər isə mürtəce, yaxud köhnə müsəlmanlar adlanırdı ki, onlar keçmişə qayıtmağı üstün tuturdular. Bu köhnəpərəstlərin mövqeyini şərh edən Əhməd bəy Ağaoğlu yazırdı ki: «Onlar belə fikirləşirlər ki, xalqın keçmişdən uzaqlaşması, əxlaqın pozulması, köhnə ehkamların zəifləməsi, ifrat sərbəstlik müsəlmanlara üz verən bütün bəlaların yeganə mənbəyidir. Köhnəpərəstlər belə bir əqidədəydilər ki, xilas üçün nə Avropaya, nə də köhnə həyatın dəyişdirilməsinə ehtiyac yoxdur. Sadəcə keçmişə qayıtmaq kifayətdir, bunun özü müsəlmanları xilas edəcək» (11).

Üçüncü cərəyan isə bu iki cərəyan arasında orta xətt götürən «Panislamistlər»dir. Birinci və ikinci cərəyanların hər ikisinin fikirləri səhvdir. Onların hər ikisi məsələyə birtərəfli yanaşdığından tənqid olunmuş və göstərilmişdir ki: «Birincilər (ifrat mütərəqqi, yaxud yeni müsəlmanlar – R.Ə) mütərəqqi görüşlərə malik olsalar da, milli psixoloji amili və yerli şəraiti nəzərə almır, milli zəmin haqda düşünmürlər. Bunları (milli psixoloji amili və yerli şəraiti – R.Ə) nəzərə almadan Avropa modelini eyni ilə Şərqə köçürmək olmazdı, necə ki, olmadı. Mühafizəkarlardan (mürtəce, yaxud köhnə müsəlmanlar - R.Ə) isə danışmağa dəyməz, çünki onlar hər cür yeniliyin əleyhinədirlər və Qurani-Kərimdən başqa heç bir istinad nöqtəsi tanımırdılar» (45, 22,23).

Panislamizmin banisi Şeyx Cəmaləddin Əfqani Quranı inkar etməmiş, əksinə Quranı çoxlarının ağlına belə gəlməyən bir şəkildə şərh etmiş və göstərmişdi ki: «Dini hərəkatdan məqsədimiz islam dinini islah etmək olduğu məlumdur. Dini islahın mənası Rəsulullah (Məhəmməd Peyğəmbər (s) nəzərdə tutulur-R.Ə) gətirməyən bir şeyi dinə artırmaq, yainki islam qaydalarını batırmaq deyil, bəlkə Rəsulullah gətirmiş dinə sonradan və sonrakı adamlar tərəfindən əlavə olunan şeyləri götürüb də dini səadət əsrindəki (Peyğəmbər və dörd xəlifə – Əbubəkr, Ömər, Osman və Əli dövründəki – R.Ə) rövşənə salmaq deməkdir. Bunu isə çətin yollar ilə deyil, bəlkə vəz, nəsihət, mətbuat ilə ümumi müsəlmanlara anladıb islam əmrlərini də mənasız şeylərə deyil, bəlkə din və dünya üçün lazım olacaq və istiqballarında fayda görüləcək şeylərlə etmək gərəkdir» (73).

Panislamizmin liberal islahatçısı Şeyx Cəmaləddin Əfqani Avropa qəzetlərindən birinə verdiyi müsahibədə göstərirdi ki: «Quranın həqiqi ruhu tamamilə azadxah düşüncələrə və yeni fikirlərə əsaslanır. İndi İslam aləmində mövcud olan nizamsızlıqların və mühafizəkarlığın əsl islam qanunları ilə heç bir əlaqəsi yoxdur. Bunlar cahil təfsirçilərin islam şəriətinə etdikləri əlavə şeylərdir. Zaman keçdikcə bunlar üzə çıxacaq. Buna görə hər bir müsəlman alimi Avropasayağı azadlıq fikirləri ilə yaxından tanış olsa, Quran təliminə müraciət etməklə çətinlik çəkmədən xalqı bu gün tələb olunan azadlıq fikirləri və düşüncələri ilə aşina edə bilər» (72, 124).

Şeyx Cəmaləddin Əfqaninin liberal panislamizmini yüksək qiymətləndirən Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə bir çox yazılarında



ona haqq qazandırmış və göstərmişlər ki: «Panislamizm özünün daxili məzmununa görə əslində geriyə dönməkdir, amma köhnəlik girdabında qapanıb qalmaq deyildir. Bu geriyə dönüş daha inamla, daha böyük qüvvətlə irəliyə atılmaq üçün vasitədir... keçmişə qayıtmağı tələb edən panislamizm eyni zamanda müsəlmanlar arasında müasir həyatın köklü və birdəfəlik dəyişdirilməsini təkid edir. Bu, bir vaxtlar müsəlmanlara məxsus olan iqtisadi, siyasi və mədəni nailiyyətlərin qaytarılmasına təkid idi. Bir sözlə, Avropa düşüncə tərzi və yeni müsəlman meyli arasında panislamizm və Avropalaşmaq anlayışı sinonim xarakteri kəsb etmişdir» (9). «Panislamizm liberal islahatçı cərəyanı özünün sonrakı təkamül prosesində müsəlman ziyalıları arasında milli-mədəni dünyagörüşün formalaşması üçün əslində çox əlverişli zəmin yaratdı. Məsələn, panislamizmin görkəmli ideoloqu məşhur Cəmaləddin Əfqani liberal islahat tələb edənlərdən idi və müsəlman aləmində azadlıq üçün öncə milli şüurun oyanmasının zəruriliyini ilk dəfə o göstərmişdir» (59, 114).

Şeyx Cəmaləddin panislamizm məfkurəsinin islam fundamentalizminin əksinə olaraq, milli düşüncədə milli mənlik şüuruna xidmət edən mənəvi-əxlaqi tutumunu qəbul etmiş, onun siyasi-milli təfsirini vermişdir. Şeyx Cəmaləddinin panislamizmini qəbul edən Cəmaləddinçilər avropalılaşmaq məsələsinə də onun kimi yanaşmış və məhz bu zərurətdən doğan düşüncə tərzi sonradan onları milli intibahımızda üç devizli – İslamlaşmaq, Türkləşmək və Avropalılaşmaq kimi bir fəaliyyət platformasına gətirib çıxarmışdır. Bu milli liberal islamçılıq cərəyanı özündən əvvəlki mövcud islamçılıqdan, xüsusilə ictimai-siyasi

gerçəkliyin böyük təsiri və təzyiqi əsasında meydana gəlmiş ifrat panislamizmdən ciddi şəkildə fərqlənirdi. Ona görə də məşhur ilahiyyatçı, XIX əsr islam modernizminin banisi və carçısı Şeyx Cəmaləddin Əfqaninin islamda azad fikirliliyin zəruriliyi haqqındakı mülahizələri özündən sonrakı liberal-demokratik cərəyanı təmsil edənlər tərəfindən çox qızğınlıqla müdafiə olundu və qısa bir zamanda Türkiyədə ittihad və tərəqqiçilərin, Azərbaycanda milli demokratların ideya qaynağı oldu. Şeyx Cəmaləddindən sonra bu konseptial cərəyanın demək olar ki, bütün nümayəndələri mənəvi və mülki işlərə münasibətdə mühafizəkar ehkamlardan uzaqlaşmağa çalışaraq... bütün millətlərin bərabərliyini dəstəklədi, dini, milli və sairə mövqelərdən onların assimilyasiya edilməsinə qarşı çıxdı və bu meyarlar baxımından da müstəmləkə zülmünün xilafına böyük dövlətçilik siyasi iddiaları ilə mübarizəni əsas fəaliyyət proqramlarının ən ümdə tərkib hissələri hesab etdilər» (17, 12-13).

Şeyx Cəmaləddin Əfqani və onun davamçıları belə bir fikirdə idilər ki, bir vaxtlar avropalılar elmləri Şərqdən əxz etmişlər. İndi də biz Avropaya müraciət ediriksə, əslində öz mirasımızı geri istəyirik. Bu onların haqqı olduğu kimi indi də bizim haqqımızdır.

Şeyx Cəmaləddin Əfqaninin islam birliyi ideyasını qəbul edən, bütün mənalı həyatını türk xalqlarının birliyinə həsr edən, «Dildə, fikirdə, işdə birlik» ideyasının müəllifi, məşhur türkçü İsmayıl bəy Qaspıralının yaradıcılığında müsəlman türklərin həyatında dərin izlər buraxan İslam dini məsələsi xüsusi bir mövzu təşkil edir. İsmayıl bəyin islama baxışı Yusuf Akçuranın söylədiyi kimi: «milli həyata fayda dərəcəsi ilə bağlıdır. (İsmayıl bəy)



XIX yüz ilin sonlarına doğru İslam Şərqinin orasında-burasında yetişən yenilikçilərin mübarizələrini məqsədinə uyğun bilir. İslam, Qərb mədəniyyətinin bəzi şərtlər daxilində qəbuluna əngəl olmaz. İslam, qadınların azadlıq və bərabərliyinə, həyatda kişilərlə əl-ələ çalışmalarına təşviq edicidir. İslam, müsəlman xalqların məzhəb ayrılıqlarını rədd edir – kimi əsas fikirləri qəbul edir və «Səadət vaxtı»na dönüş iddiası ilə ortaya çıxan «Yeni islamlığı» millətdaşları arasında yaymağa çalışır. Bu yoldakı çalışmaların ən mükəmməl örnəyi «Darür – rahat Müsəlmanları» adlı gözəl hekayəsidir» (14, 73). İsmayıl bəy Qaspıralı getdikcə inkişaf edən və təkmilləşən fikirlərini yaymaq üçün yalnız yazı yazmaqla kifayətlənməyərək, «hər il türk dünyasının bir tərəfinə səyahət edərək Osmanlı ölkəsinə, Qafqaza, Türküstana, Qazana, Qasıma və Litvadakı Türk-Tatarların əmirləri, aristokratları, alimləri, zənginləri və kasıbları ilə həyatın Türk dünyasına qoyduğu məsələlər haqqında fikir mübadiləsində bulunur, Çindən Almaniyaya, Şimal Buzlu Okeandan Afrikaya və Hind Okeanına qədər Türk və İslam Aləminin ziyalıları ilə eyni məsələlər üzərində xəbərləşirdi» (14, 73).

İsmayıl bəy Qaspıralı bütün dünya müsəlman türklərinin birliyinə çalışmışdır. O, nəşr etdirdiyi «Tərcüman» qəzeti ilə bu ideyaya xidmət etmişdir. «Tərcüman» yazarına görə: «Qazan Tatarı, Orta Asiya Sartları, Tarançılar filan yoxdur. Bir dinə inanan, bir dillə danışan Türklər vardır» (14, 74).

İsmayıl bəy Qaspıralının milli xidmətlərinin əsasında «Qərbləşmək», «İslamı çağdaş bir şəkildə anlamaq» şüarları, «Dildə, fikirdə, işdə birlik» nəzəriyyələri da-

yanır. İsmayıl bəy Qaspıralı şüar və nəzəriyyə şəklində irəli sürdüyü bu fikirlərini bütün həyatı boyu praktikada da həyata keçirməyə çalışmış, türkçülük axımının ən mərkəzi simalarından biri olmuşdur. Bütün bunların nəticəsidir ki, İsmayıl bəy Qaspıralını bütün dünya türkləri özlərindən hesab etmişlər.

Şeyx Cəmaləddin Əfqaninin ideyalarını mənimsəyən, bütün yaradıcılıqlarında ondan istifadə edən, onu özlərinin müəllimi hesab edən Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Yusuf Akçura, Ziya Göyalp, Məmməd Əmin Yurdagul, Məmməd Akif Ərsoy, Məmməd Əmin Rəsulzadə və «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» kimi ideoloji sistemi qəbul edən bütün mütəfəkkirlərlə yanaşı onun «islamçılığını» bütün reformist islamçılar da qəbul etmişlər. Belə ki, Əhməd Ağaoğlu ilk ciddi yazısını Şərqin tarixi və dininə həsr etmiş, «Şiə məzhəbinin qaynaqları» adlı tədqiqat əsəri ilə Avropada tanınmağa başlamışdır. Parisdə olarkən Tiflisdə nəşr olunan «Qafqaz» qəzetinə həftədə bir dəfə rusca yazılar göndərərək çap etdirmişdi. Əhməd bəy Ağaoğlunun bu yazıları da İslam aləmi və İslam aləminin türk həyatına həsr edilmişdi. Əhməd bəy Ağaoğlunun Parisdə olarkən Şeyx Cəmaləddin Əfqani ilə tanış olması onun gələcək fəaliyyətində mühüm rol oynadı.

Altı il Parisdə qalan və hüquq diplomu ilə 1894-cü ildə vətənə qayıdan Əhməd bəy Ağaoğlunu, Hacı Zeynalabdin Tağıyev sahibi olduğu və Azərbaycan türklərinin hüquqlarını qoruyan, Bakıda rusca nəşr olunan «Kaspi» qəzetinə baş redaktor təyin edir. Bu qəzetdə dünyada gedən prosesləri yaxından izləyən, Qərbə və Şərqə yaxından bələd olan Əhməd bəy Ağaoğlu «Panislamizm, onun



xarakteri və istiqaməti» adlı rusca silsilə yazılar dərc etdirir. Bu yazılarda panislamizmin mahiyyəti ilə yanaşı bu ideyanın yaradıcısı Şeyx Cəmaləddin Əfqaninin fikir və düşüncələrinə də xüsusi yer ayırırdı. Bu silsilə yazılardan birində oxuyuruq: «istedadına və enerjisinə görə zəmanəmizin ən heyrətamiz şəxsiyyətlərindən biri, Parisdə vaxtilə «Urvətül-Vüsqa»nın naşiri və redaktoru olmuş Cəmaləddin Əfqaninin İslam ölkələrinin vəziyyəti haqqında obrazlı şəkildə dediyi sözləri mən (Əhməd bəy Ağaoğlu – R.Ə) indi də (1900-cü il – R.Ə) unuda bilmirəm. O deyirdi: Müsəlman aləmi nəhəng bir cəsədə bənzəyir. Bu cəsədin başı İstanbulda, qollarının biri Afrika sahillərinə, digəri isə Krım və Orenburqdan keçərək, Çinə qədər uzanmışdır. Lakin əldən düşmüş bu nəhəng və xəstə cəsədin (Müsəlman aləminin - R.Ə) bədənində bircə dənə də sağ yer yoxdur. Onun hər yerindən qan fışqırır. Adama elə gəlir ki, onun artıq son nəfəsidir. Belə bir vəziyyətdə görün o necə mənasız şeylər haqqında mübahisələrə vaxt itirir: Əmirmi haqlıdır, Zeydmi? Hansının teoloji prinsipləri doğrudur? Bu cəsəd sonuncu dəfə nəfəs alanda başa düşəcək ki, onu məhvə sürükləyən də elə bu cür mənasız mübahisələr oldu» (9).

Avropada təhsil alan ilk Azərbaycan türkü, Azərbaycan xalqının milli iftixarı, mənalı həyatının əlli ilini publisistika ilə məşğul olan, ömrünün son dəqiqələrinə qədər millət yolunda qələmini yerə qoymayan, beş dildə sərbəst yazıb yaradan, ilk məqaləsini Parisdə qarşılaşdığı bir Şərqli «Dünyanın şahı» dərvişə, son məqaləsini isə Türk dünyasının unudulmaz şəxsiyyəti Mustafa Kamal Atatürkə həsr edən, iyirmidən çox elmi əsərin, sayı bilinməyən yüzlərlə sensasiya doğuran elmi məqalənin

müəllifi, dövrün mütərəqqi ziyalılarından olan Həsən bəy Zərdabini, Əli bəy Hüseynzadəni, Əlimərdan bəy Topçubaşovu, Haşım bəy Vəzirovu və rusca yaza bilən mühərrirləri öz ətrafına toplayan «Kaspi» qəzetinin, daha sonra Əli bəy Hüseynzadə ilə birgə Azərbaycan türkcəsində çıxardıqları gündəlik «Həyat» qəzetinin, ondan sonra isə «İrşad» adlı türkcə qəzetin baş redaktoru olan Əhməd bəy Mirzə Həsən oğlu Ağayev «müasirləri içərisində böyük fikir adamı, cəsur insan, ən başlıcası isə Türkçülüyün öndərlərindən biri kimi məşhur olmuş, Əhməd Cəfəroğlunun yazdığı kimi: «kişi kimi doğulmuş, kişi kimi də ölmüşdür» (45, 96). Azərbaycan Demokratik Cümhuriyyətinin banisi, Azərbaycan Milli İstiqlal hərəkatının öndəri Məmməd Əmin Rəsulzadə Əhməd bəy Ağaoğlunu «Yaxın Şərqdəki tarixi Avropalaşma hərəkatının ən səmimi ideoloqu» hesab etmiş (45, 96), Azərbaycan Demokratik Cümhuriyyətinin ideoloqlarından biri olan Mirzə Bala Məmmədzadə onu «Azərbaycan ictimaiyyətinin o zamankı düşüncə tərzinə çox müvafiq olan müsəlmançılığın, daha doğrusu, «islam millətçiliyinin ideoloqu «müsəlman qövmlərini tənəzzüldən qurtarmağa» çalışan... Avropa mədəniyyətini mənimsəmiş» (49, 40-41), «Azərbaycanın bütün türklük xidmətinə vermiş olduğu ən böyük şəxsiyyətlərdən biri» (45, 96) adlandırmışlar.

Türkçülüyün tarixi, bu ideologiyanın bəlli-başlı simaları haqqında ilk tədqiqat aparan, bu simalardan bəzilərinin oz sağlığında belə onların yaşadığı keçməkeçli həyat yolunu ilk dəfə çap etdirən Yusuf Akçuroğlu Əhməd bəy Ağaoğluya həsr etdiyi bölmədə göstərir ki: «Azərbaycan türklüyünün mühüm məsələlərindən birini də sünni-



şiə anlaşılmazlığı və düşmənliyi təşkil edirdi.Bir zamanlar bu ayrılıqdan yararlanan İranlılıq bütün Azərbaycanı farslaşdırmağa çalışmışdı. Ruslar Azərbaycana (Quzey Azərbaycan nəzərdə tutulur-R.Ə) hakim olunca bu ayrılıq və düşmənliyi körükləyərək davamlı olaraq bir-birinin əleyhinə düşmənçilik edən bu iki İslam məzhəbinin arasını daha geniş açaraq türk millətini zəiflətməyə və bu sahədə öz hakimiyyətlərini daha da möhkəmlətməyə çalışmışdılar. Bu təməlsiz və mənasız məzhəb ayrılığının zərərlərini, bundan düşmənlərin yararlanma dərəcələrini göstərərək və isbat edərək Qafqaz türklüyündə birliyin yaranmasına ən çox çalışan millət xidmətçiləri İsmayıl bəy Qaspıralı ilə Ağaoğlu Əhməd, Hüseynzadə Əli və Topçubaşов Əlimərdan bəylərdir.

Azərbaycan və İran türklüyünün məzhəb ayrılığı yarası Əhməd bəyi əvvəldən bəri məşğul etməkdə idi. Qafqaza döndüyü zaman dialoq şəklində yazılmış...bir risaləsinin mövzusu məzhəb ayrılığının İslama vurduğu zərərlərdən bəhs edir. Bu risalənin adı «İslam və Axund»dur...Azərbaycan ruhaniləri və müsəlman təəssübkeşləri arasında xeyli dedi-qoduya və müəllifinə qarşı düşmənçiliyə yol açmışdır. Ağaoğlu bu risalədə İslamla bir şiə axundunu qarşılaşdırır. Fağır və zəif İslam xüsusilə məzhəb ayrılığı üzündən başına gələn fəlakətləri zəngin və şişman axundun qan fısqıran yağlı üzünə çırpır» (14, 157-158). Həyəcan və hərarətlə yazılan bu risalədən, həmçinin «İslama görə və İslam aləmində qadın», «Panislamizm, onun xarakteri və istiqaməti», «Müsəlman xalqlarının vəziyyəti», «İslamın yarandığı ilk dövrün etüdləri» və s. bu kimi sanballı əsərləri ilə Əhməd bəy Ağaoğlu da müəllimi Şeyx Cəmalləddin Əfqani kimi xalqda milli

şüurun, milli birliyin oyanması, ilk islami ehkamların bərpası, elmi-siyasi fikir və mülahizələrin yayılması kimi günün vacib məsələlərini qələmə alması ilə yanaşı göstərirdi ki: «Müsəlman aləminin oyanması və o aləmin mədəni millətlər mühitinə girə bilməsi üçün çox şiddətli bir silkənişə ehtiyacı vardır. Müsəlmanların öz reformasiya dövrünü keçirmələri üçün içlərindən xeyli güclü bir iradə sahibi və nəfsini iş üçün tamamilə fəda etməyə hazır bir adamın gəlib çıxması lazımdır. Belə bir reformator...İslamda, İslamın tarix və adət-ənənələrində əməllərinə uyğun bir zəmin bula bilər. Təkrar edirik: Nə Quran, nə şəriət öz-özlüyündə inkişafa müxalif deyildir. Yalnız onların daşıyıcıları sifətində olan üləmalar öz çıxarları uğrunda Quran və şəriətə mədəniyyətlə uyuşmayan bir şəkil verməyə çalışmışlar. İslam dini əslində sevinc gətirən və inkişafı sevən bir dindir. İslam, taleyi hər hansı uğursuz və uydurma bir qüvvətin insan həyatına dəhşət verici və qəddar bir basqısı tərzində anlamaz, əksinə, İslama görə tale, insan həyata gəldikdən sonra hadisələrlə uyğunlaşmağı saxlayan bir nəzəriyyədir ki, insanları gücləndirir və qeyrətləndirir. Müsəlmanların Peyğəmbəri bir neçə dəfə təkrar etmişdir ki: «Dəvəni Allaha əmanət et», «amma əvvəlcə dizini yaxşıca bağla» (64; 159-160).

Bütün bunlarla yanaşı, Əhməd bəy Ağaoğlu müsəlman xalqlarının qurtuluşu və irəliləməsi üçün iki mühüm məsələnin də həllini lazım bilirdi. Bunlardan biri müsəlman qadınlarının azadlığı və savadlanması, digəri isə ərəb əlifbasının dəyişdirilməsi məsələləri idi. Bu münasibətlə Əhməd bəy Ağaoğlu yazılrdı ki: «Müsəlmanların qurtuluşu, onların mənəvi, maddi, hətta siyasi



inkişafları yalnız iki məsələnin həllinə bağlıdır: Qadın məsələsi və əlifbanın islahı» (14, 158).

Əhməd bəy Agaoglunun incələmələrinə görə Həzrəti Məhəmməd Peyğəmbər (s) qadını, əski İran mədəniyyətinə və İslamdan əvvəlki ərəb adətlərinə baxanda daha çox dəyərləndirmişdir. Lakin İslam aləmində Quran əmrlərinə, Peyğəmbərin (s) sözlərinə fars və siryanilərin zidd getməsi nəticəsində İslam aləmində qadın mədəni və sosial mövqeyini itirmiş, türklərin islamı qəbul etməsi və İslam aləminə hakim olması ilə qadının cəmiyyətdəki rolu təkrar yüksəlmişsə də bu güclü millətin adət-ənənə qanunları belə Şərqin bu qədim xalqları olan fars və siryanilərin qadın haqqındakı düşüncələrinə qalib gələ bilməmiş, qadın yenə də İslam aləmində mədəni və sosial baxımdan aşağılanmış və nəhayət, XX əsrin əvvələrindəki vəziyyətə düşmüşdür. Müsəlman qadınlarının düşdüyü bu acınacaqlı vəziyyətdən qurtulması üçün Əhməd bəy Ağaoğlu yazırdı ki: «Boğucu hərəmxanaların havası içində yaşayan tənbəl və sırf heyvani bir həyat qadının bədən inkişafına da izin verməyindən, irqın bədəni çöküşünə də yol açmaqdadır. Dövrümüzün müsəlman qadını ancaq sərbəst və bilikli bir ana və bir həyat yoldaşı olanda sosial vəzifəsini yerinə yetirə biləcəkdir. Qadın yalnız bu şərtlər daxilində övladlarının xarakter və iradəsini tərbiyə edə bilər və onlara yüksək duyğular və əsil fikirlər aşılaya bilər» (5).

Bir məsələni də xüsusi qeyd etmək lazımdır ki, o dövrün bütün Azərbaycan mütərəqqi ziyalıları qadın məsələsinə çox ciddi yanaşmış və demək olar ki,böyük Hüseyn Cavidin obrazlı söylədiyi: «Qadın gülərsə, mühitimiz güləcək, Sürüklənən bəşəriyyət qadınla yüksələcək» kimi

məşhur tezisinə tərəfdar çıxmış, yeri gəldikcə məqalə, şeir və iri həcmli əsərlərində (74), (10), (58) qadınların ictimai həyatda fəal iştirakına çağırmışlar.

Əhməd bəy Ağayev müəllimi Cəmalləddinn Əfqani kimi dinin mənəvi, əxlaqi və milli zənginlik üçün mühüm əhəmiyyət kəsb etdiyini dönə-dönə qeyd edərək islam dininin, onun müqəddəs kitabı Qurani-Kərimin mütərəqqi və cahanşümul cəhətlərini açıb göstərir, dindən sui-istifadə edən mühafizəkar din xadimlərini ifşa edir, xurafatı kəskin tənqid edirdi. Qurani-Kərimi yüksək qiymətləndirən Əhməd bəy Ağaoğlu yazırdı: «Avropa millətlərinin Quranı və Məhəmməd Peyğımbəri (s) bəşəriyyətin tam yarısını təşkil edən lətif cinsin-məhz qadınların düşməni hesab etmələri haqsızdır. Asiyada qadınları ayağa qaldıran Quran oldu. Quran Şərqdə qadınlara o vaxta qədər görünməmiş və eşidilməmiş hüquqlar verdi, onu əsl ana və yoldaş səviyyəsinə qaldırdı» (10).

Fransa inqilabının «Azadlıq, Bərabərlik, Qardaşlıq» şüarını Şərqə gətirən, bu şüarı nəşr etdiyi «İrşad» qəzetinin epiqrqfına çevirən Əhməd bəy Ağaoğlu İslam dinində də bu prinsiplərin mövcudluğunu qeyd edir və yazırdı ki: «Bizim dinimiz (islam dini nəzərdə tutulur-R.Ə) insanlar üçün əbədi, faydalı,ədalətli,ağıllı şeyləri qəbul edir» (10).

Dövrün mütərəqqi ziyalıları olan Nəriman Nərimanov, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə və başqaları da islam dinini kəskin tənqid etməsələr də bu dinə açıq şəkildə rəğbət də göstərmirdilər. Əhməd bəy Ağaoğlu isə xurafatı, nadanlığı, cəhaləti, mənfi adət-ənənələri,daha dəqiqi İslam dinində ağla uyğun olmayan şeyləri tənqid və rədd etsə də, açıqca göstərirdi ki, «İslam dini xaricində bizə nicat yoxdur. «Keçmiş zamanlarda



müsəlmanların maarif və mədəniyyət dilini ərəb və fars dilləri təşkil edirdisə, indi bütün Şərqdə bu maarif və mədəniyyətin dilini türk dili təşkil etməkdədir» (32).

Əhməd bəy Ağaoğlu Avropa və Şərq ədəbiyyatından – Şekspir, Şiller, Qorkidən tutmuş Nizamiyə, S.Ə.Şirvani və M.F.Axundova qədər, dünya fəlsəfəsindən – Avropa, Şərq və qədim yunan fəlsəfəsindən tutmuş əfsanələrə qədər, Zərdüştdən tutmuş Məhəmməd peyğəmbərə (s) qədər, dildən, dindən, qadın azadlığından tutmuş əlifba, təlim-tərbiyə və s. məsələlərə qədər hər şeydən yazmışdır. Bu anlamda demək olar ki, Əhməd bəy Ağaoğlunun toxunmadığı elə bir ictimai-siyasi, fəlsəfi və milli problem yoxdur. Bütün ziddiyyətlərinə baxmayaraq, dahi mütəfəkkir bu yazılarının hamısında bir məqsəd güdmüşdü: xalqda milli şüuru oyatmaq. O, bütün mənalı həyatını, elmini, biliyini, bacarığını məhz xalqa xidmətə sərf etmişdir. Əhməd bəy Ağaoğlu da digər milli ziyalılarımız kimi aid olduğu xalqın «qara gününü ağ etmək», onu «düşdüyü bu ağır vəziyyətdən qurtarmaq» üçün şam kimi ərimişdir. Əhməd bəy Ağaoğludan bəhs edən müəlliflər onun yuxarıda sadalanan fikir və mülahizələrini yüksək qiymətləndirərək göstərirlər ki, «Əhməd bəy bütün fəaliyyəti ərzində aşağıdakı üç əsas amilə diqqət yetirirdi: ana dilinin saflığı və inkişafı, xalqın elmi və mədəni tərəqqisi, ilkin islamın və onun mütərəqqi cəhətlərinin bərpası. Bu məsələlərə o, (Əhməd bəy Ağaoğlu – R.Ə.), ömrünün axırına qədər sadiq qalmışdır və nədən yazırdısa, hamısını bu problemlərlə bağlayırdı. Bunlarda qoyulan məsələlərin çoxu Şeyx Cəmaləddin ideyaları ilə səsləşirdi» (45, 107).

Müasirləri haqqında tərifli məqalələr yazmağı o qədər də sevməyən Ömər Faiq əfəndi hələ Əhməd bəy Ağaoğlunun geniş jurnalistlik və publisist fəaliyyətinə başlamadığı bir dövrdə onu «ən qeyrətli, yorulmaz, məlumatlı mühərrirlərdən biri» adlandıraraq «Şərqi-Rus» qəzetində yazırdı ki, «Hər mömin qardaş fürsəti fövtə verməyərək bu millətpərvər mühərriri – aliqədrin (Əhməd bəy Ağaoğlunun – R.Ə.) yazdıqları əsərlərindən vaxtında istifadə etsin» (55, 48).

Əhməd bəy Ağaoğlunun mədəniyyət haqqındakı konsepsiyasını, onun ilahiyyat və sosial həyat düsturlarını, dövlətçilik və hakimiyyət haqqındakı prinsiplərini, incəsənətin və dilin rolu haqqındakı qənaətlərini xüsusi metodoloji əsaslarla təhlil edən və Əhməd bəyin həyat və fəaliyyətinə dair monumental bir tədqiqat əsəri ortaya qoyan, onun sosial, fəlsəfi, siyasi, hüquqi, dini-teoloji və s. baxışlarını incələyən Şahnəzər Hüseynov yazır ki, «Həqiqi mənada demək olar ki, Ə.Ağaoğlunun dünyagörüşü onu müasiri olduğu bir sıra Azərbaycan mütəfəkkirləri, publisistləri, ilahiyyatçı və hüquqşünasları, jurnalist və ədiblərindən orijinallığı ilə fərqləndirirdi. Bu fərq mütəfəkkirə (Əhməd bəy Ağaoğluya – R.Ə.) elə bir elmi-publisistik, nəzəri-ideoloji, konseptual mahiyyət vermişdir ki, onu (Əhməd bəy Ağaoğlunu – R.Ə.) ciddi arqumentlərlə *kosmopolit vətənpərvər* adlandırmaq olar... Ə.Ağaoğlu əsərlərində təhlilini verdiyi bütün problemlərin – dini, əxlaqi, hüquqi, siyasi və s. həllini məhz *kosmopolit vətənpərvər* mövqeyindən irəli sürür... Bu qiymət heç də sadəcə olaraq gəlişi gözəl sözlə və yaxud sensasiya xatirinə deyilmir. Çünki bu qənaət məhz XIX əsrin sonları və XX əsrin ilk onilliklərində Qərb dünyasında,



Avropada, eləcə də onun təsiri ilə Rusiyada və islamın nüfuz və mövcudluq dairəsində meydana çıxmış inkişaf meyllərinin konteksti çərçivəsində fəaliyyət göstərmiş, bizim mütəfəkkirin müxtəlif xarakterli ideya xətlərinin təfsiri əsasında yaranır» (36, 3,24).

Əhməd bəy Ağaoğlu avropalıların uydurduğu «panislamizm» ideyasını rus və Avropa qaragüruhçularının təsvir və təsəvvür etdikləri şəkildə müsəlmanlar arasında mövcudluğunu tamamilə inkar edirdi. Onun fikrincə: «Ümumiyyətlə, belə bir cərəyan («panislamizm» - R.Ə.) müsəlmanlar arasında yoxdur. O (panislamizm – R.Ə.), Avropa siyasətçiləri və qəzetçiləri tərəfindən icad edilən bir uydurmadır» (32).

İslam dininin ictimai-əxlaqi, siyasi-ideoloji və dini-məfkurəvi dəyərlərini özünün milli düşüncəsində daxili-milli birləşdirici amil kimi qəbul edən Əhməd bəy Ağaoğlu da digər milli demokratiya düşüncəsinin fədailəri kimi İslam dininin milli düşüncədə milli mənlik şüuruna xidmət edən mənəvi-əxlaqi və mədəni tutumunu qəbul etmiş və bu baxımdan da onun siyasi-milli təfsirini vermişdir. Məhz bu zərurətdən doğan düşüncə tərzi onu da Əli bəy Hüseynzadənin irəli sürdüyü milli intibahda üç devizli bir fəaliyyət platformasını – İslamlaşmaq, Müasirləşmək və Türkləşmək – qəbul etməyə gətirib çıxarmışdır. Bu milli-liberal İslamçılıq cərəyanı ümmətçilikdən daha çox müsbət, mütərəqqi millətçilik, milli şüur, milli mənlik duyğusu ilə özünü qəbul etdirə bildi. Əhmməd bəy Ağaoğlu da bu dünyagörüşün formalaşmasında və həyata vəsiqə almasında çalışan bir şəxsiyyət kimi onun Şərq ölkələrində, xüsusilə Türk aləmindəki perspektivini məhz

bu meyarlarla ölçmüş, onu müəyyən mənada mütləqləşdirmişdir.

Əhməd bəy Ağaoğlu böyük bir filosof kimi hər bir ictimai hadisəyə münasibətdə olduğu kimi dinə də tarixlik prinsipi və mədəniyyət konsepsiyası baxımından yanaşmışdır. Onun din və mədəniyyəti qarşılaşdırmasında ən səciyyəvi cəhətlərdən biri də ondan ibarətdir ki, çağdaş ilahiyyatçıların əməli olaraq həyatda gördüklərini Əhməd bəy bir futuroloq kimi hələ XX əsrin əvvəllərində tarixi-nəzəri baxımdan anlamış, böyük bir analitik kimi təsəvvürlərinin tarixi məzmununu açmış, dəlillərlə bunu sübut etmişdir. Bütün bu qənaətlərində Əhməd bəy Ağaoğlu əsasən sivilizasiya və mədəniyyət prinsiplərinə əsaslanmış, bir maarifçi mütəfəkkir kimi Şərqin və bütün İslam aləminin əsas nəzəriyyələrini qiymətləndirməyi bacarmış, müsbət anlamda kosmopolitizm ilə milli vətənpərvərlik motivlərinin sintezini yarada bilmişdir. Məhz bu ilk baxışda bir-birinə zidd görünən üç devizli ideoloji sistemin sintezi əsasında Azərbaycan Demokratik Cümhuriyyəti və Mustafa Kamal Atatürkün yaratdığı Türkiyə Cümhuriyyəti nəşət etdi.

İslamçılıq fikrinin bütün müsəlman ölkələri və xüsusilə Türk dünyasında özünə yer qazanmasında xüsusi fəaliyyəti olan şəxsiyyətlərdən biri də Osmanlı imperatorluğunun son iyirmi ilində və Türkiyənin Cümhuriyyət dövründə türkçülük savaşının öndərlərindən biri olmuş, həyatı keşməkeşli, lakin başarılı olmuş, siyasi-ideoloji çalışmaları, tədqiqatçılığı, xüsusilə siyasət və tarixi mövzulardakı yazıları ilə türk mədəni həyatında xüsusi yeri olan Yusuf Akçuradır. Özünün məşhur «Üç tərzi siyasət» adlı proqram xarakterli məqaləsi ilə Osmanlı imperatorlğunun gələcək siyasi xəttinin nədən ibarət olacağı fikrini irəli sürmüş, dünya türklərinin hansı ideoloji-siyasi yöndə öz taleyini həll edə biləcəyəni göstərmişdir. Bu əsərdə irəli sürülən üç ana xətdən bizim mövzumuzla bağlı olan İslamçılıq, daha doğrusu, müəllifin özünün qeyd etdiyi kimi «İslamçılığa dayanan bir dövlət sistemi qurmaq» tezisidir.

Yusuf Akçuranın fikrincə «Osmanlılıq» fikri kimi «İslamçılıq» da Avropadan gəlmədir. İslamçılıq Osmanlı imperatorluğunda «Osmanlılıq» fikrinin zəifləməsi ilə Sultan Əbdüləziz dövründə ortaya çıxmışdır. Avropa siyasi xadimlərinin «panislamizm» adlandırdıqları bu ideoloji fikri Yusuf Akçura əzəmətli bir proyekt hesab edərək göstərirdi ki, «İslamçılıq «Osmanlı məmləkətlərində din əsasına dayanan güclü bir Müsəlman Birliyi yaradacaqdır. Bu (islamçılıq – R.Ə.), dünyadakı müsəlmanların xəlifə (Osmanlı sultanı nəzərdə tutulur – R,Ə.) ətrafında toplanması üçün sağlam bir zəmin hazırlayacaq (15, 7). Əsərdə Yusuf Akçura din ilə dövlətin bir bütün olmasını, Quranın ana qanun mahiyyəti daşımasını, ərəb dilinin din dili, hətta müəyyən dərəcədə elm dili olmasını, xəlifənin (Osmanlı sultanının – R.Ə.) müsəlmanlar tərəfindən imam kimi qəbul edilməsini, islamçılığı asanlaşdırıcı bir amil kimi göstərmişdir. Bütün bunlarla yanaşı Yusuf Akçura göstərirdi ki, bütün müsəlmanların birləşməsinə müsəlman təbəələrinə sahib olan böyük dövlətlər, xüsusilə də Rusya və İngiltərə mane olacaqlarından İslam Birliyinin yaranması çox uzun bir zaman alacaq. «Artıq Osmanlı milləti meydana gətirməklə uğraşmaq beyhudə bir yorğunluqdur» (15, 31). deyən Yusuf Aksura «İslam Birliyi»politikasının Osmanlı imperatorluğu üçün yararlı

olub olmadığını geniş şərh edərək göstərir ki, «Bu siyasətin (İslam Birliyi siyasətinin - R.Ə) tətbiqi Osmanlı təbəələri arasında dini nifaq və düşmənçiliyin artması və beləliklə də, müsəlman olmayan təbəələrlə onların məskun olduqları ölkələrin itirilməsi və həmçinin Osmanlı dövlətinin gücünün azalması ilə nəticələnəcək. Bundan başqa, ümumiyyətlə, türklərin arasına müsəlman və qeyri müsəlman fərqi düşəcək, irqdən gələn qardaşlıq dini ixtilaflarla pozulacaq. Lakin bütün zərərlərin müqabilində Osmanlı dövlətinin hakimiyyəti altında olan bütün müsəlmanlar və xüsusilə onun bir parçası olan türklər çox güclü bir bağla bir-biri ilə birləşəcək, beləliklə, fərqli irq və dindən təşəkkül tapmış «Osmanlı milləti»nə nisbətən mülk, adət-ənənə, ərazi, sərvət və s. fərdliliklərinə baxmayaraq, daha güclü bir topluluq – islam topluluğu meydana gətirəcəklər. Daha mühümü, yer üzündəki bütün müsəlmanların getdikcə güclənərək birləşməsi və beləliklə də, Anqlo-Sakson, German, Slavyan, Latınlar kimi sarı irqin (Yusuf Aksura bu əsəri qələmə aldığı dövrdə Avropada irq nəzəriyyəçiləri millətləri həm də rənginə görə irqlərə bölür və türkləri də sarı irqə aid edirdilər – R.Ə) birləşməsi ilə meydana gələcək, böyük qüvvətlər arasında varlığını mühafizə edə biləcək, dinə dayalı bir gücün doğması üçün zəmin hazırlanacaq... Asiyanın böyük bir hissəsi ilə Afrikanın yarıdan çoxuna hakim mənəvi bir varlıq yaradılmış olacaq» (15, 31).

Yusuf Aksuraya görə: «İslam dini siyasi və ictimai işlərə daha çox əhəmiyyət verən dinlərdən biridir. İslamın əsas qayələrindən biri «din ilə millət birdir» düsturudur. İslam mömin olanların cins və milliyyətlərini yox



edir, adət-ənənələrini unutdurmaq istəyir. İslam, elə bir qüvvətli dəyirmandır ki, fərqli irq və dil mənsublarını üyüdüb eyni bir haqlara sahib, biri digərindən fərqsiz müsəlmanlar çıxarır... Lakin başqa dinlərin tarixində görülən dəyişmələr İslam dinində də müşahidə olunur. İrq təsirləri və müxtəlif hadisələr nəticəsində İslam dininin təşkil etdiyi siyasi birlik qismən pozuldu. Hicrətdən hələ bir əsr keçməmiş... Əməvilərlə Haşimilər xanədanları arasındakı nifrət və nifaq islam birliyində qapana bilməyən bir yara açdı, sünni və şiə ixtilafını ortaya çıxardı... İslamdakı fikir və siyasət birliyi tamamilə pozuldu... Xilafət... ayrı-ayrı yerlərdə kiçik-kiçik və keçici əmirliklərə, səltənətlərə, şahlıqlara, padşahlıqlara bölünərək parça-parça oldu. Xilafət ikiləşdi, hətta üçləşdi. Rəsmi və dini dil də birliyini qeyb etdi... Bir zaman gəldi ki, islamın gücü ən aşağı nöqtəsinə doğru enməyə başladı. İslam ölkələrinin bir qismi, getdikcə daha böyük qismi, dörddə üçündən çoxu xristian dövlətlərinin hakimiyyəti altına düşərək islamiyyətin birliyi dəlik-deşik oldu. Gücünə xələl gətirən bütün bu vaqiələrlə bərabər, islam hələ çox güclüdür. Müsəlmanların arasına dinlərindən şübhəlilik və ya daha betəri olan imansızlıq hələ girməmişdir deyilə bilər. İslama tabe olanlar din yolunda hər cür fədakarlığı gözə ala biləcək dinə müticəsinə tabe olan kimsələrdirlər. Bəzi müsəlman dövlətlərin yeni qanunları İslam şəriətindən ayrılsa da, əsası yenə islam qaydalarıdır. Hələ də ərəb dili yeganə din dilidir. Hətta bir çox yerlərin müsəlmanları üçün elmi və ədəbi dil yenə də ərəbcədir. Xülasə, islam mədəniyyəti yenə də əvvəlki birliyi ilə davam edir. Hələ də hər müsəlman türk və ya iranlıyam deməkdən əvvəl «əlhəmdüllah müsəlmanam»

deyir. Hələ də İslam dünyasının böyük bir qismi Osmanlı türklərinin xaqanını islamın xəlifəsi kimi tanıyır. Hələ də bütün müsəlmanlar gündə beş dəfə Mükərrəm Məkkəyə üz çevirir (beş rükət namaz qılır - R.Ə) və Kəbəyə üz sürtüb Həcəri-Əsvədi öpmək üçün böyük bir həyəcan ilə Kürənin (Yer kürəsinin – R.Ə.) hər tərəfindən müxtəlif sıxıntılara qatlanaraq coşurlar. Heç qorxmadan təkrar oluna bilər ki, islam hələ çox güclüdür. Buna görə də «İslam birliyi», siyasətinin tətbiqində daxili maniələr o qədər də güclü deyil. Lakin xarici maneələr çox güclüdür. Həqiqətən, bir tərəfdən islam dövlətlərinin çoxu xristian dövlətlərinin nüfuzu altındadır. Digər tərəfdən də bir-iki xristian dövləti istisna olmaqla bütün xristian dövlətləri müsəlman təbəəyə malikdir... Ona görə də zamanımızda (XX əsrin əvvələlrində – R.Ə.) ən qüvvətli islam dövləti olan Osmanlı dövlətinin belə ciddi bir sürətdə islam birliyi siyasətini tətbiqə başlamasına bəlkə də müvəffəqiyyətlə qarşı çıxarlar» (15, 32-33). Yusuf Akçura Osmanlı və islam birliyi ideyasından daha çox «Türk Birliyi» ideyasına inanır və göstərirdi ki, «zamanımızda birləşməsi mümkün olan türklərin böyük bir qismi müsəlmandır. Bu cəhətdən islam dini böyük türk millətinin təşəkkülündə mühüm bir ünsür ola bilər. Millətə tərif verənlərdən bəziləri dinə bir amil kimi baxmaqdadırlar. İslam dini türklüyün birləşməsində bu xidməti yerinə yetirə bilmək üçün son zamanlarda xristianlıqda da olduğu kimi, içində millətlərin doğmasını qəbul edəcək şəkildə dəyişməlidir. Bu dəyişmə isə demək olar ki, məcburidir də. Zamanımız tarixində görülən ümumi cərəyan irqlərdədir. Dinlər, din olmaq baxımından getdikcə siyasi əhəmiyyətlərini, qüvvətlərini itirirlər.



İctimai olmaqdan daha çox fərdiləşirlər. Cəmiyyətlərdə vicdan azadlığı din birliyinin yerini alır. Dinlər, cəmiyyətlərin əlavə işləri olmaqdan vaz keçərək qəlblərin hakimi və mürşidliyini öz üzərinə götürür, ancaq Xaliq ilə məxluq arasındakı vicdani rabitə rolunu oynayır. Dolayısı ilə dinlər irqlərlə birləşərək irqlərə yardımçı və hətta xidmət edici olaraq siyasi və ictimai əhəmiyyətlərini mühafizə edə bilirlər» (15, 34-35).

Y.Akçura Parisdə təhsilini başa vurduqdan sonra Osmanlı dövlətinin sərhədləri üzünə qapalı olduğundan Rusiyaya qohumlarının yanına dönərək əmisinin yanında qaldığı müddətdə «Üç tərzi-siyasət» məqaləsini yazaraq Qahirədə çıxan «Türk» qəzetində çap etdirir. Bu məqalədə Yusuf Akçura ilk dəfə olaraq Osmanlı imperatorluğunun düşdüyü vəziyyətdən çıxış yollarını göstərmiş, siyasətin üç tərzini, yəni «Osmanlılıq, İslamçılıq və Türkçülük» kimi siyasi xətlərini müəyyənləşdirmiş, «Osmanlılığı» rədd edərək İslamçılıq və Türkçülüyün hansının daha xeyirli olduğunda tərəddüd etmişdir. Məqalə çap olunan kimi böyük əks-səda doğurmuş, həm tam müdafiə olunmuş və həm də kəskin tənqidlərə məruz qalmışdır. Məqalə təkcə Şərq müəlliflərini deyil, Avropa tədqiqatçılarının da nəzər-diqqətini cəlb etmiş, məqalə müəllifi Yusuf Akçura Türkçülük hərəkatının öndərlərindən, qurucularından və yayıcılarından biri kimi göstərilmişdir. Avropada yazılıb çap olunan məqalələrin əksəriyyətində Yusuf Akçuraoğlu «islam birliyi» fikrinin yaradıcısı və yayıcısı Şeyx Cəmaləddin Əfqani ilə müqayisə edilmişdir (14, 14-34).

Bütün mənalı həyatını türklüyə xidmətə həsr edən, Osmanlı imperatorluğunu düşdüyü vəziyyətdən çıxar-

mağa çalışan Yusuf Akçura rus-yapon müharibəsi, 1905-ci il rus inqilabı, Rusiyada məşrutiyyətin elanından və s. istifadə edərək siyasi sahədə Şimal türklərinin təşkilatlanmasında, türk milliyyətçi fikirlərinin yayılmasında, «Rusiya Müsəlmanları İttifaqı» adlı təşkilatın yaradılmasında da əvəzsiz xidmətlər göstərmişdir. Akçuraoğlunun 1905-1908-ci illərdə Şimal türkləri arasında, xüsusilə Qazanda ədəbi, elmi və siyasi fəaliyyətlərdə olması onu Rusiya türkləri, o cümlədən azərbaycanlılar arasında sayılan və sevilən şəxsiyyətlərdən biri etmişdir. Onun, İsmayıl bəy Qaspıralının, Əlimərdan bəy Topçubaşovun, Əhməd bəy Ağaoğlunun, Əli bəy Hüseyinzadənin, Məmməd Əmin Rəsulzadənin və s. sayəsində çar Rusiyası tərkibindəki türklər arasında sünni-şiə məsələsinə son qoyulmağa çalışılmış, milli birlik şüuru ön plana keçmişdir.

Bəllidir ki, 1907-ci ildə Rusiyada təkrar irtica başlayır. 3 iyun 1907-ci ildə ikinci Dumanı dağıdan çar hökuməti seçki qanununu da rus olmayanların zərərinə dəyişdirdi, müxalif və rusca olmayan mətbuatın nəşrini dayandırdı. Belə bir ağır vəziyyətdə Yusuf Akçura özünün məşhur «3 iyun acınacaqlı vaqiəsi» (3 haziran Vakayi-Müəssifəsi – R.Ə.) adlı risaləsini (oçerkini – R.Ə.) yazır və çap etdirir. Bu oçerkdə Yusuf Akçura qorxmadan, çəkinmədən yazırdı ki, « XIX əsrdə dünya mədəniyyət tarixinə ən çox təsir göstərən fikir milliyyət fikridir. Milliyyət fikrinə – bu əzəmətli gücə heç bir şey qalib gələ bilmədi. Yüz minlərlə nizami ordular bu fikir (milliyyətçilik fikri – R.Ə.) qarşısında yenildi. Bu gün (1907-ci il nəzərdə tutulur – R.Ə.) milliyyət fikrini yenə biləcək qüvvət, şiddət, zülm, top, tüfəng deyildir, bəlkə milliyyət fikrinin ana və atası olan hürriyyət və



bərabərlik fikirləri onu yenə bilər... İctimai və siyasi inqilabların ən güclü səbəbi sosyal siniflər, hakim-məhkum millətlər arasındakı həqiqi bərabərsizliklərdir. Müsəlmanlar, ya da əsas etibarı ilə rus olmayan xalqlar ruslarla olan əlaqələrində nə qədər güc göstərə bilərlərsə, o qədər hüquqa sahib ola bilərlər. Bunun nəticəsidir ki, rus olmayanların və demokratiyanın əleyhinə qanunun dəyişdirilməsi (çar hökuməti tərəfindən rus olmayanların əleyhinə seçki qanununun dəyişdirilməsi nəzərdə tutulur – R.Ə.) bu iki ictimai gücün (sosyal siniflər və məhkum millətlər nəzərdə tutulur – R.Ə.) zəifliyindəndir, yəni Rusiya müsəlmanlarının qüsurları, cəzanı gərəkdirən suçları onların gücsüzlükləridir... Müsəlmanlar əvvəldən bəri alışdıqları boyun əymək, yalvarmaq və üzə gülmə siyasətləri ilə zərbələrdən qorunacaqlarını düşünürlərsə çox yanılırlar» (16). Akçuraoğlunun bu oçerki «bütün türk və müsəlman hərəkatının Rusiyada ən amansız düşməni olan şərqşünas professor və senzor olan Smirnov tərəfindən mətbuat qanununa zidd olduğu göstərilərək məhkəməyə verilmiş və müəllifin təqibinə başlanılmışdı». Axtarış davam etdiyi dövrdə Yusuf Akçura Baxçasarayda İsmayıl bəy Qaspıralının «Tərcüman» qəzetində çalışırdı. Sorğu hakiminin çağırışnaməsi onu axtarıb tapmadan əvvəl Osmanlı səltənətində Məşrutiyyətin elan xəbəri qulağına gəlib çatdı. Bu xəbəri eşidincə Akçuraoğlu xırım-xırda işlərini tələm-tələsik həll edərək 1908-ci ilin oktyabr ayında İstanbula döndü.

Yusuf Akçura 1908-ci ildən 1914-cü ilə qədər İstanbulda yaradılan bütün milliyyətçi təşkilatlarda və çap olunan bütün qəzet və jurnallarda, xüsusilə Vələd Çələbi, Nəcib Asim, Mehmed Əmin Yurdaqul, Ziya Göyalp,

Ömər Seyfəddin, Əli Canib və 1907-ci ildən etibarən Rusiyadakı təqiblərdən qaçaraq yenidən Türkiyədə toplanan Əhməd bəy Ağaoğlu, Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əbdülrəşid İbrahimov, Ayaz İshaki, Halim Sabit kimi milliyyətçilərin ətrafında toplandığı «Türk yurdu» jurnalında ən aparıcı simalardan biri olmuşdur. İlk öncə «islam birliyii» və «türk birliyi» ideyalarını dəstəkləyən Yusuf Akçura, I dünya müharibəsində məğlub olan və əraziləri Antanta dövlətləri tərəfindən işğal olunan Osmanlı imperatorluğunun tarix səhnəsindən silinməsi ilə bu ideyalardan uzaqlaşaraq Mustafa Kamal Atatürkün «Anadoluçuluq» cərəyanına qoşulduğunu və bunun nəticəsində də onu «45 yaşında bir dəliqanlı kimi Sakarya Meydan Savaşında, ardından Türkiyə Böyük Millət Məclisində, 1931-ci ildə Türk Tarixi Tədqiq Cəmiyyətinin üzvləri arasında və 1932-ci ildə bu Cəmiyyətin (sonrakı adı Türk Tarix Qurumu – R.Ə.) başında görürük. Bu son vəzifəsi (Türk Tarix Qurumunun Başqanı – R.Ə.) 1935-ci ilə – yəni ölümünə qədər davam etmişdir» (64; 13). Bütün bunlarla yanaşı Yusuf Akçura da digər milliyyətçilər kimi «islam birliyi» ideologiyasını, daha doğrusu, Şeyx Cəmaləddin Əfqaninin irəli sürdüyü islamın liberallaşması ideyasını sona qədər müdafiə etmişdir.

Yusuf Akçuraoğlunun «Üç tərzi-siyasət» məqaləsi Misirdə nəşr olunan «Türk» qəzetində çap edildikdən sonra bu məqalə ilə bağlı İslam dünyasının bir çox yerlərində münasibətlər bildirildi. Bu münasibətlərdən biri də bütün türk aləmində «bir haqq elçisi», «bütün Türk dünyasının mücahidi», «bütün türk və müsəlman xalqlarının siyasi və milli əsarətdən azad olması uğrunda mübariz», hələ öz sağlığında «Yalavac» (peyğəmbər – R.Ə.) adlandırılan, milli tariximizə görkəmli publisist, tənqidçi, şair, nasir, tərcüməçi, ideoloq və filosof kimi daxil olan, istiqlaliyyət, milli qurtuluş məramının carçısı, türk xalqlarını vahid «Turan» ideyası ətrafında birləşməyə çağıran, «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» ideoloji sisteminin yaradıcısı Əli bəy Hüseynzadə tərəfindən 24 noyabr 1904-cü ildə «Məktubi-məxsus» (Xüsusi məktub – R.Ə.) başlıqlı və «Ə.Turani» imzası ilə həmin «Türk» qəzetində çap etdirdiyi sanballı məqalədir. Bu məqalədən öncə Əli bəy Hüseynzadə özünü türk ictimai həyatında bir «turançı» kimi tanıtdırmış, istər Peterburqda Təbii Elmlər fakültəsində oxuyarkən, istərsə də İstanbul Hərbi Tibb məktəbində təhsil alarkən babası Şeyx Əhməd Səlyani və Mirzə Fətəli Axundovun təsiri ilə qazandığı türklüyə bağlılıq duyğusunu öz tələbə yoldaşlarına da aşılamışdı. Digər «islam birliyi» tərəfdarlarından fərqli olaraq Əli bəy Hüseynzadə daha çox müsəlman türklərin birliyi ideyasına önəm vermişdir. Qafqazın Şeyxülislamı olmuş ana babası Şeyx Əhməd Səlyaninin, Mirzə Fətəli Axundovun və həmçinin Şərqin böyük İslam filosofu Şeyx Cəmaləddin Əfqaninin Əli bəy Hüseynzadənin yetkinləşməsində xüsusi rolları olmuşdur. Qədim yunan və latın ədəbiyyatına, alman, rus, ingilis və bütün Şərq ədəbiyyatlarına dərindən bələd olan Əli bəy Hüseynzadə müasirlərinin də qeyd etdiyi kimi: «İstanbul Tibb Məktəbinə Qərb fikirlərini, Qərb ədəbiyyatını, Qərb irfan və mədəniyyətini, qısacası Qərbi tanıtmaqda professorlarından çox xidmət etdi» (14, 143). İstanbul Tibb məktəbindəki tələbə yoldaşlarından olan məşhur Abdulla Cövdət Əli bəy Hüseynzadə haqqında

«Türk yurdu» jurnalında yazırdı ki, «Əli bəy (Əli bəy Hüseynzadə – R.Ə.) sakit və düşüncəli halı, əsrarəngiz öyrədici öyüdləri ilə üzərimizdə (tələbə yoldaşları üzərində – R.Ə.) bir peyğəmbər təsiri buraxırdı. Bəli, o, bir Allah elçisi idi» (14, 143).

Qahirədə nəşr olunan «Türk» qəzetində Əli bəy Hüseynzadənin çap olunan «Məktubi-məxsus» məqaləsindən bəhs edən Yusuf Akçura göstərir ki: «Əli bəy Hüseynzadə «süni olaraq ayrıca «pantürkizm», «panislamizm» adları ilə məslək icadına nə lüzum vardır?» - deməklə və «Türk» qəzetinin baş redaktorunun («Türk» qəzetinin baş redaktoru Əli Kamal Yusuf Akçuranın «Üç tərzi-siyasət» məqaləsini tənqid edərək, elə redaktoru olduğu «Türk» qəzetində də «Cavabımız» başlıqlı məqalə dərc etmişdir. Bu məqalədə Əli Kamal Yusuf Akçuranın irəli sürdüyü hər üç fikri tənqid etmiş və göstərmişdi ki, «Nə qədər möhtəşəm, nə qədər əziz olursa olsun, anlaşılmaz, xüsusilə imkansız olduğu üçün biz belə bir Osmanlı millətinin vəhdəti, İslam Birliyi, Türk Birliyi kimi fikirləri əməllərimizə hədəf kimi qəbul edə bilmərik, bu yollara əmək sərf edə bilmərik» (15, 40) bəzi görüşlərinə qatılmış kimi görünməklə bərabər, özünün «panislamizm»ə və «Pantürkizm»ə müxalif deyil, tam əksinə, tərəfdar olduğunu anladırdı» (14, 140).

Əli bəy Hüseynzadə bu əhəmiyyətli məqaləsi ilə ilk dəfə olaraq göstərmişdi ki, «tatar» deyə adlandırılan bir xalq yoxdur. Krımlıların, qazanlıların, orenburqluların hamısı türk oğlu türkdür». Bütün Türklüyün iftixar qaynağı olan Çingizlər, Teymurlar kimi hərb dahilərinə həqarət dolu sözlər söyləmək qaş qoymaq əvəzinə vurub göz çıxarmaq kimi bir şeydir... Müsəlmanlar və xüsusilə



türklər hər harada olurlarsa olsunlar – istər Osmanlıda, istər Türküstanda (İran və Qafqazda – R.Ə.), istər Baykal gölünün ətrafında, ya Qaraqum ətrafında olsun birbirlərini tanıyacaq, sevəcək, sünni–şiəlik və daha bilməm nəlik adları ilə məzhəb təəssübünü azaldıb, Qurani-Kərimi anlatmağa qeyrət göstərərək, dinin əsasının Quran olduğunu bilmiş olarlarsa əlverişli olmazmı? Bir millət üçün hər şeydən əvvəl arzu ediləcək şey güclü olmaqdır. Bir millətin güc qazanması onlar arasında mənəvi əlaqənin artmasına bağlıdır. Xüsusilə onlar arasında qarşılıqlı sevginin artmasına çalışılmalıdır. Məsələ birbirimizi tanımaq, sevmək, mədəniləşmək yolunda birbirimizə yardım etmək məsələsidir» (78). Sülh və sakitlik, anlaşma və ahəngdarlıq tərəfdarı olan Əli bəy Hüseynzadə bu məqaləsində bir-biri ilə mübahisə edən tərəflərin tezis və antitezislərini yüksək bir sintez halında birləşdirərək, hər iki tərəfin haqlı fikirlərini qəbul etmiş və sonda müsəlman türklərin birləşməsini vacib saymışdır. Bunu və onun bir çox şeirlərini nəzərə alan Yusuf Akçura göstərirdi ki: «Hüseynzadə Əli bəy müsəlman türklər arasında ilk Turani, yəni Panturanistdir – desək, xəta etmiş olmarıq, zənnindəyəm Onun (Əli bəy Hüseynzadənin – R.Ə.) şairanə Turançılığı 1908-ci ildən sonra İstanbulda digər Turançıları, başlıcası Göyalp Ziyanı yaratmışdır» (14, 141-142).

Əli bəy Hüseynzadənin bu məqalədə irəli sürdüyü bir çox fikirləri daha sonra böyük dramaturqumuz Hüseyn Cavid dram əsərlərində daha da qabarıq şəkildə ifadə etmişdir. Onun «Maral» əsərində oxuyuruq: «Avropalılar böyük İskəndər, böyük Napoleon deyə heykəllər

yapdırıyor, bizsə Teymur kimi dahilərə, Çingiz kimi cahangirlərə «quduz canavar» adı qoyuruq» (35).

Əli bəy Hüseynzadənin ən böyük fəaliyyəti Azərbaycana dönüşündən sonra başlamışdır. Azərbaycana dönən Əli bəy Hüseynzadə ilk olaraq Zeynalabdin Tağıyevin maliyyələşdirdiyi və sahibi olduğu «Həyat» qəzetini Əhməd bəy Ağayev və Əlimərdan bəy Topçubaşov ilə çıxarmağa başlayır. Əli bəyin «Həyat»da çıxan ilk mühüm məqalələri «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?» və «Yazımız, dilimiz» adlı məqalələridir. Birinci məqalənin əsas qayəsi türk xalqlarının bir bütün, bir birlik yaratmalarını göstərmək və açıqlamaqdır ki, bunun əsasında «Türkləşmək» ideyası dayanır. İkinci məqaləsində Əli bəy «Bizə müasir elmlər lazımdır» - deməklə «Müasirləşmək» ideyasını irəli sürür. Bu məqalədə o həmçinin müsəlman türk xalqları üçün bir ideoloji sistemin - Türkləşmək, İslamlaşmaq, Avropalılaşmağın əsasını qoyur və bu müddəalarını isbat etməyə çalışır. Əli bəy Hüseynzadənin bu üç ideoloji sistemi türk aləminin hər tərəfinə tezliklə yayılır və xüsusilə ikinci Məşrutiyyətdən sonra İstanbulda daha geniş vüsət alır. Belə ki, Ziya Göyalp «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» mövzusu ilə bağlı yazılar yazmağa başlayır.

«Həyat» bağlandıqdan sonra yenə də Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə çap olunan «Füyuzat» jurnalına redaktorluq edən Əli bəy Hüseynzadə burada öz siyasi və fəlsəfi məqalələrini dərc etdirir. Bu məqalələrdə Əli bəy Hüseynzadə məzhəbçilik vasitəsilə Azərbaycan türklərini farslaşdırmağa çalışan iranizmə, həmçinin daha çox vasitə və gücə sahib olan ruslaşdırmağa qarşı türkçülüyü qoyur. Əli bəy Azərbaycan



türklüyünün qarşısında əsas güc və dayaq nöqtəsi olaraq məzhəb ayrılığından – sünni-şiəlikdən yüksəkdə duran islam birliyini və Osmanlı dövlətini görür. Ümumiyyətlə, «Füyuzat» jurnalı şiə və sünni ayrılığının aradan qaldırılmasına, Osmanlı-Türk mədəniyyətinin tanınması və sevilməsinə çox çalışmış, siyasi baxımdan Osmanlı dövlətini, Osmanlı türklüyünü bağımsız türklüyün nüvəsi saymış, bütün Türklər arasında Osmanlı türkcəsinin yayılmasına, bütün türklərin ədəbi dilinin Osmanlı türkcəsi olmasına çalışmışdır» (17, 2584).

Həyatının Azərbaycan dövründə (1903-1910) Əli bəy Hüseynzadə şairlikdən daha çox mütəfəkkir bir ideoloq kimi fəaliyyət göstərib və gələcək «Türkçülük» hərəkatının nəzəri-ideoloji əsasını təşkil edən fəlsəfi əsərlərini yazıb «Türk», «İrşad», «Həyat», «Tərəqqi» və s. kimi qəzetlərdə və «Füyuzat» jurnalında çap etdirmişdi. Onun «Məktubi-məxsus», «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır?», «Yazımız, dilimiz, birinci ilimiz», «Nicat məhəbbətdədir», «Məcnun və Leylayi-İslam», «İntikad ediyoruz, intikad olunuyoruz» və xüsusilə «Siyasəti-Fürusət» adlı əsərlərində irəli sürdüyü milli Azərbaycan idealı, İslam miqyasında intibah və Türklük aləmindəki «turançılıq» ideyası çar Rusiyası senzurasını, rus-erməni irticaçılarını dərindən narahat edir və ciddi təqiblər nəticəsində Əli bəy Hüseynzadə də Əhməd bəy Ağaoğlu və Yusuf Akçuraoğlu kimi vətəni tərk etməyə məcbur olur. Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun vətəni tərk etmələri bir çox irticaçıları sevindirsə də, məşhur alimimiz Əliabbas Müznib yazırdı ki: «Onların (Əli bəy Hüseynzadə və Əhməd bəy Ağaoğlunun – R.Ə.) getməyi Qafqaz

əhalisini başsız, böyüksüz buraxmaq kimidir, çünki o cənablar dilsizlərin dili, karların qulağı, korların gözü idilər» (44, 419).

Əli bəy Hüseynzadə 1910-cu ildən ömrünün sonuna qədər, yəni 1940-cı ilə qədər Türkiyədə yaşayır, orada yazıb-yaradır.*

Əli bəy Hüseynzadə Türkiyədə yaşadığı dövrdə də Qafqaz, İran və bütövlükdə Rusiya türklərinin taleyi və gələcək vəziyyətləri ilə bağlı aktual problemlərin həlli ilə məşğul olur. Bu məqsədlə o, Rusiya müsəlmanlarının «Müdafiəyi-hüquq Cəmiyyəti»ndə fəal rol oynayır, həmkarları ilə birlikdə «Turan Heyəti» adı altında Avropaya – Budapeşt, Vyana, Berlin, Lozannaya gedir, Berlində «Türk qövmləri» konqresində, Lozannada «Rusiyadakı xalqlar Konqresi»ndə, Stokholmda «Sosialist Konqresi»ndə iştirak edir, 1918-ci ildə Əhməd bəy Ağaoğlu ilə birlikdə Batum və Gəncədə olur, 1926-cı ildə Fuad Köprülüzadə ilə birlikdə Bakıda birinci türkoloji qurultayda iştirak edir və bu Qurultayda «Qərbin iki dastanında türk» mövzusunda çıxış edir (6, 25-28).

Azərbaycan ictimai-siyasi və mədəni həyatında M.F.Axundovdan sonra «Qərb-Şərq sintezi»nin ən böyük nümayəndəsi Əli bəy Hüseynzadə olmuşdur. Əli bəyin bu sintezində ən mühüm məsələ türklərin Qərbdən və Şərqdən nə alması və ən başlıcası «dünyaya nə verməsi» məsələləri öz əyani ifadəsini tapmışdır. Əli bəy Hüseynzadənin «Türkçülük» və «Müasirlik» haqqındakı fikir və

*Əli bəy Hüseynzadənin həyatının Türkiyə dövrü haqqında geniş məlumat üçün bax: prof.doktor *Əli Heydər Bayat* «Əli bəy Hüseynzadə və Türkiyədə yayınladığı əsərləri», İstanbul, 1992. /Əsər 184 səhifədən ibarətdir.



mülahizələri haqqında başqa bəhslərdə söhbət açdığımızdan burada yalnız onun islamlaşmaq və islam birliyi ideyasından bəhs edəcəyik.

Əli bəy Hüseynzadənin tutduğu yol «Türklük, Müsəlmanlıq və Avropalılılq»dır. Bu ideoloji düsturun yaradıcısı da odur. O, islamı ortodoks və mühafizəkar qatdan təmizləməyə, formal mərasim strukturlardan azad etməyə və ən başlıcası, islamı reforma ideyalarına açmaqla daxili əxlaqa və mənəviyyata dayanan fəlsəfə səviyyəsinə yüksəltməyə çalışmışdır. İslam dinini bir qrup işbazın və mühafizəkar funksionerin əlindən alıb ən geniş xalq kütlələrinin ixtiyarına verməyi qarşısına məqsəd qoymuşdu. O, islamı dəyişmək yox, xalqa həqiqi İslamı mənisətmək yolunu tutmuş və bu məqsədlə də Qurani-Kərimin ana dilinə tərcüməsi ideyasını irəli sürmüşdür. İslam birliyi tərəfdarı kimi Əli bəy Hüseynzadə göstərirdi ki: islam birliyi – «panislamizm bir məqsəddir ki, nəticəsi cəmi əqvam və məmaliki – islamiyyəyi bir-birinə zəbt edib qayət vasə və həddən ziyadə böyük bir məmləkət, bir hökumət təşkil etməkdir... Müsəlmanlar panislamizm məqsədinin ətrafına cəm olmağa hərəkət ediyorlar və dəryada qərq olub boğulanlar kimi onun vasitəsilə nicat tapmağa səy və qeyrət ediyorlar» (44, 435).

İslam birliyi ideyasından qorxuya düşənlər, xüsusilə ermənilər və ruslar hər vəchlə bu ideyanı pisləməyə çalışdıqları və hədyanlar yazdqları bir dövrdə Əli bəy Hüseynzadə onlara cavab olaraq yazırdı ki: «Sizi ittifaq və ittihadmı qorxudur? – Biz isə nifaq və düşmənçilikdən qorxuruq... Nifaq və düşmənçilik deyilmidir ki, sizlərlə (ermənilər nəzərdə tutulur – R.Ə.) bizlər arasında bu qədər qan tökülməyə səbəb oldu. Bizim Qafqazda bu nifaq,

bu ədavət və qətllər yetmiyormuş kimi bir də ümum islam aləmi içinə dəxi nifaq salıb öz xeyriniz üçün müsəlmanların da biri-digərinin qanını tökməsini istəyirsiniz? Xeyr, sizi qorxudan ittifaq və ittihad deyildir. Bu, zatən min üç yüz ildən bəri mövcuddur. Siz hər nə isə islam aləminin birliyindən deyil, qəflət yuxusundan oyanıb sivilizasiya yoluna düşməsi və maarifə yiyələnməsindən qorxursunuz. Sizi təlaşa salan zənn edirəm ki. bu cəhətdir. Sizin qorxu və təlaşınızla təbii qanunlara sədmi çəkiləcək, zənn edirsiniz. Və ya siz bütün Avropanı təlaşa düşürməklə bizi təhdid etdiyiniz üçün biz: Xeyr, əstəğfürüllah, qələt etdik, biz nə islam aləminin sülh və insaniyyət dairəsində birliyini arzu edir və nə də bu aləmin (islam aləminin – R.Ə.) qəflət yuxusundan oyanıb mədəniyyət işığı ilə ziyalı olmasını istəyirik – deyənlərdənmiyik, zənn edirsiniz... Xeyr. Xeyr! Sizin və bizim və bütün insaniyyətin nicatı və qorunması haqqı bilməkdə, maarif nurunda, mədəni tərəqqidə və daimi təkamüldədir. Etiqadımızca, ancaq bu vasitələrlə insanlar, millətlər, din və məzhəblər arasından nifaq və düşmənçilik, müharibə və döyüş yox edilə biləcəkdir... Bu bir təbiət qanunudur ki, adına «evolyusiya» - təkamül qanunu deyirlər. Biz də bu yol ilə gedirik. Məqsədimiz, amalımız, birlik, bərabərlik, ictimai maarif, xoş güzəran, sənaye, ticarət və sairə ilə Yer kürəsi üzərində insanlara qismət olan səadətə nail olmaqdır. Menşikov, Mağda, Neman, Çirevanski, «Mşaq», «Arşalyus» və sairə adlı devlər, ifritələr arxadan, sağdan, soldan istədikləri qədər çığırbağır etsinlər. Biz qorxub geri çəkilənlərdən deyilik» (44, 432).



Heç təsadüfi deyildir ki, Əli bəy «panislamizm»dən harada danışıbsa, oradaca «erməni məsələsi»ndən də söz açıb. Çünki ermənilər yalnız bu yolla bütün xristian dünyasını İslam dünyasına başçılıq edən türklərə qarşı qaldıra bilərdi. Əli bəy Hüseynzadə ermənilərə və onlara havadarlıq edənlərə cavab olaraq özünün «Panislamizm məsələsi və ermənilər» adlı məqaləsində göstərirdi ki: «Bizdə özümüzə naməlum, özgələrə aşkar, özümüzdən gizli özgələrə əyan bir qüvvə var ki, hamı ona məna verib, hamı ondan qorxur. Bu qüvvət də haman «panislamizm» deyilən qüvvətdir. İslamların tutduğu, yaşadığı yerlərin şəklin, xəritəsin dürüst nəzərdən keçirəndə bunun üstünə bir az da qeyrət, namus, canlılıq, fəaliyyət fikri gətirəndə, doğrudan da, elə bir qüvvət əmələ gəlir ki, ondan nəinki xristian aləmi, bəlkə bütün dünya təşvişə düşsə haqlıdır. İslam torpaqları bir kəmər kimi bütün Avropanın belində sıxılıb əlləşməyə məcbur olan əjdaha nisbətində başın əzib beynin çıxarmağa hazır islam tayfasını görür. Lakin hamısı yatmış, hamısını bir şirin yuxuya dalmış görür» (33).

Əli bəy Hüseynzadə erməni iftiralarından olan guya: «Ümummüsəlmanlar, yəni üç yüz milyondan (indi bir milyarddan çox – R.Ə.) ibarət müsəlmanlar birləşib bu günlərdə (söhbət XX əsrin əvvəllərindən gedir – R.Ə.) çəyirtkə kimi qanadlanıb uçacaq və Rusiya ilə Avropanın üstünə töküləcək, Qərb mədəniyyətini və bəlkə də bütün xristian aləmini bağı ilə, bağçası ilə, əkini ilə, əhalisi ilə yuyub atacaqmış» kimi fikirlərinə cavab olaraq yazırdı ki: «Yüksəlin, qonşular, yüksəlin! Dar bir nasionalizm dairəsindən dışarı çıxınız. Millətinizin üzvlərini zəlalətə düçar etməyiniz... Bu gün bu qədər... sərvət və var-

dövlətinizlə ümum insaniyyəti, hətta bir-iki qonşunuzu belə məsud edəcək içinizdən bir fərd yetişmədi. İçinizdən nə bir Əbu Əli Sina, nə bir Mollayi Rumi, nə bir Uluğ bəy göstərə bilməzsiniz. İki min illik tarixinizi eşələyin, yenə göstərə bilməzsiniz... Yüksəlmədikcə, əxlaqınızı təmizləmədikcə, şovinist xəyalları beyninizdən çıxarıb atmadıqca, ümumi bəşəriyyətə, insaniyyətə İsalar, Məhəmmədlər, Buddalar kimi bir nəzərlə baxmadıqca bir qorxulu həlaka düşüb gedərsiniz» (32).

Əli bəy Hüseynzadə göstərirdi ki, biz müsəlmanlar tərəqqi etsək də, tərəqqi etməsək də bizdən şikayətlənirlər, birlik istəsək də, nifaq və düşmənçiliyə düçar olsaq da yenə də şikayətlənirlər. Birlik istədikdə «panislamist» adlandırırlar: «Və əlhasil tərəqqi və inkişaf edib göylərə çıxsaq deyəcəklər ki: «ay haray, qoymayın! Müsəlmanlar göyə çıxıyorlar, olmaya ki başımıza asimandan qığılcımlar, ildırımlar, atəşlər yağdırarlar! Yox, tənəzzül edib yerin dibinə keçəcək olsaq bağıracaqlar ki, ay haray! Qoymayın, cəhənnəm odunu gətirənlər bunlardır. Vezuvi yanardağının ətrafa saçdığı odları, külləri, kükürdləri, lavaları püskürən bunlardır! Yerdən də, göydən də əl çəksək, dəryalara, dənizlərə sığınsaq, yenə susmayacaqlar, fəryad edəcəklər ki, ay haray! İslam qövmünün hərbi dəniz qüvvələri artıq... sahillərinizə barıtlar, güllələr, bombalar yağdıracaqlar... Bu adamları nə ilə məmnun etməli? ... Bunların xoşuna gəlmək üçün nə etməliyik? Nə etməli? Ya boynumuza bir əsarət zənciri salmalı, yaxud məhv və yox olmalı, vəssalam! Üç-dörd yüz milyon xalq ya əsarətdə, ya məhviyyatda! Başqa heç nə!... Bu mümkünmü, əzizim erməni mühərriri. Biz nə boğulub qərq oluruz və nə də «panislamizm»i geniş və böyük bir dövlət təşkil etməyi özümüzə bir nicat vasitəsi bilirik. Səhvin var, xətan var. Biz bir sövqi-təbii ilə, bütün dünyanın, xalq və millətlərin getdiyi yollarla gedirik! O yolun başlanğıcı qaranlıq və tikanlı isə də, qabağı işıq və çəmənlikdir... Millətlərin bir qismi yolun ortasında getdikləri və sonuna yetişdikləri halda, digərləri o yolu başlayırlar... Bu bir təbiət qanunudur ki, adına «evolyusiya» yəni, «təkamül qanunu» deyirlər» (44, 436-437).

XX əsrin əvvəllərində Əli bəy Hüseynzadənin siyasi-ideoloji və fəlsəfi publisistikasında erməni şovinizminin və öz siyasi məqsədləri üçün onları dəstəkləyən xristian dünyasının rəhbər tutduğu, inad və israrla həyata keçirdikləri konkret tarixi və milli-siyasi proqramların qlobal motivləri, ideya kökləri və strateji hədəfləri, dini, irqi, qövmi və sosial əsasları, mənəvi terrorları, ikiüzlü, saxta və məkrli üsul və vasitələri təfsilatlı elmi şərhini və təhlilini tapmışdır. Əli bəy tarixdən və keçmişə səyahətdən gördüyü və götürdüklərini özünün məşhur «Siyasəti-Fürusət» əsərində bütün dünyaya və bütün zamanlara göstərdi. Bu əsər özünə qədərki böyük tarixi və sosial hadisələri özündə birləşdirərək Turanın, İranın, Yaxın və Uzaq İslam Şərqinin bütün dərdlərini özündə əks etdirməklə bütün nəsillərin dərslik kitabına çevrilməlidir. Çünki bu əsərdə Əli bəy Hüseynzadə İslam birliyi, türk bütövlüyü ideyasının nəzəri, fəlsəfi, ideoloji-siyasi əsaslarını açıb göstərməklə bərabər, islam dinini dünya miqyasında hərraca çıxaran mürtəce din xadimlərini, Xəzəri şor su kimi ruslara satan İran şahlarını, İslam aləminin başı üstündə dolaşan səlib xaçını, Puruşkeviçin timsalında çar Rusiyasının müstəmləkəçilik siyasətini

siyasi parodiya, fəlsəfi kinayə və həcv ilə ifşa edir, məhşər ayağına çəkirdi. Müəllif əsərdə türk hökmdarları Əmir Teymur, Şah İsmayıl Xətai və Nadir şahın timsalında türk və müsəlman xalqlarının milli və dini birliyə nail olmasında islam ideologiyasının birləşdirici ideya olduğunu açıqca göstərmişdir. Əsərdə Cənubi Azərbaycanda baş verən Səttarxanın başçılığı ilə Məşrutə inqilabına böyük əhəmiyyət verən Əli bəy Hüseynzadə yazırdı ki: «Çəkilin ortadan! Mədəniyyət gəlir. Təbriz mücahidlərinin, Səttarxanların qalibiyyəti ilə gəlir» (34, 114).

İstibdadın, çarizmin yeritdiyi müstəmləkəçilik siyasətinin ifşası, İran Məşrutə inqilabının tərənnümü, İran mütləqiyyətinin zülm və cəhalətinin tənqidi, Əmir Teymurun müsəlman xalqlarını və torpaqlarını islam bayrağı altında birləşdirməsi, türk sülalələrindən Səfəvi hökmdarı Şah İsmayıl Xətainin islam ideologiyası ətrafında İran, İraq və Azərbaycan xalqlarını birləşdirərək mərkəzləşmiş dövlət yaratması, yadellilərə qarşı mübarizə aparıb İranı və Azərbaycanı əsarətdən qurtaran Azərbaycan türklərinin Əfşar tayfasından olan Nadir şah Əfşarın müsəlman ölkələri arasındakı sünni-şiə ixtilafına son qoymağa çalışması və sairəni əks etdirən «Siyasəti-fürusət» əsəri ilə Əli bəy Hüseynzadə müsəlman xalqlarını ayıltmağa, onlarda milli şüuru oyatmağa çalışmışdır. Bütün bunları nəzərə alan Əli bəy Hüseynzadə «əsərələrində müstəmləkəçi dövlətləri insanlığın ən qəddar düşməni kimi ifşa və tənqid etməklə yanaşı istiqlaliyyət və azadlıq uğrunda mübarizəyə başlamış müsəlman və türk xalqlarını vahid ideya – islam birliyi ideyası ətrafında birləşməyə çağırırdı» (34, 3).



«Türk qanlı, müsəlman etiqadlı, avropa fikirli» fədailər yetişdirmək missiyasını üzərinə götürən, islam və türk birliyi uğrunda ömrünün sonunadək mübarizə aparan», bütövlükdə islamın yaddaşına, türklüyün tarixinə çevrilən, şəxsi tərcümeyi-halı ilə Əli bəy, (Əli bəy Hüseynzadə – R.Ə.) doğrudan da, elə bir ömür yaşadı ki, bu ömür bitəndə o özü məmnun, aləm isə məğmun və pərişan oldu» (44, 448).

Əvvəlcə də deyildiyi kimi Şeyx Cəmaləddin Əfqanidən yararlanan, onu özünün mənəvi atası sayanlardan biri də məşhur türk şairi Məmməd Əmin Yurdaquldur. «Məni o (Cəmaləddin Əfqani – R.Ə.) yoğurmuşdur... Cəmaləddinin ruhu məndə (Məmməd Əmin Yurdaqulda – R.Ə.) yaşayır» (14, 110) - deyən Məmməd Əmin Yurdaqul məşhur «Qurani-Kərim» şeirini məhz Cəmaləddin Əfqanidən təsirlənərək yazmışdır. Bu şeirin məzmunu və ümumi ruhu Şeyx Cəmaləddin Əfqaninin təbliğ etdiyi ilkin İslama qayıdış fikrindən, İslami birlikdən, dinin sonradan yaranmış xurafat örtüyündən qurtulub onun əsl paklığını üzə çıxarmaqdan və bu paklıq işığında hərəkət etməyin zəruriliyindən ibarətdir.

Məmməd Əmin Yurdaqula görə Qurani-Kərim bir ana, İslam dini isə fağırları, zəifləri, məzlumları, kimsəsizləri dərin bir şəfqət və məhəbbətlə düşünən, hər öksüzə (yetimə – R.Ə.) «yavrum» deyə səsləyən, insanları bir-birinə qardaş edən, insan ağlına hər şeyi sorduran mərhəmət və ağıl dinidir. «Mən bir türkəm, dinim, cinsim uludur»- deyən şair öz türklüyü və müsəlmanlığı ilə fəxr edir. Bütün bunları isə ona məhz Şeyx Cəmaləddin Əfqani aşılamış və onun bu təsirini Məmməd Əmin Yurdaqul həmişə öz üzərində hiss etmişdir.

Şeyx Cəmaləddin Əfqaninin mütərəqqi islami ideyalarından bəhrələnənlərdən biri də türkçülüyün ideoloqu, ilk böyük türk sosioloqu, universal mütəfəkkir, Əli bəy Hüseynzadənin irəli sürdüyü «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» düsturunu «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» kimi proqram halına salan Ziya Göyalpdır. Özünün məşhur «Türkçülüyün əsasları» əsəri ilə Ziya Göyalp dildə türkçülüyün, estetik türkçülüyün, iqtisadi türkçülüyün, siyasi türkçülüyün və fəlsəfi türkçülüyün mahiyyətini şərh etmiş, türkçülüyün nəzəri əsaslarını hazırlamışdır. Ziya Göyalp başda Mustafa Kamal Atatürk olmaqla Məşrutiyət, İstiqlal savaşı, Türkiyə və Azərbaycan Cümhuriyyətinin siyasi, ictimai və mədəni həyatında rol oynayan bir çox ziyalıların düşüncələrinə istiqamət verən ən böyük fikir adamlarından biridir. Digər fəsillərdə Ziya Göyalpın Türkçülük və Müasirliklə bağlı fikir və düşüncələrini şərh etdiyimizdən burada onun İslamlaşmaqla bağlı düşüncələrindən bəhs edəcəyik.

İlk öncə onu qeyd etmək gərəkdir ki, Əli Suavi əfəndi (1839-1878) tərəfindən irəli sürülən və müdafiə olunan, çox sonra Əli bəy Hüseynzadə (1864-1942) tərəfindən yenidən gündəmə gətirilən «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» düşüncəsi Ziya Göyalpın bu məsələlərlə maraqlandığı dövrdə çox böyük mübahisələrə səbəb olmuşdu. Osmanlı imperatorluğunun ən ağır dövrlərində, istər siyasi, istərsə də ictimai məsələlərin əlverişsiz olduğu bu dönəmdə bütün mübahisələr ən kəskin xarakter alaraq az qala xeyir əvəzinə zərər gətirməyə başlamışdı. Bu mübahisələrə çox həssas yanaşan Ziya Göyalp hər şeydən öncə bu çatışmaların bir uzlaşmaya



dönməsinə səy göstərmiş və özünün məşhur «Üç akım» adlı məqaləsində qeyd etmişdi ki: «Ölkəmizdə (Osmanlı imperatorluğu nəzərdə tutulur – R.Ə.) üç düşüncə axını vardır. Bu axınların tarixi incələnəcək (tədqiq olunacaq – R.Ə.) olursa, görünər ki, düşünürlərimiz ilkin «Müasirləşmək» gərəyini duymuşdular. Üçüncü Sultan Səlim zamanında başlayan bu axıma Devrimdən (Gənc Türklər inqilabı nəzərdə tutulur – R.Ə.) sonra «İslamlaşmaq» istəyi qatıldı. Son zamanlarda ortaya bir də «Türkləşmək axımı» çıxdı... Diqqət edilərsə bu üç axımın da gerçək həqiqətlərdən doğulmuş olduğu görünər... Türklük evrendeşliyə (kosmopolitizmə – R.Ə.) qarşı İslamlıq və Osmanlılığın gerçək dayağıdır... Bir millətdə ilk olaraq din kitabları yazılır, sonra əxlaq, hüquq, ədəbiyyat, elm və fəlsəfə kimi mədəniyyət sahələri dindən ayrılaraq özlərini gerçəkləşdirdikcə bunlarla bağlı kitablar da yazılmağa başlar... Kitablar da dinin, dindən törəyən mədəniyyət və elmlərin, yəni uyqarlığın əsas qayda və qanunlarını, düsturlarını bəlli bir üslubla yazaraq xalqlar arasında ortaq olan yaşayışı və xalqlararası birlik ruhunu yaradır... Bundan dolayı türklüklə islamlıq, biri milli, o biri millətlərarası birlik mahiyyətində olduğu üçün aralarında heç bir zaman çatışma olmaz... Türkləşmək, İslamlaşmaq ideyaları arasında bir çatışma olmadığı kimi bunlarla müasirləşmək arasında da bir çatışma olmaz... Ona görə də hər birinin (Müasirləşmək, İslamlaşmaq, Türkləşmək – R.Ə.) nüfuz dairəsini müəyyənləşdirərək bu üç məqsədin üçünü də mənimsəməliyik. Daha doğrusu, bunların vacibliyinin üç ayrı nöqtədən görülmüş xətləri olduğunu anlayaraq Çağdaş bir İslam Türklüyü yaratmalıyıq» (80, 21-28).

Özündən əvvəlki istər mühafizəkar, istərsə də liberal islamçılardan fərqli olaraq «İslam həm din, həm də millətdir» kimi islamın təməl prinsiplərindən biri saydıqları «din və millət birdir» ifadəsinin əksinə olaraq Ziya Göyalp göstərirdi ki: «İslam Birliyi tərəfdarlarına görə millət, bütün müsəlmanların məcmuu deməkdir, (Halbuki – R.Ə.) eyni dində olan insanların bütününə *ümmət* adı verilir. O halda müsəlmanların bütünü də bir *ümmətdir*. Yalnız dildə və mədəniyyətdə müştərək olan millət isə bundan (ümmətdən – R.Ə.) ayrı bir şeydir. Bir zamanlar İslam birliyi məfkurəsi müsəlman xalqların istiqlala qoşulmalarını, ölkələrinin müstəmləkəçilikdən qurtulmasını təmin edən bir ideya sayılırdı. Halbuki praktik təcrübələr göstərdi ki, İslam birliyi bir tərəfdən teokratik və klerikalizm kimi geri qalmış cərəyanları doğurduğundan, digər yandan da İslam dünyasında milliyyət məfkurələrinin və milli vicdanların oyanmasına qarşı olduğundan müsəlman xalqların inkişafına əngəl olduğu kimi istiqlallarına da maneədir. Çünki İslam dünyasında milli vicdanın inkişafını dayandırmaq müsəlman xalqaların istiqlallarına əngəl olmaq deməkdir. Teokratiya və klerikalizm cərəyanları cəmiyyətlərin geridə qalmasına, hətta getdikcə geriləməsinə ən böyük səbəbdir» (79, 20,87,88).

Ziya Göyalp dinə bağlı olan millətlərarası birliklərin əvəzinə elmə dayanan gerçək bir millətlərarası birliyin vacibliyindən bəhs edir və göstərirdi ki: «Müəyyən müddətdən bəri müasir alətlərlə texnikanın inkişafından doğan müasir mədəniyyət pozitiv elmlərə dayanan yeni bir millətlərarası birlik yaratmaqdadır... Yəni bu gün



türk xalqı Ural-Altay ailəsinə, islam inancına, Avropa millətlərarası birliyinə bağlı bir toplumdur» (80, 28-29).

Göründüyü kimi, Ziya Göyalpın millət anlayışı istər tənzimatçıların, istər osmanlıçıların, istər İslam birliyi tərəfdarlarının millət anlayışından əsaslı şəkildə fərqlənərək daha çox Şeyx Cəmaləddin Əfqaninin, Əhməd bəy Ağaoğlunun, Yusuf Akçuraoğlunun fikirləri ilə eyniyyət təşkil edir. Öz tədqiqatlarına fəlsəfi yöndən yanaşan Ziya Göyalp göstərirdi ki, Türkçülük ideologiyasının təməl prinsiplərindən olan İslamlaşmaq iki baxımdan gərəklidir: birincisi, İslam mədəniyyəti ilə çulğalaşmış Türk toplumunu bu mədəniyyətdən təcrid etmək lazım deyil və heç mümkün də deyil. İkincisi, millətin millət olmasında dinin də öz xüsusi yeri var. Ona görə də Ziya Göyalp öz müəllimi Şeyx Cəmaləddinin islami görüşlərinə sadiq qalaraq göstərirdi ki: «Türkçülərin məqsədi çağdaş bir İslam türkçülüyüdür... Ona görə də türkçülərin ayrıca bir dini proqramları da olmalı və başlıca ideyaları da aşağıdakılar olmalıdır:

1. Bütün İslam xalqları arasında ortaq olan ərəb hərflərini dəyişdirmədən işlətmək;

2. Bütün İslam xalqlarında elmi terminlərin ortaq bir duruma gətirilməsi üçün İslama inananlar arasında terminlərlə bağlı qurultaylar təşkil etmək və terminləri türkcə, ərəbcədən və bir qismini də farscadan ibarət yapmaq (80, 57-58). (Bir məsələni burada qeyd etməyi lazım bilirik ki, bu bənddə irəli sürülən məsələnin gerçəkləşməsi üçün Parisdə Türk, Ərəb, Fars və Hind tələbələr arasında bir razılaşma olmuşdu – R.Ə.).

3. Bütün İslam xalqları arasında ortaq bir təlim-tərbiyə və tədrisin gerçəkləşdirilməsi üçün qurultaylar keçirmək;

4. Bütün İslam xalqlarının müfti (hüquqşünaslar – R.Ə.) təşkilatları arasında daimi bağlantı yaratmaq;

5. İslam xalqlarının inam qaynaqlarının müqəddəsliyini qorumaq; (80, 57-58).

Ziya Göyalp göstərirdi ki, türklərin hamısı müsəlman olduğu üçün türkçülər heç bir zaman islam dininə zidd olan heç bir duyğu bəsləməyərək, müasirliyi qəbul etdikləri üçün də müsəlman olmayan xalqlara saygı ilə yanaşmağı qoruyub saxlayacaqlar.

Göyalp öz müəllimi Dürkheymə əsaslanaraq göstərirdi ki, əxlaq, hüquq, siyasət, məntiq, estetika, iqtisadiyyat kimi qurumların hamısı dindən törəmişdir. Bu anlamda islam dini bir islam türk tarix fəlsəfəsi də meydana gətirmişdir ki, Orta əsr bütün türk dövlətləri bu fəlsəfəyə biganə yanaşdıqlarından türklüyün xeyrinə istifadə etməmişlər. «Millətçilik duyğusunun olmaması sonda türkləri və bütün müsəlman xalqlarını gətirib bu vəziyyətə salmışdır» - deyən Ziya Göyalp göstərirdi ki: «Bütün müsəlmanların uzaq bir gələcəkdə siyasi bir birlik quracaqları bəlkə də mümkündür. Fəqət hər halda bu məqsədin uzun bir sürə mümkünsüz olacağına şübhə yoxdur. Elə isə bu uzun zaman içərisində İslam xalqları milli oyanış, milli düşüncə, heç olmasa, milli müstəqilliklərini qorumaqdan yoxsulmu qalsınlar?... İslam aləminin son ümidi olan Osmanlı dövlətini yüz ildən bəri parçalayan mənəvi bir mikrob var. Bu mikrob indiyə qədər Osmanlılığın düşməni idi və İslamlığa böyük zərərlər verdi. Fəqət bu gün artıq İslamların lehinə dönərək etdiyi zərərləri ödəməyə çalışır. Bu mikrob *milliyyətçilik* düşüncəsidir... *Milliyyətçilik* düşüncəsi İslamlığın əleyhinə nə mümkündürsə, etdi. Artıq bu silahın (milliyyətçiliyin – R.Ə.) işlədilməsinin sırası İslam aləminə gəldi... Çünki *milliyyətçilik* düşüncəsi müstəmləkə bir xalqın əsarətdən qurtulması üçün işlədilən bir silahdır. Artıq İslam dövlətlərinin hakimiyyəti altında müsəlman olmayan xalqlar qalmadı. Halbuki bu gün müsəlman xalqların çoxu müstəmləkə və əsarətdədir. Müsəlman xalqları arasında isə hökmranlıq və müstəmləkəçilik ələqələri olmadığı üçün *milliyyətçilik* düşüncəsi güc qazandıqca İslamlaşmaq düşüncəsi var olan mədəniyyəti möhkəmləndirəcək və sağlamlaşdıracaqdır» (80, 92-93,89-90).

Ziya Göyalpın üç cərəyanı – Türkləşmək, İslamlaşmaq, Müasirləşmək – birləşdirmək fikri ittihad və tərəqqiçilərin izlədiyi siyasətə uyğun gəldiyindən tezliklə bütün Türk dünyasına yayılmış, özünə çoxlu tərəfdarlar qazanmışdı. İslamlaşmaq tezisi «bir tərəfdən dövrün hadisələrini getdikcə daha gerçəkçi bir yöndən açıqladığından türkləşməklə bir birləşmə nöqtəsi bulmağa səy göstərilmiş», digər tərəfdən də «İslami gerçəklərin ən parlaq bir şəkildə təzahür etməsinə» yol açmış, bütövlükdə türklüyə xidmət etmişdir (71, 4).

«Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» ideoloji sistemini qəbul edən və onu dövlət ideologiyası səviyyəsinə qaldıran siyasi xadimlərimizdən biri də Məmməd Əmin Rəsulzadədir. M.Ə.Rəsulzadə ali təhsil almamağına baxmayaraq şəxsi mütaliə yolu ilə dünya xalqlarının ədəbiyyatına, tarixinə, fəlsəfəsinə dərindən bələd olmuş, poetik, dramaturji yaradıcılıqla, tərcüməçilik fəaliyyəti və publisistika ilə məşğul olmuş, 1909-cu ildə siyasi fəa-

liyyəti ilə əlaqədar olaraq Bakıdan çıxarılmış, Tehranda fars dilində Seyid Hüseyn Tağızadə ilə birlikdə Avropa tipli «İrani-Nov» adlı qəzet nəşr etmiş, 1911-ci ildə İstanbula gələrək «Türk yurdu» cəmiyyətinə daxil olmuş, 1913-cü ildə yenidən Bakıya qayıdaraq «İqbal», «Şəlalə», «Bəsirət», «Dirilik» və s. mətbuat orqanlarında ictimai-siyasi, mədəni, milli və s. problemlərlə bağlı məqalələr dərc etdirmiş, 1915-ci ildə «Açıq söz» qəzetini nəşr etdirmiş, 1913-cü ildən «Müsavat» partiyasına rəhbərlik etmiş, daha sonra Azərbaycan «Milli Şura»sının sədri, Azərbaycan Xalq Cümhuriyyətinin başçısı olmuşdur.

Bəllidir ki, Azərbaycanda milli azadlıq hərəkatı ilk öncə ümmətçiliklə başlamış və ilk siyasi təşkilat da «Ümmət» adlanmışdır. Hətta o dövrlərdə millətimizə «türk» deyil, «müsəlman», dilimizə «türk dili» deyil, «müsəlman dili», hətta cəmiyyət və məktəblərimizə belə «Müsəlman Cəmiyyətləri, Müsəlman məktəbləri» deyilmişdir. İlk dəfə siyasi-ideoloji anlamda millət və milli dil anlayışlarını siyasi publisistikaya milliyyətçi türklər gətirmişlər. «Türk yurdu» cəmiyyətinə daxil olan, Şeyx Cəmaləddin Əfqaninin «Vəhdəti-cinsiyyə»...» fəlsəfi traktatını türkcəyə tərcümə edən Məmməd Əmin Rəsulzadə türk millətçilərindən «Türklüyü» əxz edərək «Açıq söz» qəzetində ilk dəfə olaraq «müsəlman» və «tatar» sözlərini «türk» sözü ilə əvəz edərək «millətə: Sən Türksən!, rus hökumətinə isə: Biz Türkük! – deyə xitab etdi. Bu sürətlə Məmməd Əmin Rəsulzadə «ümmət» və «ümmətçilik» dövrünü rəsmən qapatmış, «millət», «türk» millətçiliyi» dövrünün başlandığını elan etmişdir» (35, 52). Bütün bunlara baxmayaraq, Bakıda ruhani ailəsində anadan olan, Şərq fəlsəfəsinə dərindən bələd olan, ideoloji baxımdan ilk əvvəllər sosial-demokrat olan Məmməd Əmin Rəsulzadənin islam dininə baxışı milliyyətçilərlə eyniyyət təşkil edir. O, İslam birliyi tərəfdarlarının, xüsusilə ittihad və tərəqqiçilərin arasında olsa da dini və milli mənada İslam birliyi ideyasını qəbul etməmiş və göstərmişdi ki: «Müştərək din və mədəniyyət sahibi olan millətlər arasında, dolayısı ilə *müsəlmanlar arasında bütün müsəlmanları bir məkanda* birləşdirən «İttihadi-İslam» (İslam Birliyi – R.Ə.) ola bilməz. İslam Birliyi mümkün olmayacaq bir xəyal, bir utopiyadır» (61).

Məmməd Əmin Rəsulzadə də Cəmaləddin Əfqani kimi İslam Birliyinin Federasiya formasını qəbul edir və hətta buna inanaraq yazırdı ki: «Bütün türklərin, bütün ərəblərin, bütün farsların ictimai bir vücud kimi birləşmələri mümkün, həm də istənilən bir haldır. Müsəlman olan millətlər... bir hökumət halına gəldikdən sonra ittihad deyil, İslam İttifaqı ola bilər» (45, 148).

Məmməd Əmin Rəsulzadənin din, dil və millət haqqındakı fikir və mülahizələri Cəmaləddin Əfqani və digər türk milliyyətçiləri ilə eyniyyət təşkil edir. Lakin qeyd etmək gərəkdir ki, ictimai-fəlsəfi fikir tariximizdə millət, milliyyət, dil, din, əxlaq, mənəviyyat kimi milli ideologiyamızın əsasını təşkil edən amilləri heç kim M.Ə.Rəsulzadə kimi sistemli şəkildə işləməmişdir. Onun 1914-cü ildə «Dirilik»də çap etdirdiyi «Dirilik nədir?», «Milli dirilik», «Millətin bir rüknü də dindir» adlı silsilə yazıları bütünlüklə bu məsələlərə həsr edilmiş, daha sonra 1915-ci ilin oktyabrından nəşrə başlayan «Açıq söz» qəzetindəki əksər yazıları «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» məfkurələrinin mahiyyətini açıqlamağa həsr edilmişdir. Öz sələfləri kimi İslam dinində is-

lahat tərəfdarı olan M.Ə.Rəsulzadə göstərirdi ki: «Dinimizin (İslam dininin – R.Ə.) iki cənbəsi (tərəfi – R.Ə.) vardır: ibadət və üsul. Birinci qisim (ibadət - R.Ə.) bəndə ilə Allaha aiddir. İkinci qisim isə bəndə ilə bəndələrə məxsusdur. Birinci qisim sabitdir. Qiyamətə qədər əbədidir. Dəyişikliyə uğramaz, ikinci qisim isə əksinə, bir şəkildə qala bilməz. Təfsir və zamanın tələbinə görə dəyişilə bilər. Bu nöqteyi-nəzərdən şəxsi təfəkkürün qapısı bağlana bilməz. Şəxsi düşüncə millətlərin ictimai həyatlarında daima möhtac olduqları zəruri bir şeydir. Çünki həyat gün-gündən dəyişir. Şəxsi düşüncə də tərəqqi etməlidir. Müctəhidləri tənqid etmək mümkündür. Qayda-qanunlara, üsullara aid xüsusiyyətlər hər zaman dəyişə bilir və dəyişməlidir... Müsəlman aləmini bərbad edən ən böyük xəstəliklərdən biri də ayr-ayrı fikirlərə hürriyyət verməriyi, yeni fikir və düşüncələri eşitməyə dözümsüzlüyüdür. Bizdə yeni bir fikir meydana qoyuldumu həmən arı yuvasına çöp uzadılan kimi hamısı yerindən qalxar, hay qoymayın – deyə səs-küy qopar: Bu dinə xilaf oldu, o mövcud olan əsaslara qarşı çıxdı, o biri kafir oldu, digəri bilməm nə oldu – deyə hücum olunar. Nəticədə isə zərər görən həqiqət olar ki, bunun da sonunda həqiqətdən məhrum qalan camaat cəzasını çəkər. Halbuki fikirlərin mübahisəsindən həqiqət qığılcımı doğular» (62).

Milli birlik üçün dinin rolunu yüksək qiymətləndirən M.Ə.Rəsulzadə göstərirdi ki: «Din hər nə qədər dildən sonra gələn bir amil isə də bəzi şərait daxilində ondan (dildən – R.Ə.) daha təsirli bir qüvvə şəklini də ala bilər... Din bir millətin dilinin əbədi qalmasına və bu münasibətlə milliyyət fikri və amalının inkişafına səbəb olur... Millətin bir ... dövrü vardır ki, o zaman hər şeyə



ancaq dini bir qüdsiyyət nöqteyi-nəzərindən əhəmiyyət verir. Bu qüdsiyyəti-diniyyə etiqadı onu (milləti- R.Ə.) bir çox bəlalardan mühafizə etmək xassəsinə malikdir... Din təəssübü olmasaydı, ehtimal ki, pobedonosevçilərin təmsil etdikləri politikası indiki natamam nəticələrə deyil, daha parlaq müvəffəqiyyətlərə nail olacaqdı» (63).

Məmməd Əmin Rəsulzadə də digər Azərbaycan maarifçiləri kimi Tanrı ilə yanaşı etiqadı da qəbul edir, dini fanatizmə, xurafata qarşı mübarizədə əsl, həqiqi dinin öz müqəddəs silahı olan Quranla silahlanmağı məsləhət bilir və bu işdə də öz orijinal fikir və mülahizələrini irəli sürərək göstərirdi ki: «Qurani-Kərimin müxtəlif İslam qövmlərinin dillərinə tərcümə edilməməsi, xüsusilə dini ayinlərin ərəbcə icra olunması islamiyyəti bir qədər milli istiqlaldan, ən başlıcası milli dil azadlığına yardım etmək xüsusiyyətindən məhrum etmişdir...Bir türk ilə fars öz dilindən daha çox ərəbcəyə əhəmiyyət vermiş, ərəbcəni müqəddəs sanmış, ona (ərəb dilinə – R.Ə.) ehtiram eləmiş, bununla da öz dilini, yazısını unutmuş, tam ərəbləşmişdir. Ərəb təhsili bu cəhətdən daha çox istifadə etmiş, islamı qəbul edən millətlər ərəbləşməyə üz tutmuşlar. Fars və türk alim və ziyalılarının ən sayılanları dünyaca məşhur olan əsərlərini ərəbcə yazmışlardı... Quranın başqa dillərə tərcümə olunmaması ərəb olmayan millətlər arasında əxlaq nöqteyi-nəzərindən bir çox ağır nəticələr verdi. Xalq dua və sənalarda bulunarkən lazımdır ki, dua əsnasında söylədikləri ilahi sözlərdən bir şey anlayıb da qəlbi ilə hərəkəti birləşsin və özündə böyük bir səmimiyyət görə bilsin. Halbuki belə ola bilmədi. Təbiətlə işin arasına bir məchulluq və bir güman, sonra da xurafat daxil oldu... Din və onun ehkamları anlaşılmaz

bir hala gələrsə, verəcəyi faydanı təmin edə bilməz, ruhsuz olar, məişətdən uzaqlaşar. Eləcə də islam dini bir məişət və həyat dini olaraq təsis edildiyi halda onun daşıyıcıları ilə öz arasına bir məchuliyyət girdi. Bunun nəticəsində də islam həyatında və İslam həyatı ilə yaşamaq gümanında olanlar əsl islamdan uzaqlaşdılar. *Bunun üçün də müxtəlif islam millətlərindən olan islam* mütəfəkkirləri arasında islam deyə tanınan şeyin islaha möhtac olduğunu düşünənlər gündən-günə çoxalırlar. Şübhəsiz bu yolda bir islah lazımdır. Belə bir islah vücuda gəlməyincə islam millətləri düçar olduqları ətalətdən çətin ki çıxsınlar. Bu islah həm İslamın ümumi mənfəətini, həm də İslam millətlərinin xüsusi faydasına yarıyar. İslah olunmuş, ilahi əsaslarla icra olunmuş, cəfəng və artıq şeylərdən qurtarıb ictimai və milli əsaslara mane olmayacaq fəlsəfi bir hala qaytarılmış islam dini o vaxt qüvvətli bir tərəqqi amili və eyni zamanda da islam millətlərinin milliyyət və mədəniyyətlərinə xidmət edən mühüm bir mühərrik olacaqdır... Bu da ancaq başqa xüsusiyyətlərin islahı ilə bərabər Qurani-Şərif ilə başlıca dua və ibadətlərin türkcəyə tərcümə olunub xalqın ruh və qəlbinə qida verəcək bir sürətə qoyulması ilə hasil ola bilər» (63).

Məmməd Əmin Rəsulzadənin və bütövlükdə mütərəqqi Azərbaycan maarifçiliyinin «İslamlaşmaq» tezisi hər şeydən əvvəl xurafatdan azad olan ali ilahi təlim idi. Bu təlim hər şeydən əvvəl, ortodoks dini ideologiyaya, mövhumata və xurafata qarşı çıxa bilmənin də optimal forması idi. Məhz bu baxımdan Şeyx Cəmaləddin Əfqani tərəfindən irəli sürülən və Türk dünyasının ictimai-siyasi xadimləri tərəfindən ideoloji-fəlsəfi və hətta dövlət



siyasəti səviyyəsinə qaldırılan «İslamlaşmaq» dini müasirləşdirmək, dində islahat ideyasını irəli sürmək o dövrdə böyük cəsarət, dərin elm tələb edirdi. Xurafat və mövhumatı həqiqi dindən fərqləndirmək, islama əsaslanan maarifçiliklə axundların, mollaların korladığı islama qarşı çıxmaq, elmi dinlə, dini müasirliklə və milliyyətçiliklə birləşdirə bilməklə onlar yaşadıqları cəmiyyəti müasirləşdirmək üçün Quranın cəmiyyətdəki böyük təsir gücündən bacarıqla istifadə edərək belə bir mükəmməl təlimi meydana gətirə bildilər. Şeyx Cəmaləddin Əfqaninin «Dində, əqidədə birlik», İsmayıl Bəy Qaspıralının «Dildə, fikirdə, işdə birlik», Əli bəy Hüseynzadənin «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq», Məmməd Əmin Rəsulzadənin «Milliyyət, Beynəlmiləliyyət, Əsriyyət» ideyaları, nəhayət, 1918-ci ildə Şərqdə, ilk dəfə Azərbaycanda öz bəhrəsini verdi. Azərbaycan Xalq Cümhuriyyəti bu ideoloji sistem əsasında yarandı. Azərbaycan Xalq Cümhuriyyətinin, bütövlükdə Türk dünyasının qəbul etdiyi və rəhbər tutduğu bu mənəvi meyarlar – İslam, Türk və Müasirlik dəyərləri ilk dəfə olaraq rəsmi-ideoloji doktrina, dövlət siyasəti səviyyəsində əməl, iş proqramı kimi elan və qəbul olundu. Üçrəngli rəsmi dövlət bayrağı bu ideoloji sistemi özündə əks etdirdi. Azərbaycanın milli istiqlalını, ərazi bütövlüyünü, Respublika statusu üçün potensial tarixi əsasını, inzibati və siyasi modelini də bu ideoloji doktrina bəxş etdi. O həmçinin xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, təzahürü və yüksəlişi üçün fəlsəfi-estetik təməlini, nəzəri əsasını, milli tərəqqi təlimi və konsepsiyasını verdi. Bu ideoloji doktrina türklüyün ilk öncə Osmanlı imperatorluğu və

çar Rusiyasında, daha sonra isə Türkiyə və Sovet İttifaqında yenidən mərkəzləşib, yeni keyfiyyət qazanmasına səbəb oldu. 1923-cü ildə yaranan Türkiyə Respublikası, 1991-ci ildə isə yaradılan Müstəqil Azərbaycan Respublikası yenidən bu ideoloji sistemə sahib çıxdı.



# III FƏSİL

## *TÜRKÇÜLÜK: TARİXİ, MAHİYYƏTİ*

Türkçülük bütün Türk dünyasında ilk dəfə olaraq əsaslı şəkildə XX əsrin əvvəllərində işlənərək ideologiya səviyyəsinə qaldırıldı.

Türkçülüyə ilk tarixi xidmət, türk milliyyətçiliyini canlandırmaq türkoloqların adı ilə bağlıdır. Türkoloqların yaratdığı və türkologiya adlanan bu elm sahəsinin təsbit etdiyi dünya türklərinin tarix, dil və mədəniyyət birliyi ideyası türklərin ictimai və siyasi müqəddəratının həllində mühüm rol oynadı. Belə ki, Osmanlı imperatorluğunun əvvəlki əzəmətini itirməsi, Nadir şahın ölümü ilə Azərbaycanın xanlıqlara bölünməsi, Osmanlı imperatorluğunun tərkibinə daxil olan xristianların Qərbi Avropa və çar Rusiyasının himayəsi və yardımı ilə öz müstəqilliklərini əldə etməsi, çar Rusiyasının Azərbaycanın Şimalını işğal edərək öz imperiyasına qatması, Avropa və çar Rusiyasında yeni bir elm sahəsinin – türkologiyanın yaranmasına səbəb oldu. Türkologiya elminin yaranması tarixə yeni bir baxış yaratdı və türklərin islamiyyətdən öncəki tarixləri sanki yenidən kəşf edildi. Qədim hunların, göytürklərin və uyğurların böyük dövlət və mədəniyyətlərinə aid tarixi əsərlərin, göytürk kitabələrinin, Mahmud Qaşqarlımn «Divanü Lüğət-it-Türkü», Yusif Xas Hacib Balasağunlunun «Qudatqu Bilik» əsərlərinin əldə edilməsi və nəşri türk ziyalılarına mühüm təsir etdi və onların özlərinə inamını artırdı.

Daha sonra Süleyman paşanın «Tarixi-Aləm», Buxaralı Şeyx Süleyman əfəndinin «Lüğəti-Cağatay və Türkiyi

Osmanlı» əsərləri, J.de Guignesin «Hunların, Türklərin, Monğolların və digər Tatarların Tarixi - Ümumisi» adı ilə türkcəyə tərcümə edilən əsəri, Artur Zumneu Davidçinin «Türk dilinin qrameri», Leon Cahunun «Asya tarixinə giriş: Türklər, Moğollar və onların mənşəyi» adlı əsərinin Nəcib Asim bəy tərəfindən əlavələrlə nəşri, Radlov, Tomson, Vamberi, von Loçoq və başqalarının araşdırmaları türk ziyalıları arasında tarixi və milli şüurun formalaşmasında mühüm rol oynadı. Xüsusilə Macar türkoloqlarının işləri türk ziyalılarında türk milli şüuru ilə yanaşı romantik bir Turan şüuru da yaratdı.

Süleyman paşa «Tarixi - Aləm» (Dünya Tarixi) adlı əsərinin başlanğıcında qeyd edir ki: «Hərbi məktəblərin başına keçincə bu məktəblərə lazım olan kitabların tərcüməsini mütəxəssislərə tapşırdım. Fəqət sıra tarixə gəlincə, bunu tərcümə yolu ilə yazdırıla bilməyəcəyimi düşündüm, çünki Avropada yazılan bütün tarix kitabları həm dinimizə, həm də millətimizə (Türklərə) aid iftiralarla doludur. Bu kitablardan heç birini tərcümə etdirib məktəblərimizdə oxutdurmaq olmaz. Ona görə də məktəblərimizdə oxunacaq tarix kitabının yazılması işini mən öz üzərimə götürdüm. Yazıb tamamladığım bu kitabda («Dünya Tarixi»ndə) həqiqətə uyğun olmayan heç bir sözə təsadüf olunmadığı kimi, dinimizə və millətimizə zidd heç bir sözə də rast gəlmək mümkün deyil» (79, 8).

Tarix fəlsəfəsi professoru Əhməd Vəfik paşanın universitetdəki elmi və sənət türkçülüyünü Süleyman Paşa hərbi məktəblərdə yaratdı. Bundan əlavə, Süleyman Paşa o dövrdə «Təlimi – Ədəbiyyat-i Osmaniyyə» adlı bir kitab nəşr edən Rəcaizadə Əkrəm bəyə yazdığı bir məktubda: «Osmanlı ədəbiyyatı demək, doğru deyildir. Necə ki, dilimizə «Osmanlı



dili» və millətimizə «Osmanlı milləti» demək də yanlışdır. Çünki «Osmanlı» təbiri yalnız dövlətimizin adıdır. Millətimizin adı isə yalnız Türkdür. Buna görə dili də Türk dilidir, ədəbiyyatımız da Türk ədəbiyyatıdır» (79, 9) - deyərək «türkçülük» məfkurəsinin yaradıcılarından oldu.

İlk öncə macarlar tərəfindən işlədilən «Turançılıq» siyasi mənası ilə türk mənşəli bütün xalqların Türkiyənin hakimiyyəti və ya himayəsi altında birləşmələri və siyasi bir birlik qurmaları kimi təqdim edilirdi. «Turançılığı» başqa bir adla, «pantürkizm» adı ilə təqdim edərək onu «panslavyanizm» və «pangermanizm» ilə eyniləşdirməyə çalışırdılar. Siyasi mənada türkçülüyü ilk dəfə olaraq ingilislər «panturanizm» kimi təqdim etmişlər. Türklərin Cənubi Azərbaycana girmələri, Qafqazda, Rusiya ərazisində, Orta Asiyada müsəlman türkləri hərəkətə gətirmələri və nəhayət türkçülük cərəyanının Əfqanıstana və Hindistanın şimalına qədər yayılma ehtimalını nəzərə alan ingilis ziyalı dairəsini türk xalqları və türkçülük cərəyanları ilə məşğul olmağa sövq etmiş və onlar tərəfindən «pantürkizm» adı altında raportlar hazırlanmış, məqalələr çap edilmiş və əlaqədar təşkilatlara təqdim edilmişdi. Beləliklə, əzilməyə məhkum edilmiş türk xalqlarını əsarətdən xilas etmək məqsədi ilə ortaya çıxan türkçülük ideologiyası türk düşmənləri tərəfindən «pantürkizm» və «panturanizm» kimi qələmə verilmiş, türklərin yenidən tarix səhnəsində söz sahibi olmasının qarşısı alınmağa çalışılmışdı. Və etiraf edilməlidir ki, türk düşmənləri buna qismən nail olmuşlar.

Siyasi və hərbi hadisələrin bir-birini sürətlə təqib etdiyi XX əsrin əvvəllərindən etibarən türkçülük ideologiyası həqiqətən də türkləri «turançılığa» çatdıracaqdı. Çünki bu cərəyan yalnz Türkiyədə deyil, çar Rusiyasında və Cənubi

Azərbaycanda da artıq yayılmış, özünə lazımi səviyyədə tərəfdarlar qazanmışdı.

Türkçülük dünyagörüşünün bəzi əsasları Azərbaycanda hələ XIX əsrin ikinci yarısından Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi, Krımda İsmayıl bəy Qaspıralı tərəfindən təsbit edilmiş və tətbiqinə başlanmışdı.

Mirzə Fətəli Axundovun fəlsəfi dünyagörüşü, sosial-siyasi, etik və estetik idealları, ədəbi-tənqidi görüşləri, dram əsərləri özündən sonra böyük bir mədəni-ideoloji hərəkatın yaranmasında, Azərbaycanda və bütövlükdə türk dünyasında qərb yönlü maarifçilik ordusunun təşəkkül tapmasında mühüm rol oynamışdır. Axundovun dünyagörüşünü hər yönlü tədqiq edən, onun Azərbaycan və ümumən Yaxın Şərq ictimai fikri tarixindəki rolunu qiymətləndirən mərhum akademik F.Köçərli yazır: «Axundovun dünyagörüşündə sosial fəlsəfə məsələləri mərkəzi yer tutur. Onun bütün bədii, ictimai-siyasi, fəlsəfi və ədəbi-tənqidi fəaliyyəti böyük bir məqsədə – doğma xalqının azadlığı, tərəqqisi və səadəti uğrunda mübarizəyə, mütəfəkkirin öz sözləri ilə desək, həmvətənlərini «qaranlıqdan işığa, tərəqqi və sivilizasiya yoluna» çıxarmaq məqsədinə yönəlmişdir. Axundov fəlsəfi fəaliyyəti ilə ilk növbədə xalqının azadlıq hərəkatını nəzəri cəhətdən əsaslandırmağa çalışmış, milli maarifçiliyin mühüm nəzəri müddəalarını hazırlamışdır» (40, 56).

Təbiidir ki, siyasi anlamda M.F.Axundovu türkçü adlandırmaq olmaz. Lakin onun milli mədəniyyətimizin iftixarı olması, yaşadığı dövrün tələblərini, nəbzini duyması, mədəniyyətimizin bir çox sahələrində yeni söz deməsi, yeni yol açması, ictimai-siyasi fikrimizin formalaşmasında müstəsna xidmətləri onu türklər arasında milli mədəni birliyin ilk yaradıcılarından biri səviyyəsinə yüksəltmişdir. Elə bunun



nəticəsidir ki, özündən sonrakı bütün milli ziyalılar, türkçülük ideyalarının daşıyıcıları onu ilk türkçülərdən saymış, ondan iftixarla bəhs etmişlər. Ən böyük türkçülərdən sayılan Ziya Göyalp yazır: «Türkiyədə Əbdülhəmid bu qüdsi axını (türkçülük nəzərdə tutulur – R.Ə.) durdurmağa çalışarkən Rusiyada iki böyük türkçü yetişirdi. Bunlardan birincisi Mirzə Fətəli Axundzadədir ki, azəri türkcəsində yazdığı orijinal komediyalar bütün Avropa dillərinə tərcümə edilmişdir» (79, 9).

M.F.Axundov türkçülük ideoloji sisteminin birinci türkləşmək və üçüncü müasirləşmək sütununu əsas götürmüş, ikinci – islamlaşmaq ideologiyasını nəinki qəbul etmiş, hətta bir materialist-ateist kimi «bütün dinləri puç və əfsanə hesab etmiş»di. Müasirləşməyi həyatının qayəsi hesab edən «Axundovun dünyagörüşü maarifçilikdən demokratik respublika ideyasına qədər yüksəlmişdir. O, bütün yaradıcılığı boyu tərəqqi, azadlıq, sosial ədalət ideyalarını hərarətlə müdafiə etmiş və göstərmişdir ki, maarifin, elmlərin inkişafı tərəqqinin mühüm şərtlərindəndir. Buna isə fikir, əqidə, düşüncə azadlığı olan demokratik cəmiyyətlərdə çatmaq mümkündür» (40, 56).

Daha əvvəl də bildirdiyimiz kimi bu mütəfəkkir ilk dəfə olaraq Azərbaycan ictimai fikrinə demokratiya, konstitusiya, despot, sivilizasyon, fanatik, revolyusiya, tərəqqi, patriot, politika, liberal, parlament və s. kimi söz və anlayışlar gətirmiş, onların izahını vermişdir. O, Qərbi Avropa filosoflarının fikir və düşüncələrini, mədəni xalqların elmi-texniki nailiyyətlərini yüksək qiymətləndirərək yazırdı: «Avropanın başqa millətləri, xüsusən ingilis, fransa, Yeni dünya (Amerika nəzərdə tutulur – R.Ə.) millətləri... elm və sənayedə günbəgün, saatbasaat tərəqqi etməkdədirlər. Onların elmləri sayəsində

dünyada qəribə ixtiralar və insan övladının xoşbəxtlik və asayişinə səbəb olan maraqlı yeniliklər meydana gəlmiş, elm və mərifət vasitəsi ilə Avropa əhalisi inkişaf etmişdir» (7, 220).

Azərbaycan xalqı XIX əsrdə özünəməxsus bir milli inkişaf dövrü keçirmişdir. Bu dövrün ən xarakterik cəhəti maaarifçilik ideyasının mədəni-ideoloji hərəkat kimi meydana çıxmasıdır. İlk öncə öz millətdaşlarının istismarını təbii qəbul edən xalq, yadellinin, dili dilindən, dini dinindən, mədəniyyəti mədəniyyətindən fərqli bir millətin istismarını həzm edə bilməzdi. Ölkənin işğalı, xalqın hər an təhqirlərə məruz qalması, xalqın bütün fərdlərinə imperiyanın üçüncü dərəcəli təbəəsi kimi yanaşılması, xüsusilə, əsrlərlə formalaşmış, Azərbaycan aristokratiyası olan bəyliyin çar Rusiyası tərəfindən bütün imtiyazlarının əlindən alınması milli şüurda bir oyanış yaratdı. Özündən əvvəlki əsrlərdə barmaqla sayılan milli ziyalılar artıq XIX əsrdə sanki bir ordunu xatırladırdı. Vahid bir xalqın iki hissəyə bölünməsi və bir-birindən fərqli sosial-iqtisadi, siyasi və mədəni inkişaf yoluna düşməsi tarixi ədalətsizlik, eyni zamanda böyük faciələr yaratdı: vahid xalqın tarixində bir-birindən kəskin fərqlənən iki inkişaf yolu başlandı. Cənubi Azərbaycandan fərqli olaraq Şimali Azərbaycanda dünya mədəniyyəti ilə tanışlıq milli şüurun formalaşmasında mühüm rol oynadı. Belə ki, Azərbaycan ziyalılarının qarşısında milli dil, tarixi keçmişə maraq, milli ləyaqət hissi, milli özünüdərk, Vətən və vətənpərvərlik, xalqın taleyi və gələcəyi məsələləri mədəni-tarixi tərəqqinin ən aktual problemləri kimi dayandı. Maarifçilik ideyaları mənəvi mədəniyyətin bütün sahələrinin – dil, ədəbiyyat incəsənət, əxlaq və s. inkişafına yeni istiqamət verdi. Bu dövrdə yetişən Azərbaycan ziyalıları, xüsusilə Mirzə Adıgözəl bəy, Mirzə Camal Cavanşir Qarabağlı, Əhməd Cavanşir, Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, Mirzə Kazım bəy, Mirzə Cəfər Topçubaşov, Mirzə Fətəli Axundov, Qasım bəy Zakir, Həsən bəy Zərdabi, İsmayıl bəy Qutqaşınlı və başqaları Azərbaycan elmi, bədii fikri tarixində əvəzsiz xidmət göstərdi, silinməz izlər buraxdılar. Bu mütəfəkkirlərin səyi nəticəsində Qərbi Avropa demokratik fikrinin ilk sədaları Azərbaycanda eşidilməyə başlandı, azadlıq, bərabərlik, qardaşlıq, demokratiya anlayışları ana dilli ədəbiyyata gətirildi, zehinləri düşündürməyə başladı. Xüsusilə XIX əsrin 30-40-cı illərində Azərbaycanın müxtəlif əyalətlərində dünyəvi məktəblərin açılması, «ana dilində tədris ümummilli mədəniyyətin qərarlaşması üçün zəmin oldu... dünyəvi məktəblərdə Azərbaycan dili (oxu: Azərbaycan türkcəsi – R.Ə.) ilk dəfə xüsusi fənn kimi tədris edilməyə başladı» (40, 8).



M.F.Axundovla yanaşı ensiklopedik biliyə malik olan Abbasqulu ağa Bakıxanovun çoxcəhətli elmi-bədii yaradıcılığı, onun astronomiya, tarix, coğrafiya və başqa elm sahələrinə aid əsərləri xalqımızın vətənpərvərlik şüurunun, milli özünüdərkinin təşəkkülündə mühüm rol oynamışdır. O, «dövrünün elmi biliklərini yaymış və cəsarətli elmi fəaliyyəti ilə obyektiv olaraq *xalqının mənəvi inkişafına, siyasi və iqtisadi* azadlığı işinə öz hədiyyəsini vermiş, demokratik mədəniyyət ənənələrinin bünövrəsinin qoyulmasında iştirak etmişdir» (40, 10).

Bakıxanov xalqımızın tarixini yazıb-yaratmaqla, onun öz keçmişini dərk etmək hüququnu təsdiq etdi, xalqın milli şüurunun təşəkkülünə kömək göstərdi.

Ümumiyyətlə, XIX əsrdə yetişən Azərbaycan ziyalılarının hər biri dünyagörüşlərinin, istedadlarının dərəcəsindən asılı olaraq həyatı bu və ya digər dərəcədə əks etdirsələr də,

onların hamısını bir əməl düşündürmüşdür – xalqa xidmət. Bu anlamda xalqa xidmətdə Həsən bəy Zərdabinin xüsusi yeri və çəkisi var. Azərbaycan xalqının mənəvi mədəniyyəti tarixinə şərəfli səhifələr yazmış, Azərbaycan elmi-fəlsəfi, ictimai-siyasi, ədəbi-bədii fikrinin, demokratik maarifçilik ideyalarının carçısı olmuş, ictimai zülm və bərabərsizliyə, orta əsr feodal geriliyinə, mövhumat və xurafata qarşı fəal və barışmaz mübarizə aparmış və XIX əsr Azərbaycan ziyalılığının etalonu sayılan Həsən bəy Zərdabi «Əkinçi» qəzeti ilə ana dilli milli mətbuatımızın əsasını qoymuşdur. Bütün varlığı ilə xalqına bağlı olan, onun tərəqqisi və təkamülü naminə hər cür çətinliklərə sinə gərən, bu yolda min bir zəhmət və məşəqqətə qatlaşan, çox böyük qeyrət və istedad sahibi Həsən bəy Zərdabi sözün həqiqi anlamında bir maarifçi, türkçü idi. Cəmi iki il işıq üzü görən (1875-1877-ci illər) «Əkinçi»ni oxuyarkən görürük ki, Azərbaycanda ictimai tərəqqinin elə bir mühüm problemi yoxdur ki, qəzetdə bu və ya başqa tərzdə ona toxunulmamış olsun. Çarizmin qatı müstəmləkəçilik rejimi şəraitində, xəfiyyənin və senzuranın iti qılıncının zəhmi altında xalqa açıq mətbuat vasitəsilə ürək sözünü demək, onun tərəqqi və təkamülü yolunda çalışmaq sözün həqiqi anlamında cəsarət, istedad, bacarıq və fədakarlıq idi. Hələ 1876-cı ildə «Əkinçi» gənclərə müraciətlə yazırdı: «Ey elm təhsil edən cavanlarımız! Doğrudur, bizim vətən qardaşlarımız ilə üns tutmaq çətindir... Doğrudur, qeyri-millətlər sizin kamalınızı görüb sizə artıq rütbə verəcəklər, amma insaf deyil ki, beş gün ömrün ləzzətindən ötrü milləti, qardaşlarınızı atıb onları kor və sərgərdan qoyasınız. Pəs ləzzəti-dünyaya tamah etməyib öz qardaşlarınızı əməli-xeyrə vadar edin. Qoy şüəralar sizi həcv etsin, mollalar lənət oxusun, əvam-ünnas daşa bassın, siz millət üçün zəhmət çəkirsiniz və bişəkk gələcəkdə millətin gözü açılanda sizi şəhid hesab edib sizə rəhmət oxuyacaq» (28, 205).



Bu və bu kimi fikir və mülahizələr göstərir ki, «Əkinçi» mühərrirlərinin əsas qayəsi xalqa «düşmənin düşmənliyini, dostun dostluğunu» göstərib anlatmaq, «xətərdən qətiyyən qorxmayıb igidlik göstərən», «millət və ölkə qarşısında *vəzifəsinə əməl edən»* gənc nəslin yetişməsinə kömək idi.

Həsən bəy Zərdabi vətənin və millətin namus və qeyrətini çəkməyən, onun tərəqqi və təkamülünə çalışmayanları «nisi olur, amma balı olmaz» deyə «eşşək arısı»na bənzədirdi. Qəzet yazarları həmvətənlərinə müraciət edərək xatırladırdılar ki, əcdadlarımız sizə gözəl, bərəkətli, zəngin bir dövlət – Vətən torpağı qoyub «yerdə və göydə olan şeyləri sizin ixtiyarınıza verib». Lakin başqaları bu xəzinədən istifadə edib öz «dövlətlərinə və millətlərinə qüvvət verirlər». Bəs bu vəziyyətə bizdə necə son qoymalı? Qəzet yazarları bunun üçün hər şeydən əvvəl «zülməti-cəhdi» gətirməyin, «təhsili-üluma» baş vurmağın vacibliyini qeyd edir və yazırdılar ki: «Əvvəl elm, sonra əməldir. Əməl elmsiz vəbalıdır» (28, 121).

«Qəzetin muradı xalqın gözünü açmaqdır. Qəzet dərviş kimi nağıl deyə bilməz. Onun borcudur ki, işlərin yaxşı və yamanını ayna kimi xalqa göstərsin, ta xalq öz nikbədindən xəbərdar olub onun əlacının dalıncan olsun» (28, 169).

Zərdabi və onun məsləkdaşları olan Nəcəf bəy Vəzirov, Əhsənül-Qəvaid, Əsgər Corani, Ələkbər Heydərli, Seyid Əzim Şirvani və başqaları Mirzə Fətəli Axundov kimi xalqın başa düşə bildiyi sadə, aydın, təmiz ana dilində yazıb yaratmaqla dildə türkçülük məfkurəsini əməli şəkildə həyata keçirirdilər. Zərdabi və məsləkdaşlarının Azərbaycan türkcəsinə münasibəti, bu dilin saflığı, təmizliyi, varlığı uğrunda bö-

yük səy və qeyrəti, ardıcıl mübarizəsi dilləri türk xalqı tərəfindən anlaşılmayan «Osmanlılar»a bir cavab, dildə türkçülərə bir cığır idi.

Qəzetin 1875-ci il 10-cu nömrəsində oxuyuruq: «Dünyada xəlq olunan millətlər öz lisanlarına ana lisanı deyib ol lisan ilə ... insanlıq edirlər. Bunun üçün bir lisan bir millətin olanda və lisanın dəxi əsası millət olduğundan (hər) bir kişiyə (oxu: insana – R.Ə.) vacibdir ki, daima onun irəli getməsinə canını fəda etsin və millətin xidmətində bulunmayan kişiyə (insana) bir kəs yaxşı deməyəcəkdir» (28, 97).

Qəzet «ana dilində təhsili-üluma məşğul olmağa» çağırır, ana dilində qəzet və jurnal oxumağın vacibliyini xüsusi qeyd edirdi: «Qəzet və jurnal oxumaq insanı dünyadan xəbərdar edir, öz dilini öyrədir» (28, 240).

«Əkinçi» qəzeti Azərbaycan türk ədəbi dilinin milli dilə çevrilməsində və mətbuat üslubunun formalaşmasında həlledici rol oynamışdır.

Çar Rusiyasında ictimai-siyasi fəaliyyətin qadağan edildiyi bir şəraitdə Zərdabi «Əkinçi» qəzetini Azərbaycan ictimai-siyasi, elmi-fəlsəfi, bədii-etik və pedaqoji fikrinin tribunasına, aynasına çevirə bilmişdi. Cəmi iki il işıq üzü görməsinə baxmayaraq, Zərdabinin yandırdığı bu ümid çırağı çarizmin, daxili irticanın təzyiqi ilə sönmədi. Vətən təəssübü, millət qeyrəti çəkən mücahidlər bu çırağı yenidən yandırdılar. İl yarım keçməmiş 1879-cu ilin yanvarında daha bir millət fədaisi - Səid Əfəndi Ünsizadənin səyi və redaktorluğu ilə Tiflisdə Azərbaycan türkcəsində həftəlik ədəbi, ictimai-siyasi, elmi «Ziya», 1882-1884-cü illərdə əvvəlcə Tiflis, sonra isə Şamaxıda «Ziyayi-Qafqaziyyə» qəzetləri, 1883-cü ildə Cəlal Ünsizadənin rəhbərliyi ilə Azərbaycan türkcəsində «Kəşkül» adlı ilk ictimai-siyasi jurnal («Kəşkül»ün 1884-cü



ilin mart ayına qədər 11 nömrəsi çap edilmiş, sonra o həftəlik qəzet kimi fasilələrlə 1891-ci ilədək çıxdıqdan sonra nəşri dayandırılmışdır – R.Ə.) nəşr edilmişdir. «Əkinçi» qəzetinin ənənələrinə sadiq qalan «Kəşkül» mühüm ictimai və siyasi məsələləri işıqlandırmış, gerilik və cəhalət əleyhinə çıxmış, dil, ədəbiyyat, elm, maarif, mədəniyyət, incəsənət və s. kimi məsələlərə dair məqalələrlə çıxış etmişdir. «Kəşkül»də ana dilində Qərbi Avropa, Şərq, həmçinin, rus, gürcü, özbək və s. yazıçılarının əsərlərindən nümunələr çap edilmişdir. «Kəşkül»də daha çox Zərdabi, S.Ə.Şirvani, F.Köçərli, M.Şahtaxtlı, S.Qənizadə, A.Çernyayevski, J.Çavçavadze, A.Şirvanzadə və b. öz dəyərli yazıları ilə çıxış etmişlər.

«Əkinçi», «Ziya», «Ziyayi-Qafqaziyyə» və «Kəşkül» ənənələrini yaşatmaq və yeni tarixi şəraitdə Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi ideyalarını inkişaf etdirmək şərəfi milli azadlıq hərəkatımızın və ən başlıcası, milli dövlətimizin qurucularına müyəssər oldu.

Türkiyədə Sultan Əbdülhəmid imperiyanı qorumaq məqsədilə müqəddəs ali məfkurəni durdurmağa çalışarkən Rusiya imperiyası daxilində də bu işi yenə hərbçi olan Mirzə Fətəli Axundov və İsmayıl bəy Qaspıralı öz boyunlarına götürdülər.

Türkçülükdən yazarkən İsmayıl bəy Qaspıralının həyat və fəaliyyətindən bəhs etməyən tədqiqatçı yoxdur. Biz də bu ənənədən kənarda qalmayaraq, burada əsasən böyük mütəfəkkirin türkçülüklə bağlı bəzi fikirlərini açıqlamağa çalışacağıq. İlk öncə onu qeyd edək ki, Tanrı onu fövqəladə bir varlıq yaratmışdır və onun Türkçülüyə etdiyi böyük xidməti də bu fövqəladə yaradılışındandır. İsmayıl bəy Qaspıralı (1851-1914) 1880-ci illərdə Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi ideyalarını düsturlaşdıraraq «Dildə,

fikirdə və işdə birlik» şəklinə salmış və bu konsepsiya çar Rusiyasındakı türk xalqları arasında sürətlə yayılmışdı. Onda milli hissin, milli şüurun oyanması Katkovun türklər əleyhinə yazmış olduğu məqalələrin təsiri ilə olmuş və rus «panslavyanizmi»nə qarşı təpki və dirənişin nəticəsi kimi «türkçülük» ideologiyası formalaşmışdır. İlk yazılarını İstanbulda yazaraq Moskva və Peterburqda rus qəzetlərində nəşr etdirən İsmayıl bəy, nəhayət, «Russkoe Musulmanstvo» adlı 45 səhifəlik silsilə yazıları ilə mənsub olduğu millətin yalnız tatarlardan deyil, bütün dünyadakı türklərdən ibarət olması fikrini irəli sürür, Asiya və Avropada yaşayan türklərin vahid bir millət kimi «dildə, fikirdə və işdə birliyi» ideyasını gündəmə gətirir, türk-tatar millətini məhv olmaqdan qurtarmaq üçün yollar axtarır və bütün mənalı həyatını bu işə sərf edir. Bu mənada İsmayıl bəyin düşüncə tərzi onun bu məsələlərə müxtəlif zamanlarda nəşr etdiyi məqalələrdə verdiyi cavabların tarixi, əməllərinin tarixi isə yaşadığı dövrlərdə tapdığı cavabların həyata keçməsi uğrunda apardığı mübarizələrin tarixidir.

İsmayıl bəyin türkçülüyünün əsasında onun türk-tatarlar üçün ana dilində Avropa tipli məktəblərin açılması, tədrisin ana dilində aparılması, ana dilində kitabların, dərsliklərin, elmi ədəbiyyatların, qəzet və jurnalların yazılması, nəşri, türk-tatarların yeni sənət və texnologiyalara yiyələnməsi dayanır. Bütün bunların yollarını o, nəşr etdirdiyi və «Şimal Türklərinin ilk bəyaz bahar çiçəyi» olan anadilli «Tərcüman» qəzetində göstərdi. Bu fəaliyyətin nəticəsində Osmanlı türklərində olduğu kimi Şimal türklərində də qərb elmlərini, qərb təhsil sistemini, qərb yaşayış tərzini təbliğ edən «Üsuli-Cədid» tipli məktəblər yarandı. İsmayıl bəy o dövrdə bütün türk aləmində, xüsusilə Şimal və Şərq türklüyündə «Avropalaşma»nın ən fəal təbliğatçısı adını aldı. İsmayıl bəy inanırdı ki, türklər milli dillərini tam qoruyub saxlamaqla avropalılaşsa, türk millətinin gələcək həyatı parlaq olacaq. «Dildə, fikirdə, işdə birlik» prinsipini «Tərcüman» qəzetinin şüarına çevirən İsmayıl bəy təkcə yazı yazmaqla kifayətlənməyib «hər il türk dünyasının müxtəlif yerlərinə səyahətlər edərək Türkiyə, Qafqaz, Türküstan, Qazan, Qasım (Tatarıstanda) və hətta Litvanı gəzərək oralardakı türk-tatar aristokratları, zənginləri, alimləri, yoxsulları ilə görüşərək fikir mübadiləsi aparır, Çindən Almaniyaya, Şimal Buzlu okeandan Afrikaya və Hind Okeanına qədər Türk və İslam aləminin aydınlarıyla eyni məsələlər üzərində xəbərləşirdi» (14, 73).

Bütün Türklərin dildə, fikirdə, işdə birliyini təmin etmək üçün İmayıl bəy konkret olaraq ibtidai və orta məktəblərdə türk dilinin tədrisinə dair proqram hazırlamış və bu proqram Avropa tipli «Üsuli-cədid»lərdə tətbiq olunmuşdu. Bu proqramın məqsədi türklər üçün vahid «ədəbi dil» və ya «Ümumi türk dili» yaratmaq olduğundan o, sonda türklərin fikir və iş birliyini təmin edəcəkdi ki, bu da ən böyük türkçülük idi. Doğrudan da, İsmayıl bəy Qaspıralının «Dildə, fikirdə, işdə birlik» prinsipi bütün türkçülük məfkurəsinin dil, ədəbiyyat, sosiologiya və hətta siyasət sahəsində özünə qədərki bütün məsələləri özündə birləşdirmiş, özündən sonrakı bütün türkçülərə öz təsirini göstərmişdir. Açıq etiraf etmək gərəkdir ki, İsmayıl bəyə qədər bu fikri heç bir türkçü – nə Osmanlı, nə Qafqaz və nə də Qazan türkçüləri bu qədər açıqlıqla, əzm və israrla istər nəzəri, istərsə də praktik cəhətdən davamlı şəkildə həyata tətbiq edə bilməmişlər. Bunun nəticəsidir ki, İsmayıl bəy Qaspıralını ondan

sonrakı bütün türkçülər «türkçülük» ideologiyasının mərkəzi siması saymış, onu «Ümum türk dili»nin atası hesab etmişlər.

Türkçülüyün yayılması və bütün türk xalqlarını əhatə edən böyük bir ideoloji cərəyan halına gəlməsində, şübhəsiz ki, çar Rusiyasında yaşayan bütün türk ziyalılarının payı vardır. Qaspıralı İsmayıl bəylə başlayan cərəyan genişlənərək Azərbaycan, Qazan və Türküstana qədər yayılmışdı. Rus millətçiliyi və şovinizminə qarşı yaranan türkçülüyü imperiyadakı türk ziyalıları və mütərəqqi din adamları özləri üçün bir mədəni və siyasi-ideoloji doktrina olaraq qəbul etmişdilər. Alman və italyan millətçiliyinin təsiri ilə də meydana gələn «türkçü-millətçilik» hərəkatında, türkçülük ideyasının yayılması və dərinləşməsində təhsilini Türkiyə və Fransada almış əslən Azərbaycan türklərindən olan Əli bəy Hüseynzadənin və təhsilini Peterburq və Parisdə almış Əhməd bəy Ağayevin böyük xidmətləri olmuşdur.

Dünya, Qərbi Avropa və Şərq ədəbiyyatını dərindən öyrənən, Ömər Xəyyamı, Homeri, Danteni, Tassonu, Şilleri, Bayronu, Göteni mütaliə edən, rus, ərəb, fars, alman, fransız, ingilis və yunan dillərini mükəmməl bilən Əli bəy Hüseynzadənin bir türkçü kimi yetişməsində babası Şeyx Əhməd Salyaninin, Mirzə Fətəli Axundovun və rusca təhsil almaq üçün İstanbuldan Pererburqa gələn Əhməd Sədat bəyin çox böyük rolları olmuşdur. Əli bəy Hüseynzadənin İstanbula gəldikdən sonra «İttihadi-Osmanlı» Cəmiyyətinin qurucuları olan İshak Sükuti (1868-1903), İbrahim Temo (1865-1939), Mehmet Rəşid (1872-1919), Abdullah Cövdət (1969-1923) və başqaları ilə yaxından tanışlığı və daha sonra «İttihad və Tərəqqi» cəmiyyətinə üzv olması onun ideoloji-siyasi bir türkçü kimi yetişməsinə gətirib çıxarmışdır. «İttihad və Tərəqqi» Cəmiyətinin davamlı təqiblərə məruz qalması Əli bəy Hüseynzadənin 1903-cü ildə Azərbaycana dönməsinə səbəb olmuşdur. Bu dövrdə o, çar Rusiyasına qarşı Azərbaycan türklərinin haqlarını qorumaq məqsədi ilə Əlimərdan bəy Topçubaşovun redaktorluğu ilə rus dilində çap olunan «Kaspi» qəzetində, Qahirədə nəşr olunan «Türk» qəzetində, daha sonra «Həyat» qəzetində türk birliyini, islam ideologiyasını təbliğ edən sanballı elmi məqalələr çap etdirmişdir. Daha sonra Zeynalabdin Tağıyevin dəstəyi ilə redaktoru olduğu «Füyuzat» jurnalında Turanı, İndicani, Salyani və A.H. imzaları ilə məqalələr yazan Əli bəy Hüseynzadə «türkçü bir həyatı, islama hörməti əsas götürərək Avropa mədəniyyətindən faydalanmağı təməl görüş kimi qəbul etmiş, türk birliyinə gedən yolda ən əhəmiyyətli şeyin dil olduğu düşüncəsilə İstanbul türkcəsinin bütün türk ellərinə yayılmasına, Qafqaz türklərini əsrlər boyu məzhəb duyğuları ilə özünə çəkməyə çalışan iranlılıq ilə yaxın zamanda ortaya çıxan ruslaşdırma siyasətinə qarşı türkçülüyü, türklüyü müdafiəyə, sünni-şiə ixtilafının (aradan – R.Ə.) qalxmasına, Osmanlı mədəniyyətinin tanınıb sevilməsinə çalışmış və (bu yolda – R.Ə.) başarılı olmuşdur» (6, 23).

Əli bəy Hüseynzadə «Füyuzat» jurnalı ilə türkçülüyə təkcə ideoloji yöndən deyil, mənəvi cəhətdən də xidmət etmiş, ən başlıcası isə Məhəmməd Hadi, Krımlı Səbri Eyvazoğlu, Sənətullah Rafətoğlu və b. kimi dəyərli şəxsiyyətləri ortaya çıxarmış, onların tanınmasında əvəzsiz xidmətlər göstərmişdir. «Füyuzat» jurnalının qapadılmasından sonra Əli bəy Hüseynzadə «İrşad», «Tərəqqi», «Həqiqət» və s. kimi qəzetlərdə müxtəlif səpkili məqalələr çap etdirmiş, «Səadət» məktəbinin, «Füyuzat Darül-Müəllimi»nin müdiri və müəllimi olmuş, Azərbaycan türklüyünün oyanış və inkişafında əvəzsiz xidmətlər göstərmişdir.

Çar Rusiyasının bütün imperiya daxilində, o cümlədən də Qafqazda siyasi fəaliyyətləri tamamilə məhdudlaşdırdığından Əli bəy Hüseynzadə öz məsləkdaşları olan Əhməd bəy Ağaoğlu, Yusif Akçuraoğlu, Sədri Məqsudi kimi türkçü ziyalılarla birlikdə ölkəni tərk etməyə məcbur oldu. 1910-cu ildən etibarən otuz il müddətində Türkiyədə yaşayan Əli bəy Hüseynzadə ilk öncə çar Rusiyasının təqiblərindən qaçıb İstanbulda yerləşən ziyalıların 18 yanvar 1908-ci ildə yaratdıqları və türk dünyasını tanımağa və tanıtmağa xidmət edən «Türk Dərnəyi»nə üzv olmuş, daha sonra Tələt paşanın təklifi ilə «İttihad və Tərəqqi» Partiyasının 1911-ci ildəki qurultayında yenidən Ümumi Mərkəzə üzv seçilmiş, 18 avqust 1911-ci ildə Aqil Muxtar, Məmməd Əmin, Əhməd Hikmət, Əhməd Ağaoğlu, Yusif Akçuraoğlu ilə birlikdə «Türk Yurdu Dərnəyi»ni yaratmış və dərnəyin yayım orqanı olan «Türk Yurdu» dərgisini nəşr etdirmişdir. Bu dərnək müəyyən müddətdən sonra «Türk Ocaqları»na birləşmiş və türk xalqlarının gələcək taleyinin müəyyənləşməsində misilsiz xidmətlər göstərmiş və bu gün də öz fəaliyyətini davam etdirməkdədir.

Əli bəy Hüseynzadə həmçinin Dr. Əsəd paşa və məşhur alim İbrahim Haqqı Baltaçıoğlu ilə birlikdə 21 aprel 1916-cı ildən fəaliyyətə başlayan «Milli Təlim və Tərbiyə Cəmiyyəti»nin qurucularından olmuşdur, I dünya müharibəsinin sonunda çar Rusiyasının dağılması ilə əlaqədar olaraq orada yaşayan türklərin gələcəyini təyin etmək və bunu əlaqədar dövlətlərlə müzakirə etmək məqsədilə yaradılan «Turan Heyəti»nin üzvü kimi o da Yusif Akçuraoğlu, Məmməd Əsəd Çələbizadə və Mükməddin Beycanla birlikdə Avropaya göndərilmişdi. Bu heyət Sofya, Budapeşt, Vyana, Berlin və Lozanda siyasi xadimlərlə görüşlər təşkil etmiş, öz fikir və



mülahizələrini yazılı və şifahi şəkildə onlara çatdırmışdır. Əli bəy Hüseynzadə və Yusif Akçuraoğlu tərəfindən qələmə alınan «Rusiya Müsəlmanlarının Tələbləri» adlı broşüra Budapeştdə almanca nəşr edilmişdir. Bu «Tələbnamə»də Rusiyadakı türk boyları altı bölgə olaraq göstərilmiş, müharibədən sonra onların hər birinə müstəqillik verilməsi istənilmişdi. «Rusiya Müsəlmanları Komitəsi» Macarıstan Baş naziri Kont Tissa tərəfindən çox yaxşı qəbul edilmiş və bu münasibətlə bəzi danışıqlar aparılmışdı. Bilindiyi kimi macarndiyi kimi macara» ayrıca maraqlanırdılar və hətta (Macarıstanda – R.Ə.) bir «Turan» cəmiyyəti qurulmuşdu və Macar dövlət adamları bu məsələyə (Turançılığa – R.Ə.) əhəmiyyət verirdilər» (3, 502).

«Turan Heyəti» daha sonra Vyanaya keçərək «orada da Baş nazir və Xarici İşlər Naziri tərəfindən qəbul edildi. Avstriya dövlət başçılarına da eyni məzmunda memorandum sunuldu (təqdim etmək) və bu xüsusda onlardan yardım istəndi» (3, 503).

Vyanadan sonra heyət Berlinə getmiş və Alman dövlət adamları ilə görüşmüşdü. Təbii ki, almanların rəyi xüsusi əhəmiyyət daşıyırdı. Çünki Turançılıq, daha doğrusu, Rusiyada yaşayan türklərin mədəni və siyasi haqlarının əldə edilməsi ancaq Almaniyanın razılığı ilə mümkün ola bilərdi. Berlində Türk Xalqlarının qurultayında iştirak edən Əli bəy Hüseynzadə Rusiya imperatorluğundakı türklərin demokratik və düşüncə səviyyəsindən, haqlarının qorunmasından bəhs edən məruzə ilə çıxış etmişdi. Daha sonra tərəfsiz bir ölkə olan İsveçrəyə gedən heyət burada çar Rusiyasındakı Xalqlar Konqresi adı ilə bir toplantı təşkil edərək Rusiya müsəlmanlarının və azlıqda qalan xalqların mədəni, dini bərabərsizliklərinin aradan qaldırılmasını, seçki sistemində dəyişik-

liklər edilməsini Avropa dövlətlərindən xahiş edirdi. Xüsusi olaraq Əhməd bəy Ağaoğlu, Yusif Akçuraoğlu və Əli bəy Hüseynzadənin imzası ilə 18 may 1916-cı il tarixində «Rusiya müsəlmanlarının haqlarını müdafiə xahişi» ilə ABŞ-ın o zamankı prezidenti Vilsona bir teleqram göndərilmişdi. Bu teleqramda da «Rusiya Müsəlman Türk – Tatar xalqlarının siyasəti və mədəni haqlarının tanınması» istənilmişdi.

Bütün bunlardan əlavə «Əli bəy Hüseynzadə 14 iyul 1917-ci ildə Stokholmda keçirilən «Sosialist Konqresi»nə Aqil Muxtar və Nəsim Müslih ilə birlikdə Türkiyə təmsilçisi kimi qatılmış və Konqresdə «Milliyyət və çoxluq» mövzusunda çıxış edərək Rossanovla mübahisəyə girişmişdir» (6, 26).

Ə.Hüseynzadə 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin qurulması məsələsini müzakirə etmək üçün gizli şəkildə Bakıya gəlmiş (37, 63-79), Türkiyədə Azərbaycanla bağlı Ziya Göyalp, Əhməd Ağaoğlu, Yunis Nadi, Əhməd Rəfiq kimi türkçülərlə bərabər «İqdam», «Təsviri-əfkar» və «Tənin» qəzetlərində məqalələr çap etdirmiş, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji qurultayda Fuad Köprülü ilə birlikdə iştirak etmiş və «Qərbin iki dastanında Türk» adlı məruzə ilə çıxış etmiş, 1936-cı ildə Dolmabaxça Sarayında keçirilən III Türk dili qurultayında üzv olaraq qatılmışdır. Əli bəy Hüseynzadə 1940-cı il martın 17-də İstanbulda ürək xəstəliyindən vəfat etmiş və Qaracaəhməd qəbiristanlığında Türkiyənin məşhur şairi Nədimin qəbrinin yanında dəfn edilmişdir.

Bütün mənalı həyatını türkçülüyə - türk millətinin yüksəlməsinə sərf edən Əli bəy Hüseynzadə Yusif Akçuraoğlunun Qahirədə nəşr olunan «Türk» qəzetində çap etdirdiyi Osmanlılıq, islamçılıq ideologiyasına həsr edilən «Üç Tərzi-siyasət» məqaləsinə cavab olaraq yazdığı «Məktubi-məxsus», «Həyat» qəzetində çap etdirdiyi «Türklər kimdir və kimlərdən ibarətdir?» və xüsusilə Əbu Turab Axunda cavabən yazdığı «Bizə hansı elmlər lazımdır?» məqaləsi ilə «Türkləşmək, İslamlaşmaq və Avropalaşmaq» tezisini irəli sürmüş və nəşr etdirdiyi və baş redaktoru olduğu «Füyuzat» jurnalında bu ideoloji sistemi həryönlü şərh edərək belə bir nəticəyə gəlmişdir ki: «Füyuzat»ın tutduğu yol Türklük, Müslümanlıq və Avropalılıqdır. «Turan» seri ilə türkçülüyü önə sürən Əli bəy Hüseynzadə türkçülük tarixinin təməl daşlarından biri olub türkçülüyün böyük ideoloqu Ziya Göyalp da daxil olmaqla sonrakı türkçülərin yetişməsində əvəzsiz xidmətlər göstərmişdir. O, türk millətçiliyinə yalnız siyasi, dini və ideoloji yöndən deyil, iqtisadi cəhətdən də bağlı idi. Əli bəyə görə «sosializm şirkətlə, ittifaqla iş görmək deməkdir. Bunun üçünsə sosializm qurmağa ehtiyac yoxdur» (32).

Kommunizmi «Qırmızı qaranlıq mərəz» adlandıran Əli bəy Hüseynzadə inkişafın yolunu siniflər mübarizəsində deyil, siniflər arası ahəngdə, milli birlikdə görür və göstərirdi. İstər ədəbi, istər dini, istər fəlsəfi, istər siyasi, istər ideoloji və istərsə də elmi əsərlərində böyük mütəfəkkir Türkçülük ideologiyasının təkmilləşməsi və təfəkkür tariximizin zənginləşməsində bənzəri olmayan bir yer tutmuşdur. Hələ öz müasirləri tərəfindən yüksək qiymətləndirilən Əli bəy Hüseynzadə haqqında məşhur qərbçi Abdullah Cövdət bəy yazırdı: «Əli bəy sakit, mütəfəkkir halı ilə əsrarəngiz vəzi-üzlətpərvərisiylə üzərimizə bir Rəsul təsiri icra edərdi» (1, 294-296).

Yusif Akçuraoğlu Əli bəy Hüseynzadədən bəhs edərkən onun böyük xidmətlərini qeyd etdikdən sonra yazırdı: «Qısası, Hüseynzadə Əli bəy, Azərbaycanda yalnız dil və

ədəbiyyat sahəsində deyil, hətta siyasət teoriyasında belə mərkəz Osmanlı dövləti olmaq üzrə Türkçülük, bütün türkçülük, hətta Panturanistlik fikri axımına ilk açıqlıq gətirən insandır» (14, 146).

Türkçülük məfkurəsinin ən böyük yaradıcılarından biri də Əhməd bəy Ağayevdir. Qarabağı və Şirvanı Azərbaycan türk mədəniyyətinin, türk musuqisinin, türk ədəbiyyatının və ən başlıcası türk millətçiliyinin beşiyi hesab edən Əhməd bəy Ağayev Avropada təhsil alan ilk Azərbaycan türkü idi. O, ilk əsərini də Parisdə fransızca yazmış, Şeyx Cəmaləddin Əfqani ilə yaxından tanış olmuş, Parisdə hüquq təhsili alaraq altı ildən sonra 1894-cü ildə İstanbula gələrək o zamankı Maarif Naziri Münif paşa və Qafqazlı tarixçi Murad bəylə tanış olmuşdu. Hələ Parisdə olarkən Tiflisdə nəşr edilən «Qafqaz» qəzetində rusca məqalələr çap etdirmiş, Tiflisə qayıtdıqdan sonra da bu qəzetlə əməkdaşlıq etmiş, Tiflis gimnaziyasında fransız dili müəllimi işləmiş, Hacı Zeynalabdin Tağıyevin istəyi ilə sahibi olduğu «Kaspi» qəzetində baş redaktorluğa dəvət olunmuşdu. Bu qəzet Əhməd Ağaoğlunun sayəsində Azərbaycan türklərinin hüququnu müdafiə edən rusca bir türk orqanına çevrildi. Əhməd bəy Ağayev öncə Əli bəy Hüseynzadə ilə birlikdə türkcə ilk gündəlik qəzet olan «Həyat»ı, daha sonra isə müstəqil olaraq gündəlik «İrşad» qəzetini çıxarmağa başladı. Hər iki qəzetin qayəsi çar Rusiyasına qarşı və türklərin siyasi hüquqları uğrunda mübarizə, türklər arasında birlik yaratmaq məqsədi ilə sünni-şiə düşmənçiliyinə son qoymaq, həmçinin xalqı savadlandırmaq məqsədi ilə türkcə məktəblər açmaq olmuşdur. Məzhəbçiliyə qarşı barışmaz mövqe tutması, qadın, əlifba məsələsini önə çəkməsi ilə Əhməd bəy Ağaoğlu da digər türkçülər kimi türklərin inkişafına mane olan üç mühüm amili-türkləri içindən parçalayan sünni-şiə qovğalarını, türk qadınına olan ali türk münasibətinin sonradan xurafata qurban verilməsini və ərəb əlifbasının türk dilinə yaramamasını - önə çəkməklə geriliyin səbəbini əsasən islamdan öz məqsədləri üçün istifadə edən «şeyx» və «axundlar»da və daha çox köhnə və çürük fars mədəniyyətində görürdü. Bütün bunlarla yanaşı Əhməd bəyi daha çox Azərbaycan türklərinin real həyatı maraqlandırmış və o, Azərbaycana döndükdən sonra bütün fikir və praktik fəaliyyətini dini məsələlərdən daha çox milli və sosial məsələlərə yönəltmişdir. Bu məqsədlə o, yazdığı və irəli sürdüyü fikirlərin həyata keçməsi və gerçəkləşməsi üçün bütün Qafqazı şəhərbəşəhər, qəsəbə-qəsəbə, kəndbəkənd dolaşaraq bir çox məktəblərin açılması və yeni cəmiyyətlərin qurulmasına nail olmuşdur.

Türklərin belə oyanışını görən türk düşmənləri, xüsusilə ermənilər 1904-cü ilin sonlarına doğru uzun müddət gizli apardıqları düşmənçiliyi çar hökumətinin də köməyinə arxalanaraq açıq müstəviyə keçirdilər. Vəziyyəti öncədən dəyərləndirən Əhməd bəy Ağaoğlu türklərin ermənilərə qarşı çarpışa bilməsi üçün 1905-ci ildə Bakıda «Fədai» adlı gizli bir təşkilat yaratdı: bu təşkilat bu və ya digər dərəcədə 1905-ci il erməni-türk savaşında ermənilərin qarşısını ala bildi.

1907-ci ildə Bakı ətrafında yeni neft yataqlarının istifadə edilməsi bəhanəsilə orada yaşayan türklərin köçürülməsi layihəsini hazırlayaraq Peterburqdakı xüsusi komissiyada qəbul etdirmək istəyən erməni komissiyasının təkidinə baxmayaraq otuz beş gün sürən müzakirələrdən sonra Azərbaycan türklərinin təmsilçisi Əhməd bəy Ağaoğlu üç yoldaşı ilə layihənin rədd edilməsinə müvəffəq olmuşdur. Bütün bunlarla yanaşı, Peterburq qəzetlərində Azərbaycan türklərinin haqlarını müdafiə edən, rus bürokratları ilə ermənilərin

türklərlə bağlı iftiralarını və intriqalarını alt-üst edən dərin məzmunlu məqalələri ilə Əhməd bəy Ağaoğlu praktik fəaliyyəti ilə də rus hökumətinin nəzərində təhlükəli insanlardan hesab edilirdi. Onun yazıları və praktik həyatdakı əsas qayəsi Azərbaycan türklərinin oyanması, öz milli haqlarına sahib çıxması və sonda öz müstəqil dövlətini yaratması idi.

Əhməd bəy Ağaoğlunun dərin zəkasından, ictimai fəaliyyətindən qorxuya düşən çar Rus məmurları ona təzyiq məqsədi ilə evini axtartdırır, mətbəəsinə hücumlar təşkil edir, redaktoru olduğu «İrşad» qəzetini tez-tez bağlatdırırdılar. Hüququ mükəmməl bildiyindən «daha öncə alınmış olan bir çox icazənamədən yararlanaraq bağlanmış qəzetinin yerinə dərhal başqa birini çıxarırdı...Bir çox zəhmət və məsrəf tələb edən bu mübarizədə Azərbaycan türk zənginləri Əhməd bəyə ciddi yardım etmişdilər» (14, 162-163).

Bütün bunlar onu göstərir ki, həqiqətən də, XX əsrin əvvəllərində türk milli şüuru xeyli inkişaf etmişdi.

Çar Rusiyasının baş naziri Stolıpinin dövründə inqilabçılar və millətçilər ciddi təqibə məruz qaldılar. Bir milliyyətçi, türkçü kimi Əhməd bəy Ağaoğlu da bu təqibə məruz qalanlardan idi. Şiddətli təqib nəticəsində artıq Əhməd bəyin təkcə özü deyil, bütün ailəsi də təhlükəyə məruz qaldığından, o da bir çox Azərbaycan millətçiləri kimi İstanbula qaçmağa məcbur oldu. Bu o dövr idi ki, Türkiyədə Gənc Türklər inqilabı olmuş, sultan II Əbdülhəmid taxtdan salınmış, Əhməd bəyin Parisdən tanıdığı bir çox iş adamları iş başına keçmişdi. Bu inqilab türklük üçün çalışmaq istəyən bütün türk aləmindən olanları İstanbula çəkirdi. Əhməd bəy Ağaoğlunu-bu böyük türkçünü də İstanbul özünə çəkdi və onun 1908-ci ildən sonrakı İstanbul həyatı türkçülük üçün çox dolu və bərəkətli bir fəaliyyət dövrü oldu.



Öncə Osmanlı türkləri arasında yaranan maarifçi mədəni türkçülük daha sonra Azərbaycan, Krım və Qazan türkləri arasında da yayıldı. Azərbaycan əməli türkçülüyünün yaradıcıları olan Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Krım türkçülərinin əsas yaradıcısı İsmayıl bəy Qaspıralı, Qazan türkçülərinin ilk nümayəndəsi hesab edilə bilən Şəhabəddin Mərcaninin Çar Rusiyasındakı fəaliyyətləri gələcək türkçülər ordusunun yaranmasında müstəsna rol oynamışdı. İlk öncə mədəni millətçilik kimi meyadana çıxan türkçülük getdikcə siyasi və ideoloji xarakter almağa başladı. Artıq XX əsrin əvvələrindən başlayaraq türkçülük istər Osmanlı, istər Azərbaycan və istərsə də Krım, Qazan və Türküstanda siyasi-ideoloji bir cərəyana çevrildi. Bu siyasi-ideoloji cərəyan Gənc Türklər inqilabı ilə yeni vüsət aldı. Türk milli ideologiyası olan türkçülüyün əsas inkişaf dövrü Balkan və xüsusilə I dünya müharibəsi zamanı olmuşdur.

İlk vaxtlar milli özünüdərk kimi meydana çıxan və əsasən tarix, ədəbiyyat, mətbuat və incəsənət sahəsində özünü göstərən mədəni-maarifçi türkçülüyün yaradıcıları olan Əhməd Vəfik paşa, Süleyman paşa, İbrahim Şinasi, Ziya paşa, Mustafa Cəlaləddin paşa, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Buxaralı Şeyx Süleyman əfəndi, Əhməd Midhət əfəndi, Namiq Kamal, Əhməd Cövdət paşa, İsmayıl bəy Qaspıralı, Şəhabəddin Mərcani, Mirzə Şəfi Vazeh, Qasım bəy Zakir, Seyid Əzim Şirvani, Şəmsəddin Sami, Nəcib Asim,Vələd Çələbi, Nəcəf bəy Vəzirov, Əbdülhaq Hamid, Əbdürrəhim bəy Haqverdiyev, Əmrulla əfəndi, Bursalı Tahir bəy, Rauf Fuad bəy, Nəcib bəy, Müftüoğlu Əhməd Hikmət bəy, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və bütün mollanəsrəddinçilər, M.Ə.Sabir, Məmməd Əmin Yurdaqul, Əhməd Cavad, Üzeyir bəy Hacıbəyli və

başqaları türkçülüyü daha çox dildə, ədəbiyyatda, tarixdə, publisistikada, bir sözlə, milli-mədəni ideyaların təbliğində görmüşlər. Bunlar artıq Türk dünyasında türkçülüyün bünövrəsini qoymuşdular. Onlar Şərqin və Qərbin mütərəqqi ideyalarının sintezini yaratmaqla və onları yaşadıqları türk məmləkətlərində tətbiq etməklə türk xalqlarının milli özünüdərkinin əsasını yaratmışdılar. Onlar türk xalqlarının öz müstəqilliklərini əldə etmələrinin ideoloji-siyasi sahəsinin mühüm bir sütununu hazırlamışdılar. Bu sütunun adı Vətənpərvərlik, Xalqçılıq idi. Onlar Vətənpərvərlər, Xalqçılar idilər. Onlar öz əsərləri, fikir və mülahizələri, ədəbi-fəlsəfi düşüncələri ilə gələcək siyasi türkçülüyə zəmin yaratmışdılar.

Bu siyasi türkçülüyün ilk yaradıcıları Tunalı Hilmi bəy, Akçuraoğlu Yusif bəy, Hüseynzadə Əli bəy, Ağaoğlu Əhməd bəy və Məmməd Əmin Rəsulzadə olmuşlar.

Ömrünün son illərində Türkiyə Böyük Millət Məclisinin üzvü olan Tunalı Hilmi bəy (1871-1928) ilk öncə Avropadakı Gənc Türklərə qoşularaq onlar kimi «Osmanlıçı» olmuş, daha sonra isə o da Gənc Türklər kimi siyasi türkçülüyə qədər yüksəlmişdir. Dildə türkçülüyü onun təbii davamı olaraq siyasi türkçülüyə yönəltmişdir. Ömrünün altı ilini İsveçrədə, altı ilini Qahirədə keçirən Hilmi bəy siyasi fəaliyyətə başlayaraq Qanuni-Əsasinin yenidən bərpası uğrunda Gənc Türklərlə bərabər mübarizə aparmış və sonda buna nail olmuşdur. Gənc Türklər inqilabından sonra İstanbula qayıtmış, müxtəlif vəzifələrdə çalışmış, üç dəfə millət vəkili seçilmiş, Böyük Millət Məclisində türkçülük və xalqçılıqla bağlı coşqun nitqlər söyləmiş, özünü bir türkçü kimi təsdiq etmişdir.

Siyasi türkçülərin ən öndə gedənlərindən biri də Yusif Akçuraoğludur (1879-1935). İki yaşından atasını itirən Yusif



Akçuraoğlu yeddi yaşını tamamlamadan anası ilə birlikdə Simbirskdən İstanbula gələrək ilk və orta təhsilini tamamladıqdan sonra 1897-ci ildə Hərbi məktəbə daxil olmuş və ilk məqaləsini də həmin ildə yazmışdır. 1897-ci ildə İstanbulda «Məlumat» dərgisində çap olunan «Şəhabəddin Mərcani» adlı məqaləsi Şimal türklərinin ən məşhur alimlərindən və Şimalda dini yenilik və milli oyanış hərəkatının ilk cığırdaşlarından olan Şəhabəddin Mərcaninin həyat və fəaliyyətinə həsr edilmişdir. Bu məqaləsi ilə o, Şimal türklərinin elmi və mədəni səviyyəsini Cənub türklərinə çatdırmaq məqsədi güdmüşdür. Hərbi məktəbdə oxuyarkən tətil vaxtlarını anadan olduğu Simbirskidə və Qazanda qohum-əqrabasının yanında keçirən Yusif Akçuraoğlu Şimal türklərinin həyatını və düşüncə tərzini yaxından izləməklə gələcək elmi, ideoloji, siyasi və fəlsəfi əsərləri üçün material toplayırdı. Onun bu müddətdə Krımda bacısı əri məşhur İsmayıl bəy bütün dünyadakı türklərdən ibarət olması fikrini irəli sürür, Asiya və Avropada yaşayan türklərin vahid bir millət kimi «dildə, fikirdə və işdə birliyi» ideyasını gündəmə gətirir, Türk-Tat Qaspıralı ilə görüşləri, bir çox qərb dillərini, qədim və yeni türk dilini bilən, uyğurca oxuyub yazmağı bacaran tədqiqatçı və zəngin kitabxanaya malik olan əmisi Akçuraoğlu İbrahim bəyin Türk aləmi və türkologiyaya aid söhbətləri, həmçinin Şəhabəddin Mərcani və Şimalda milli fikrin yaradıcılarından, müasir qərb mədəniyyəti tərəfdarlarından olan Qəyyum Nasiri ilə yaxından tanış olması, həmçinin Hərbi məktəbdə oxuyarkən Vələd Çələbi, Nəcib Asim və başqa türkçülərin əsərlərini oxuması Yusif bəyin gənc yaşlarından bir türkçü kimi yetişməsində mühüm rol oynamışdır. Elə bunların nəticəsidir ki, Hərbi məktəbin ikinci kursunda oxuyarkən Gənc Türklərə qoşulmuş və bu səbəbdən də ömürlük qala içində yaşamağa

məhkum edilmişdi. Fəqət fürsət tapıb yaxın dostu Əhməd Fərid bəylə birlikdə Fransaya qaçmağa müvəffəq olmuşdu.

Yüsif Akçuraoğlunun Parisdə ilk görüşdüyü şəxs türk milliyyətçilərindən olan Doktor Şərafəddin Mağmumidir. Doktor Şərafəddin ona «Osmanlıçılıq» siyasətinin çürüklüyündən, türk milliyyətçiliyindən başqa heç bir sağlam fikrin olmamasından, qərblilərin türk düşmənçiliyindən, mədən qərblilərin dilindən düşməyən ədalət və insanpərvərlik sözlərinə inanmanın tamamilə bir sadəlövhlük olmasından və s məsələlərdən bəhs etməklə onda öncədən də mövcud olan milliyyətçiliyi bir daha artırmışdır. Parisdə olarkən o, Əhməd Fərid bəylə vaxt itirmədən Sərbəst Siyasi Elmlər Məktəbinə qeyd olunur. Bu məktəbdə dərs deyən müasir tarixdə ən gerçək həqiqət olaraq milləti qəbul edən Albert Sorvelin, tarixi həyatda şəkil və görünüşü, xəyali fikir və əməlləri deyil, iqtisadi faktları əsas götürən Funk Brentanonun, siyasi və ictimai qurumların inkişaında millətlərin psixologiyasına əsaslanaraq təkamül yolu ilə inkişafın olduğunu göstərən və isbat etməyə çalışan Boutumyonun, Anatol Leroy-Beanlien Renonvier, Levi Bryul kimi Fransanın ciddi millətçi alimlərinin elmə susamış olan Yusif Akçuraoğlu və Əhməd Fərid bəyə böyük təsirləri olmuşdur.

Yusif Akçuraoğlu özündən əvvəlki türk millətçilərinin təsiri ilə və xüsusilə Siyasi Elmlər Məktəbində millətçi alimlərdən aldığı dərslərlə millətçiliyi və ən başlıcası türkçülüyü maarifçi türkçülükdən siyasi türkçülük səviyyəsinə çatdırmışdır. İlk dövrlərdə Gənc Türklər və İttihad və Tərəqqi Cəmiyyəti ilə yaxın əlaqələri onu tam millətçi səviyyəsinə qaldırmasa da, o zamanlar onun siyasətdə milliyyət məsələsinə baxışını açmaq baxımından yararlıdır. Müəllifin o dövrlərdə yazdığı məqalələr tam türkçülüyü əhatə etməsə də, onun Osmanlı imperatorluğunu qoruyub saxlamaq haqqındakı fikir və düşüncələri istər ittihad və tərəqqiçilər, istərsə də yaxından əlaqədə olduğu Gənc Türklərinkindən fərqlənirdi. O, artıq Osmanlı birliyinin şiddətlə sarsıldığını, Osmanlı imperatorluğunda yaşayan millətlərin milli məqsədlərinə çatmasının qarşısının alınmasının mümkün olmadığını 1903-cü ildə, yəni ikinci Məşrutiyətin elanından beş il, Albaniya, Makedoniya və Qərbi Trakiyanın (Frakiya – R.Ə.) imperiyadan ayrılmasından doqquz il, Osmanlı imperatorluğunun tamamilə məhv olmasından isə on beş il əvvəl görürdü. Ona görə də Yusif Akçuraoğlu son olaraq belə bir təklif irəli sürürdü ki: «Osmanlı imperatorluğu varlığını qoruyub saxlaya bilməsi üçün bir Federativ Dövlət şəklinə dönməlidir» (14, 129).

Bütün bunlar Yusif Akçuraoğlunun millətə verdiyi dəyərlərdən irəli gəlirdi və onun o dövrlərdə millətə verdiyi bu əhəmiyyətli dəyər Akçuraoğlunun getdikcə daha sağlam bir dünyagörüşünə yönəldiyindən xəbər verirdi.

Parisdə təhsilini bitirib diplom aldıqdan sonra Türkiyəyə qayıtması mümkün olmadığından o, öz vətəninə dönməyə məcbur oldu. Akçuraoğlu ailəsinin əsl vətəni olan Züyəbaşı kəndinə gəlib əmisi Yusif bəyin yanında yaşayır. Məşhur əsəri olan «Üç tərzi-siyasət»i burada yazıb Qahirədə nəşr olunan «Türk» qəzetində çap etdirir. Bu məqalə ilk dəfə olaraq açıq bir şəkildə «Osmançılıq, İslamçılıq və Türkçülüyü» şərh etməklə Türkçülüyü siyasi cəhətdən bütün açıqlığı ilə gündəmə gətirdi. Məqalədə Yusif Akçuraoğlunun bütün tarixi həqiqətləri araşdıraraq çıxardığı nəticələr aşağıdakılardır:

1. Osmanlıçıların osmanlı milləti adı altında imperatorluğu qoruyub saxlamaq niyyəti «zənnimcə (artıq Osmanlı millətini meydana gətirməklə uğraşmaq) boş bir yorğunluqdur» (15, 31).

2. İslam birliyi məsələsinə tam ehtiyatla yanaşmasına baxmayaraq, Akçuroğlu məqalənin bir çox yerlərində elə faktlar gətirir ki, bu faktlar onun islam birliyi məsələsinə də inanmadığını göstərir. Bu tutarlı faktlardan biri budur ki: «Xarici maneələr çox güclüdür. Gerçəkdən də bir tərəfdən islam dövlətləri... Xristian dövlətlərinin nüfuzu altındadır. Digər tərəfdən də bir-iki dövlət (xristian dövləti – R.Ə.) istisna olmaqla bütün xristian dövlətləri müsəlman təbəqəyə malikdir... Həmçinin zamanımızda ən qüvvətli İslam dövləti olan Osmanlı dövlətinin belə ciddi bir sürətdə İslam birliyi siyasətini tətbiq etməsinə (Xristian dövlətlər - R.Ə.) qarşı çıxarlar» (15, 33).

3. Türk birliyi məsələsini ilk dəfə olaraq siyasi, elmi, fəlsəfi və ideoloji cəhətdən şərh edən Yusif Akçuraoğlu özünə qədərki bütün türkçülərin fikir və mülahizələrini ümumiləşdirmişdir. Bu fikir və mülahizələrin o dövrdəki və bu günkü türkçülər üçün tam yararlı olduğunu və məntiqə dayandığını nəzərə alaraq, Yusif Akçuraoğlunun «Üç tərzi-siyasət»məqaləsindən aşağıdakı seçmələri burada xatırlatmağı gərəkli sayırıq. O, yazır: «Əsil böyük fayda dilləri, irqləri, adət-ənənələri və hətta əksəriyyətinin dinləri belə bir olan, Asiya qitəsinin böyük bir hissəsi ilə Avropanın Şərqinə yayılmış olan türklərin birləşməsinə və beləliklə də, digər böyük millətlər arasında öz varlığını qoruyub saxlaya biləcək böyük bir siyasi millət təşkil etmələrinə xidmət edəcək... Son vaxtların fikrə gətirdiyi uzaq bir istiqbalda bəyazlar və sarılar aləmi arasında bir Türk dünyası yaranacaq və bu orta dünyada Osmanlı dövləti indi Yaponiyanın sarılar aləmində yerinə yetirmək istədiyi vəzifəni öz üzərinə götürəcək...Baxmayaraq ki, Qərbin təsiri ilə türklər arasında milliyyət fikirləri girməyə başlamışdırsa da...bu hadisə hələ çox



yenidir. Türklük fikirləri, türk ədəbiyyatı, türkləri birləşdirmək düşüncəsi hələ yeni doğulmuş bir çocuqdur...türkləri birləşdirmək siyasətinin tətbiqindəki daxili çətinliklər İslam (birliyi-R.Ə.) siyasətinə nisbətən daha çoxdur...İslamiyyətdə (islam birliyi məsələsində-R.Ə.) gördüyümüz o qüvvətli təşkilatlardan...xülasə, sağlam bir birliyi meydana gətirə biləcək amillər və hazırlıqlardan hələlik heç biri Türklükdə yoxdur. Bu gün türklərin əksəriyyəti keçmişlərini unutmuş bir vəziyyətdədir. Lakin bu da unudulmamalıdır ki, dövrümüzdə (XX əsrin əvvəllərində – R.Ə.) birləşməsi mümkün olan türklərin böyük bir hissəsi müsəlmandır. Buna görə də İslam dini böyük türk milliyyətinin təşəkkülündə mühüm bir ünsür ola bilər. Artıq milliyyətə tərif vermək istəyənlərdən bəziləri dinə bir amil kimi baxmaqdadırlar. İslam (dini-R.Ə.) türklüyün birləşməsində bir xidməti yerinə yetirmək üçün son zamanlarda xristianlıqda da olduğu kimi, öz içində milliyyətlərin mövcudluğunu (əslində bu fikir ümmətçilikdən milliyyətçiliyə keçməyin zəruriliyini göstərir-R.Ə.) qəbul edəcək şəkildə dəyişməlidir. Bu dəyişmə isə əslində məcburidir də. Çünki bugünkü tarixdə görülən ümumi cərəyan irqlərdədir. Dinlər, din olmaq baxımından getdikcə siyasi əhəmiyyətlərini, güclərini, ictimai olmaqdan daha çox şəxsiləşirlər. Cəmiyyətlərdə vicdan azadlığı din birliyinin yerini tutur. Dinlər, cəmiyyətlərin işləri olmaqdan vaz keçərək qəlblərin rahatlığı və ruhi hakimliyini öz üzərinə götürür, ancaq xaliq (Tanrı) ilə məxluq arasındakı vicdanı əlaqə halına gəlir. Başqa sözlə, dinlər irqlərlə birləşərək irqlərə yardımçı və hətta xidmət edici olaraq siyasi və ictimai əhəmiyyətlərini mühafizə edə bilirlər. Xarici əngəllər isə İslamiyyət (islam birliyi – R.Ə.) siyasətinə nisbətən daha az gücə malikdir. Çünki Xristian dövlətlərindən yalnız birinin – Rusiyanın

müsəlman Türk təbəəsi vardır. Bu cəhətdən öz mənfəətləri xatirinə türklərin birləşməməsinə çalışacaq yalnız bu dövlətdir (Rusiya nəzərdə tutulur – R.Ə.). Başqa Xristian dövlətlərə gəlincə, ehtimal ki, bəziləri Rusiyanın *mənafeyinə* zərərli olduğu üçün bu siyasəti müdafiə belə edərlər» (15, 33-35). Bütün bunları şərh etdikdən sonra Yusif Akçuraoğlu «Türk» adı daşıyan qəzetin qayə və məramını tənqid edərək özü belə bir sual qoyur və cavabını da özü verir. O, yazır: «Bu halda hansının (Osmanlı milləti, İslam birliyi, türk birliyinin – R.Ə.) tətbiqinə çalışılmalıdır? «Türk» qəzetinin adını eşitdiyim zaman nəhayət məni rahatsız edən bir suala cavab tapdığıma ümid (edir) və adına görə (qəzetin adı «Türk» idi – R.Ə.) o cavabın da Türklük siyasəti olacağını zənn eyləmişdim. Lakin gördüm ki, hüququ qorunacaq, zehinləri təmizləyəcək, fikirləri sevindirəcək olan türk, sandığım kimi indi belə Xanbalqdan-Çində, Qaradağa, Teymur Yarımadasından Qaralar Elinə (Həbəşistan) qədər Asya, Avropa və Afrikanın mühüm bir hissəsini əhatə edən böyük irqin təmsilçisi olan bir türk olmayıb, ancaq Osmanlı dövləti təbəəsi olan bir Qərb türkünü nəzərdə tutur. «Türk» yalnız onları (Qərb Türklərini – R.Ə.) görür, onları bilir. Və həm də ancaq miladi on dördüncü əsrdən bəri, ancaq Fransız mənbələrinə əsaslanaraq bilir... «Türk» (qəzeti) üçün Türklüyün hərbi, siyasi və mədəni keçmişi yalnız xüdavəndigarlarından (Osmanlı Sultanları nəzərdə tutulur – R.Ə.), Fatehlərdən (Sultan Mehmet Fateh nəzərdə tutulur - R.Ə.)... Nəfilərdən, Bakilərdən (Osmanlı divan şairləri – R.Ə.), Övliya Çələbilərdən (məşhur Türk səyahətçisi)...ibarətdir. Oğuzlara, Çingizlərə, Teymurlara, Uluq bəylərə, Fərabilərə, İbni Sinalara...qədər vara bilmirlər» (15, 35).



Akçuraoğlunun bütün bu fikirlərini nəzərə alan öz müasirləri belə onu Türkçülük hərəkatının başçısı, qurucusu və yayıcısı kimi qəbul etmişlər. Belə ki, türkçülüyü bir sistem halına salan məşhur ideoloq Ziya Goyalp Akçuraoğlu Yusif bəy haqqında yazır: «O zaman Misirdə çıxan «Türk» qəzetində Əli Kamal «Osmanlı Birliyi» fikrini irəli sürərkən Akçuraoğlu Yusif bəylə Fərid bəy «Türk Birliyi» siyasətini tövsiyə edirdilər» (79, 2).

Rus mühacirlərindən panslavyanist, şovinist Zarevand Türkçülük ideologiyasının Rusiyanı parçalayacağından qorxaraq «Türkiyə və panturanizm» əsərində Yusif Akçuraoğlunun «Üç tərzi-siyasət» əsəri haqqında yazır: «Bu kitabçanın (Üç tərzi-siyasət – R.Ə.) pantürkçülər üçün əhəmiyyəti «Kommunist manifesti»nin marksistlər üçün olduğu qədər əhəmiyyətlidir» (59, 111).

Rusiyadakı 1905-ci il və Türkiyədəki 1908-ci il inqilablarından yararlanan Yusif Akçuraoğlu Türk milliyyətçiliyi fikirlərini hər vasitə ilə yaymağa başladı və bu yolda mümkün olan siyasi təşkilatların qurulmasına çalışdı. Bu məqsədlə o, Qazanda «Məhəmmədiyə Mədrəsəsi»ndə tarix, coğrafiya və Osmanlı türk ədəbiyyatı müəllimi kimi tatar gənclərinə milliyyətçiliyi, müasirliyi təlqin etməklə yanaşı, «Qazan müxbiri» adlı bir qəzet də çıxararaq ilk dəfə bütün Şimal türklərini milli bir siyasi təşkilatda birləşdirmək məqsədilə İsmayıl bəy Qaspıralı, Əlimərdan bəy Topçubaşov və Əbdürrəşid Kadı İbrahimovla bərabər çalışaraq «Rusiya Müsəlmanları İttifaqı» adlı firqə yaratdı və firqənin idarə heyətinə üzv olmaqla ümumi katibliyinə seçildi. Bu firqənin əsas qayəsi çar Rusiyasında yaşayan bütün xalqların, o cümlədən Şimal, Türküstan və Azərbaycan türklərinin hüquq bərabərliyinin, milli mədəniyyətinin inkişafının qanunla təsdiq

edilməsi idi. Bu təşkilat I Dumaya seçkilər keçirilərkən ciddi bir fəaliyyət göstərərək, çar Rusiyasındakı türklərin lazımi miqdarda millət vəkili seçilməsinə nail oldu. Bu dövrdə Akçuraoğlu həmçinin «Vakit» və «Tərcüman» qəzetlərində davamlı olaraq türk milliyyəti qayəsinə uyğun olan siyasi və mədəni yazılar dərc etdirdi.

Çar Rusiyasının Yaponiyaya məğlub olması imperiya daxilində bir canlanma yaratmışdı. Bundan istifadə edən türk xalqları da milli birlik fikrinə əsaslanan və ciddi milli təşkilat olan «Rusiya Müsəlmanları İttifaqı» ətrafında sıx birləşdilər. İttifaqın II qurultayında İsmayıl bəy Qaspıralı tərəfindən irəli sürülən və Qurultay tərəfindən sürəkli aqlışlarla qarşılanaraq qəbul edilən «Türklərin əsli, nəsli birdir» tezisi, həmçinin III Qurultayda «Məktəb və Mədrəsə İslam Proqramı»na Əlimərdan bəy Topçubaşovun təklifi ilə əlavə olunan «Sünnilik, Şiəlik yoxdur, ixtilafa son qoyulsun» prinsipi və görülən digər işlər İttifaqa üzv olan Azərbaycan, tatar, başqırd, qazax, özbək və s. türklərin arasında bir birlik yaratdı. Fəqət 1907-ci ildən sonra Çar Rusiyasında təkrar irtica başladı. İkinci Duma dağıdıldı, rus olmayanların zərərinə yeni seçki qanunu qəbul edildi, müxalif və rus olmayan qəzet və jurnalların nəşrinə qadağalar qoyuldu, müxaliflər və milliyyətçilər əleyhinə təqiblər başladı. Bütün bu qadağa və təqiblərə baxmayaraq Yusif Akçuraoğlu «3 iyun Vakayı - Müəssifəsi» adlı bir siyasi oçerk nəşr etdirdi. Bu oçerkdə Akçuraoğlu «Hüquq baxımından bu hadisə (3 iyun 1907-ci ildə İkinci Dumanın dağıdıldması və seçki qanununun dəyişdirilməsi və s. – R.Ə.) nədir? Dövlətə xeyri baxımından nə kimi nəticələr doğuracaq? Bu hadisədən ən çox zərər görən müsəlmanlar bu cəzaya hansı hərəkətlərinə görə layiq görüldülər? Müsəlmanlar bu zərbəyə necə cavab verməlidirlər? – kimi suallar verir və sualları özü də cavablandıraraq türkləri mübarizəyə səsləyir. Oçerkdə oxuyuruq: «XIX əsrdə dünya mədəniyyət tarixinə ən çox təsir edən fikir milliyyət fikridir. Milliyyətçilik məfkurəsinə, bu böyük qüvvətə heç bir şey qalib gələ bilmədi. Yüz minlərlə nizami ordular bu fikir qarşısında yenildi. Bu gün milliyyət fikrini yenə biləcək qüvvət, şiddət, zülm, top, tüfəng deyildir, yalnız milliyyət fikrinin ata və anası olan hürriyyət və bərabərlik fikirləri onu yenə bilər...Müsəlmanlar, ya da əsas etibarilə rus olmayan xalqlar ruslarla olan əlaqələrində nə qədər güc göstərə bilərlərsə, ancaq o qədər hüquqa sahib ola bilərlər...Müsəlmanlar əvvəldən bəri alışdıqları boyun əymək, yalvarmaq və üzə gülmə siyasəti ilə zərbələrdən qorunacaqlarını düşünürlərsə, çox yanılırlar» (14, 139).

Akçuraoğlunun bu risaləsi bütün türk və müsəlman hərəkatının Rusiyada amansız və insafsız düşməni olan şərqşünas alim və senzor professor Smirnov tərəfindən mətbuat qanununa zidd hesab edilərək müəllif məhkəməyə verilmiş və onun təqibinə başlanmışdı. Belə bir zamanda Osmanlı səltənətində Məşrutiyyət elan edilir və bunu eşidən Yusif Akçuraoğlu işlərini qaydaya salaraq İstanbula yollanır. 1908-ci ildən İstanbulda yaradılan bütün milliyyətçi təşkilatlarda və nəşr olunan bütün mətbuat orqanlarında Yusif Akçuraoğlu ən öndə gələn türkçülərdən olmuşdur. Yusif Akçuraoğlu o dövrlərdə «Türk Dərnəyi»ni yaratmış, eyni adda bir jurnal çıxarmış, «Türk Yurdu» Cəmiyyətinin təşkilatlanmasında yaxından iştirak etmiş, Mehmet Emin və Əhməd bəy Ağayevlə birlikdə «Türk Yurdu» jurnalını təsis etmişdir. Sonradan «Türk Dərnəyi» «Türk Ocağı»na birləşmişdi. «Türk Ocağı» və onun orqanı olan «Türk Yurdu» jurnalı Əbdülhəmid dövrü türkçülərindən Vələd

Çələbi, Nəcib Asim, Mehmet Emin, 1912-ci ilə qədər «Gənc Qələmlər» jurnalı ətrafında toplaşmış milliyyətçilərdən Ziya Göyalp, Ömər Seyfəddin, Əli Canib və 1907-ci ildən etibarən Rusiyadakı irticadan qaçaraq yenidən İstanbulda məskunlaşan mühacirlərdən olan Əli bəy Hüseynzadə, Əhməd Ağayev, Məmməd Əmin Rəsulzadə, Əbdürrəşid İbrahimov, Ayaz İshaki və Halim Sabit kimi milliyyətçi türkçüləri öz ətrafında toplayaraq türklərin qədim əsərlərini, xalq ədəbiyyatını, etnoqrafiyasını, qədim və müasir coğrafiyasını araşdırmış, müasir ədəbi, siyasi və mədəni görüşlərinə səhifələrində geniş yer ayırmış, bir sözlə. türkçülük məfkurəsinin yayılmasında öhdəliyi öz üzərinə götürmüşdür. Böyük bir ziyalı ordusunu öz ətrafında birləşdirən «Türk Yurdu Cəmiyyəti» və onun orqanı olan «Türk Yurdu» jurnalı qarşılarına qoyduqları məqsədə çatmaq üçün var-qüvvələrini sərf etdilər. «Türk Ocaqları» ilə «Türk Yurdu»nun birgə səyi nəticəsində türkçülük artıq bir ideologiya səviyyəsinə yüksəldi. Türkçülüyün geniş vüsət almasına və bütün türk dünyasında yayılmasına həmçinin Əhməd Hikmət bəyin «Altun ordu» məqaləsi, Xalidə Ədib xanımın «Yeni Turan» adlı romanı, Müfidə Fərid xanımın qiymətli əsərləri və Parisdəki konfranslardakı yüksək səviyyəli çıxışları, Yaqub Qədrinin, Yahya Kamalın, Falih Rıfkının, Rəfiq Xalidin, Rəşad Nuri Güntəkinin nəsr əsərləri, Sabirin, Hadinin, Abbas Səhhətin, Orxan Seyfinin, Faruk Nafizin, Yusif Ziyanın, Vala Nurəddinin və xüsusilə öz dövründə «Milli şair», «ədəbi türkçülüyün ən böyük siması», Mister Gibbin dediyi kimi: «Türk ədəbiyyatının bu sağlam və təzə şeir qönçəsi» adlandırılan «Mən bir türkəm, dinim, cinsim uludur» deyən Məmməd Əmin Yurdaqulun şeirləri və türkologiya sahəsində ensiklopedik bir alim olan Fuad Köprülünün elmi əsərləri təkan verdi. Artıq türk dünyasında



hər bir ziyalı milliyyətçi olmuş, türkçülük ən öyülən, şərəfli bir iş sayılmışdır. Türkçülük prinsipləri hakimiyyətə gəlmiş «İttihad və Tərəqqi» Cəmiyyəti tərəfindən də dəstəkləndikdən və məşhur türkçü Ziya Göyalpın da bu təşkilatın Mərkəzi Şurasına üzv olmasından sonra Türkiyə hökumətinin rəsmi ideologiyasına çevrilməsi türkçülüyün daha da güclənməsi və tərəfdarlarının artmasına yol açdı. Hökumətin əsas fiqurları olan vitse-generalissimus Ənvər paşanın, Tələt paşanın, Xəlil paşanın və başqalarının türrçülük ideologiyasını qəbul etməsi ilə maarifçi və ideoloji türkçülüklə siyasi və hərbi türkçülük birləşərək «Turançılıq» məfkurəsini ön plana çıxardı. «Turançılığın» xarici siyasətdə tətbiqinə başlanmasına, məktəb və mədrəsələrdə və hətta hərbi məktəblərdə türkçülüyün tədrisi bu cərəyana bütün türk dünyasında böyük maraq yaratdı.

Türkçülərə görə türk dili, türk tarixi, türk ədəbiyyatı, türk mədəniyyəti yalnız bir türk xalqının, məsələn, Osmanlının malı deyil. Bütün türklük bir küllüdür, bir millətdir və bütün bu mədəniyyət ümumtürk mədəniyyətidir.

Bütün türkçülər milli ideologiyada yekdil idilər. Sayları az, inamları qüvvətli olan bu tərəqqipərvər milliyyətçilər, bu tarixi şəxsiyyətlər milli ideologiyanın qüdrətinə inanaraq bütün türklüyün donub qalmış təfəkkürünü dəyişdirməyə, onun tarixini, dilini, ədəbiyyatını, mədəniyyətini, haqqını, şərəfini özünə qaytarmağa çalışmış və bu məqsədlə siyasi-ideoloji bir təşkilatı - «İttihad və Tərəqqi» Cəmiyyətini yaratmışdılar.

«İttihad və Tərəqqi» Cəmiyyətinə birləşən «Osmanlı Hürriyyət Cəmiyyəti», Ənvər paşa və Tələt paşanın üzv olduğu «Səlanik Cəmiyyəti» Sultan II Əbdülhəmidi taxtdan saldıqdan sonra Osmanlı dövlətinin müqəddaratını öz üzərinə götürdü və 1918-ci ilin sonlarına qədər bu dövləti idarə etdi.

On illik hakimiyyəti dövründə ittihad və tərəqqiçilər dövləti hər yöndən yeniləşdirdilər: Şəhərlərdə bələdiyyələr yaradıldı, paytaxt İstanbulda asayiş bərpa edildi, yanğınsöndürmə işləri Qərb üsulunda tənzimləndi, paytaxtın təmizliyi təmin edildi, kənd təsərrüfatı və iqtisadiyyatın inkişafında milli bankların əhəmiyyəti nəzərə alınaraq Kənd Təsərrüfatı Bankı, Osmanlı Milli Bankı, Türk Ticarət Bankı yaradıldı. Türk qadınına kişilərlə bərabər hüquqlar verildi. İstanbulda Qadın Universiteti açılmış və türk qadınları universitetdə təhsil almaq hüququ qazanmışdılar. Yeni Rüşdiyyə məktəbləri və orta məktəblər açılmış, yeni düşüncəli din xadimləri yetişdirmək məqsədi ilə mədrəsələrin tədris proqramlarına pozitiv elmlər daxil edilmişdi. «Osmanlılığın» iflasa uğraması ilə «ümmətçilikdən» imtina edilərək, yeni milliyyətçilik olan türkçülük ideoloji-siyasi sistemi qəbul edilmişdi.

Türkçülüyün «türk milliyyətçiliyi» bayrağı altında səhnəyə çıxması o dövrdə yalnız Türkiyə milli ziyalılarını deyil, bütün dünyadakı türk milli ziyalılarını bir araya topladı. Türkçülük ideologiyası türklərin tarixən yaşadıqları ərazilərin adı ilə bağlanaraq «Turançılıq» adı altında anladılmağa başlandı.

Başda Ziya Göyalp olmaqla Yusif Akçuraoğlu, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məmməd Əmin Rəsulzadə, Köprülüzadə Mehmet Fuat, Nəcib Asim və başqaları türkçülüyün elmi əsaslarını işləyib hazırladılar.

Azərbaycan milli qurtuluş hərəkatının ideoloqu və lideri, Azərbaycan siyasi türkçülüyünün ən böyük nümayəndəsi, Azərbaycan Demokratik Cümhuriyyətinin banisi Məmməd Əmin Rəsulzadə istər İranda Məşrutə inqilabında iştirak edərək fars dilində buraxdığı Avropa tipli «İrani-nou» qəzetindəki milli, siyasi, ictimai, əxlaqi və ədəbi yazıları, istər İstanbulda olduğu dövrlərdə «Türk Yurdu» jurnalındakı İran mücahidləri, İran türkləri haqqındakı elmi-siyasi məqalələri və istərsə də uzun sürən mühacirətdən sonra Bakıya dönərək «İqbal», «Şəlalə», «Bəsirət», «Dirilik» və başqa mətbuat orqanlarındakı milli dilə, qadın azadlığı məsələsinə, türkçülüyə, türk dilinin məktəblərdə tədrisi məsələlərinə, bir sözlə, Azərbaycanın, bütün türk dünyasının, Şərqin və Qərbin ictimai-siyasi, fəlsəfi-ideoloji, ədəbi və mədəni həyatında baş verən hadisələrə həsr etdiyi dərin məzmunlu məqalələri ilə gələcək müstəqil, demokratik, milli dövlətin fəlsəfi-ideoloji, siyasi-iqtisadi əsaslarını yaradırdı.

M.Ə.Rəsulzadənin ən böyük xidmətlərindən biri də 1911-ci ildə Bakıda Nağıoğlu Tağı, Rəsulzadə Məmməd Əli və Kazımzadə Abbas bəylərin yaratdığı «Müsavat» partiyasına yeni yön vermәsindədir. Yarandığı dövrdə ideoloji cəhətdən islamçı, taktiki - siyasi cəhətdən inqilabçı, sosial-ictimai cəhətdən xalqçı olan «Müsavat» partiyasının ilk qayəsi rus imperializminə qarşı müstəqil müsəlman dövlətlərinin istiqlaliyyətini müdafiə etmək və çar Rusiyasındakı bütün məhkum müsəlman millətlərinin mülkiyyət və hüquq bərabərliyinə qovuşmalarına çalışmaq olmuşdur. M.Ə.Rəsulzadənin İstanbulda siyasi mühacir olaraq bu təşkilata göndərdiyi məktub və yeni türkçülüyə aid əsərlər və Bakıya qayıtdıqdan sonra «Müsavat» partiyasına rəhbərliyi bu təşkilatın ideologiyasında çox mühüm və əsaslı dəyişikliklər yaratdı, onun «ümmətçilikdən» «milliyyətçiliyə», «islamçılıqdan» «türkçülüyə» keçməsinə səbəb oldu. M.Ə.Rəsulzadə silsilə yazıları ilə partiyanın türkçü və istiqlalçı ideologiyasını və inqilabçı taktikasını qəti şəkildə təsbit edərək bu ideologiyanı rəhbərlik etdiyi «Açıq söz» qəzeti vasitəsilə yaymağa və ictimai fikri bu yolla formalaşdırmağa nail oldu.

M.Ə.Rəsulzadə həmçinin o dövrlərdə rəsmi fəaliyyət göstərən bir sıra mədəniyyət cəmiyyətləri, maarif və xeyriyyə təşkilatları ilə əlaqə yaradaraq milliyyətçi kadrların hazırlanmasında, milli mənafelərin ön palana çıxmasında, milli ziyalıları «Müsavat» partiyası ətrafında toplamaqda bütün gücünü sərf etdi. O, «Müsavat» partiyasını milliyyətçiliyi, istiqlalçılığı, xalqçılığı, demokratiya və cümhuriyyətçiliyi ilə bütün islam Şərqində ilk Avropa tipli bir firqəyə çevirdi.

M.Ə.Rəsulzadə Yusif bəy Nəsibbəyli tərəfindən 1914-cü ildə Gəncədə yaradılan «Türk Ədəmi-Mərkəziyyət» firqəsinin «Müsavat»la birləşməsinə nail olduqdan sonra Azərbaycandakı bütün milli qüvvələri öz ətrafında cəmləşdirərək, Azərbaycan milli hərəkatının öndərinə çevrildi.

İrandakı Məşrutə inqilabında iştirakı, İstanbulda olduğu müddətdə ən böyük türkçülərlə birgə fəaliyyəti, idtihad və tərəqqiçilərdən olan Ənvər paşa, Tələt paşa ilə yaxın əlaqəsi və ən başlıcası, ağlı, iradəsi və cəsarəti M.Ə.Rəsulzadəni XX əsr Azərbaycanında ən böyük şəxsiyyətlərdən biri səviyyəsinə yüksəltdi.

Başda Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev və Məmməd Əmin olmaqla Azərbaycanın o dövrdəki siyasi xadimləri siyasi türkçülüyü ilk dəfə proqram halına salan və dünyadakı əsir türklərin hürriyyət və istiqlallarını tələb edən ilk mücahidlər idilər. Onlar, xüsusilə Ə.Ağayev və M.Ə.Rəsulzadə ümmətçilik əvəzinə milliyyətçilik, islamçılıq əvəzinə türkçülük ideologiyasını irəli sürmüş, maarifçi milliyyətçiliklə siyasi milliyyətçiliyi çulğalaşdıraraq belə bir fəlsəfi fikri əsaslandırmışlar ki: «Siyasi və milli dövlətə...milli hürriyyət və milli istiqlala malik olmayan millətlərin milli varlıq və milli mədəniyyətlərini qoruyub inkişaf etdirmələri imkan xaricindədir» (49, 8).



Heç təsadüfi deyil ki, M.Ə.Rəsulzadənin israrlı tələbi ilə 1917-ci ilin aprel ayında Bakıda toplanan Qafqaz Müsəlmanları qurultayı Rusiyanın milli dövlətlərə parçalanmasını qərara almışdı. Həmçinin onun davamlı müdafiəsi və israrlı tələbi ilə Zaqafqaziya Seymi 1918-ci ilin aprelində Qafqazın Rusiyadan ayrı müştəqil bir dövlət olmasına qərar vermişdi. Bütün bunlar o dövrdə M.Ə.Rəsulzadəni bütün məhkum türklərin lideri səviyyəsinə yüksəltmişdi.

«Müsavatçılıq» milli bir ideologiya səviyyəsinə qaldıran, millətin bütün fikir, duyğu və ehtiyaclarını toplu bir halda nizama salmağa çalışan, millətin mənəvi birliyini hər şeydən üstün tutan, mədəniyyəti bütün millətlərin əməyinin yekunu hesab edən, bütün türkçülərə, xüsusilə müəllimi hesab etdiyi Əli bəy Hüseynzadəyə yüksək qiymət verən M.Ə.Rəsulzadə milli dil məsələsində ona belə güzəştə getməmiş, öz əsl türklülüyünü əməldə olduğu kimi yazılarında da təsdiq etmişdir. O, yazırdı: «Əli bəy həzrətlərinin (Əli bəy Hüseynzadənin) yazılarına valeh olmamaq və onu nümunə götürməmək mümkün deyildi. Çünki elə ülvi bir sənət və fəzilətə təslim olmamaq hələ məsləklərində möhkəmlənməmiş olan cavanların iqtidarında deyildi. Mən əminəm ki, əgər Əli bəy yazılarını «loru» dildə, yəni avamın anlayacağına yaxın bir dildə yazsaydı, mütləqa o «loru» dil cavanlarımız tərəfindən nümunə kimi götürülərdi...Məncə böyük yazıçıları sevdirən üslub deyil, bəlkə də nəhəng yazılar, kəskin fikirlər, dərin düşüncələrdir ki, üslubu bəyəndirirlər» (58, 220). «... A... qəzetçilər, biz sizin dilinizi anlamırıq – deyə qışqıran zavallı oxucular – sanki bizim onların oxumaqlarına heç ehtiyacımız yoxmuş kimi – canınız çıxsın, öz ana dilinizdir, öyrənin – yönlü xudbinanə və məğruranə bir cavab verdik. Cavab verdik, amma cəzasını da çəkdik. Qəzetçilikdə

olan müvəffəqiyyətsizlik göstərdi ki, biz böyük səhvdə imişik və bu səhvimiz təəssüf ki, indi də təkrar edilməkdədir. Məncə, o, bundan ibarətdir ki, Qafqaz türk mətbuatının bir qismi müstəsna olmaqla özünü dil müəllimi hesab elədi və o sürətlə hərəkət etdi və edir. Halbuki mətbuatın təsisindən məqsəd əhaliyə dil öyrətmək deyil, əhalinin bildiyi və danışdığı bir dillə dirilik mübarizəsində möhtac olduğu şeyləri öyrətmək idi» (58, 221).

Türkiyədə türkçülərin yaratdığı cərəyanın irəli sürdüyü «Yeni lisan» məsələsini M.Ə.Rəsulzadə belə dəyərləndirir: «Yeni lisan» demokratizmlə milliyyətçiliyin vücuda gətirdiyi bir cərəyandır. Hələ millətçilik amili birinciliyi təşkil edir. Məlum olduğu üzrə siyasi istiqlallar dil, ədəbiyyat, iqtisad və mədəni istiqlalların yaradıcısıdır. Bir millət bu kimi istiqlallara malik olmaz və bu istiqlalların tarixi bir qiymət və əhəmiyyəti itmiş olarsa, o millətin siyasi istiqlalı da müvəqqəti olar, mətin əsaslar üzərinə oturmuş olmaz» (58, 221-222).

M.Ə.Rəsulzadə «Yeni lisançılar və Türkçülər» adlı məqaləsində («Şəlalə» № 24, 25, 20 və 27 iyul, 1913) Osmanlı ədəbiyyatını təhlil edərək yazır: «Osmanlı ədəbiyyatı əvvəl tamamilə Şərq əsərlərinin təsiri altında idi. Ondan sonra Qərb ədəbiyyatını təqlid etməyə başladı. Fəqət əvvəlki təqlid kimi bu təqlid də (formal) zahiri xarakter daşıdı. Əsl Qərb ədəbiyyatında gündən-günə kökləşən (kök salan - R.Ə) xalqçılıq nədənsə Osmanlı ədəbiyyatına...nüfuz edə bilmədi» (58, 226).

Osmanlı ədəbiyyatının nəhəng şəxsiyyətlərindən olan İbrahim Şinasini, Namiq Kamalı, Əbdülhəqq Hamidi, Tofiq Fikrəti yüksək qiymətləndirən M.Ə.Rəsulzadə onların fikirlərini, vətənpərvərliyini dəyərləndirərək yazırdı: «Şinasi



əfəndi ədəbiyyatda böyük bir inqilab vücuda gətirdisə də onun davamçıları o inqilabı lazımınca təkmilləşdirə bilmədilər. Şinasi inqilabının məntiqi nəticəsi getdikcə ədəbi dilin xalq dilinə yaxmlaşdırılmasndan ibarət idi. Halbuki əməldə belə olmurdu...Namiq Kamal bəyin rəqabət edilə bilməyəcək ədəbi qüdrəti sayəsində vücuda gətirdiyi ədəbiyyat yenə xalqdan çox uzaqlarda idi. ...(Lakin) Namiq Kamal bəydəki vətənpərvərliyi, ondakı amalpərəstliyi inkar etmək Günəşi danmaq qədər bir korluq olar...Müasirlərimizdən Əbdülhəqq Hamid bəylə Tofiq Fikrət bəydə yüksək fikirlər və ülvi hisslər olduqca təqdirəlayiqdir» (58, 226).

M.Ə.Rəsulzadə bütün Osmanlı ədəbiyyatını təhlil süzgəcindən keçirdikdən sonra belə bir nəticəyə gəlir ki: «Köhnə Türkiyədə xalqı hər kəs yadından çıxartmışdı. Xalqı kimsə düşünməz, onun ehtiyaclarına bir adam olsun qulaq asmazdı. Bu zavallı xalqı...ədəbiyyatı da unutmuşdu. Arayınız Osmanlı ədəbiyyatını, gəziniz bütün divanları, araşdırınız bütün kitabxanaları, Anadolu haqqında əgər mühüm bir əsərə təsadüf etsəniz. Türkiyədə zənn edirəm ki, Anadoludan məchul daha bir nöqtə yoxdur...Anadolunun ehtiyaclarını göstərən, onun dərdlərini andıran, millətin əhval və məişətini təsvir edən bir əsərə (belə) təsadüf etməzsiniz» (58, 227).

Bu məşhur məqaləsində M.Ə.Rəsulzadə sözün həqiqi mənasında bir türkçü, türk millətini sevən, onun dərdlərini dilə gətirən bir ictimai xadim, onun parlaq gələcəyini türkçü və xalqçıların nəzəri cəhətdən irəli sürdüyü fikir və mülahizələrdə görürdü. Sadə türkün, əsrlər boyu dövlət səltənətinin bütün ağır yükünü dalında daşıyan səbirli, təmkinli, imanlı xalqın, yalnız müharibə əsnalarında yada salınan türkün qəhrəmanını, alimini, şairini, yazıçısını,

əsgərini, paşasını, xanını, bəyini, sultanını, əkinçisini, sənətkarını sinəsindən çıxaran bir xalqın bu dərəcədə aşağılanmasına dözə bilməyən türkçülər məhz bu şeyin millətdə, xalqda olduğunu dərk edərək xalqa doğru getməyə başlamışdılar. Onlar heç bir zaman razı ola bilməzdilər ki, türk xalqı ədəbiyyatsız qalsın.

«Yeni lisançılar və Türkçülər» adlı məqaləsində M.Ə.Rəsulzadə İstanbul xatirələrindən danışarkən ən yüksək qiyməti o dövrün ən məşhur türkçü şairi Məhəmməd Əmin Yurdaqula vermişdir. Məqalənin yarısını onun yaradıcılığına həsr etmiş, əsərlərindən nümunələr gətirmiş və Yurdaqulun yaradıcılığı haqqındakı fikir və mülahizələrini qələmə almış M.Ə.Rəsulzadə yazır: «... Bu yeni türkçülük və xalqçılıq ədəbi məsləkini tədqiq edərkən ilk əvvəl məşhur türk şairi Məmməd Əmin bəy üzərində dayanmanız lazım gəlir. Zənn edirəm ki, Türkiyədə Məmməd Əmin bəy qədər kimsə xalqı sevməmişdir... Sizi əmin edə bilərəm ki, İstanbul xatiratının içərisində ən çox şiddətlisi Məmməd Əmin bəyin şeir oxumasından hasil etdiyim təsirlərdir... Məmməd Əmin bəy sadə türkcə yazar, ərəbcə, farsca tərkiblər qətiyyən işlətməz... Məmməd Əminin vəznləri də türkcədir. O, ərəb vəzni olan əruz qaydaları ilə şeir yazmaz. O, milli türkcə vəznlə yazar... Ən başlıcası bu ki, bu...yazılan şeirləri xalq anlayır, sevə-sevə oxuyur» (58, 229). Məqalənin son hissəsində alman şərqşünası doktor Şeirrinin Məmməd Əmin Yurdaqulun «Anadolu» şeirinin qısa təhlilinin M.Ə.Rəsulzadə tərəfindən tərcüməsi və şeirdən parçalar verilmişdir. Məqalə alman şərqşünası Şeirrinin bu sözləri ilə bitir: «Məmməd Əmin türkcə şeirlərilə millətinin gözlərini açır ki, bünyəsindəki (bədənindəki – R.Ə.) yaraları göstərsin. Əski incə şeiri təmsil edənlər, onun sərt və diri sənətini bəyənməyə bilərlər, (ancaq) o, millətinin bir mürəbbisi (tərbiyəçisi)dir və elə də qalacaqdır» (58, 232).

Bütün türkçülər kimi M.Ə.Rəsulzadə də millətin formalaşmasında və bütünləşməsində dilə mühüm əhəmiyyət vermişdir. Bu məsələ ilə bağlı onun xeyli məqalələri vardır. Bu məqalələrdə M.Ə.Rəsulzadə dili mühüm bir ictimai amil hesab etmiş, dünya işlərində dil birliyinin təsirini din birliyindən daha güclü saymışdır. M.Ə.Rəsulzadəyə görə «dil təbiidir, ona görə də əsasdır. Millətlə bərabər yaranır. Dilsiz bir millət olmadığı kimi, millətsiz də bir dil ola bilməz. Dil bir milliyyətin yeganə rüknü deyildir. Bir millət vücuda gəlmək üçün dili ilə bərabər digər iştiraklı şeylər də vardır. Fəqət dil bunların ən mühümüdür. Dil milliyyət həyatının ən mükəmməl bir şəklidir. Dil bir millətin ən qiymətli sərvətini, həyatının ən ali mənbəyini təşkil edir. Bir milləti dildən yaxşı təmsil edən olmaz. Bugünkü milliyyət məfhumuna dillə bərabər din, tarix və adət-ənənələr də daxildir. Qədimdə isə «dil» demək «millət» demək hökmündə idi...Milliyyət naminə vaqe olan mübarizələr bir kərə tədqiq olunarsa, görünər ki, ən çox müdafiə olunan dildir. Milliyyət və milli mədəniyyət naminə icra olunan mübarizələrin dil və dilə bağlı olan məktəb, ədəbiyyat, mətbuat uğrunda olduğu aşkardır...Millət dil vasitəsilə bütün məziyyət və mövcudiyyətini ərz edə bilər. Onun (dilin – R.Ə.) qanı, canı vardır. Millətlə bərabər doğulur, onunla bərabər yaşayır, tərəqqi edir...Bir dil bir alimin xüsusi surətdə ixtira elədiyi bir şey deyildir. Dil milyonlarla insanların və bir çox nəsillərin müştərək vücuda gətirdikləri bir sevgilidir. Dil qanlı və canlı bir varlıqdır. Dil millətin canıdır. Dil millətin məntiqi, ruhu və onun müştərək şəxsiyyətidir. Məhz bunun üçündür ki, bir dili öldürmək bir milləti öldürmək deməkdir... Dil durduqca, millət də durar,

öldümü, millət də canını bağışlayar. Dillərini unutmağa başlayan millətlər axırı qəti bir ölüm olan fəlakətli bir yola girmişlərdir...Dil millətin ən doğru bir təmsilçisi olduğu kimi, millətlərin yeganə tərəqqi vasitəsidir də. Millətləri ... mədəni və mütərəqqi qalmaq üçün dinlərindən deyil, dillərindən istifadə edilir. Hətta dinin müdafiəsi üçün belə dilə ehtiyac vardır. Bir millətin həyatında maddi və mənəvi cəhətdən bu qədər bir əhəmiyyətə malik olan dili biz Azərbaycan türkləri vaxtilə unutmaq üzrə idik. Tamamilə farslaşdığımız bir zamanlar vardı. Türk ədəbiyyatı bilməzdik. Türkcə avama məxsus bir dil sayılır, xas farsı və ərəbi bilməsilə iftixar edərdi...Dilimizi həqiqətən də millətimizin ruhu, onun davamlı vasitəçisi görmək istəyiriksə, onu milli cəmiyyətimizdə ən mühüm birlik və inkişaf amili hesab ediriksə, yazımız ilə danışığımız arasında olan fərqi azaltmalıyıq» (58, 233-235).

Bütün türkçülər kimi M.Ə.Rəsulzadənin də dilə bu dərəcədə əhəmiyyət verməsi, Cəmaləddin Əfqani kimi dili dindən də üstün hesab etməsi onun milliyyətçilik ideologiyasına tam yiyələnməsinin göstəricilərindəndir. Yazılı dillə şifahi dili bir-birinə yaxınlaşdırmaqla əslində M.Ə.Rəsulzadə gələcək milli dövlət quruculuğunda ziyalılarla xalqın birliyini təmin etmək məqsədi güdmüşdür. Bununla o xəyalında qurduğu milli Azərbaycan dövlətinin ən əsas sütununu yaradırdı. Bu məqsədlə o, anadilli mütəxəssislər hazırlamaq üçün hətta rus-müsəlman məktəblərində türk dilində dərs keçirilməsini zəruri sayırdı. Onun 4 iyul 1913-cü il «İqbal» qəzetinin 402-ci sayındakı «Rus-müsəlman məktəblərində Türkcə tədrisi» adlı məqaləsi milli cəhətdən çox xarakterikdir. Məqalədə ana dilini bilməyən ziyalıların gələcəkdə xəcalət çəkəcəklərini, bu mühitdən uzaqlaşacaqlarını və başqa bir mühitə də tam alışa bilməyəcəklərini göstərərək onları ana dilini öyrənməyə və millətə xidmətə səsləyirdi. Müəllif onlara xitabən qeyd edirdi ki, onlar «qəbul etməlidir, bilməlidir ki, milliyyətimizi mühafizə üçün milliyyətin rükni-əvvəli olan dilimizi saxlamalıyız. Bunu saxlamaq üçün vəsilə olaraq rus-müsəlman məktəbləri ilə xüsusi məktəblərə malikiz. Ona görə də oralarda türkcə tədrisə mümkün olduğu qədər əhəmiyyət verməli və onun tərəqqisinə çalışmalıyıq. Bu yalnız bizim milli nöqteyi-nəzərimizdən deyil, ümumi nöqteyi-nəzərdən də lazımdır. Öz dilini bilməyib də sırf başqa bir dildə danışanlar bir dərəcəyədək gülünc olurlar...Bundan itirən yalnız millət deyil, bəşəriyyətdir. Bəşəriyyətə eyb etdirən ünsürlər bir məmləkətdə çoxalarsa, məmləkəti də qeyb etdirər...Ümid edək ki, bu dəfə rus-müsəlman məktəblərində Türkcə tədris məsələsi təkrar məktəblər komissiyasında qaldırılarsa, komissiya üzvləri də gözlərini açarlar və xaricdən gələn məchul «təzyiqlərə» çox da baxmazlar» (58, 254).

M.Ə.Rəsulzadənin 1914-cü ildə «Dirilik» jurnalında çap edilən *silsilə yazıları* məhz milllətə, milli diriliyə, milli mədəniyyətə, milli əxlaqa, adət-ənənəyə, tarixi keçmişə və ən başlıcası, dil və din birliyinə həsr edilmiş, bir sözlə, Ziya Göyalpın proqramlaşdırdığı türkçülüyün bütün atributlarını elmi və praktiki şəkildə təsbit etmişdir. Bu silsilə yazılardan çıxan əsas nəticələr gələcəkdə qurulacaq milli dövlətin ideoloji, siyasi, iqtisadi və ən başlıcası, fəlsəfi sistemini müəyyənləşdirirdi. Bu yazılar Əli bəy Hüseynzadənin «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» düsturu ilə və əsasən Ziya Göyalpın «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» tezisi ilə səslənsə də, daha çox Azərbaycan türklərinin gələcəyini müəyyənləşdirəcək siyasi Türkçülük, İstiqlalçılıq və Azərbaycançılıq kimi ideoloji sistemin formalaşmasına

xidmət edirdi. Bir sözlə, bu yazılar «Turançılıq»dan daha çox «Azərbaycançılığı», Azərbaycan türklərinin gələcək taleyini əks etdirirdi. Bu yazılarda M.Ə.Rəsulzadə Azərbaycanın keçmişi, bu günü və gələcəyi ilə bağlı elə bir məsələ yoxdur ki, ona bu və ya digər dərəcədə münasibət bildirməsin, nə lazım olduğunu elmi-fəlsəfi cəhətdən müəyyənləşdirməsin. M.Ə.Rəsulzadənin əsərlərindən seçdiyimiz aşağıdakı fikir və mülahizələr bunu bir daha təsdiq edir. O yazır:

«Dünyanın sivilizasiyalı millətləri öz həyat tərzlərini təmin etmək üçün cəhənnəm silahları ilə silahlanıb birbirlərinin üstünə hücum edirlər...İstədikləri kimi yaşamaq üçün ölümü qəbul edirlər. Dirilmək üçün ölürlər. Avropa diriliyi bu dərəcədə əziz tutur və ona bu qədər əhəmiyyət verir. Halbuki Şərqdə, xüsusilə İslam Şərqində yalnız mövcud olmaq üçün dirilirlər. Başqalarında məqsəd dirilikdirsə, bizim məqsədimiz ölümdür. Məhz diriliyi və dirilik fikrini avropalılar kimi anlayıb və anlada bilmək diriliyin məqsədini təşkil edir. Avropalılara görə dirilik məhz qüvvətli olmaqdan ibarətdir. Bədəncə və ruhən qüvvətli olmaq. Hər bir insan və hər bir millət elmi və bədən cəhətdən qüvvətli olmayınca dünyada yaşaya bilmək nemətindən məhrumdur. Yaşaya bilmək üçün lazım gəldikdə yaşamağı belə fəda edə biləcək qədər rəşadətli olan millətlər dünyada yaşamaq haqqı qazanırlar... Dirilik elmən, ruhən və cismən qüvvətli olmaqdan, diriliyi və ... dünyanı sevməkdən ibarətdir. Xüsusi diriliklərin ən mükəmməl şəkli ..., ən qiymətlisi də milli diriliklərdir... Bir millətin ölməsi və yaxud ölgün fikirlərlə yaşaması yalnız özünün bədbəxtliyi deyil, bəşəriyyətin də böyük bir nöqsanıdır... Filosoflar və sufilər nə deyirlərsə desinlər, dirilik dünyanı sevməkdən və öz hüquq və namusunu mühafizə edə biləcək qədər qüvvətli olmaqdan ibarətdir» (58, 461-463).



M.Ə.Rəsulzadənin «Dirilik» jurnalındakı «Milli dirilik» başlıqlı yazıları demək olar ki, Avropa ilə Şərqin müqayisəsinə həsr edilmiş, Azərbaycan xalqının milli istiqlalını əldə etməsi üçün yollar göstərilmişdir. Bu silsilə yazılarda müəllif mədəniyyətlə milli mədəniyyətin, ziyalı ilə milli ziyalının, maddiyyatla mənəviyyatın, kosmopolit təfəkkürlə milliyyətçiliyin, ümmətlə millətin, düşüncə ilə əməlin, süni ədəbiyyatla həqiqi ədəbiyyatın sərhədlərini müəyyənləşdirmiş, millətin formalaşmasında milli dəyərlər olan dilin, ədəbiyyatın, dinin, mədəniyyətin, tarixin, adət və ənənələrin rolunu qiymətləndirmiş və belə bir nəticəyə gəlmişdir ki, milli ziyalısı, milli mədəniyyəti, milli dili, milli ədəbiyyatı, milli düşüncə tərzi, milli mənəviyyatı olmayan bir millət özgələşər, başqalarına yem olar. Bu silsilə yazıları ilə M.Ə.Rəsulzadə Azərbaycanda ilk dəfə olaraq millətin elmi tərifini vermiş və bununla da özünə qədərki dini, siyasi, iqtisadi, coğrafi amillərə dayanan siyasi dövlət milliyyətçiliyi nəzəriyyəsini altüst etmişdir. M.Ə.Rəsulzadəyə görə «Millət, dil birliyi, adət və əxlaq birliyi, tarixi, mədəni və nəhayət, dini etiqadlar birliklərinin məcmusundan mütəşəkkil bir məhsuldur» (58, 468).

Bütün bu elmi, fəlsəfi, ideoloji yazıları ilə kifayətlənməyən M.Ə.Rəsulzadə fəal siyasi fəaliyyətə başlayaraq «İnsanlara hürriyyət, millətlərə istiqlal» şüarı ilə meydana atılır. Birinci dünya müharibəsi və xüsusilə 1917-ci il inqilabı çar Rusiyasını tarixə mal etdiyi bir dönəmdə gələcək Rusiyanı ayrı-ayrı milli dövlətlərdən ibarət İsveçrə tipli federasiyalı bir Cümhuriyyət halında görmək istəyən «Milli-məhəlli (ərazi) müxtariyyətçilər arasında M.Ə.Rəsulzadə daha böyük nüfuza malik idi. Federalistlərə görə bu federasiyanın əsasını slavyanlar və türklər təşkil etməli idi. Türk Federasiyası

Azərbaycan, Qafqaz, Türküstan, Volqa-Ural, Krım və Sibir türklərini içinə alacaq əzəmətli bir Federasiya subyekti olacaqdı. Müvəqqəti hökumət dönəmində bu ideyanı müdafiə edən V.İ.Lenin hakimiyyət bolşeviklərin əlinə keçdikdən sonra vədinə xilaf çıxdı. Vəziyyəti belə görən M.Ə.Rəsulzadə və silahdaşları gürcü milliyyətçiləri ilə Qafqazı Rusiyadan ayırıb Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistandan ibarət bir konfederasiya təşkil etdilər. Fəqət bu Qafqaz Konfederasiyasının ömrü çox az oldu. «Qafqaz seymi 26 may 1918-ci ildə Tiflisdə toplandığı son iclasında özünü buraxdı və Qafqaz Cümhuriyyətinin sona çatdığını bildirdi...26 May 1918-ci ildə Gürcüstan öz müstəqilliyini elan etdi. Həmin gün Ermənilər də öz müstəqil dövlətlərini elan etdilər. Nəhayət, Azərbaycan da 28 May 1918-ci ildə öz müstəqilliyini elan etdi» (3, 476-477).

Zaqafqaziya seyminin azərbaycanlı millət vəkilləri fraksiyası seym özünü buraxan kimi «Azərbaycan Milli Şurası» elan edərək sədrliyə Məmməd Əmin Rəsulzadəni seçmişdi. Milli Şura tarixdə məşhur «İstiqlal Bəyannaməsi» ilə Azərbaycanı müstəqil dövlət elan etmişdir. Milli Şuranın sədri M.Ə.Rəsulzadə «Milli Şura» adından «İstiqlal Bəyannaməsi»ni elan etdikdən sonra Azərbaycan Parlamentində Hökumət Koalisiyasını təşkil edən partiyalar blokunun sədrliyi vəzifəsini də icra etmişdir. 23 aylıq Azərbaycan Demokratik Respublikasının başçısı olan M.Ə.Rəsulzadə ilk dəfə olaraq «Türkçülük, İslamçılıq və Müasirlik» ideologiyasını rəsmi dövlət ideologiyası elan etmiş, Demokratik Cümhuriyyətin, başda Dövlət Bayrağı olmaqla bütün rəsmi atributlarını bu əsasda təsis etmişdir. M.Ə.Rəsulzadənin sədrliyi ilə Azərbaycan Parlementi və hökuməti az bir zamanda Azərbaycan Dövlətinin idarə formasını təsbit etmiş, milli



pulu dövriyyəyə buraxmış, milli ordu yaratmış, ölkədaxili əmin-amanlığı bərpa etmiş, Bakını daşnak-bolşeviklərdən azad edərək Azərbaycan Cümhuriyyətinin paytaxtı elan etmiş, hərbi məktəblər təsis etmiş, ölkənin müxtəlif yerlərində xeyli kişi və qadın müəllim məktəbləri açmış, Bakı şəhərində universitet təsis etmiş, onu müəllim-professor heyəti ilə təmin etmiş, dövlət işlərini idarə etmək məqsədilə müxtəlif ixtisaslara yiyələnmək üçün hökumət hesabına Avropa və dünyanın müxtəlif ölkələrinə tələbə göndərmiş, ümumi maarifin genişləndirilməsi məqsədi ilə pedaqoji kurslar təşkil etmiş, Türk dilini (Azərbaycan Türkcəsini) rəsmi dövlət dili elan etmiş, yerli özünüidarə forması olan bələdiyyələrin formalaşmasına çalışmış, torpaq islahatını həyata keçirərək əsrlər boyu torpağa həsrət qalmış Azərbaycan kəndlisinə torpaq paylamış, iqtisadi reformalar həyata keçirmiş, sosial sistem kimi milli təsanüdü-solidarizmi irəli sürmüş, bir sözlə, Milli Demokratik Cümhuriyyətin formalaşması üçün ideoloji, siyasi, hüquqi və iqtisadi amilləri yerinə yetirməyə səy göstərmişdir. Daxili siyasətdə olduğu kimi, xarici siyasətdə də M.Ə.Rəsulzadənin liderliyi ilə Azərbaycan Parlamenti və Milli Hökuməti Azərbaycan xalqının mənafeyinə uyğun siyasət yeridərək vətəndaşların əldə etmək və əldə saxlamaq istədiyi milli hədəfləri onun istəyinə görə müəyyənləşdirmiş, bütün qonşuları ilə dinc yanaşı yaşamaq prinsiplərinə əməl etmiş, qonşu ölkələrdə öz diplomatik səfirlik və konsulluqlarını yaratmış, həmçinin qonşu ölkələrin səfirlik və konsulluqlarının Azərbaycanda fəaliyyətini təmin etmişdir.

Çox təəssüflər olsun ki, az bir zamanda bu qədər iş görən bir Milli Hökumət xəyanət nəticəsində devrildi, Azərbaycan 27 aprel 1920-ci ildə bolşevik Rusiya tərəfindən istila edildi. M.Ə.Rəsulzadə həbs edilərək Çekanın

həbsxanasına salınmış, Stalinin müdaxiləsi ilə həbsxanadan çıxarılıb Moskvaya aparılmış, iki ilə yaxın nəzarətdə saxlandıqdan sonra 1922-ci ildə Finlandiyaya qaçmağa müvəffəq olmuş, həmin ildə də İstanbula gedərək sovetlərə qarşı mübarizəsini davam etdirmiş, 1923-cü ildə təkcə azərbaycanlıların deyil, bütün əsir türklərin orqanı olan «Yeni Qafqaz» (1923-1928) jurnalını, 1928-1929-cu illərdə «Azəri türk» və 1929-1931-ci illərdə «Odlu yurd» jurnallarını nəşr etdirmiş, «Azərbaycan Cümhuriyyəti Keyfiyyəti-Təşəkkülü və indiki vəziyyəti» adlı kitabını nəşr etdirmişdir. Bəzi diplomatik səbəblər nəticəsində yaxın yoldaşları ilə bərabər 1931-ci ildə İstanbulu tərk etməyə məcbur olan M.Ə.Rəsulzadə «fəaliyyətini Avropada davam etdirmiş, orada «Rusiya Məhkum Millətlərinin Müştərək Cəbhəsi» adlı təşkilatda Qafqaz xalqlarının nümayəndələri ilə 1934-cü ildə Qafqaz Konfederasiyası paktını imzalamış, Parisdə çıxan «Prometey» jurnalında Milli Azərbaycan davasını müdafiə etmiş, «İstiqlal» (1932-1934) və «Qurtuluş» (1934-1939) jurnallarını nəşr edərək milli hərəkatın daha çox yayılmasına» çalışmışdır (64, 8-9).

Polşanın faşist Almaniyası tərəfindən işğalından sonra 1939-cu ildə Rumıniyaya gələn M.Ə.Rəsulzadə jurnalların nəşrini dayandırmağa məcbur olmuş, 1942-ci ildə Azərbaycan Cümhuriyyətinin müqəddaratının həll edilməsi məqsədi ilə nasist Almaniyası ilə müzakirələr aparmış, müsbət nəticə əldə edə bilmədiyinə görə təkrar Rumıniyaya dönmüşdür. 1944-cü ildə bolşeviklər Rumıniyanın paytaxtına yaxınlaşdığından o, Mərkəzi Almaniyaya keçməyə məcbur olmuş, 24 aprel 1945-ci ildə Amerikanın işğal bölgəsinə, oradan da 1947-ci ildə Türkiyəyə gələrək ömrünün sonuna qədər orada yaşamışdır. Ankarada 1949-cu ildə Azərbaycan Mədəniyyət Mərkəzini yaratmışdır. 1952-ci ildə müvəqqəti olaraq Avropaya gedən M.Ə.Rəsulzadə orada «Qafqaz İstiqlal Komitəsi»ni yaratmış, müxtəlif zamanlarda «Azad Avropa» radiosunda Azərbaycan xalqına müraciətlər etmişdir. M.Ə.Rəsulzadə 6 mart 1955-ci ildə Ankarada vəfat etmiş və orada da dəfn edilmişdir.

Sadalanan bu mühacirət dövründə M.Ə.Rəsulzadə bütün mənalı həyatını Azərbaycana, onun gələcək taleyinə həsr etmiş, Azərbaycanın gələcək müstəqilliyi naminə çox sanballı bir mücadilə aparmış, bu gün belə öz dəyərini qoruyub saxlayan «Azərbaycan Cümhuriyyəti Keyfiyyəti-təşəkkül və indiki vəziyyət» (İstanbul, 1922), «Əsrimizin Səyavuşu» (İstanbul, 1922), «İstiqlal məfkurəsi və gənclik» (İstanbul, 1922), «Rusiyada siyasi vəziyyət» (İstanbul, 1922), «İhtilalçı sosializmin iflası və Demokratiyanın gələcəyi» (İstanbul, 1928), «Milliyyət və bolşevizm» (İstanbul, 1928), «Qafqaz Türkləri» (İstanbul, 1928), «Panturanizm haqqında» (rusca, Paris, 1930), «Çağdaş Azərbaycan ədəbiyyatı» (Berlin, 1936), «Azərbaycan Kültür dərnəkləri» (Ankara, 1949), «Çağdaş Azərbaycan ədəbiyyatı» (Ankara, 1950), «Çağdaş Azərbaycan tarixi» (Ankara, 1951), «Azərbaycan şairi Nizami» (Ankara, 1951) və s. kimi fundamental əsərlər qoyub getmişdir. Bu əsərlər içərisində müəllifin «Panturanizm haqqında» və «Milli təsanüd» xüsusi yer tutur.

M.Ə.Rəsulzadənin «Panturanizm haqqında» əsərinə rusca ön söz yazmış Parisdə yaşayan Gürcüstan Milli hökumətinin başçısı N.Jordaniya qeyd edir ki, «panturanizm, pantürkizm, türkçülük – bunlar hamısı müsəlman mühitinə şamil edilmiş pangermanizm, panslavyanizm, millətçilikdən başqa bir şey deyil. Bu cərəyanları təhlil etdikdən sonra müəllif (M.Ə.Rəsulzadə nəzərdə tutulur - R.Ə.) bütün «pan»ları bir

kənara atır və onlardan yalnız birini real və sağlam ideya istiqaməti kimi qəbul edir. Bu, bir-biri ilə yalnız mədəni əlaqələr saxlayan bir sıra türk dövlətlərinin əsaslandığı türkçülükdür. Çıxarılan nəticə tarixi inkişaf və xristian xalqlarının milli inkişafının gedişi prosesi ilə tamamilə uyğunlaşır» (59, 103).

Azərbaycan və bütövlükdə Sovet İttifaqına daxil olan bütün türk xalqlarına qarşı «panturanizm» damğası altında 1930-cu illərdə başlanan Sovet və xarici panrusistlərin təbliğat maşınını və repressiyasını xarakterizə edən M.Ə.Rəsulzadə yazırdı: «Bütövlükdə «panturanizm» ətrafında qaldırılmış səs-küy iki mətləb üzərində cəmləşmişdi:

1. Rus xalqı! Özünə gəl! Səni yeni monqol istilası təhlükəsi gözləyir.

2. Qafqaz xalqları! Ehtiyatlı olun! Rusiyadan ayrıldıqdan sonra Türkiyənin hakimiyyəti altına düşəcəksiniz» (59, 110).

Türkçülüyün və «Panturanizmin» mahiyyətini şərh edərkən M.Ə.Rəsulzadə yazırdı: «Şərqdəki milli hərəkatın bir növü kimi panturanizm Qərbdə irticaçı sayılan və çox vaxt şovinizm adlandırılan millətçilikdən bir qədər fərqlənir. Şovinizm təcavüzkar hərəkatdır və əsasən artıq milli birliyə malik kapitalist dövlətinin öz hakimiyyətini gücləndirməyə və ərazisini genişləndirməyə can atan dövlətin ekspansiyası amillərinə əsaslanan bir hadisədir. Avropa millətçiliyi siyasi cəhətdən təcavüzkar ideologiyadır. Şərqdəki millətçilik isə siyasi cəhətdən müdafiə, sosioloji cəhətdən isə mütərəqqi hadisədir» (59, 113).

Osmanlı imperatorluğunun çökmə səbəbəlrini, osmanlıların ümmətçilik ideologiyasına olan inamının qırılma səbəblərini və türkçülüyün mədəni-fəlsəfi dünyagörüşü kimi meydana çıxmasının tarixini xarakterizə edən M.Ə.Rəsulzadə yazırdı:



«Padşahın (Osmanlı sultanı II Əbdülhəmid nəzərdə tutulur- R.Ə.) hakimiyyəti altında imperiyanın (Osmanlı İmperatorluğunun –R.Ə.) bütün xalqlarının birləşdirilməsi sistemi kimi «osmanlıçılığın» məğlub olması..., Osmanlı imperiyasının xristian xalqlarını bürümüş milli özünü təyinetmə prosesi..., Balkan müharibəsi və Türkiyənin demək olar ki, bütün xristian müstəmləkələrini itirməsi..., imperiyanın müsəlman xalqlarının da «zamanın xəstəliyinə» (milli özünü təyinetmə – R.Ə.) tutulması, Alban ziyalıları arasında millətçilik hərəkatının meydana çıxması və digər bu qəbildən olan proseslər..., belə çətin sınaqlar dövründə türkçülük ideologiyası siyasi sistem kimi ön plana çıxmağa başladı» (59, 115).

«Panturanizmdə iki cərəyan» adlı məqaləsində M.Ə.Rəsulzadə yazırdı: «Panturanizm siyasi fikrin məlum sisteminə çevrildikdə onun tərkibində iki meyl meydana çıxmağa başladı: mərkəzçilərin romantik cərəyanı və federalistlərin realist cərəyanı. Birinci cərəyan nümayəndələri türk xalqlarının qan qohumluğunun, eyni etiqada mənsub olmalarının, dillərinin müəyyən qədər ümumiliyinin müəyyən siyasi vəziyyət şəraitində vahid Türk dövləti yaratmaq üçün kifayət olması qənaətində idilər. Realist cərəyan isə hərəkatın ali idealından ilham alsa da, bu idealda romantik xəyallardan daha çox milli özünüdərkin oyanmasının real nəticələrinə əhəmiyyət verirdi... Bu cərəyan ilk növbədə ayrı-ayrı türk xalqlarının müstəqil dövlətlər şəklində azad olması üçün çalışırdı. Türk xalqlarının geniş xalq kütlələrini inqilabiləşdirən və onları milli özünütəyin və öz müstəqilliyini təmin və təsdiq etmək uğrunda fəal mübarizə meydanına səsləyən bir ideologiya kimi panturanizm obyektiv cəhətdən mütərəqqi

ideyadır və öz növbəsində rus imperalizminə və bədnam «vahid və bölünməz Rusiya» ideyasına qarşı yönəlmişdir...Hadisələrin gedişindən və düşüncələrdə baş verən belə bir təkamüldən çıxış edərək və bu gün əlimizdə olan məlumatlara istinadən belə bir faktı qeyd edə bilərik ki, romantik siyasi «Panturanizm» artıq yoxdur, yalnız sırf real və konkret milli məqsədlər güdən «Türkçülük» mövcuddur...Türk xalqlarının milli şüuru irqi ideologiyadan milli ideologiyaya keçir və bu, hətta ideoloji-nəzəri sahədə də «təcavüzlük təhlükəsi»ni tamamilə aradan qaldırır...Hazırda Türkiyənin siyasəti həmin ideologiyaya (Realist türkçülüyə – R.Ə.) müvafiqdir və bu gün Türkiyənin sosial-iqtisadi vəziyyəti də ona uyğun gəlir» (59, 117,120).

Atatürk dövrü Türkiyəsindəki türkçülük hərəkatına qiymət verən M.Ə.Rəsulzadə yazır: «Kamalçılıq qəti şəkildə və tam səmimiyyətlə Osmanlı imperiyasının «milli sazişdən» kənarda qalan torpaqlarından imtina etdi. O, bu tarixi zərurəti olduğu kimi qəbul etdi. Onun adına çıxılan «panturanizm» planı isə cənab «rusistlər»in dəyirmanına su tökmək arzusunda olanların hiyləsindən başqa bir şey deyil. Öz varlığı ilə Sovet İttifaqındakı türk xalqlarının milli və azadlıq hərəkatlarına müsbət təsir göstərən bügünkü realist «türkçülük» isə şübhəsiz, «panrusizmin» düşmənidir» (59, 108).

«Milli təsanüd» əsərində M.Ə.Rəsulzadə liberalizmin, inqilabçı sosializmin, kapitalizmin, kommunizmin və bolşevizmin mahiyyətini açıqlayır, onların cəmiyyətə və bütövlükdə insanlığa vurduğu zərbələri açıqladıqdan sonra belə bir nəzəri fikir irəli sürür ki: «Nə fərdi hürriyətlə şəxsi mülkiyyətin mütləqiyyətindən doğan kapitalist anarxiyası ilə sərmayə istibdadı, nə də insanları mənliyindən çıxararaq bir kölə və makina halına salan kommunizm əsarəti. Nə mütləq liberalizm, nə də mütləq kollektivizm. O halda ikisini birləşdirən solidarizm = təsanüd» (64, 15).



Təsanüdçülüyün əsasının hürriyyət , şəxsi təşəbbüs və mülkiyyətdən ibarət olduğunu hesab edən M.Ə.Rəsulzadə liberalizmin dövləti sadəcə polis və məhkəmə dərəcəsinə endirməsinə, kommunizmin isə «Nə millət var, nə də dövlət. Bu ancaq çalışan kütlələri işlətmək üçün kapitalist ideoloqları tərəfindən uydurulmuş bir yalandır. Var olan siniflərdir...Fəhlənin nə vətəni var, nə də milləti» fikirlərinə qarşı çıxır və göstərir ki: «solidarizmdə dövlət millətin təmsilçisi və cəmiyyətdəki münasibətlərin tənzimləyicisidir». Sinifləri əsas götürən kommunizmdən, fərdləri əsas götürən kosmopolit liberalizmdən fərqli olaraq «solidarizm millidir. Liberalizm mədəniyyətin ruhunu fərdin yaradıcı eqoizmində görür. Kommunizm isə bunu sinif eqoizmi ilə əvəz edir. Solidarizm isə mədəniyyəti fərd eqoizmi ilə cəmiyyət mənfəətləri arasındakı ahəngdən ibarət bilir. Liberal cəmiyyətdə başqa cür düşünmək qəhrəmanlıqdır. Solidarizmdə isə bu bir vəzifədir...Topluluğun mənfəətlərini təmsil edən müəssisə dövlətdir...Madam ki, milliyyətçilik deyirik, madam ki, milli dövlət istiqlalını müdafiə edirik, o halda bizim üçün nə kosmopolit liberalizmə və nə də kommunizmə dözmək caiz olmaz. Bizcə müdafiə ediləcək yeganə sosial sistem təsanüd sistemidir» (64, 15-16).

Ömrünün 50 ilini Azərbaycanın müstəqilliyinə həsr edən, Azərbaycan xalqına «azadlığı az da olsa daddıran», yüzlərcə müxtəlif janrlı əsərlər yazan, milliyyətçi-türkçü, istiqlalçı, demokrat və inqilabçı, Bakı, Tehran, İstanbul, Moskva, Varşava, Buxarest, Berlin, Bonn və Ankarada Azərbaycan davasının mücahidi, «insanlara hürriyyət, millətlərə istiqlal» deyə meydana qədəm qoyan və yenə də «İnsanlara hürriyyət,

millətlərə istiqlal» deyə gözlərini qapayan dahi M.Ə.Rəsulzadənin ən böyük əsəri Demokratik Azərbaycan Cümhuriyyəti, onun əbədi ideologiyasının rəmzi olan üçrəngli ay-ulduzlu Dövlət Bayrağıdır. Ruhu şad olsun.

I dünya müharibəsi dünya xəritəsini dəyişdirdi. Müharibədən tam məğlubiyyətlə çıxan Osmanlı impepratorluğu çökdü. Türk milləti «olum ya ölüm» dilemması qarşısında qalmışdı. Belə bir dönəmdə «türkçülük» ideologiyasının baniləri və tərəfdarları türk xalqını bu ağır bəladan qurtarmağı düşündülər.

1919-cu ildə İstanbulu işğal edən ingilislər «İttihad və Tərəqqi» partiyasının əsas başçılarını Malta adasına sürgün etmiş, dövlətin əsas başçıları olan Ənvər paşa, Tələt paşa,Camal paşa ölkəni tərk etməyə məcbur olmuş, ölkə başsız qalmışdı. Ölkənin ayrı-ayrı yerlərində qurulan Hüquq Müdafiə Cəmiyyətləri və könüllü milli silahlı qüvvələr düşmənə qarşı mübarizə aparsalar da, onlar arasında əlaqə yox idi. Bu əlaqəni yaradan, türk millətini milli qayə ətrafında birləşdirən türkçülərin məfkurəsini bəyənən və onu tam mənası ilə mənimsəyən Mustafa Kamal paşa bu vəzifəni öz üzərinə götürdü və Osmanlı İmperatorluğunun xarabaları üzərində milli bir Türk dövləti – Türkiyə Cümhuriyyəti yaratdı. Türkçülərin ideoloji sistemini dövlət ideologiyası kimi qəbul etdi. Türkçülərin əksəriyyətini yeni qurulmaqda olan dövlətin məsul vəzifələrinə cəlb etdi. Mustafa Kamal Atatürkün milliyyətçiliyi ayrıca bir tədqiqatın mövzusu olduğu üçün biz burada o böyük şəxsiyyətin milli mücadiləyə başladığı 19 may 1919-cu ildəki türk millətinə xitabından aşağıdakı seçmələri verməklə kifayətlənirik. Mustafa Kamal Paşa xitabında deyirdi: «Əfəndilər, bu vəziyyət qarşısında tək bir qərar var. O da milli hakimiyyətə dayanan qeydsız-şərtsiz



müstəqil yeni bir Türk Dövləti təsis etmək. Bu qərarın dayandığı ən qüvvətli mühakimə və məntiqi bu idi: Əsas, türk millətinin qürurlu və şərəfli bir millət olaraq yaşamasıdır. Bu əsas ancaq tam müstəqilliyə sahib olmaqla qoruna bilər. Nə qədər zəngin və fərəhli olursa-olsun müstəqillikdən məhrum olan bir millət, mədəniləşmiş, insanlıq önündə nökər olmaq mövqeyindən yüksək bir dərəcəyə ləyaqət qazana bilməz. Yabançı bir dövlətin himayə və yardımını qəbul etmək insanlıq xüsusiyyətlərindən məhrum olmaq, acizlik və miskinliyi qəbul etməkdən başqa bir şey deyildir...Halbuki türkün qürur, şərəf və qabiliyyəti çox yüksək və böyükdür. Belə bir millət əsir yaşamaqdansa, məhv olsa yaxşıdır. Ona görə də: Ya İstiqlal, ya ölüm» (39, 42-43).

Bu elmi əsaslar üzərində türkçülüyün ən böyük ideoloqu Ziya Göyalp «Türkçülüyün əsasları» adlı əsərini yazaraq türkçülüyü sistemləşdirdi və onu milli bir məfkurə halına saldı.

Bu əsəri ilə Ziya Göyalp gələcəkdə yaranacaq müasir türk dövlətlərinin sosial fəlsəfəsini ortaya qoymuşdur. İki bölmədən ibarət olan bu əsərin birinci bölümündə Ziya Göyalp türkçülüyün tarixindən və mahiyyətindən, türkçülük və turançılıqdan, milli və bəşəri mədəniyyətlərdən, xalqçılıqdan (xalqa doğru) müasirləşməkdən (Qərbə doğru), tarixi materializm və ictimai məfkurəçilikdən, milli şüuru və milli təsanüdü (solidarizm) gücləndirməkdən, milli kültür və tərbiyədən bəhs edir.

İkinci bölüm türkçülüyün proqramıdır. Burada Ziya Göyalp əsasən dildə türkçülükdən və onun prinsiplərindən, estetik türkçülükdən, yəni estetik zövqdən, milli vəzndən, milli ədəbiyyatdan, milli musiqidən və digər milli sənətlərdən, əxlaqi türkçülük və onun növlərindən, hüquqi Türk-

çülükdən, dini türkçülükdən, iqtisadi türkçülükdən, siyasi türkçülükdən və fəlsəfi türkçülükdən bəhs edir. Bütün bu başlıqlarda qoyulan problemləri elmi-fəlsəfi və sosioloji cəhətdən tədqiq və şərh edən Ziya Göyalpın fikir və mülahizələrini aşağıdakı kimi xülasə etmək olar:

1. Türkçülüyün tarixindən danışarkən özünəqədərki və müasirləri olan bütün türkçüləri yüksək dəyərləndirən Ziya Göyalp qeyd edir ki: «Türkçülük aləmi bu gün o qədər genişlənmişdir ki, bu sahədə çalışan sənətkarlarla elm adamlarının adlarını saymaq belə cildlərlə kitaba möhtacdır... Bununla bərabər əgər türkləri türkçülük məfkurəsi ətrafında birləşdirərək böyük bir çökmə təhlükəsindən qurtarmağa müvəffəq olan böyük bir dahi zühur etməsəydi, türkçülüyə dair bütün bu hərəkatlar nəticəsiz qalacaqdı. Bu böyük dahinin adını söyləməyə ehtiyac yoxdur. Bütün dünya bu gün qazi Mustafa Kamal paşa (Atatürk) adını müqəddəs bir kəlimə sayaraq hər an hörmətlə anmaqdadır...Bu qədər qəti və böyük inqilabı edən şəxs türkçülüyün ən böyük adamıdır. Çünki düşünmək və söyləmək asandır. Fəqət, həyata keçirmək və xüsusilə qələbə ilə nəticələndirmək çox çətindir» (79, 15).

2. Türkçülüyün və qarşılıqlı olaraq millətin mahiyyətini şərh edərkən Ziya Göyalp irqi, qövmü, coğrafi türkçüləri, osmanlıçıları, islamçıları, fərdiçiləri kəskin tənqid edərək belə bir nəticəyə gəlir ki: «Türkçülük türk millətini yüksəltmək deməkdir» (69; 16). Millət, nə irqi, nə qövmü, nə coğrafi, nə siyasi, nə də iradi bir zümrə deyildir. Millət dilcə, dincə, əxlaqca və gözəllik duyğusu baxımından müştərək olan, yəni eyni tərbiyəni almış fərdlərdən ibarət olan bir topluluqdur (79, 122).



3. Türkçülük və turançılıqdan bəhs edərkən Ziya Göyalp belə bir nəticəyə gəlir ki: «Xarəzm, İran, Azərbaycan və Türkiyə ölkələri türk etnoqrafiyası etibarilə eyni millətin yurdlarıdır. Bu dörd ölkənin bütününə Oğuzustan adını verə bilərik. Türkçülüyün yaxın hədəfi bu böyük ölkədə yalnız bir mədəniyyətin hakim olmasıdır... Türkçülüyün uzaq məfkurəsi isə Turandır...Yüz milyon türkün (Bu rəqəm XX əsrin əvvəlinə aiddir - R.Ə.) bir millət halında birləşməsi, türkçülər üçün ən qüvvətli bir vəcd (ekstaz) qaynağıdır. Turan məfkurəsi olmasaydı, türkçülük bu qədər sürətlə yayılmayacaqdı. Bununla bərabər, kim bilir, bəlkə gələcəkdə Turan məfkurəsinin gerçəkləşməsi də mümkün olacaqdır. İdeya gələcəyin yaradıcısıdır» (79, 25-28).

4. Milli və beynəlmiləl mədəniyyəti şərh edərkən Ziya Göyalp göstərir ki: «Milli mədəniyyətlə beynəlmiləl mədəniyyət arasında həm birləşmə, həm də ayrılma nöqtələri vardır. Milli mədəniyyətlə beynəlmiləl mədəniyyəti birləşdirən cəhətlər hər ikisinin də bütün ictimai həyatları (dini, əxlaqi, hüquqi, iqtisadi, lisani, əqli və texniki həyatlar - R.Ə.) əhatə etməsidir» (79, 30). Milli mədəniyyətlə beynəlmiləl mədəniyyətlər arasındakı fərqləri göstərərkən Ziya Göyalp yazır: «Milli mədəniyyət milli olduğu halda kültür beynəlmiləldir. Milli mədəniyət yalnız bir millətin dini, əxlaqi, hüquqi, əqli, estetik, lisani, iqtisadi və texniki həyatlarının ahəngdar bir bütünüdür. Beynəlmiləl mədəniyyət isə eyni mədəniyyət dairəsinə daxil olan bir çox millətlərin sosial həyatlarının müştərək bir yekunudur...Bəşəri mədəniyyət metodlar vasitəsilə və fərdi iradələrlə vücuda gələn sosial hadisələrin bütünüdür. Məsələn, dinə dair bilgi və elmlər metod və iradə ilə meydana gəldiyi kimi, əxlaqa, hüquqa, incəsənətə, iqtisadiyyata, ağlın funksiyasına, dilə və texnikaya aid bilgi və

nəzəriyyələr də məhz fərdlər tərəfindən metod və iradə ilə meydana gətirilmişdir...Milli mədəniyyətə daxil olan şeylər isə metod və fərdlərin iradəsi ilə yaradılmamışdır. Süni deyildir...Məsələn, (milli) dil fərdlər tərəfindən metodlarla yaradılmış bir şey *deyildir»* (79, 30,31). *Ziya Göyalp* həmçinin milli musiqi ilə bəşəri musiqini, şifahi xalq ədəbiyyatı ilə klassik ədəbiyyatı və Qərbin təsiri ilə yaradılan müasir ədəbiyyatı, milli əxlaqla millətlərarası əxlaqı, milli dinlərlə bəşəri və məzhəbi dinləri və s. bu kimi ictimai məsələləri tarixi faktlarla müqayisə edərək belə bir nəticəyə gəlir ki: «Milli mədəniyyəti güclü, lakin bəşəri mədəniyyəti (buna qarışıq mədəniyyət də demək olar - R.Ə.) zəif bir millətlə, milli mədəniyyəti pozulmuş, lakin bəşəri mədəniyyəti yüksək olan başqa bir millət siyasi mübarizəyə girərkən milli mədəniyyəti güclü olan millət daima qalib gəlmişdir» (79, 42). Bu son dərəcə orijinal fikirlərini əsalandırmaq üçün Ziya Göyalp dünya tarixini milli mədəniyyət və bəşəri mədəniyyət kontekstində xülasə edərək göstərir ki, qədim misirlilərin mədəniyyəti yüksəlincə *milli* mədəniyyətləri pozulmağa başladı və özlərindən çox-çox aşağı səviyyədə olan perslərə (farslara – red.) yenildilər. Daha sonra İranda da mədəniyyət yüksəldi, milli mədəniyyət zəiflədi və milli mədəniyyəti güclü olan yunanlara məğlub oldular. Bir müddət sonra yunanlarda da mədəniyyət yüksəldi, milli mədəniyyət isə pozulmağa başladı. Güclü bir milli mədəniyyətlə meydana çıxan makedoniyalılar yunanları və iranlıları məğlub etdilər. Milli mədəniyyəti güclü olan romalılar da milli mədəniyyəti pozulmağa başlayan makedoniyalılara üstün *gəldilər. Həmçinin bəşəri* mədəniyyətdən heç bir nəsibi olmayan, fəqət milli mədəniyyəti son dərəcə qüvvətli olan ərəblər ortaya çıxaraq həm sasanilərə, həm də mədəni romalılara qalib gəldilər. Ərəblər də mədəniləşməyə başladığından milli mədəniyyətlərini qeyb edərək siyasi hakimiyyəti törəli (milli mədəniyyəti güclü) Səlcuq türklərinə təslim etdilər. Daha sonra Osmanlı, Avstriya və Rusiya imperatorluqları da bu səbəbdən əvvəlkilər kimi dağılmağa başladılar.



5. Xalqa doğru getməyi Ziya Göyalp türkçülərin mühüm qayələrindən və türkçülüyün mühüm prinsiplərindən biri hesab edir. Başqa düşünürlərin «ziyalılar xalqa milli mədəniyyəti aparmaq üçün xalqa doğru getməlidirlər» fikrinin əleyhinə olaraq Ziya Göyalp göstərri ki: «Məmləkətimizdə milli mədəniyyət deyilən şey yalnız xalqda vardır...Ziyalılar isə bəşəri mədəniyyətə malikdirlər...Ziyalıların xalqa doğru getməsi aşağıdakı iki məqsəd üçün ola bilər:

1. Xalqdan milli mədəniyyət tərbiyəsi almaq üçün;
2. Xalqa bəşəri mədəniyyəti aparmaq üçün...

Deməli, xalqa doğru getmək milli mədəniyyətə doğru getmək mahiyyətindədir...Sosiologiya elmi də bizə göstərir ki, dahilik əsasən xalqdadır...Xalqa doğru getməyin ikinci vəzifəsi də xalqa bəşəri mədəniyyəti aparmaqdır» (79, 46-48,51).

Bütün bunlarla yanaşı bunların hər ikisini çulğalaşdıran həm də ümumi bir mədəniyyət anlayışı var. Mədəniyyət düşüncə və dünyagörüşlərin yaradılan və yaradılacaqların bütünüdür. Bu anlamda mədəniyyət, bütün insanlığın yaratdığı və yaradacağı müştərək düşüncə və əməyin bəhrəsidir.

Yalnız bir millətə məxsus olan mədəniyyətə «milli mədəniyyət», «imperatorluqlara məxsus mədəniyyətə «bəşəri cahanşümul, ən doğrusu, kosmopolit mədəniyyət», yalnız bir ümmətə məxsus olan dinlərə «adlı dinlər» (Atəşpərəstlik, Buddizm, Yəhudilik, Xristianlıq, Müsəlmanlıq və s.) deyildiyi kimi, bütün insanlığın yaratdığı, müştərək mədəniyyətə sa-

dəcə «mədəniyyət», «tanrının yaratdığı dinə isə sadəcə «din» deyilir. Bu mənada milli mədəniyyəti, bəşəri mədəniyyəti və adlı dinləri özündə birləşdirən mədəniyyətə mədəniyyət deyilir. Deməli, milli mədəniyyət və din etibarilə bir-birinə yabançı olan millətlər mədəniyyətdə müştərəkdirlər. Milli mədəniyyətdəki ayrılıqlar necə din birliyinə mane olmursa, milli mədəniyyətin və dinin ayrı olması da mədəniyyətdəki ortaqlığa əngəl ola bilməz. Hər bir milli mədəniyyətin və dinin özünə xas coğrafiyası, bəlli bir sərhəddi, məntiqi, dünyagörüşü var. Bu səbəbdən də onlar bir-biri ilə qaynayıb-qarışa bilmirlər. Bütün çatışmalar, müharibələr də buradan doğur. Halbuki bəşəriyyətin özünün yaratdığı bu mədəni birliyə ehtiyacı var. Mədəniyyəti də din kimi xaricdən deyil, daxilindən mənimsəmək, ona inanmaq və ürəkdən bağlanmaq gərəkdir.

Mədəniyyətlər müxtəlif olduğu, coğrafi sərhədləri ayrı olduğu kimi tarixi inkişafları da bir-birindən fərqlidir. Hər bir millət inkişafın yüksək mərhələsinə çatdıqda mədəniyyətlərində də dəyişiklik yaratmaq məcburiyyətində qalır. Bu cəhətdən imperiya yaradan millətlərin mədəniyyətlərində daha böyük dəyişikliklər baş verir. Bu xüsusiyyətlər tarixən imperiya yaradan xalqlardan ən çox türklərdə müşahidə olunur. Belə ki, türklər həm Uzaq Şərq, həm Qərb (Qərbi Hun İmperatorluğu), həm də Şərq mədəniyyətinin formalaşmasında mühüm rol oynamış, milli mədəniyyətlərini cahanşümül mədəniyyətə-imperiyanı qoruyub saxlamağa qurban vermişlər.

İmperiya əldən getdikdə isə nə edəcəklərini şaşırmışlar. Belə bir vəziyyətdə türkləri qoruyub saxlamaq üçün yollar aramış və nicatı türkçülükdə görmüşlər. Türkçülük məfkurəsi XX əsrdə dünya türklərində «Milli Dövlət» yaratmaq ideyası



doğurmuşdur. «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» türkçülük məfkurəsinin düsturuna bu səbəblə çevrilmişdir.

Bu üç sütunlu məfkurə əslində türklərin iki min illik tarixi yaşayış tərzini özündə birləşdirən fundamental bir dünyagörüşü idi.

Dünyada gedən prosesləri yaxından dərk edən türkçülər Qərbi Avropanın inkişafının səbəblərini araşdırıb belə bir nəticəyə gəldilər ki, Avropanın inkişafının təməli ilk öncə Avropadakı düşüncə tərzində, fəlsəfi yeniliklərdə (sxolastik fəlsəfədən tamamilə imtinada), iş bölgüsündə (yəni hərənin öz bildiyi işi görməsində), hər bir elmin öz mütəxəssisləri tərəfindən inkişaf etdirilməsində, sənaye və texnologiyanın inkişafında, dinin siyasətdən ayrılmasında, bir sözlə, orta əsr düşüncə və yaşayış tərzindən imtina edilməsindədir. Şərq isə bütün bunlardan məhrum vəziyyətdədir.

Yaşadıqları əsrin milliyyətçilik əsri olduğunu qəbul edən türkçülər göstərdilər ki, Cahan dövləti yaratmaq fikri türkləri uzun müddət öz milliyyətini və mədəniyyətlərini unutmaq və hətta inkar etmək kimi əcaib bir duruma gətirib çıxarmışdır. Hətta millətin yaratdığı bir çox dövlət və imperatorluqlar belə millətin (türkün-R.Ə.) və ölkənin adını deyil, ayrı-ayrı şəxslərin və ya tayfaların adını (Qaraxanlılar, Səlcuqilər, Atabəylər, Eldənizlər, Elxanilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Teymurilər, Səfəvilər, Əfşarlar, Qacarlar və s.) daşımaqla türk adının belə az qala tarixdən silinməsinə gətirib çıxaracaqdı.

Tarix göstərir ki, uzun müddət Pekin-Roma yoluna hakim olan sadalanan bu dövlət və imperatorluqların qurucuları və qoruyucuları məhz türklər olmuşlar.

Dünyada və xüsusilə Qərbi Avropada gedən prosesləri düzgün dəyərləndirə bilməyən türk hakim dairələri və dü-

şünürləri yeniliyi ilk öncə türklükdə deyil, avropalılaşmaqda görürdülər. Ona görə də avropalılaşmaq islamçılıq və türkçülükdən öncə yarımçıq şəkildə türk ictimai fikrində özünə yer tutdu. Təqlidçi Qərbçiliyi türk dünyasına ilk gətirən «Tənzimatçılar» oldular. Bu tənzimatçılar XIX əsrin birinci yarısında «Avropa tipli qanunları» Osmanlı imperatorluğunda tətbiq etməklə türklərdən daha çox İmperatorluğun xristian əhalisinə xidmət etmiş oldular. Çünki «bu qanunlar Avropa mədəniyyətindən, yəni xristianlıq ruhundan doğurdu. Əsirlərimizin (xristianlıq nəzərdə tutulur-R.Ə.) çoxu da xristian olduqlarından (bu qanunlar-R.Ə.) onların həyatlarına biçilmiş geyim kimi uyur, onları (xristianları -R.Ə.) inkişaf etdirirdi...İllər keçdi. Əsrlər keçdi. Əsrlər fikircə, ruhca, mədəniyyətcə bizi (türklər nəzərdə tutulur-R.Ə.) addım-addım geridə buraxdılar. (Sonda) əsirlərimizin əlində yeni və mükəmməl bir silah vardı. Bizdə (türklər nəzərdə tutulur-R.Ə.) qırıq bir ox. Məmləkətimizdə (Osmanlı imperatorluğu nəzərdə tutulur-R.Ə.) bütün zənginlik az zaman içərisində əsirlərimizin, yəni o qədim və barışmaz düşmənlərimizin əlinə keçdi. Biz isə bir qarovulçu, bir nökər kimi qaldıq...Və sırf dövlətə aid və siyasi bir termindən başqa bir şey olmayan «Osmanlı» adı altında bütün düşmənlərimizi qardaş sayır, ən böyük türkləri, məsələn Çingiz (Çingiz xan) və Hülakü (Hülakü xan-Azərbaycan Elxanilər dövlətinin başçısı – R.Ə.) kimi ən böyük müharibə dahilərin uşaqlarımıza ən pis insanlar kimi tanıtdırdıq» (59, 124).

«Tənzimat» türklərin, imperatorluğun əsas etnosunun gözlərini kor, qulaqlarını kar etmiş, vicdanlarını susdurmuşdur.

Tənzimatçıların açdığı məktəblərdə oxuyan şagird və tələbələrə millət və milliyyətlər haqqında heç bir məlumat



verilmirdi. Sonra həmin məktəbləri bitirib hökumət işlərində çalışan məmurların əksəriyyəti milliyyətlərini inkar edirdilər. Bütün bunların nəticəsidir ki, 23 iyul 1908-ci ildə hürriyət elan ediləndə baxıb görürlər ki, türklərdən başqa imperatorluğa daxil olan bütün xalqlar (rumlar, ermənilər, bolqarlar, serblər, yəhudilər, albanlar, bosnalılar, xorvatlar, ərəblər və s.) öz dili, ədəbiyyatı, məktəbləri, cəmiyyətləri və təşkilatları ilə meydana çıxdılar və milli ideologiyaları, milli ekstazları ilə türklərin üzərinə hücuma keçdilər. İmperatorluq ərazilərinin böyük bir qismini itirdi və (nəticədə) «Tənzimat» sərxoşluğu ilə uyumuş xalqı ikiyə ayırdı. Belə bir acınacaqlı vəziyyətdə türk millətinin mövcudluğunu qorumaq məqsədi ilə türkçülük ideologiyası yarandı. Türkçülük ideologiasının yaradıcıları bir araya gələrək «İttihad və Tərəqqi» cəmiyyətini yaratdılar və yeni Xristian Birliyi olan «Müqəddəs Balkan İttifaqı»na və türkləri tamamilə daxildən çökdürməyə çalışan «Hürriyət və İtilaf»a qarşı hər yönlü mücadiləyə başladılar. İlk öncə Ədirnə alındı. «İttihad və Tərəqqi» ölkədəki anarxiyaya son qoydu, türklər arasındakı düşmənçilikləri qısa bir zamanda aradan qaldırdı, türkçülüyü və Türkiyəni yenidən canlandırdı, millətin milli ruhunu qaldırdı, onu düşdüyü qəflət və cəhalət yuxusundan oyatdı.

Türkçülük ideologiyasının yaradıcıları «Böyük ideologiyalar kiçik əməlləri, mənfəətləri, şəxsiyyətləri unutdurur» (57, 48) düşüncəsiylə hərəkətə başladılar və az bir zamanda böyük uğurlar əldə edərək türk millətinin qəlbində özlərinə şərəfli bir yer qazandılar.

Türkçülər ilk olaraq bir milliyyətçi kimi özlərindən əvvəlki ideoloji, siyasi, fəlsəfi və ədəbi cərəyanların millət, dil, din, adət-ənənə, əxlaq, Vətən və s. kimi anlayışlara baxışlarını şərh edərək öz nəzəri fikirlərini irəli sürdülər. Bəllidir ki,

türklərdə avropalılardan fərqli olaraq milliyyətçilik fikri daha çox ən zəif dövrlərində baş qaldırmış, sanki bir özünüqoruma ideyasına çevrilmişdir. Belə ki, bu məfkurə ilk öncə çinlilərə məğlub olub dövlətlərini itirmiş qədim türklərin yenidən istiqlal savaşına başlamasına təkan vermiş və nəhayət, 682-ci ildə Qutluq Xaqanın başçılığı ilə «çətin savaşlardan sonra Doğu Türk xanlıqlarının böyük bir hissəsini təkrar hür bir dövlət içində birləşdirməsinə» (46, 98) gətirib çıxarmışdı.

Tarixdə türk dövlətçiliyinin bütün orta əsr boyu davam etməsi və türklərin hakimi-mütləq olması türkçülük məfkurəsinin uzun əsrlər boyu unudulmasına səbəb olmuş, bunun əvəzində ümmətçilik ideologiyasının dövlətlərin və imperatorluqların idarə olunmasında türkçülüyün yerini tutmasına gətirib çıxarmışdır. Nəhayət, Osmanlı imperatorluğunun çöküşü, mərkəzləşmiş Azərbaycan dövlətinin xanlıqlara parçalanması və sonda Azərbaycanın şimalının çar Rusiyası tərəfindən işğalı dərin yuxuya dalmış türkləri silkələdi. Bu silkinti türk dünyasında yeni bir məfkurə formalaşdırdı. Bu məfkurə ilk öncə «Türkləşmək, İslamlaşmaq, Avropalılaşmaq», daha sonra isə «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» kimi formulə edilərək türk millətinin tarixi yaşam tərzini və gələcəyə baxışını müəyyənləşdirdi.

Qeyd edildiyi kimi türkçülük məfkurəsi türklərin fəlakətə uğradığı, yenildiyi dövrlərdə önə çıxmış, milləti düşdüyü ağır vəziyyətdən çıxarmağa nail olmuşdur. Zatən millət, milli məfkurəyə və milli mənliyə ehtiyacı «ancaq böyük fəlakətlər zamanında hiss edir». «Fəlakət və məğlub dövrlərində qəflət yuxusuna dalmış olan millət birdən oyanır. Milləti təşkil edən insanlar eyni qayə ətrafında toplanır,



hamısının qəlbi eyni həyəcan ilə çarpır. Məhz bu ictimai və müqəddəs həyəcandan milli məfkurə yaranır» (57, 13).

Türkçülük milli məfkurəsinin əsasında millət, ümmət və dövlət dayanır.

Millət anlayışına tarixən müxtəlif yönlərdən yanaşılmış və millətə müxtəlif təriflər verilmişdir. Almanlar və slavyanlar irq və dili, fransızlar arzu və iradəni, italyanlar ərazi və dili millətin meydana gəlməsində əsas amillər hesab etmişlər. Alman, fransız və italyan alim və sosioloqlarının fikir və mülahizələrinə dayanan bir çox türk müəllifləri də millətə onlara uyğun təriflər vermişlər. Belə ki, irqi əsas götürənlərə görə millət irq deməkdir. Onlara görə yer üzündə «qədimdən bəri «ağ irq», «qara irq», «sarı irq», «qırmızı irq» deyilən dörd irq mövcuddur». Bu nəzəriyyəni təhlil və tənqid edən böyük sosioloq Ziya Göyalp yazır: «Manouvrier adında alimin anatomik xüsusiyyətlərin ictimai xarakter üzərində heç bir təsiri olmadığını isbat etməsi bu köhnə iddianı tamamilə alt-üst etdi. İrqin bu anlamda ictimai xüsusiyyətlərlə heç bir münasibəti qalmayınca, sosial səciyyələrin məcmusu olan milliyyətlə də heç bir münasibəti qalmaması lazım gəlir» (79, 17).

Coğrafi amilləri əsas götürənlərə görə millət, eyni ölkədə yaşayan xalqların bütünü deməkdir. Onlara görə bir İsveçrə milləti, bir Belçika milləti, bir İran milləti, bir Britaniya milləti və s. vardır. Halbuki İsveçrədə alman, fransız, italyandan ibarət üç millət, Belçikada əslən fransız olan valonlarla, əslən german olan flamonlar, İranda türk, fars, kürd, ərəb, bəluc və s., Böyük Britaniyada anqlo-sakson, şotland, qall, irland və s. kimi millətlər vardır. Ziya Göyalp yazır: «Bu müxtəlif xalqların dilləri və mədəniyyətləri bir-birindən fərqli olduğu üçün onların hamısına bir millət adı vermək doğru deyildir.

Həmçinin bir ölkədə bir çox sayda millət olduğu kimi, bəzən də bir millət bir çox ölkəyə yayılmış olur. Məsələn, oğuz türklərinə bu gün Türkiyədə, Azərbaycanda, İranda, Xarəzm ölkəsində təsadüf edirik. Bu topluluqların dilləri və milli mədəniyyətləri ortaq olduğu halda bunları ayrı-ayrı millət saymaq doğru ola bilərmi?» (79, 19).

Qövmü əsas götürənlərə görə millət, qövmdən ibarətdir. Qövm eyni atadan, eyni anadan törəmiş, içinə heç bir yabançı qarışmamış qandaş bir zümrə deməkdir. Bu nəzəriyyəni də tənqid edən Ziya Göyalp göstərir ki: «Sosial özəlliklər üzvü vərəsəliklə keçməz, yalnız tərbiyə yolu ilə keçər. O halda qövmün milli xarakter baxımından da heç bir rolu yox deməkdir...Sosiologiya elminə görə fərdlər dünyaya gələrkən sosial bir vəzifə daşımazlar. Yəni...dil, din, əxlaq, estetika, siyasət, hüquq, iqtisadiyyat sahəsinə aid heç bir duyğu və düşüncəni özləri ilə bərabər gətirməzlər. Bunların hamısını sonralar tərbiyə yolu ilə yaşadıqları cəmiyyətdən alırlar» (79, 18).

Osmanlıçılara görə millət, Osmanlı imperatorluğunda yaşayanlardan ibarətdir. Bəlli olduğu kimi Osmanlı imperatorluğunda müxtəlif dil, din və mədəniyyətlərə mənsub bir çox millət olub.

Tarixdə Sultan Süleyman Qanuni dövründə əzəmətinin ən yüksək mərhələsinə çatan Osmanlı imperatorluğu XVI əsrin sonlarından etibarən gerilməyə başlamış, xüsusilə Avstriya və müttəfiqləri ilə 1682-ci ildə başlayıb 1699-cu ildə sona çatan Osmanlı-Avstriya müharibəsində məğlub olaraq ilk dəfə torpaq itkisinə məruz qalmışdır. Bu müharibədə Macarıstan və Transilvanyanın Avstriyaya, Mora və Dalmacyanın Venedikə, Azak qalasının Rusiyaya tərk edilməsindən əndişə duyan Osmanlı dövlət adamları və ziyalıları



imperatorluğun çökməsinin səbəblərini araşdırmış və onu qurtarmaq üçün çarələr axtarmağa başlamışdılar. Çox təəssüflər olsun ki, onlar yeni yollar aramaq əvəzinə imperatorluğun içinə Avropa ruhu gətirdilər və Qərbi təqlid etməyə üstünlük verdilər. Və nəhayət bu Avropa ruhu və Avropanı təqlid XIX əsrdə tənzimatçıların sayəsində özünün kulminasiya nöqtəsinə çatdı. Belə ki, ilk dəfə olaraq Mustafa Rəşid Paşanın hazırladığı Qərb yönlü islahatlar paketi sultanın fərmanı ilə «Gülxanə Xətti - Hümayunu» adı ilə rəsmən elan olunduqdan sonra bütün Osmanlı təbəələrinə etiqadından, dinindən asılı olmayaraq eyni hüquqlar verildi. Tarixdə «Tənzimat» adı ilə tanınan və 1876-cı ilə qədər davam edən bu liberal Qərb yönlü islahatlar da imperatorluğu düşdüyü bəladan xilas edə bilməmiş, 1848-ci il Fransa inqilabının ideallarından ruhlanan imperatorluğun xristian xalqları bir sıra Avropa dövlətlərinə və xüsusilə Rusiyaya arxalanaraq «Xətti-Hümayun»la kifayətlənməmiş, imperatorluğun zəifləməsindən istifadə edərək yeni tələblərlə çıxış etməyə başlamışdılar. Artıq «Tənzimat» özünü doğrultmamışdı. O, xristian xalqların mərkəzdənqaçma meyllərinin qarşısını ala bilməmişdi. «Ümum Osmanlıçılığın» məğlub olması onun digər bir müddəasının – islamçılığın güclənməsinə səbəb oldu. Bu siyasətin əsas təbliğatçısı sultan II Əbdülhəmidin özü idi. Midhət paşanın rəhbərliyi ilə və Namiq Kamalın üzv olduğu bir komissiya tərəfindən Belçika Konstitusiyasını örnək alaraq hazırlanan Osmanlı «Qanuni-Əsası» 23 dekabr 1876-cı ildə mərasimlə elan olundu (76, 500).

Fəqət tezliklə də sultan II Əbdülhəmid tərəfindən icrası dayandırıldı. İmperatorluğun qorunması baxımından Sultan II Əbdülhəmidin və onun tərəfdarları olan və Avropanı tənzimatçılardan daha yaxşı tanıyan Əhməd Vəfik paşa,

İbrahim Ədhəm paşa və Səid paşanın atdığı bu addımı tarix haqlı çıxarmışdı. Əks təqdirdə İmperatorluğun parçalanması *qısa zamanda gerçəkləşərək müsəlman* olmayan xalqların əvvəl muxtariyyat, daha sonra isə müstəqillik qazanmasını sürətləndirəcəkdi. Yeni osmanlıların «osmanlıçılıq»ları da tədricən iflasa uğradı və öz yerini Gənc Türklərə tərk etdi. Gənc Türklər yeni osmanlıların, hürriyət, məşrutiyyət və osmanlıçılıq fikirlərini qəbul edir və sultan II Əbdülhəmid tərəfindən həm qəbul, həm də ləğv edilən «Qanuni Əsasi»nin yenidən yürürlüyə girməsini istəyirdilər (76, 502). Və nəhayət, 1908-ci ildə Gənc Türklər məşrutiyyətin təkrar elanına nail oldular. Bir il sonra 1909-cu ildə Sultan II Əbdülhəmidi taxtdan saldılar. «İttihad və Tərəqqi» Cəmiyyətinə rəhbərlik edənlər də ilk əvvəllər «osmanlıçılıq» ideologiyasına inanır və islamçılığı təbliğ edirdilər.

Osmanlıçıları hər yöndən tənqid edən Ziya Göyalp bu münasibətlə qeyd edirdi ki: «bir imperatorluğun bütün vətəndaşlarını tək bir millət olaraq qəbul etmək böyük bir xətadan ibarətdir» (79, 19).

Bu «xətanı» vaxtında duyan, alban və ərəblərin də xristianlar kimi osmanlıların əleyhinə çıxdığını və öz müstəqilliklərini gerçəkləşdirməyə çalışdıqlarını görən ittihadçı Gənc Türklər «Osmançılıq» ideologiyasından vaz keçdilər. XX əsrin əvvəllərində imperatorluğun fikir həyatı müxtəlif cərəyanlarla çalxalanırdı. Bunlardan da ən öndə gedəni islamçılar, fərdiyyətçilər, qərbçilər və türkçülər idi.

İslam birliyi tərəfdarlarına görə, millət, bütün müsəlmanların *məcmusu* dəməkdir. Millətlə ümməti bir-birinə qarışdıran islam birliyi tərəfdarlarını tənqid edən Ziya Göyalp göstərir ki: «eyni dinə mənsub insanların bütününə «ümmət» deyilir. O halda müsəlmanların bütünü də bir ümmətdir. Yalnız dildə və milli mədəniyyətdə müştərək olan millət isə bundan (ümmətdən-R.Ə.) ayrı bir şeydir... Bir zamanlar güman edilirdi ki, islam birliyi məfkurəsi müsəlman xalqlarının istiqlala qovuşmalarını, onların ölkələrinin müstəmləkəçilikdən qurtulmasını təmin edəcək. Halbuki təcrübə göstərdi ki, islam birliyi bir tərəfdən teokratik və klerikalizm kimi geri qalmış cərəyanları doğurduğundan, digər tərəfdən də islam dünyasında milli ideologiyaların yaranmasının və milli özünüdərkin qarşısını aldığından, müsəlman xalqların inkişafına əngəl olduğu kimi, istiqlallarına da mane oldu. Çünki islam dünyasında milli özünüdərkin inkişafının qarşısını almaq, elə müsəlman millətlərin istiqlallarına əngəl olmaq deməkdir. Teokratik və klerikalizm cərəyanları isə cəmiyyətlərin geridə qalmasına və hətta getdikcə geriləməsinə ən böyük səbəbdir» (79, 20).

*Fərdiyyətçilərə* görə, millət, bir insanın özünün mənsub olduğu hər hansı bir cəmiyyətdir. Onlara görə hər hansı bir fərd özünü bu və ya digər cəmiyyətə bağlı saymaqda azad olmalıdır. Ziya Göyalp yazır: «Halbuki fərdlərdə belə bir hürriyyət və istiqlal yoxdur. Çünki insandakı ruh, duyğu və fikirlərdən ibarətdir. Yeni psixoloqlara görə insanın duyğu həyatı əsas, fikir həyatı isə ondan asılıdır. Ruhun normal bir halda olması üçün fikirlərin duyğulara tamamilə uyğun olması lazımdır. Fikirləri duyğularına uymayan və bir-birini tamamlamayan bir insan ruh baxımından xəstədir. Belə bir insan həyatda xoşbəxt ola bilməz. Məsələn, duyğusu baxımından dindar olan bir gənc, özünü fikir baxımından dinsiz hesab edərsə, psixoloji bir bütövlüyə sahib ola bilərmi? Şübhəsiz ki, yox. Bunun kimi hər fərd də duyğuları ilə müəyyən bir millətə mənsubdur. Bu millət, o fərdin içində yaşadığı və tərbiyəsini aldığı cəmiyyətdən ibarətdir. Çünki

bu fərd içində yaşadığı cəmiyyətin bütün duyğularını tərbiyə vasitəsilə almış, tamamilə ona bənzəmişdir. Ona görə də bu fərd, ancaq bu cəmiyyətin içində yaşayarsa, məsud ola bilər. Başqa bir cəmiyyətin içinə gedərsə, vətən xəstəliyinə tutular, duyğu baxımından bağlı olduğu cəmiyyətin içinə getmək üçün həsrət çəkər. Deməli, bir fərdin istədiyi zaman millətini dəyişdirə bilməsi öz əlində deyil...İnsan milliyyətini savadsızlığından tanımaya bilər, lakin sonradan araşdırmaqla müəyyənləşdirə bilər. Fəqət, bir partiyaya girdiyi kimi sırf iradəsi ilə bu və ya digər millətə özünü bağlaya bilməz» (79, 20-21).

Tənzimatla başlayan Qərbçilik, başqa sözlə Avropanı təqlid türk insanına xeyirdən çox ziyan gətirdi. Çünki bu təqlid türk cəmiyyətini ikiyə ayırırdı. Ziya Göyalpın yazdığı kimi «Tənzimatçılar, sistemləri büsbütün ayrı-ayrı prinsiplərə dayanan, bir-birinə zidd iki mədəniyyətin uzlaşa bilməyəcəyini düşünə bilməmişdilər. İndi də siyasi quruluşumuzda mövcud ikiliklər məhz bu yanlış hərəkatın nəticələridir. Məmləkətdə iki cür məhkəmə, iki cür tədris yeri, iki cür vergi, iki cür büdcə, iki cür qanun, xülasə, bu ikilikləri saymaqla qurtarmaz» (79, 64-65).

Tənzimatla başlayan Qərbçilik ölkəni modernləşdirmədi, sənayeni inkişaf etdirmədi, istehsalı artırmadı, əksinə geyim, mətbəx, bina və mebel sistemlərini dəyişdirməklə türk milli sənətlərini tamamilə çökdürdü. Bütün bunların səbəbi kafi dərəcədə elmi araşdırma aparmadan, əsaslı bir ideologiya və vahid bir proqram hazırlamadan işə dağınıq şəkildə başlamaq idi. Tənzimatçılardan fərqli olaraq 1860-cı illərdə Əhməd Vəfiq paşa, Əli Suavi əfəndi və Mustafa Cəlaləddin paşa, fransız filosofu, pozitivizm fəlsəfəsinin yaradıcısı (pozivitizm fəlsəfəsi hadisələrin



arxasında gizli səbəblər aramaqdan daha çox hadisələr arasındakı sabit münasibətləri aydınlaşdırmağı əsas götürür. Bu fəlsəfəyə görə «mütləq bir şey varsa, o da heç bir şeyin mütləq olmamasıdır» - R.Ə.). Oqüst Kontun (1798-1857) (Böyük Rəşid paşanın dostu idi. Ona yazdığı məktubda Osmanlıların pozitiv fəlsəfəni qəbul etdiyi təqdirdə Şərq ilə Qərb mədəniyyətini birləşdirə biləcəyini söyləmişdi) fəlsəfəsini mənimsəmiş və pozitivistlərin «Ordre et Proqres» düsturunun ilhamı ilə «İttihad və Tərəqqi» təşkilatını yaratmış, xaricdə Osmanlı Sultanı II Əbdülhəmid əleyhinə müxalifətin yaradıcısı və Parisdə «Məşvərət» qəzetinin redaktoru Əhməd Rza və başqaları tərəfindən davam etdirilən türkçülüyü fransız sosioloqu Emil Durkheymin (1858-1917) nəzəriyyələri əsasında daha da genişləndirən Ziya Göyalp onu proqram şəklinə salmışdı. İttihadçılar məmləkətin qurtuluş yolunu məhz Ziya Göyalpın türkçülüyündə gördülər. «Türkləşmək, İslamlaşmaq və Müasirləşmək» şəklində düsturlaşan bu ideoloji sistem millət haqqında bütün göstərilən nəzəriyyələri puça çıxarıb heçə endirdi. Bu nəzəriyyəyə görə: «Millət, nə irqi, nə qövmü, nə coğrafi, nə siyasi, nə də iradi bir zümrə deyildir. Millət dil, din, əxlaq və gözəllik duyğusu baxımından müştərək olan, yəni eyni tərbiyəni almış fərdlərdən ibarət bir topluluqdur... Gerçəkdən də insan, qanı bir olan insanlardan daha çox dildə və dində müştərək olduğu insanlarla bərabər yaşamaq istəyir. Çünki insani şəxsiyyətimiz bədənimizdə deyil, ruhumuzdadır. Maddi məziyyətlərimiz irqimizdən, mənəvi məziyyətlərimiz isə tərbiyəsini aldığımız cəmiyyətdən gəlir... İnsan üçün mənəvi varlıq, maddi varlıqdan öncə gəlir. Bu baxımdan, milliyyətdə şəcərə aranmaz. Yalnız tərbiyənin və ideyanın milli olması aranar. Normal bir insan hansı millətin tərbiyəsini almışsa, ancaq o

millət üçün çalışar... İnsan tərbiyəsi ilə böyüdüyü cəmiyyətin *məfkurəsi uğrunda həyatını belə fəda edə bilər»* (79, 22).

Türkçülərin yalnız siyasi və ideoloji görüşləri deyil, dil, ədəbiyyat, tarix, estetika, əxlaq, hüquq, din, iqtisadiyyat və fəlsəfi görüşlərində də yanılmadıqlarını zaman təsdiq etdi. «Osmanlıçılara» xristianlar, klerikal «İslamçılara» da müsəlman ərəblər əməlləri ilə tutarlı cavablar verdilər.

Türkçülərə görə topluluqların millət olması üçün sadəcə eyni irqdən olması yetərli deyildir. Eyni irqdən olan, eyni adət-ənənəyə, eyni qayda-qanunlara, eyni torpaq və din birliyinə nail olan və ən başlıcası, eyni dili danışan topluluqlar millət ola bilirlər. Bu fikri demək olar ki, milliyyətçiliyi qəbul edən bütün ideoloqlar təsdiq edir. Belə ki, ömrünün qırx ilini milliyyətçiliyin tarixini və mahiyyətini incələməyə sərf edən və milliyyətçiliyi XX və ondan sonrakı əsrlərin dini hesab edən məşhur amerikan sosioloqu Çarlton İ.N.Hayes «Milliyyətçilik: Bir Din» (Nationalizm: A Reliqion) adlı əsərində yazır: «Bir milliyyət öz varlığını, xarakterini, mənliyini həmişə olmasa da fiziki coğrafiya və ya bioloji irqdən deyil, mədəni və tarixi güclərdən alır. Dili bunların – mədəni və tarixi güclərin ilki və ən öndə gələni sayıram» (24, 16).

Bəllidir ki, dil insanlara məxsusdur və ən azında *əfsanəvi Babil Qülləsi dövründən günümüzə qədər dəyişən* bütün şərtlərə baxmayaraq, dillər yaşamaq hüququ qazanmışdır. Hətta xalqlar, millətlər tarix səhnəsindən silinmiş, ancaq onların dillərindən nümunələr qalmışdır. Qədim Şumer abidələri, Misir mixi yazıları, Bisütun yazıları və bu kimi yazılı sənət nümunələri tarixdən silinmiş və ya başqa xalqların içərisində əriyib yox olmuş xalqların dilini bu gün də əks etdirməkdədir.



Antropoloqlar göstərmişlər ki, ilk tayfa və qəbilələr belə bir-birlərindən əsasən danışıq fərqləri ilə ayrılmışlar. Alimlər də, adi insanlar da dilin millətin ən mühüm, ən inamlı əlaməti olmasını qəbul edirlər. İstər varlı, istər kasıb, istər yaxşı, istər pis, istər dahi, istər nadan olsun, bir ölkədəki bütün insanların ortaq malı və digər ölkə insanlarından fərqləndiyi ilkin yeganə şey dildir. Bu anlamda bütün millətləri bir-birindən fərqləndirən ilk amil dildir. Dil hər bir millət, xalq və etnik qrupların indiki nəsli ilə keçmiş və gələcək nəsilləri arasındakı qırılmaz bağlardan biridir. Bu mənada dil hər bir millətin, xalqın və hətta etnik qrupların həmrəylik və ədəbi birliyini qoruyub saxlayan ən mühüm amildir. Dil millətin ən ali mədəniyyətidir.

Kosmopolit və ya beynəlmiləl hərbi imperatorluqların *yüksəlişi, millətlərarası* dünya dinlərinin yayılması yeni bir *qarışıq kosmopolit* yazı dili və yazılı ədəbiyyatı *formalaşdırmışdır.* Bu yazı dili və yazılı ədəbiyyat yazılı ədəbi dili formalaşdırmışdır. Lakin hərbi imperatorluqların tərkibində olan və dünya dinlərini tam mənimsəyə bilməyən xalqlar öz şifahi dilləri əsasında şifahi ədəbi dillərini və qarşılıqlı olaraq şifahi ədəbi əsərlərini yaradırdılar. Formalaşan yazılı ədəbi dil və onun əsasında yaranan yazılı ədəbiyyat yalnız azlıq təşkil edən müəyyən bir zümrə tərəfindən işləndiyi və anlaşıldığı üçün şifahi ədəbi dili formalaşdıran çoxluq arasında bir çatlaq ortaya çıxarmış və sonda bu çatlaq getdikcə genişlənərək imperatorluqların ayrı-ayrı xalqlarında milliyyətçilik şüurunun yaranmasına gətirib çıxarmışdır. İmperatorluqlara daxil olan hər bir xalqın intellektuallarının arasında kosmopolitçiliyin zəifləməsi və onun yerini milli təfəkkürün tutması sonda hərbi imperatorluqların çökməsi ilə nəticələndi.

Bu proses Qərbi Roma mədəniyyətinin varisi olan Qərbdə Qədim Şərq və Bizans imperatorluğunun varisi olan Şərqdən yüzillərlə öncə başladı. Qərbdə XV əsrdən geniş vüsət alan və sonda Qərbi Roma imperatorluğunun süqutu ilə nəticələnən prosesdə imperatorluğun uzun müddət rəsmi dili olan latıncanın yerini milli dillər olan italyan, alman, ingilis, fransız, portəkiz, norveç və hətta çex və polşa dilləri tutmağa başladı. Milli dillər milli ədəbiyyatlar yaratdı. Mətbəənin kəşfi, protestantların və katoliklərin xalq dəstəyi almaq məqsədi ilə «İncil»i milli dillərə çevirmələri, milli ədəbiyyatların inkişafı və nəhayət, milli iqtisadiyyatların da yaranması nəticədə Qərbi Avropada daha güclü və daha effektli müstəqil siyasi qurum olan monarxiyalı milli dövlətlərin – İngiltərə, Fransa, İspaniya, Portəgiz, İsveç, Danimarka və Hollandiya – yaranmasına gətirib çıxardı. Milli dilin, milli ədəbiyyatın inkişafı və monarxiyalı milli dövlətlərin yaranması millətləri ucaltdı. Milli dövlətlər milli siyasətə, milli ideologiyaya, milli iqtisadiyyata, milli ticarətə yiyələndikcə milli vətənpərvərlik ruhu da yüksəlirdi. Bu vəziyyət bəzi millətlər arasında ticarət və koloniya savaşlarına səbəb oldu. Bu millətlərarası müharibələr milli qəhrəmanlar yaratdı.

Çox təəssüflər olsun ki, Uzaq Şərq, Yaxın Şərq və Şərqi Roma (Bizans) mədəniyyətinin varisi olan türklər bu prosesi vaxtında duya bilmədilər və yazılı ədəbi dilini, milli ədəbiyyatını, milli iqtisadiyyatını, milli siyasətini, milli ideologiyasını, qarşılıqlı olaraq anlaşılmaz bir dilə, xalq tərəfindən başa düşülməyən bir ədəbiyyata və ümmətçiliyə xidmət edən bir imperatorluğa qurban verdilər. Onlar unutdular ki, ümmətçiliyə dayanan kosmopolit imperatorluqların yaratdığı kosmopolit dillərin ömrü də imperatorluqların ömrü qədər olur.



Və sonda qələbə millətin olduğu kimi onun milli dili də qalib oldu. Ona görə də türkçülər milli türk dilini «millətin mənəvi vətəni» (57, 22) saymış, «türk dilinin digər dillərdən yardıma möhtac olmayacaq dərəcədə zənginliyindən, türk dilinin başqa dillərə etdiyi yardımdan» (53, 34) bəhs etmiş, türk millətinin «dilində... millətin ruhu yatmaqdadır» (52, 77) fikrini irəli sürmüş və dildə türkçülüyün prinsiplərini müəyyənləşdirmişlər. Onlar yazılı dillə şifahi dili müqayisə edərək əsl türk dilinin şifahi xalq dili olduğunu irəli sürmüşlər. Onlar yazılı dili «təbii bir dil deyil, Esperanto kimi süni bir dil» (79, 114) hesab etmiş və bu ikiliyə son qoymaq üçün belə bir fikir irəli sürmüşlər ki.. «Danışıq dilini yazaraq yazı dili halına gətirmək... Osmanlı dilini heç yoxmuş kimi bir tərəfə ataraq xalq ədəbiyyatının əsas vəzifəsini yerinə yetirən türk dilini eyni ilə milli dil saymaq kafidir» (79, 114).

Onlar təmiz türkçənin yeni yaranacaq yazılı ədəbi dildə təzahürü üçün xalq dilində olan türkcə ilə eyni mənanı daşıyan ərəb və fars sözlərini atmaq, xalq dilinə keçib söyləniş və məna baxımından o dillərdən fərqli pozuq şəkillərini türkcə saymaq və yazılışlarını da söylənişlərə uyğunlaşdırmaq, yerlərinə yeni sözlər yaranmış köhnə sözləri yenidən diriltməməyə çalışmaq, yeni terminlər yaranacağı zaman ilk olaraq xalq dilindəki sözlərin içərisindən aramaq, olmadığı təqdirdə türk dilinin işlək tərkib, ədat, qoşma və şəkilçilərinin köməyi ilə yeni sözlər yaratmaq, buna da imkan olmadığı sürətdə ərəb və farsca tərkibsiz olmaq şərti ilə yeni sözlər qəbul etmək, bəzi dövrlərin və məsləklərin xüsusi vəziyyətlərini göstərən sözlərlə texnikaya aid alət adlarını yabançı dillərdə olduğu kimi işlətmək, ərəb və fars dillərinə məxsus növ, şəxs, hal şəkilçilərini, ədat və tərkibləri dilə gətirməmək və s. kimi

prinsipləri irəli sürdülər və ilk öncə özləri bunlara əməl etməyə başladılar.

Onlar belə fikir irəli sürdülər ki: «Türk xalqının bildiyi və işlətdiyi hər söz və kəlmə türkcədir. Xalq üçün xoş olan və süni olmayan hər söz millidir. Bir millətin dili özünün cansız köklərindən deyil, canlı əmanətlərindən qurulan diri bir orqanizmadır» (79, 138,139).

Onlar irəli sürülən milli türk dilinin lüğətini yaratmaq və qrammatikasını işləyib hazırlamağı da tövsiyə etmiş, bu işi gələcək nəsillərə tapşırmışdılar. Beləliklə, onlar böyük İsmayıl bəy Qaspıralının irəli sürdüyü «Dildə birlik» ideyasının elmi-nəzəri əsaslarını işləyib hazırlamış oldular. Türkçülərin bu nəzəriyyəsindən ruhlanan şair və yazıçılar milli türkcədə əvəzsiz sənət əsərləri yaratdılar və milli dilin inkişafına öz qabiliyyət və bacarıqlarını əsirgəmədilər. Beləliklə, özündən əvvəlki Osmanlıca və klassik Azərbaycan ədəbiyyatından dilcə daha təmiz, daha anlaşıqlı, bütün xalqın anlaya biləcəyi milli bir dil yarandı. Bu dil gələcəkdə yaranan milli dövlətlərin dövlət dili oldu. Bu dil türkçülərin nəzəri şəkildə irəli sürdüyü «Türkləşmək» prinsipini yerinə yetirməkdə əvəzsiz rol oynadı. Çünki bir millət milli dilini sevməklə, milli ədəbiyyatını bu milli dillə yaratmaqla öz gələcək qurtuluşunu təmin etmiş olur. Azərbaycanın və bütün Şərqin böyük mütəfəkkiri, filosofu, ictimai xadimi, müsəlman liberal islahatçılarının görkəmli nümayəndəsi Şeyx Cəmaləddin Əfqani yazırdı: «Millətdən kənarda xoşbəxtlik yoxdur. Millət isə dilsiz təsəvvür edilə bilməz. Dil isə eyni bir cəmiyyətin bütün təbəqə və zümrələri üçün anlama vasitəsi olmasa, öz sosial funksiyasını yerinə yetirə bilməz» (59, 114). Fikrini daha da gücləndirərək Şeyx Cəmaləddin Əfqani dil və dini cəmiyyətin vəhdətini təmin edən mühüm vasitə hesab edir və çox



haqlı olaraq özü tam islamçı olmasına baxmayaraq, dilə dindən daha böyük üstünlük verir və hətta dil birliyini milli birlik hesab edir. O, yazır: «Dil birliyi, yəni milli birlik dini birlikdən daha möhkəm və sabitdir. Çünki o, (yəni dil – R.Ə.) az müddət ərzində dəyişməyi və başqa dil ilə əvəz olunmağı qəbul etmir. Din birliyi isə belə deyil. Tarix göstərir ki, bir dildə danışan bir millət min il ərzində öz dilinə ciddi xələl gətirmədən iki-üç dəfə dinini dəyişib başqa dinlə əvəz edə bilər. Odur ki, dil birliyindən hasil olan əlaqə və ittifaqın təsiri dini əlaqələrin təsirindən daha artıqdır» (45, 26-27).

Belə bir nəzəri fikir də hakimdir ki: «hər hansı bir cəmiyyətdə bütün təbəqələrin bir-birini anlamaması, bir-birinin dilini başa düşməməsi o cəmiyyətdəki rifahı təhlükəyə soxar və ya bərabərliyi yox edər» (29, 207-208).

Türkçülər dərindən anlayırdılar ki, türk birliyinin yaranmasında, türklük şüurunun daha da qüvvətlənməsində milli dilin çox mühüm rolu var. Çünki türk dili min illər boyu türk dünyasının özəyini təşkil etmiş, türk mədəniyyətinin, türk ədəbiyyatının və türk birliyinin təməlini formalaşdırmışdı. Türk düşmənləri bunu duyduqlarındandır ki, türkün yox edilməsi üçün ilk növbədə onun dilini yox etməyə çalışmışlar. Türk milləti yüz illər boyu xaricdən və daxildən olan hər cür basqılara sinə gərərək öz dilini unutmamış, bu dildə danışmağı və düşünməyi varlığının, mövcudluğunun bir hissəsi saymışdır. Çünki bilirdi ki, «dil təfəkkürlə bağlıdır». Dili olmayanın təfəkkürü də yoxdur. Təfəkkürü olmayanın isə heç nəyi yoxdur. O, sadəcə kimlərinsə alətidir. Bu düşüncəni təəssüflər olsun ki, min illər boyu Uzaq və Yaxın Şərqdə hökmranlıq edən türk hökmdarlarının çoxu unutmuş, dövlət və imperiya düşüncəsinə dili və qarşılıq

olaraq milləti qurban vermişlər. Çox az hökmdarlarımız və dövlət başçılarımız olmuşdur ki, milli dili qorumağı, onu dövlət dili elan etməyi anlamış, bu yolda türklüyə xidməti hər şeydən üstün tutmuşlar. Bu məsələdə Göytürk xaqanlarının, Qaramanoğlu Məmməd bəyin, Əmir Teymurun, Şah İsmayıl Xətainin, Məmməd Əmin Rəsulzadənin, Mustafa Kamal Atatürkün, Heydər Əliyevin, Əbülfəz Elçibəyin əvəzsiz xidmətləri olmuşdur. Belə ki, Asiya Böyük Hun imperatorluğundan sonra, türk mədəniyyətini hər cəhətdən təmsil edən ikinci fövqəladə türk imperatorluğu olan «Göy Türk Xaqanlığı «türk» sözünü ilk dəfə rəsmi dövlət adı olaraq qəbul etməklə bütün bir millətə ad vermək şərəfini qazanmış, Şərqi Sibirdəki yakut türkləri və qərbdəki oqur (Bulqar) türkləri istisna olmaqla türk əsilli bütün xalqları öz hakimiyyəti altında birləşdirmişdir. Xaqanlığın yıxılmasından sonra bir yelpazə kimi açılaraq dörd tərəfə yayılan müxtəlif türk qrupları getdikləri yerlərdə «türk» adını, onun idarəçiliyini, siyasi və iqtisadi gələnəklərini yaşatmışlar» (76, 127).

Qaramanoğlu Məmməd bəy türk bəyliklərinin birliyinin yaranmasında türklük şüurunun inkişafında türk dilinin əhəmiyyətini öz fərmanı ilə təsdiq edir. Fərmanda göstərilir ki: «Bu gündən etibarən sarayda və dərgahlarda, məclislərdə və meydanlarda türkcədən başqa dil işlədilməyəcək» (26, 29).

Mustafa Kamal Atatürk də: «Millətin çox açıq keyfiyyətlərindən biri də dildir. Türk millətindənəm deyən insan hər şeydən əvvəl və mütləq şəkildə türkcə danışmalıdır. Türkcə danışmayan bir insan türk mədəniyyətinə, türk xalqına bağlı olduğunu iddia edərsə buna inanmaq doğru deyildir» demişdir (26, 29).



Bütün bu deyilənlər onu sübut edir ki, dil müstəqilliyi siyasi müstəqilliyin başlanğıcıdır.

Bizcə, bugünkü Azərbaycan xalqı super etnosdur. Bu super etnosun nüvəsi və əsası türk etnosudur. Tarixən Azərbaycanın köklü tayfaları olan prototürklər (erkən türklər – R.Ə.) lullular, turukkular, kaslar, sular, kutilər, saburlar, kanqarlar və b. məhz qədim türk etnoslarıdır. Bu türk etnosları tayfa, qəbilə birlikləri yaradaraq zaman-zaman Azərbaycan ərazisində Aratta, Lullubum, Kutium kimi, sonra isə qonşu və gəlmə tayfalarla ictimai-siyasi əlaqələrə girərək Manna, Midiya, Adərbayqan (Atropotena), Albaniya kimi, daha sonra isə Sacilər, Salarilər, Şirvanşahlar, Şəddadilər, Rəvvadilər, Atabəylər, Elxanilər, Çobanilər, Cəlayirlilər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar kimi imperiya və dövlətlər, xanlıqlar quraraq Azərbaycan xalqının formalaşmasında müstəsna rol oynamışlar.

Böyük Türk dünyasının mühüm hissəsini təşkil edən bu super etnosun dili də super türk dili olmuşdur. Bu türk dili Azərbaycan xalqının bu gün də dalğalanan «səs bayrağı»dır. Bu dil artıq bir xalqın ən azı min illik bir ədəbi və yazı dilidir. Bu dil Yaxın Şərqdə əsrlər boyu hökmdarlarının etinasızlığına belə baxmayaraq ərəb və fars dili ilə rəqabət aparmış, dipdiri yaşamış və bir millətin mədəniyyət beşiyi, mənəvi Vətəni olmuşdur. Bu dili yaşadıb bu günə gətirib çıxaran millət öz eşqini, sevdasını, sevincini, kədərini, toyunu, vüsalını, həsrətini, Tanrıya ibadətini bu dildə bildirmişdir. Anamız bizlərə bu dildə laylalar söyləmiş, nənələrimiz bizlərə bu dildə nağıllar, dastanlar danışmış, ata-babalarımız bu dildə bizlərə hikmətli kəlamlar, fəlsəfi fikirlər ərməğan etmişlər. Bu dil bir millətin yaşama qarantı, onun əbədi dalğalanan bayrağıdır.

Dil davası, millət olaraq varlıq, müstəqillik davasıdır. Mənsub olduğumuz türk dili vətənimizin birlik və bütünlüyünü, milli tariximizin davamlılığını yaşadır.

Düşüncə, elm və tədris həyatımızda türk dilinin hökmranlığı əsasdır. Başqa dilləri bilmək və gözəl bilmək, o dillərdə yazılan elmi və bədii təfəkkürü ana dilində xalqa çatdırmaq çox yararlı və zəruridir. Avropa məhz belə yüksəlibdir.

Bütün bu deyilənlərdən aşağıdakı nəticələr əldə edilmişdir. Millətlər yalnız milli ideologiyaları, təfəkkür və xarakteri ilə mədəniyyətə, texnologiyaya, elmə və sonda dövlətə yiyələnə bilərlər. Bu yolda yüzlərlə yüksək səviyyəli insanlar, əvəzsiz elm, mədəniyyət, incəsənət, ədəbiyyat və siyasi xadimələri min cür əzab-əziyyətə qatlaşaraq, hətta lazım gəldikdə canlarını belə qurban verərək millətlərini sonda hürriyətə qovuşdurmuşlar. Türk dünyasında, o cümlədən də Azərbaycanda bu proses gec də olsa XIX əsrdən başlayaraq XX əsrin birinci və ikinci yarısında öz bəhrəsini vermişdir. Osmanlı imperatorluğunda Süleyman paşa, Əhməd Vəfiq paşa, Şeyx Süleyman əfəndi, İbrahim Şinasi, Ziya paşa, Namiq Kamal, Vələd Çələbi, Əmrullah əfəndi, Nəcib Asim bəy, Əhməd Hikmət bəy, Rəcaizadə Mahmud Əkrəm bəy, Tofiq Fikrət, Xalid Ziya Uşaqlıgil, Ömər Seyfəddin, Məmməd Əmin Yurdaqul, Xalidə Ədib xanım, Həmdullah Sübhi bəy, Fuad Köprülü, Yaqub Qədri, Yahya Kamal, Falih Rıfkı, Rəfiq Xalid, Rəşad Nuri Güntəkin, Orxan Seyfi, Faruk Hafiz, Yusif Ziya, Nazim Hikmət, Vala Nurəddin, Müfidə Fərid xanım, Ənvər paşa, Tələt paşa, Camal paşa, Ziya Göyalp və ən başlıcası Mustafa Kamal paşa, Azərbaycanda Molla Pənah Vaqif, Vidadi, Qasım bəy Zakir, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Abbasqulu ağa Bakıxanov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov,



Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və bütün mollanəsrəddinçilər, Üzeyir Hacıbəyov, Əhməd Cavad və xüsusilə Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Yusif bəy Nəsibbəyli və Məmməd Əmin Rəsulzadə, Krımda İsmayıl bəy Qaspıralı, Simbirskdə Şəhabəddin Mərcani, Qəyyumün Nəsiri, İbrahim bəy Akçuraoğlu və Yusif Akçuraoğlu, Başqırdıstanda Zəki Vəlidov (Toğan) və başqaları – bu milli məfkurə sahibləri, fikir və düşüncə fədailəri, milləti düşdüyü vəziyyətdən çıxarmaq üçün hərəsi öz sahəsində yollar düşünmüş və imkanları daxilində əllərindən gələni əsirgəməmişlər.

Onlar bu məqsədlə elmin tərəqqisində, millətin qurtuluşunda əsas olan fikirlər irəli sürmüşlər. Bunlardan bir çoxunun məfkurəsinin adı türkçülük olmasa da, mahiyyəti məhz türkçülük idi. Çünki türkçülük məfkurəsi də digər mütərəqqi məfkurələr kimi xalqın uğradığı haqsızlıq və şərəfsizliyi anladan, cəmiyyətin durğunluq və süstlüyünü doğuran səbəbləri aşkara çıxaran və bunlardan çıxış yollarını göstərən ən güclü, ən sistemli fikirlər toplusudur.

Hər milliyyətçiliyin öz adı olduğu kimi türk milliyyətçiliyinin də adı Türkçülükdür.

Türkçülük türk milətinin milli mənafeyini özündə əks etdirən dünyagörüşüdür.

Türkçülük türk millətini, türk vətənini, türk dövlətini sevmək, türk millətinin birlik və bərabərliyini qorumaq, sevmək, türk millətini yüksəltmək deməkdir.

Türkçülük Türk millətinin şərəfli tarixinə, yaratdığı cahanşümul mədəniyyətə sahib çıxmaq, türk mədəniyyətini, türk dilini, türk əxlaqını qorumaq, onu inkişaf etdirmək deməkdir.

Bu anlamda türk mədəniyyətini yüksəltmək türk millətini yüksəltmək deməkdir. Türk dilini qorumaq türk millətini qorumaq deməkdir. Türk dilini inkişaf etdirmək türk millətini inkişaf etdirmək deməkdir. Türk əxlaqını qorumaq, türk ailəsini və bütövlükdə türk millətini qorumaq deməkdir. Türk adət-ənənəsini yaşatmaq, Türk millətini yaşatmaq deməkdir. Türkcə yazmaq və yaratmaq türk təfəkkürünü inkişaf etdirmək deməkdir. Türkcə tədris türklüyə əbədiyyət qazandırmaq deməkdir.

Türkçülük, türk millətinin haqqının, ləyaqətinin, ədalətinin təmsilçisi deməkdir.

Türkçülük, türk millətini yox etməyə yönələn bütün ideoloji sistemlərə, türk millətinə qarşı çıxan, onu aşağılamağa çalışan bütün qüvvələrə, türk milli varlığına zərərli olan hər şeyə qarşı mübarizə deməkdir.

Türkçülük ideologiyası türklərə XX əsrdə yaşamaq haqqı qazandıran milli dövlətlər bəxş etdi.

Tarix sübut etdi ki, milli ideologiyası olmayan bir millətin nə iqtisadiyyatı, nə siyasəti, nə hüququ və nə də mədəniyyəti, dili və ədəbiyyatı inkişaf edə bilər və nə də o millət dövlət qura bilər.

Bütün dünya hadisələrini fikir, düşüncə və bu fikir və düşüncələrin əqli iradəsi idarə etmiş, edir və edəcək. Millətləri də o millətlərin milli ideologiaları idarə etmiş, edir və edəcək.

İnsanı şüur, ağıl, iradə, cəsarət və azadlıq dəyərləndirdiyi kimi, millətləri də onların müstəqilliyi, haqq və hürriyyət, demokratiya uğrunda apardığı mübarizə, tarixdə oynadığı rol və yaratdığı mədəniyyət dəyərləndirir. Mədəniyyətin ən yüksək forması isə demokratik dövlətdir.



# NƏTİCƏ

Nəticə olaraq qeyd etməyi lazım bilirik ki, milli müstəqillik ideyasını Azərbaycana məhz bəhs edilən üç sütunlu – Türkləşmək, İslamlaşmaq, Müasirləşmək – ideoloji-siyasi sistem gətirmiş və onu qısamüddətli də olsa gerçəkləşdirmişdir. Bu işdə təbii ki, Azərbaycan bədii təfəkkürünün və maarifçiliyin də müstəsna rolu vardır. Çünki bəşər tarixi sübut etmişdir ki, insanlığı tərəqqiyə və humanitar inqilablara həmişə maarifçilər hazırlayıblar. İlk müstəqil Azərbaycan Cümhuriyyətinin, həmçinin Türkiyə Cümhuriyyətinin də mənəvi və siyasi memarları Azərbaycanda Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Seyid Əzim Şirvani, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Məhəmməd Hadi, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə və bütün mollanəsrəddinçilər, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Əhməd Cavad və xüsusilə Əlimərdan bəy Topçubaşov, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Yusif bəy Nəsibəyli, Fətəli xan Xoyski və ən başlıcası Məmməd Əmin Rəsulzadə, Türkiyədə Süleyman paşa, Əhməd Vəfiq paşa, Şeyx Süleyman əfəndi, İbrahim Şinasi, Ziya paşa, Namiq Kamal, Nəcib Asim bəy, Xalid Ziya Uşaqlıgil, Ömər Seyfəddin, Məmməd Əmin Yurdaqul, Xalidə Ədib Adıvar, Fuad Köprülü, Yaqub Qədri Qaraosmanoğlu, Rəşad Nuri Güntəkin, xüsusilə Ənvər paşa, Tələt paşa, Camal paşa, Ziya Göyalp və ən başlıcası Mustafa Kamal Atatürk və bu kimi onlarla milli məfkurə sahibləri, fikir və düşüncə fədailəri, milləti düşdüyü vəziyyətdən çıxarmaq üçün hərəsi öz sahəsində yollar düşünmüş, imkanları daxilində əllərindən gələni əsirgəməmişdir. Bu

şəxslərin demək olar ki, hamısı üzlərini sabaha, tərəqqiyə istiqamətləndirmiş, siyasi-ideoloji, vahid nəzəri fəlsəfi və estetik mövqedən çıxış edərək milli və beynəlmiləl ideyanın təmsilçiləri idilər. Azərbaycan və Türkiyə ədəbiyyatı və ictimai-siyasi təfəkküründə milli-bəşəri dəyərlərin, İslama, Türkçülüyə və Müasirliyə güvənən ideya-siyasi və elmi-fəlsəfi sərvətinin qarantı rolunda çıxış etmiş, Azərbaycan və ümumtürk təfəkkür tarixinin ideya şərəfi, Azərbaycan və Türkiyə milli-demokratik dövlətçiliyinin məhək daşları olmuşlar. Onlar ümumbəşəri bədii, elmi, siyasi və ideoloji fəlsəfə əsasında bir demokratik cəmiyyət formalaşdırmaq, milli dəyərlərə söykənən, milli ideologiyaya əsaslanan bir dövlət yaratmaq istəmiş və buna sonda nail olmuşlar. Şərqdə ilk demokratik Xalq Cümhuriyyəti yaratmış, bu demokratik dövləti «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» kimi formulə edilən ideoloji əsasda idarə etməyə başlamışlar.

Bu göstərilən üç anlayış – Türkləşmək, İslamlaşmaq, Müasirləşmək–arasında bəzilərinin sandığı kimi ziddiyyət yoxdur, əslində Azərbaycan və Türkiyə cəmiyyətində bir-birini tamamlama vardır. Belə ki, Türkçülük Türk millətinin kökü, müasirlik onun qol-qanadı, İslamçılıq isə ona nəfəs verən mənəvi yarpaqlarıdır. Bu üçündən hasil olan demokratik Cümhuriyyət isə onların barı, meyvəsidir. Unutmaq olmaz ki, varlığını qoruyub saxlamaq istəyən hər bir millətin keçmişini qoruyub gələcəyə getməsi üçün özünü dərk etməsi, bugünkü mədəni yaşayış tərzinə uyğunlaşması, müasir elm və texnologiyaya yiyələnməsi və bütün bunlara yaradıcı şəkildə qatılması, həmçinin mənəvi dəyərlərini qoruyub saxlaması əsas şərtdir. Bəllidir ki, milli «mən» şüuru hər şeydən əvvəl, «özünüdərk» şəklində özünü göstərir. Əsərdə də qeyd edildiyi kimi Azərbaycan və Türkiyədə müasir anlamda milli



«mən»lik şüurunun oyanması, xüsusən XIX əsrin sonlarında vüsət almış, XX əsrin əvvəllərindən başlayaraq ciddi elmi-konseptual şəklə düşmüşdür. Milli ənənələrə qayıdışı təbliğ və təlqin edən milli ziyalılarımız «Türk kimdir?» sualını gündəmə gətirməklə «Türkləşmək» ideoloji sistemini yaratdılar və onu siyasi arenaya çıxardılar. Bu ideoloji sistemə «İslamlaşma və Müasirləşmə»ni də əlavə edərək müstəqillik ideyasını gerçəkləşdirdilər. Müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar və dövlətin inzibati-ərazi statusunun gerçəkləşdirilməsi, sosial-siyasi, iqtisadi, hərbi və diplomatik təminatını bir vəzifə kimi qarşıya məqsəd qoydular. Bu göstərilənlərdən ən böyük uğur məhz ərazi bütövlüyü, onun toxunulmazlığı və siyasi-diplomatik münasibətlər sahəsində əldə edildi. Millətin (Tatar və Osmanlı əvəzinə Türk – R.Ə.), ölkənin (Azərbaycan, Türkiyə) və dövlətin (Azərbaycan Xalq cümhuriyyəti, Türkiyə Respublikası) adı da ilk dəfə özünə qaytarıldı. Xalqın milli məfkurəsi öz dövlət atributu olan bayrağında öz əksini tapdı. Misli «Avropada belə tətbiq olunmayan həqiqi bir Xalq Cümhuriyyəti quruldu» (Məmməd Əmin Rəsulzadə, Əsrimizin Səyavuşu, Azərbaycan Cümhuriyyəti bölməsi, Bakı, 1991, səh. 41). Bu Cümhuriyyətlər Azərbaycan və Türkiyədə humanist milli ənənələrin, hüquqi, fəlsəfi fikrin, milli «mən» və milli dövlət şüurunun, bütövlükdə xalqın azadlıq hərəkatının tarixən qanunauyğun və məntiqi yekunu idi. Şərh edilən bu üç sütunlu milli məfkurə əsasında qurulan Azərbaycan Xalq Cümhuriyyəti o zaman bütün Şərqdə və hətta deyə bilərik ki, Qərbdə ən demokratik parlament modelinə malik beynəlmiləlçi, hüquqi dövlət təsisatı idi. Azərbaycan Cümhuriyyətinin əsas idarə sistemi bütün vətəndaşların cins, milliyyət fərqi gözənilmədən – kişi-qadın, müsəlman-xristian-musəvi, türk-qeyri-türk, zəngin-fəqir, müdir-işçi,

torpaq sahibi – günəmuzdçu, müəllim-tələbə, alim-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsil, bilgi imtiyazı aramadan bərabər bir hüquqda yaşaması üzərində qurulmuş, bütün vətəndaşlar məmləkətin idarə olunmasında iştirak etmişlər. Bu dövlətdə bir sinif digər sinfə hakim deyildi, insan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız sayılırdı.

Beləliklə, fəsillərdən çıxarılan ümumi nəticələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» kimi Əli bəy Hüseynzadə tərəfindən formulə edilən, Ziya Göyalp tərəfindən «Türkləşmək, İslamlaşmaq, Müasirləşmək» şəklində proqramlaşdırılan ideoloji-siyasi və fəlsəfi sistem türk dünyasının istək və arzularından, tarixi yaşam tərzindən doğmuşdur.

- Bu ideoloji sistem yetmiş illik (1850-1918) milli mənəvi inkişafın nəticəsidir ki, ədəbiyyatın, mətbuatın, ayrı-ayrı mütəfəkkirlərin, elm, mədəniyyət, incəsənət xadimlərinin təfəkküründə formalaşıb cəmiyyətə mərhələ-mərhələ təqdim edilərək dövlət ideologiyasına çevrilmişdir.

- Bu ideoloji sistemin ilki müasirləşməkdir. Ondan sonra tarixi şərtlərin diktəsi ilə (Bu tarixi şərtlər əsərdə geniş şərh edilmişdir – R.Ə.) İslamlaşmaq və ən sonda isə Türkləşmək ideyası ortaya çıxmışdır.

- Həmin sistemi təşkil edən əsaslar tarixən ilk dəfə idi ki, rəsmi ideoloji-siyasi doktrina, dövlət siyasəti səviyyəsində iş proqramı kimi elan olunmuş, ona əməl edilməyə çalışılmışdır.

- Bu ideoloji sistem rəsmiləşərək Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi dövlət atributu olan üç rəngli, ay-ulduzlu bayrağında əksini tapmışdır.



- Bu doktrina Azərbaycan Cümhuriyyətinin mövcudiyyətinin potensial əsası olan milli istiqlalın, ərazi bütövlüyünün və siyasi, inzibati quruluşunun modelini ehtiva edirdi.

- Bu ideoloji sistem xalqımıza eyni sosial-siyasi məkanda milli-mənəvi yaddaşın qorunmasını, onun yüksəlişi üçün fəlsəfi-estetik təməlini, nəzəri əsasını, milli tərəqqi təlimini və konsepsiyasını bəxş etdi.

- Üç sütuna əsaslanan ideoloji sistemə Azərbaycan Xalq Cümhuriyyətinin bolşeviklər tərəfindən devrilməsindən sonra 1923-cü ildə yaradılan Türkiyə Respublikası, 1991-ci ildə isə yaradılan Müstəqil Azərbaycan Respublikası yenidən sahib çıxdılar.

- Mənəvi irsimiz olan adı çəkilən ideoloji sistem bugünkü qloballaşma dönəmində də öz aktuallığını saxlamaqdadır.

# ƏDƏBİYYAT


1. Abdullah Cevdət «İhya-yi Layemut: Həkim Ədib Əli Bəy Hüseynzadə», İctihat, C II, sayı 5, 1908.
2. «Ahmed Cevdet. Tarihi-Cevdet, İstanbul, hicri, 1301, Bax:Osman Turan. Türk Cihan Hakimiyyəti Məfkurəsi Tarihi, cilt:1-2.
3. Akdes Nimet Kurat, Türkiye ve Rusya, Ankara, 1990.
4. Akdes Nimet Kurat, Panislamizm. Dil, tarih, felsefe dergisi, XI, 2-3, 1953.
5. Ağayev Əhməd bəy. İran qadınları, «Xəzər» jurnalı, 1990 №2.
6. Ali Haydar Bayat. Azerbaycanın yigit evladı Ali Bey Hüseynzade… İst. 1992. 184 səh.
7. Axundov M.F. Əsərləri, III c., Bakı, 1962.
8. Ахмедов Э.М.. Изложение космографических воззрений А.К.Бакиханова. Баку, 1967.
9. А.Агаев, Панисламизм, его характер и направление, Газ. «Каспи»,1900, №81.
10. Агаев А., Ислам и женшина, Газ «Каспи»,11 dekabr, 1898.
11. Агаев А. Положение мусульманских народов. Газ «Каспи»,1903, №251.
12. Ağayev M.B. Məmməd Əmin Rəsulzadə. Bakı, Nur lan, 2006, 146 s.
13. Ağayev M.B. Pantürkizm böyük ideoloqu. «Dirçəliş XXI əsr» jurnalı, 2004, №78-79.
14. Akçura Yusif. Türkçülüyün tarixi. İst.,1990, 184s.
15. Akçura Yusif. Üç terzi siyaset. 2-ci basqı, Ankara, 1987, 55s.
16. Akçura Yusif. 3 haziran vaka-yi müəssifəsi, Orenburq, Kərimov, Hüseynov mətbəəsi, 1907.
17. Akçura Yusif. Hüseynzade Ali Bey. Türk yurdu. C. VIII, s.25-84
18. Akçura Yusif. Türkçülük.İst.1990.





19. Azərbaycan tarixi, Ən qədim zamanlardan XX əsrə dək, I cild, Z.M.Bünyadovun və Y.B.Yusifovun redaktəsilə. ADN, Bakı, 1994.
20. Baykara Hüseyn. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı, 1992. 280 s.
21. Celal Tarakçı. Tarihimizdeki fikir cereyanları ve Ata türkün bunları degerlendirmesi. Bax: Milliyyetçilik ve milliyyetçilik tarixi, II elmi konqres, Tebliğler. Ankara, 1989. 244 səh.
22. Cəmaləddin Əfqani. Seçilmiş əsərləri. B., Ş. Qurbano vun tərtibatı ilə. 1998, 72 səh.
23. Çarl Mühlmann. Das deutsch – turkische waffenbündnis im weltkriege 1914(1917) Leipzg, 1940; Bax: A.N.Kurat. Türkiye ve Rusiya. Ankara, 1990.
24. Çarlton İ.N. Hayes. Milliyyetçilik: Bir Din. Tərc. Mu rat Çiftkaya, İst. 1995.
25. «Dirilik» qəzeti. 1914 sentyabr, №1; oktyabr №5; de kabr №6.
26. Ercüment Konukman. Topluluktan millete. İst. 1989. 140 səh.
27. Ercüment Kuran. Türkiyede çağdaşlaşma və milliyyet çiliyin gelişmesi, Milliyyetçilik ve milliyyetçilik tarihi, II ilmi konqresi, Tebliğler,Ankara, 1989.
28. Əkinçi. 1875-1877(tam mətn) B., 2005
29. Ferdinand Brund. Fransız dilinin tarixi. Paris, 1930, c.IX.(Türkcə).
30. Hacızadə H. tərtibatı ilə, Demokratiya: Gediləsi uzun yol. Antologiya. B., 2001.
31. Həsənli Cəmil. Azərbaycan tarixi. 1918-1920. Ankara, 1998.
32. «Həyat» qəzeti, 1905. № 93.
33. Hüseyinzadə Ə. Panislamizm məsələsi və ermənilər «Təzə həyat» qəzeti, 1907, №20-22.

34. Hüseynzadə Ə. Siyasəti-Fürusət. Ofelya Bayramova nın tərtibatı ilə. Bakı, Elm, 1994. 336 s.
35. Hüseyn Cavid. Əsərləri. c. X. B.,1980.
36. Hüseyinov Ş. Əhməd bəy Ağaoğlunun dünyagörüşü. B., 1998.,128 səh.
37. İbrahimli Ə. Yusif Vəzir Çəmənzəminli və milli məsə lə. B., 2002.
38. «Kafkaz » qəzeti. 1882, №148.
39. Kemal Atatürk, nutuk, c.I. İst. 1973. Bax: Yusif Sarı nay, Atatürkün milliyyetçilik anlayışı. Ankara, 1990.
40. Köçərli F.Q. M.F.Axundovun dünyagörüşü. Bakı, Elm, 1999. 56 s.
41. Köçərli F.Q. «Molla Nəsrəddin»çi Ömər Faiq. B., 1995.
42. Кули-заде З.А. Из истории Азербайджанской философии XII-XVII вв., Баку, Аз.Гос.Из-во, 1992.
43. Qarayev Nəsrəddin. Tərtibatı ilə, Poetik məclislər. B., 1987.
44. Qarayev Y. Azərbaycan ədəbiyyatı XIX və XX yüzillər B. 2002.
45. Qurbanov Ş. Cəmaləddin Əfqani və Türk dünyası. B., 1996. 220 səh.
46. Laszlo Rasionyi. Tarihte Türklük. Ankara, 1971.
47. Marşel Moltke. Türkiye mektupları, tərc. edən H.Örs.İst. 1960.
48. Məmmədov İ. Azərbaycan tarixi. B., 2005. 448 səh.
49. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı. B., 1992. 242 səh.
50. Məmmədov Z. Şərq fəlsəfəsi. B., 1999.
51. Mirəhmədov Ə. Fikrin Karvanı. Bakı, 1984.
52. Mehmet Niyazi. Millet ve milliyyetçilik. İst. 1975. 254 səh.



53. Mustafa Celaleddin. Les Turcs ancient et modernes. Paris, 1969. Bax: Y.Akçura. Türkçülüyün tarixi, İst. 1998.
54. Nazim Nüzhət Sinanoğlu. Milli edebiyyata doğru. İst., 1918. Bax: Türk dünyası el. kitabı, III cild.
55. Nemanzadə Ö.F. əsərləri. B., 1992.
56. Osman Turan. Türkcahan Hakimiyyəti Məfkurəsi Ta rihi, c. 1-2. (XX+216+347 səhifə).
57. Ömer Seyfeddin. Türklük ülküsü. İst. 1990.
58. Rəsulzadə M.Ə. Əsərləri, İkinci cild. Bakı.2001.
59. Rəsulzadə M.Ə.. Panturanizm haqqında, Pantura nizm bizim dövrümüzdə, «Azərbaycan» jurnalı, 1991, № 6.
60. Rəsulzadə M.Ə. İran türkləri. «Türk yurdu» Jur., 1912, №10 (İst. 1993).
61. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. B., 1991.
62. Rəsulzadə M.Ə. «Yeddi bəyza», «Bəsirət» qəz. 1914. 06.(№9).
63. Rəsulzadə M.Ə. «Millətin bir rüknü də dindir». «Diri lik», 16.12.1914, №7.
64. Resulzade Mehmet Emin. Milli tesanüd. Ankara, 1978
65. Rüstəmov Y.İ. Siyasi-hüquqi təlimlər tarixi. B., 2000. 318 səh.
66. Rüstəmov Y.İ. Fəlsəfə. B., 2003.
67. Rüstəmov Y.İ. Türk fikir tarixi haqqında mülahizələr. Bakı, Çışıoğlu, 2005.
68. Рустамов Ю.И. Некоторые проблемы социально-политической и философской мысли Турции. Баку, Чашыоглы, 2005.
69. Rüstəmov İ.Ə. Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri. B., 2001. 482 səh.
70. Rüstəmov İ.Ə. Həsən bəy Zərdabi. B., 1969, 186 səh.
71. Sait Halim Paşa. «İslamlaşmaq» (cevirəni Mehmet Akif) İst. 1965.

72. Seyid Cəmaləddin Əsədabadinin məktubları (farsca). Tehran, h.1360.
73. «Sədayi-həqq» qəzeti. 22.01.1913.
74. Султанов Э. Еще о Закафказских татарах. Газ. «Но вости Закафказья» 18.01.1913.
75. «Şəlalə» qəzeti. 1913, iyun №19,20; iyul №24,25; av qust №27.
76. Türk dünyası El kitabı. I c., Coğrafiya-tarih, II baskı, Ankara, 1992.
77. Türk dünyası El kitabı. III c. Ankara, 1992, 778 səh.
78. «Türk» qəzeti. Qahirə, 1904, №23-24.
79. Ziya Gökalp. Türkçülüyün əsasları. İst., 1972, 272s.
80. Ziya Gökalp. Türkleşmek, İslamlaşmaq, Çağdaşlaş maq ve doğru yol. İst.1976, 128 səh.
81. Zöhtabi M.T. Cəmaləddin əl-Əfqaninin şifahi ərəb dili və ədəbiyyatına münasibəti. ADU-nun «elmi əsərləri». Şərqşünaslıq seriyası. B., 1969, №1.



## MÜNDƏRİCAT

Ön söz ........................................................ 4

I Fəsil. Müasirlik: tarixi, mahiyyəti .................. 9

II Fəsil. İslamçılıq: tarixi, mahiyyəti ................ 106

III Fəsil. Türkçülük: tarixi, mahiyyəti .............. 185

Nəticə ........................................................ 269

Ədəbiyyat .................................................... 274

**Korrektor:** *Rəfiqə Qurbanova*
**Kompüter operatoru:** *Məhbubə Məmmədova*

*Yığılmağa verilmiş 15.05.2007.*
*Çapa imzalanmış 05.06.2007.*
*Şərti çap vərəqi 17,5. Sifariş № 262.*
*Kağız formatı 60x84 1/16. Tiraj 400.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@yahoo.com***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*